# 11

# VƏTƏNDAŞLIQ

## MÜƏLLİM KİTABI

**Nino Kapanadze, Nino Talaxadze**

**Tamar Tsxadaia, Mziuri Şavadze**

**Gürcüstan Təhsil və Elm Nazirliyi**

**tərəfindən 2024-cü ildə qrif verilmişdir.**



CEED

NƏŞRİYYATI

Vətəndaşlıq 11
On birinci sinif şagirdləri üçün Müəllim kitabı
Tbilisi, 2024
Birinci nəşr

Müəlliflər: Nino Kapanadze, Nino Talaxadze, Tamar Tsxadaia, Mziuri Şavadze

Redaktor: Teona Bekişvili
Texniki dizayner: Sofo Tarğaşvili

© CEED nəşriyyatı, 2024
Bütün hüquqlar qorunur

"CEED nəşriyyatı MMC"
Ünvan: Tbilisi, Noneşvili pr., 2/5/169
Telefon: 599623610
İnternet səhifə: www.ceed.ge
El.poçt: info@ceed.ge
ceedgeorgia@yahoo.com
https://www.facebook.com/gamomcemloba sidi
Citizenship 11
Student's Book
© Ceed Publishing, 2024
all rights reserved.
2/5/169 Noneshvili Ave., Tbilisi, Georgia, 2024

ISBN 978-9941-8-6518-3

**MÜNDƏRİCAT**

Dərsliyin anlayışı ........................................................................................................................................ 2

Müəllimə müraciət ........................................................................................................................................ 4

Üçüncü Nəslin Milli Tədris Planı (Fənn standartı – Vətəndaşlıq fənni)........................................................................ 5

Mövzu 1. Sahibkarlıq və biznes ........................................................................................................................ 9

Mövzu 1. Siyasət və siyasi mədəniyyət........................................................................................................... 104

Əlavələr........................................................................................................................................................ 172

**Dərsliyin anlayışı**

Bu kitab on birinci sinif üzrə Vətəndaşlıq fənninin şagird dərsliyi ilə cüt resursu təqdim edir, onun məqsədi müəllimə təlim-tədris prosesinin effektiv təşkilində yardım edir. Hər iki kitab məzmunca və metodiki cəhətdən orta pillənin Milli Tədris Planına, fənn standartının tələblərinə uyğundur.

Şagird kitabı on birinci sinfin iki mövzusunu "Sahibkarlıq və biznes" və "Siyasət və siyasi mədəniyyət" kontekstində qurulmuş uzunmüddətli məqsədlərə/hədəf anlayışlarına yönəlmiş aralıq məqsədlərini kompleks tapşırıqların şəklində və müvafiq fəallıqları təklif edir.

Şagird kitabında "Sahibkarlıq və biznes" **mövzusunda** seçilən **məsələlər** 20 paraqrafda, "Siyasət və siyasi mədəniyyət" mövzusunda isə 10 paraqrafda təqdim olunur. Paraqraflar 4 yarımfəsillərə - kompleks tapşırıqdan kompleks tapşırığa qədər bölünmüşdür.

Hər paraqraf həyat vəziyyəti/vəziyyətləri və bunların müzakirələri ilə başlayır. Hər bir alt fəsildə bu əhvalatlardan birinə **əsas kontekst-nümunə** funksiyası verilir ki, onunla şagirdin əvvəlki bilikləri aktivləşdirilir və ona istinadla və məzmunca ona yaxın müqayisəli misallarla yeni biliklər qurulur.

Nəzəri məlumat orta, müxtəlif vizual vasitələrlə: fotolarla, sxemlərlə, diaqramlarla, infoqrafika ilə təqdim edilir və bu da qavranışı asanlaşdırır. Şagirdin müstəqil çıxartdığı nəticələr, cəmləşdirmə və təklif edilən məlumat məsələni başa düşməkdə və biliklərin bütövləşdirilməsi prosesində dəstək verir.

Şagird kitabında onlara səmtləşməkdə yardım edən rubrikalar verilir. Təqdim edilən fəallıqların tam dəsti, modelləşdirmə səhnələri, debatlar, diskussiyalar dilemma təşkil edən məsələləri əhatə edir və bu da tənqidi təfəkkürün, sübutlandırmanın, fərqli mövqelər üzrə düşünmə bacarğının inkişafına dəstək verir.

Bu hissədə də təkrar edəcəyik və fəallıq dilemma vəziyyətinə aid olduqda, burada "dəqiq" cavablarımız yoxdur, "doğru" cavabların gözləntisi və ehtiyacı da yoxdur, belə bir vəziyyət şagirdin tənqidi təfəkkürü və sübutun, fərqli mövqelər üzrə düşüncə təfəkkürlərinin inkişafı üçün çox yaxşı bir meydançadır.

Ənənəvi olaraq, bütün yarımfəsillər **aralıq məqsədi ilə, eynilə kompleks tapşırıqlarla** başlayır və yarımfəsildə birləşdirilmiş paraqraflar bu aralıq məqsədinin əldə edilməsi üçün lazımi məlumatı, fəallıqları və əlavə resursları əhatə edir.

Həm Şagird, eləcə də Müəllim kitabında verilən tematik matrisdə 4 hədəf anlayışına yönəlmiş 4 aralıq məqsədi/kompleks tapşırığıdır. Bunlardan hər birinin matrisində fəallıqlar yazılmışdır. Əlverişli istifadə üçün matris mündəricatla başlayır, birinci cədvəl şagirdin əldə edəcəyi hədəf biliyini/biliyin

strukturunu əks etdirir. Müəllim konkret hədəf anlayışına hansı aralıq məqsədinin/kompleks tapşırığın yönəldiyini, hansı əsas məsələnin kontekstinin təklif edildiyini, hansı altanlayışı hədəflədiyimizi və hansı yarımməsələnin seçildiyini, eləcə də tapşırığın mövzunun hansı əsas təsəvvürləri əhatə etdiyini aydın şəkildə görür.

Şagirdin alt məsələ ilə bağlı nəyi bilməli olduğunu müəyyən etmək üçün biz şagirddən öyrəniləcək mövzu ilə bağlı hansı gözləntilərimiz ola biləcəyini ətraflı təsvir edən hədəf anlayışının əsas təsəvvürə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından (gözləntilər cədvəli 1)** istifadə edə bilərik. Gözləntilər Milli Tədris Planının nəticələri taksonomiyasının **nisbi** səviyyəsi ilə uyğundur. Bu rubrika müəllimin əvvəlcə öz tapşırığını başa düşməsi və planlaşdırması (II və III sütunlar), sonra bütün tədris-təlim prosesinin monitorinqi (III sütun) və nəhayət, hər bir şagirdin nəticələrinə inkişafetdirici qiymət vermək (III və IV sütunlar) üçün faydalıdır.

Bunu hər bir aralıq məqsədi üçün nəzərdə tutulmuş ikikomponentlik blok (**Cədvəl 2**) müşayiət edir. Birinci blok aralıq məqsədinin/kompleks tapşırığın strukturunu xırdalıqlarla və aydın şəkildə təqdim edir. İkinci blok isə kompleks tapşırığın şərtindən və onun yerinə yetirilmə tövsiyələrindən ibarətdir. Tövsiyələr tapşırığın yerinə yetirilmə mərhələlərində və ikinci mərhələdə addımlarla təqdim edilən qiymətləndirmə meyarlarına əsasən yazılmışdır. Resurslar öz fəallıqları və yönləndirici sualları ilə bu addımlara uyğunlaşdırılmışlar.

Tematik matrisdə bütün komponentlər əyani yığılır və müəllim üçün prosesin təşkilini asanlaşdırır. Bəzi fəallıqları kiçik tövsiyələr müşayiət edir, bunlar da məsələni dəqiqləşdirir və ya alternativ fəallığı təklif edirik.

Bütün əsas məsələlər (alt mövzular) ilə işləmək üçün matrisdən sonra Milli Tədris Planının fənn standartında verilmiş mövzunun qiymətləndirmə indikatorlarından alınan müəyyənləşdirici qiymətləndirmə rubrikası (**Cədvəl 3**.) təklif edilir və siz hər bir rubrikaya tövsiyə şərti əlavə edilən ümumiləşdirici tapşırıqlar üçün seçib istifadə edə bilərsiniz. Rubrikanın 4 meyarı üzrə 6 bal bölünür və buna da əlbəttə ki, birinci 4 bal əlavə edilir (müsbət nəticəyə uyğun olmayan ilk dörd balı rubrika təsvir etmir).

Əlbəttə ki, siz prosesin əsas aparıcısı olaraq qalırsınız və sizin şərhləriniz bu resurs üçün yeni həyat verir. Nəzərə alın ki, **nəzərinizə əsasən əsas kontekst-nümunə funksiyasını dərslikdə verilmiş başqa bir həyat vəziyyətinə təyin edə və onu uyğunlaşdırmaqla kompleks tapşırığın vəziyyətini formalaşdıra bilərsiniz.**

Çoxlu informasiya resursu verilir, əlavə resursların elektron linkləri göstərilir ki, bunlarsız da dərs prosesini təsəvvür etmək mümkün deyil.

Əlavələrdə əsas kontekst-nümunə mətnləri və başqa əlavə resurslar təqdim edilib.

**Uğurlar arzulayırıq!**

**Salam, əziz müəllim!**

On birinci sinfin “**Vətəndaşlıq**” fənninin Şagird dərsliyinə uyğun “**Müəllim kitabı**” ümumi təhsil islahatı çərçivəsində cari proseslərdə sizin dəstəyinizlə yaradılmışdır.

Üçüncü nəslin Milli Tədris Planına əsasən, orta pillənin on birinci sinfində iki mövzu təklif edilir – “Sahibkarlıq və biznes” və “Siyasət və siyasi mədəniyyət”. Müəllimin kitabı da bu mövzulara həsr edilir.

Ümumi təhsilin milli məqsədləri demokratik dəyərlərlə və vərdiş-bacarıqlarla təmin edilmiş vətəndaşın tərbiyə edilməsi məsələsini məktəbin qarşısına qoyur. Belə bir vətəndaş isə qeyd-şərtsiz biznes və siyasətin müasir anlayışlarını dərk etməlidir, çünki bu sahələrin yaradıcıları vətəndaşların özləridir. Sahibkarlıq və biznes inkişafı olmadan firavanlığa nail olmaq mümkün deyil və dövlətdə bütün inkişaf yolları siyasətdən, siyasi mədəniyyətdən keçir. Bu məsuliyyətin dərk edilməsi müəyyən bilik və analiz tələb edir. Siz, müəllimlər sinif otağında konkret kompleks tapşırıqlardan, konkret fəallıqlardan, dilemmalı vəziyyətlərdən istifadə edərək, şagirdə uzunmüddətli məqsədlərlə bağlı hüquqi biliyi də aşılatmalı və müvafiq vərdiş-bacarıqları qazandırmalısınız.

Müəllim kitabı bu prosesin aparılmasının bir variantını təklif edir.

Bunun gözləntilərinizi doğruldacağına ümid edirik.

Məhz bu dərsliyi seçdiyiniz üçün təşəkkür edirik!

**Üçüncü nəslin Milli Tədris Planı (Fənn standartı – Vətəndaşlıq fənni)**

**Həftədə 2 saat öyrənilir, ildə 72 saat**

**İctimai elmlər orta pillə**

**c) Vətəndaşlıq**

**Giriş**

Kurs orta pillənin şagirdləri üçün nəzərdə tutulmuşdur. Kurs çərçivəsində baza pilləsində vətəndaşlıq üzrə əldə edilən bilik genişlənir və dərinləşdirilir.

Standartda nəticələrin və hədəf anlayışları şəklində uzunmüddətli məqsədlər müəyyənləşdirilmişdir.

Məzmun mövzuların (yarımmövzuların), məsələlərin və yarımanlayışlar şəklində təsvir olunur. Milli Tədris Planı icbari mövzuları müəyyənləşdirir. Mövzulara uyğun məsələləri isə məktəblərin özləri seçirlər.

Hər bir mövzunu nəticələrin əldə etmə indikatorları müşayiət edirlər. Onlar təlim-tədris prosesinin nə ilə qiymətləndirilməsini müəyyən edirlər. İndikatorlar hədəf anlayışlarına əsasən qruplaşdırılıb.

**Pillənin nəticələri**

Orta pillədə standartda yazılmış nəticənin əvvəlində indeks gəlir. O, fənni, tədris mərhələsini və standart nəticəsinin nömrəsini göstərir; Məs., **Vət. ort.seç.1**:

“**Vət**.” – “Vətəndaşlıq” fənnini göstərir;

“**ort**.” – orta pillə deməkdir;

“**1**” – standartın nəticəsinin nömrəsini bildirir.

| Vətəndaşlıq standartının nəticələri orta pillədə | | |
|---|---|---|
| **Nəticələrin indikatorları** | | **Hədəf anlayışı** |
| | **Şagird bacarmalıdır:** | |
| **Vət.ort.1** | Qərarları qəbul etdikdə və müvafiq hərəkəti yerinə yetirdikdə, hüquqi sənədləri (o cümlədən, Gürcüstan Konstitusiyası, İnsan Hüquqlarının Ümumi Bəyannaməsi, Uşaq Hüquqları Konvensiyası) nəzərə almağı; | **Cəmiyyət** (şəxsiyyət, fərd, sosiallaşma) (Vət.ort.1,2,4)<br><br>**Demokratiya** (*insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri*) (Vət.ort. 1,2,3,4)<br><br>**Vətəndaş məşğulluğu** (Vət.ort. 2,4)<br><br>**Dayanıqlı inkişaf** (vət. ort.3) |
| **Vət.ort.2** | Cəmiyyət üçün aktual qlobal və yerli sosial-siyasi problemləri tanımağı və demokratiya prinsiplərini nəzərə almaqla özünü cəlb etməklə onların düzəlişinə qayğı göstərməyi; | |
| **Vət.ort.3** | Dayanıqlı inkişaf prinsiplərini anlayaraq hərəkət etməyi (o cümlədən gündəlik və fövqəladə (təbii və texnogen səbəblərdən irəli gələn) vəziyyətdə təhlükəsizlik qaydalarına əməl etməklə hərəkət etməyi); | |
| **Vət.ort.4** | Müxtəlif maraq qrupları və dövlət qurumları ilə əməkdaşlıqla cəmiyyətdə pozitiv dəyişikliklərə yönəlmiş ideyaları lobbiləşdirməyi və advokatlaşdırmağı. | |

**İcbari mövzular:**

| **X sinif** | Tövsiyə edilir ki, təlim-tədris prosesində məktəblər mövzuların yuxarıda təklif edilən ardıcıllığına əməl etsinlər (bir semestr ərzində bir mövzunun öyrənilməsi tövsiyə edilir). |
|---|---|
| 1. Qlobal vətəndaşlıq | |
| 2. Hüquq mədəniyyəti | |
| **XI sinif** | |
| 3. Sahibkarlıq və biznes | |

| | |
|---|---|
| 4. Siyasət və siyasi mədəniyyət | |
| **XII sinif** | |
| 5. Gürcüstan və qloballaşma | |
| 6. Qlobal iqtisadiyyat və Gürcüstan | |

**İcbari mövzuları və qiymətləndirmə indikatorlarını birləşdirən cədvəllər**:

hər bir cədvəldə mövzunun adı, onun təsviri və qiymətləndirmə indikatorları verilir və bunlarda da konkret mövzuda nəticələrin necə gerçəkləşdiyi göstərilir.

**XI sinif**

| |
|---|
| **Mövzu 2. Sahibkarlıq və biznes**<br>Mövzu konkret nümunələr və dilemmalar vasitəsilə sahibkarlıq və biznes fəaliyyətinin müzakirəsini əhatə edir. Biznesin davamlılığına təsir edən amilləri təhlil etmək (məsələn, rəqabət, sahibkarın üzləşdiyi risklər və onların qarşısının alınması yolları). |
| **Mövzu çərçivəsində hədəf anlayışlarına əsasən nəticələrin əldə edilməsi indikatorlar:**<br><br>**Cəmiyyət –** şagird bacarmalıdır:<br>• işəgötürən mal/xidmət təchizatçısı kimi, sahibkarın cəmiyyətə/əhaliyə/cəmiyyətə müsbət təsirini əsaslandırmağı.<br><br>**Demokratiya** – şagird bacarmalıdır:<br>• insanın tələb və ehtiyaclarını onun iqtisadi hüquqları ilə əlaqələndirməyi; konkret həyati nümunələr əsasında demokratiya prinsipləri kontekstində dövlətin iqtisadi funksiyaları ilə bağlı dilemmaları (məsələn, dövlət və biznes arasında münasibətləri) müzakirə etməyi;<br><br>**Vətəndaş məşğulluğu** – şagird bacarmalıdır:<br>• Sahibkarlığın konkret ideyalarını vəkillik və lobbiçiliklə əlaqələndirməyi; uyğun təbliğat formalarının və ideya üçün resursların əldə edilməsi yollarını seçməyi;<br><br>**Dayanıqlı inkişaf -** şagird bacarmalıdır:<br>• İqtisadi məsələlərin müzakirəsi/iş fəaliyyətinin planlaşdırılması zamanı davamlı inkişaf prinsiplərini nəzərə almağı. |

**Mövzu 2. Siyasət və siyasi mədəniyyət**

Mövzu əsas siyasi ideyaların, ideologiyaların və onların inkişaf qanunauyğunluqlarının öyrənilməsini nəzərdə tutur. Bu siyasi ideya və ideologiyaların təsir etdiyi beynəlxalq münasibətlərə, təşkilata və hərəkatlara diqqət yetirilir. Əsas siyasi rejimlər təhlil edilir. Mövzuda siyasətçinin və dövlət qulluqçusunun ictimai-siyasi həyatda mahiyyəti və rolu, sağlam və qeyri-sağlam siyasi proseslər və hadisələr müzakirə olunur.

**Hədəf anlayışlarına əsasən mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları**

**Cəmiyyət –** şagird bacarmalıdır:

- müxtəlif siyasi ideyaların/ideologiyaların şəxsiyyətə təsirini təhlil etməyi; siyasi proseslərdə vətəndaşların və cəmiyyətin rolunu səciyyələndirməyi;

**Demokratiya** – şagird bacarmalıdır:

- siyasi ideologiyaların və rejimlərin, yerli və beynəlxalq səviyyədə siyasi proseslərin, yerli və beynəlxalq təşkilatların və ya konkret siyasətçilərin fəaliyyətini demokratiya prinsipləri əsasında qiymətləndirməyi;

**Vətəndaş iştirakı** – şagird bacarmalıdır:

- yerli və beynəlxalq siyasi proseslərdə iştirak üçün konkret sahələri/ideyaları müəyyənləşdirilməyi; vətəndaşların siyasi proseslərdə iştirak formalarını təhlil etməyi;

**Dayanıqlı inkişaf** – şagird bacarmalıdır:

- yerli və beynəlxalq siyasi prosesləri müzakirə etdikdə dayanıqlı inkişaf prinsiplərini nəzərə almağı.

## Mövzu 1. Sahibkarlıq və biznes

## Tematik matrisin əsas səhifəsi

| **Mövzunun adı:** „Sahibkarlıq və biznes“<br>**Ehtimal saatlar**: 35 saat<br>**Əsas resurs**: dərslik | | | | |
|---|---|---|---|---|
| **Hədəf anlayışları:** | **Əsas məsələ**<br>**Sahibkarlığın şəxsi və ictimai aspektləri** | **Əsas məsələ 2**<br>**Dövlət və biznes** | **Əsas məsələ 3**<br>**Sahibkarların məsuliyyəti** | **Əsas məsələ 4**<br>**Biznesin dayanıqlığı** |
| **Cəmiyyət** | **Alt məsələ:**<br>1. “Antreprenyorluq” - düşüncə növü“<br>2. „14 yaşlı antreprenyor“<br>**Altanlayışlar:**<br>• İnsanın tələbatları və ehtiyacları<br>• Özünügerçəkləşdirmə | | | |
| **Demokratiya** | | **Alt məsələ:**<br>„Qovluq: „Dərmanlara hüdudi qiymətlərin təsis edilməsi”<br><br>**Altanlayışlar:**<br>• İnsan hüquqları;<br>• Səhiyyə hüququ;<br>• İstifadəçinin hüquqları;<br>• Demokratiya prinsipləri;<br>• İqtisadi azadlıq | | |

| | | | | |
|---|---|---|---|---|
| **Vətəndaş iştirakı** | | | **<u>Alt məsələ:</u>**<br>,,Sosial müəssisə “Penovani”-nin hesablanmış və hesablanmamış nəticələri<br>**<u>Altanlayışlar:</u>**<br>• Vətəndaş iştirakl pilləkanı<br>• Tərəfdaşlıq | |
| **Dayanıqlı inkişaf** | | | **<u>Altanlayışlar</u>**<br>• Dayanıqlı inkişaf məqsədləri<br>• Dəyərli iş və iqtisadi artım; | **<u>Alt məsələ:</u>**<br>,,Biznesin dayanıqlılığı anlayışında dəyişikliklər”<br><br>**<u>Altanlayışlar</u>**<br>• Dayanıqlı inkişafın məqsədləri<br>• Dayanıqlı istehlak və istehsalat |

**Mövzu ilə bağlı əsas təsəvvürlər:**

- Sahibkarlıq/biznes insanın maraq və ehtiyaclarını ödəmək vasitəsidir və eyni zamanda insanın və cəmiyyətin inkişafına təsir göstərir (**hədəf anlayışı “cəmiyyət”);**
- Demokratik dövlətdə fəaliyyət göstərən iqtisadi müstəqillik prinsipi biznesin azadlığını təmin edir, amma eyni zamanda qanun və qaydalar səviyyəsində qorunan insan hüquqlarına (məsələn, istehlakçı, sağlamlıq...) təsir edə bilər. **(hədəf anlayışı - demokratiya**)
- Sosial problemlərin həlli üçün dövlət və ictimai resurslar kifayət etmir, buna görə də özəl biznes sosial məsuliyyət daşıyır və müxtəlif yollarla ictimai problemlərin həllində iştirak edir/qayğısına qalır; (**hədəf anlayışı – vətəndaş iştirakı**);
- Davamlı biznes anlayışı dəyişir və biznesin resurs istehlak edən iqtisadi modeldən sirkulyar (tullantısız) iqtisadiyyat modelinə keçməsi üçün iqtisadi, ekoloji və sosial amillərin bərabər əhəmiyyətinin tanınmasını nəzərdə tutur. (**hədəf anlayışı – “dayanıqlı inkişaf”).**

“Sahibkarlıq və biznes” XI sinfin icbari fənni “**Sahibkarlığın şəxsi və ictimai aspektləri**” üçün **ilk** əsas məsələdir. Bu məsələ ilə bağlı konkret kontekst-nümunələr: “Antreprenyorluq – düşüncə növü” və “14 yaşlı antreprenyor” və məzmunca onlara yaxın nümunələrlə şagirdin əvvəlki bilikləri aktivləşdirilir və yeni biliklər qurulur:

| Əsas kontekst-nümunə və müqayisə üçün misallar | Resurslar |
|---|---|
| **Əsas kontekst-nümunələr:**<br>“Antreprenyorluq – düşüncə növü“ (**Əlavə** 1.)<br>“14 yaşlı antreprenyor” (**Əlavə** 2.) | • Dərslik, səh. 21-25<br>• Dərslik, səh. 27<br>Müəllim kitabı (**Əlavə** 1, səh. 172)<br>Videosüjet „Qiorqi Şeşaberidze – „Dora“-nın qurucusu”<br>• tv.ge/video/gaicanit-14-wlis-antrepreneri-romelmac-sharqebisgan-150-000-laris-investicia-miigho-stumari-giorgi-sheshaberidze-doras-damfudznebeli/ |
| **Müqayisə üçün nümunə 1**<br>“Yəhudi xalqı səhranı güclü dövlətə necə çevirdi?” Şimon Peresin çıxışı; | • Dərslik, səh. 10 |
| **Müqayisə üçün nümunə** 2.<br>Robert Kiosakinin “Kasıb ata, varlı ata” kitabından çıxarış | • Dərslik, səh. 19 |
| **Müqayisə üçün nümunə** 3.<br>Sovet İttifaqında kölgəli biznes (nümunə yox) | • Dərslik, səh. 37 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışlar;, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamalıyıq ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri istədiyiniz kimi dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa bir kontekst-nümunə üçün təyin edə və kompleks tapşırığın şərtini ona əsaslanmaqla formalaşdıra bilərsiniz.

Təlim prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional-sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri rolunu oynayır.
Kontekst-nümunənin ilkin işlənməsi zamanı, müəllim istiqamətləndirici suallar və fəaliyyətlərlə şagirdlərin diqqətini işlənəcək alt anlayışlara, hədəf anlayışına aid olan detallara yönəldir; məsələn, konkret halda biz əsas suallarda (biznes/sahibkarlıq insanın və cəmiyyətin azad inkişafı üçün nə üçün və necə imkan yaradır? Sahibkar və cəmiyyət arasında yarana bilən dilemmaları/problemləri necə göstərə bilərik?) müəyyən etdiyimiz kontekst-nümunənin göstəricilərinə diqqəti cəmləşdirməyə çalışırıq.

# Hədəf biliyinin müəyyənləşdirilməsi üçün cədvəl

| **Mövzu:** Sahibkarlıq və biznes<br>**Əsas məsələ:** Sahibkarlığın şəxsi və ictimai aspektləri<br>**Əsas kontekst-nümunə**; "Antreprenyorluq – düşüncə növü"; "14 yaşlı antreprenyor" | | | |
|---|---|---|---|
| **Alt məsələ** | **Alt anlayışlar** | | **Hədəf anlayışı** |
| **„Antreprenyorluq – düşüncə növü"; „14 yaşlı antreprenyor; (Antreprenyorluq,** insanın tələbatı və ehtiyaclarının ödənilməsi imkanı kimi) | Özünügerçəkləşdirmə | İnsanın tələbatları və ehtiyacları | Cəmiyyət (Nəticələr: 1,2,4) |

Şagirdin alt məsələ ilə bağlı nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl 1**.), bu rubrikada şagirddən öyrəniləcək mövzu və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərimiz olacağını maksimum təfərrüatlı şəkildə təsvir edirik. Gözləntilər Milli Tədris Planının Nəticələri Taksonomiyasının **nisbi səviyyəsi** ilə üst-üstə düşür. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) ilkin olaraq, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində (**bu gözləntinin real nəticəsi kimi şagirdə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə etməliyəm?);**

b) təlim-tədris prosesinin monitorinqi üçün (**proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Köməkçi alət kimi hansı suallardan istifadə etməliyəm**?);

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks əlaqənin formalaşmasında (**şagirdin nəticəsini təsvir etmək üçün gözləntilərdən hansı ifadələr faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzrə iş üzrə pedaqoji təcrübənin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün (**Hansı əsas təsvirlə bağlı münasibətdə gözləntiləri real şəkildə müəyyən etdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntinin düzgün açarını tapdım? Yanaşmanı harada dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Alt məsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Cəmiyyət**<br>(Nəticələr 1,2,4)<br><br>**“Antreprenyorluq – düşüncə növü”,**<br>**"14 yaşlı sahibkar"**<br>( **Antreprenyorluq** insanın ehtiyac və tələbatlarını ödəmək imkanı kimi) | 1. İnsan öz ləyaqəti, dünyagörüşü (ideyaları, dəyərləri) və canatmaları olan fərddir; öz şəxsiyyətinin sərbəst inkişafı hüququna malikdir. | Qiorqinin və digər məşhur antreprenyorların nümunəsinə əsaslanaraq, hansı mühitin (o cümlədən biznes mühitinin) insana öz istəklərini təmin etməyə və ləyaqətini qorumağa imkan verdiyini təhlil edir.<br>Antreprenyorluğun Qiorqinin şəxsi inkişafına və cəmiyyətin inkişafına necə təsir etdiyini müzakirə edir. | |
| | 2. İnsanın müxtəlif tələbatları var (fizioloji, təhlükəsizlik, sosial əlaqələr və s.). O, bunları təmin etmədən şəxsən inkişaf etməyəcək. | Baxılan nümunələrə əsaslanaraq aşağıdakı müddəaları əsaslandırın:<br>- Qiorqiyə, başqalarına ehtiyacları və tələbatları təkan verir ki, müxtəlif fəaliyyətlərə/əməllərə başlasınlar;<br>- İnsanın gələcək inkişafı üçün təhlükəsizlik hissi lazımdır;<br>- Sahibkarlıq şəxsi keyfiyyət və bacarıqların inkişafını tələb edir və özünügerçəkləşdirmə imkanlarını artırır;<br>- Qeyri-demokratik mühit bizneslə məşğul olmaq istəyənlər arasında cəmiyyətdən/dövlətdən uzaqlaşma hissi yaradır və onun cəmiyyətin maraqlarını və qaydalarını bölüşmək məsuliyyətini azaldır. | |

| | | | |
|---|---|---|---|
| | 3. Digər insanlarla/sosial qruplarla/qurumlarla münasibətlər şəxsi inkişafa dəstək verir; | Konkret nümunələrə əsaslanaraq, sahibkarın həyat yollarını təsvir edir (Rid Hofmanın hekayəsində adları çəkilən sahibkarlar, Qiorqi Şeşaberidze, "Kombinatorlar"-ın həyatı). Onların hansı ictimai qruplar və qurumlarla qarşılıqlı əlaqədə olduqlarını/əməkdaşlıq etdiklərini təhlil edir; bu prosesin hər kəsin dünyagörüşünə, şəxsi inkişafına nə kimi təsir etdiyini müzakirə edir. | |
| | 4. Assertivlik, yəni başqalarını incitmədən öz fikrini cəsarətlə ifadə etmək bacarığı insana sosiallaşmaqda kömək edir. | Baxılan nümunələr əsasında antreprenyorların fəaliyyət prinsipinin nə dərəcədə assertiv olduğunu təhlil edir; bu bacarıq onlara məqsədlərinə çatmaqda nə qədər kömək edirdi. | |

Aşağıdakı aralıq/kompleks tapşırığın matrisində **(Cədvəl 2)** kompleks tapşırığın şərti, qiymətləndirmə meyarları və həyata keçirmə mərhələləri (fəaliyyətlər, resurslar, rəhbər suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edilir.

**Cədvəl 2.**

| |
|---|
| **Məsələ: "Sahibkarlığın şəxsi və ictimai aspektləri"** |
| **Altməsələ: "Antreprenyorluq - düşüncə növü"; "14 yaşlı antreprenyor"** (antreprenyorluq insanın ehtiyac və tələbatlarını ödəmək imkanı kimi)<br>**Alt anlayışlar:** özünü aktuallaşdırma; insanın tələbat və ehtiyacları; **Hədəf anlayışı – cəmiyyət (nəticə: 1,2,3,4)** |

**Əsas sual -** biznes/sahibkarlıq nə üçün və necə fərdin və cəmiyyətin azad inkişafı üçün imkan yaradır?
**Müraciət mətnində** sahibkarla cəmiyyət arasında yarana biləcək dilemmaları/çağırışları necə təqdim etmək olar ?

**Kompleks tapşırıq**

Dərslikdə verilən 2 vəziyyətlə, "Antreprenyorluq – düşüncə növü" (səh. 21) və "14 yaşlı antreprenyor" (səh. 27) ilə tanış olun, bunlardan biri dünya şöhrətli antreprenyorların, digəri isə 14 yaşlı yeniyetmənin sahibkarlıq təcrübəsinə aiddir. Özünüzü 50 yaşında Qiorqinin yerində təsəvvür edin və övladlarınız/gənclər üçün **müraciət mətni** (250-300 söz) hazırlayın, burada müəllif özünün və başqalarının təcrübəsinə əsaslanaraq danışacaq.

**İşinizdə /işinizin təqdimatında xüsusilə göstərin:**

- Nə üçün sahibkarlıq antreprenyorların şəxsi inkişafı və ümumiyyətlə, cəmiyyətin inkişafı üçün imkana çevrilib? Müxtəlif mühitlərdə bu prosesi hansı ziddiyyətlər müşayiət edə bilər? **(əs.təs. 1.2)**
- Sahibkarların qərarlarına və sonrakı uğurlarına hansı amillər və necə təsir edir? Konkret nümunələr gətirin. **(əs.təs.3)**
- Sahibkar cəmiyyətlə harmonik əməkdaşlıq üçün hansı keyfiyyət və bacarıqları saxlamalı və inkişaf etdirməlidir? (**əs.təs.4)**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>Şagird dərk etməlidir, ki: | **Qiymətləndirmə meyarı:**<br>Şagird bacarır: | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Cəmiyyət**<br>1. İnsan - öz ləyaqəti, dünyagörüşü (ideyaları, dəyərləri) və canatmaları olan fərddir; öz şəxsiyyətinin sərbəst inkişafı hüququna malikdir.<br><br>2. İnsanın müxtəlif tələbatları var (fizioloji, təhlükəsizlik, sosial əlaqələr və s.). O, bunları təmin etmədən şəxsən inkişaf etməyəcək.<br><br>3. Digər insanlarla/sosial qruplarla/qurumlarla münasibətlər şəxsi inkişafa dəstək verir.<br>4. Assertivlik, yəni başqalarını incitmədən öz fikrini | **Cəmiyyət**:<br>• İnsanlara empatiya göstərməyi; bu və ya digər vəziyyətdə insanın hərəkətlərinə/qərarlarına təsir edən amilləri aşkar etməyi **(əs.təs. 1,2)**;<br><br>• İnsanın sosiallaşmasına dəstək verən/mane olan amilləri təhlil etməyi **(əs.təs. 3.4)**. | • Nə üçün sahibkarlıq antreprenyorların şəxsi inkişafı və ümumiyyətlə, cəmiyyətin inkişafı üçün imkana çevrilib? Müxtəlif mühitlərdə bu prosesi hansı ziddiyyətlər müşayiət edə bilər? **(əs.təs. 1.2)**<br>• Sahibkarların qərarlarına və sonrakı uğurlarına hansı amillər və necə təsir edir? Konkret nümunələr gətirin. **(əs.təs.3)**<br>• Sahibkar cəmiyyətlə harmonik əməkdaşlıq üçün hansı keyfiyyət və |

| | | |
|---|---|---|
| cəsarətlə ifadə etmək bacarığı insana sosiallaşmaqda kömək edir. | | bacarıqları saxlamalı və inkişaf etdirməlidir? (**əs.təs.4)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq.**

**Resurs:** Dərslik**, I fəsil. Sahibkarlığın şəxsi və ictimai aspektləri**, kompleks tapşırığın şərti, səh. 8

**Kompleks tapşırığın şərtini başa düşməyə yönəlmiş suallar:**

- ✓ Sizinlə təcrübəsinə əsaslanaraq danışan yaşca böyük insanın müraciət mətnini oxumusunuzmu və ya eşitmisinizmi? Sizi nə maraqlandırdı və ya qıcıqlandırdı?
- ✓ Övladınızla/gənclərlə məsləhətləri necə bölüşərdiniz?
- ✓ Hər hansı məsələ ilə bağlı məsləhət toplamaq üçün nə lazımdır? **(bu məsələ ilə bağlı bilik və təcrübə, başqalarının təcrübələri haqqında bilik - anlama, yazılı şəkildə nə deyəcəyini formalaşdırmaq bacarığı, adresat üçün başa düşülən söz ehtiyatı və məzmunu...)**
- ✓ Ünvan sahibi üçün oxuma/dinləmə əhval-ruhiyyəsi yaratmaq üçün müraciəti necə yazmaq olar? (**xoş niyyətinizi hiss etdirməli, oxucuya/dinləyiciyə hörmət, qısa və başa düşülən ifadənin formalaşdırılması...)**
- ✓ Oxucuda/dinləyicidə motivasiya və inamı necə yarada bilərik? **("Əminəm ki, siz bunu məndən daha yaxşı edə bilərsiniz...." "Ümid edirəm ki, məsləhətim sizə faydalı olacaq...", "Məncə, sizin keyfiyyətləriniz uğur qazanmağınıza kömək edəcək...")**

**Qeyd**: Mötərizədə tünd şriftlə verilən məlumatlar bu tapşırığın sualları ilə birlikdə və ümumilikdə gözlənilən cavabda qeyri-müəyyənliyin olmaması üçün təlimatçı üçün nəzərdə tutulub!

**Fəaliyyət: cütlükdə işləyin**
Tapşırıq məhsulunun hazırlandığını necə təsəvvür etdiyinizi müzakirə edin, nə bilirsiniz, nəyi öyrənmək/başa düşmək lazımdır? Sinfə müraciət mətninin yerinə yetirilməsi ilə bağlı 2 məsləhət hazırlayın (məsələn, **fəaliyyət planı tərtib edin**; **müraciətdə qaldıracağınız məsələləri yazın; ilkin yazılanları yenidən oxuyun və düzəliş edin; müraciətin strukturuna diqqət verin…).**

**Müəllimə məsləhət:** bu məsləhətləri siniflə bölüşdükdən sonra ümumiləşdirmək üçün qısa müzakirə aparın və təlimatlandırılmış təcrübə vasitəsilə

tapşırıq məhsulu üzərində iş üçün bəzi vacib məsləhətləri vurğulayın.
Suallar verərkən tapşırığın şərtlərinin hamı üçün aydın olduğunu bir daha yoxlayın;
Şagirdlərə bildirin ki, kompleks tapşırığı yerinə yetirməzdən əvvəl siz öyrənilәsi məsələyə - Antreprenyorluğa bir neçə dərs ayırırsınız və sonda hər kəs öz müraciətini sinifə təqdim etmək imkanı əldə edəcək.

**Diqqət!**
Kompleks tapşırıq üzrə iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda ev tapşırıqlarından istifadə edirik.

**II mərhələ - kompleks tapşırıq üzərində iş**

**Hədəf biliklәri:**

**Altməsələ: "Antreprenyorluq - düşüncə növü"; "14 yaşlı antreprenyor"** (antreprenyorluq insanın ehtiyac və tələbatlarını ödəmək imkanı kimi)
**Alt anlayışlar:** özünü aktuallaşdırma; insanın tələbat və ehtiyacları; **Hədəf anlayışı – cəmiyyət (nəticə: 1,2,3,4)**

Kontekst nümunələrinin ilkin işlənməsi

**Fəaliyyət: Cütlərlə iş** (Fəaliyyət Şagird kitabında yoxdur)
"Antreprenyorluq – düşüncə növü" (səh. 21-25) mətnini diqqətlə oxuyun; lövhədə verilmiş üç sütunlu cədvəli dəftərinizdə çəkin. Sizi maraqlandıran hər şeyi qeyd edərək, birinci sütunu fərdi olaraq doldurun. Sonra cütlük yoldaşı ilə birləşin və ikinci sütunda vacib sualları müzakirə edin və yazın; təqdimatdan, müzakirədən və müəllimin əks əlaqəsindən sonra üçüncü sütunu doldurun.

| Müstəqil iş | Qrup işi | Sinif yoldaşlarının və müəllimin şərhləri |
|---|---|---|
| 1. | | Antreprenyorlar özlərinin və ya başqalarının ehtiyaclarını ödəmək üçün məhsul və ya xidmətlər yarada bilən insanlardır; |
| 2. | | Antreprenyorlar üçün əlverişli mühit insanın inkişafı üçün azadlıq və imkanların qorunduğu və onun ləyaqətinin mühafizə olunduğu mühitdir; |
| 3. | | Digər insanlar və qurumlarla əməkdaşlıq sahibkarlığın inkişafı üçün imkanlar yaradır. |
| 4. | | Onlar xüsusi şəxsi keyfiyyətlərə malikdirlər: cəsarətlidirlər, çağırışlara tez cavab verirlər, risk edə bilirlər, innovativ ideyaları həyata keçirirlər; |

| | | |
|---|---|---|
| 5. | | Antreprenyorun sosial-emosional bacarıqlara ehtiyacı var, məsələn: assertivlik, ünsiyyət, əməkdaşlıq, münaqişələrin idarə edilməsi, empatiya; xarakter/iradə; o, bu istiqamətdə ehtiyaclarını müəyyən etməli, inkişafın qayğısına qalmalıdır. |
| 6. | | Antreprenyorlar həm fəaliyyətlərindən bəhrələnir, inkişaf edirlər, həm də cəmiyyəti inkişaf etdirirlər, çünki onlar işəgötürəndirlər, iqtisadiyyatı gücləndirir, insanların rifahına töhfə verirlər. |

**Müəllimə tövsiyə**: lövhədə və ya böyük bir vərəqdə əvvəlcədən cədvəl çəkin; elmi maraq doğuran, fəaliyyəti ümumiləşdirdikdən sonra şagirdlərə təklif edəcəyiniz müddəaları da əvvəlcədən qeyd etməlisiniz. Şagirdlərə aşağıdakı suallar verilə bilər:

- ✓ Məşhur sahibkar olmağı arzulamısınızmı? Açıqlayın, nə üçün?
- ✓ Hansı antreprenyorun yerində olmaq istərdiniz? Nə üçün?
- ✓ Onun yerinə hansı yolla gedərdiniz?
- ✓ Şəxsən hansısa antreprenyoru tanıyırsınızmı? O, hansı yolla gedib?
- ✓ Onun davranışında nəyi dəyişərdiniz? Niyə?
- ✓ Əgər siz antreprenyor olsaydınız, özünüz üçün nəyi dəyişərdiniz? Cəmiyyət üçün? Nə üçün?

**Fəaliyyət:** Qruplarda işləyin, səh. 28
Səhifə 27-də "14 yaşlı antreprenyor" hekayəsi, "Qiorqi Şeşaberidze - Doranın qurucusu" videosüjeti ilə tanış olun: tv.ge/video/gaicanit-14-wlis-antrepreneri-romelmac-sharqebisgan-150-000 -laris-investicia- miigho-stumari-giorgi-sheshaberidze-doras-damfudznebeli/), Şarklardan 150 000 lari investisiya alan 14 yaşlı antreprenyorla tanış olun;
Qiorqinin hekayəsini nəzərə alaraq, bu cədvəlin ikinci və üçüncü sütunlarını doldurun və dördüncü sütunda onları bildiyiniz digər əhvalatlarla müqayisə edin .

| **Maslou piramidasının mərhələləri** | **Problemin təsviri** | **Arqumentlərinizi əsaslandırmaq üçün nümunələr** | **Müqayisə üçün Gürcüstandakı vəziyyətlərdən nümunələr** |
|---|---|---|---|
| Yemək, sığınacaq | | | |
| Təhlükəsizlik | | | |
| Aidiyyət hissi | | | |
| Hörmət / tanınma | | | |

**Müəllimə tövsiyə**: kontekst nümunəsi ilə tanışlıq fəaliyyətini ümumiləşdiririk ki, bizneslə məşğul olmaq və sahibkarlıq fəaliyyəti insanın ehtiyac və

istəkləri ilə müəyyən edilir, sahibkarlıq isə öz növbəsində, şəxsi inkişaf və cəmiyyətin inkişafı üçün imkan yaradır. Eyni zamanda, ilkin ehtiyaclardan tutmuş qlobal hadisələrə qədər bir çox amillər sahibkarın qərarlarına təsir göstərir.
Əsas statusla yalnız bir kontekst-nümunədən, yoxsa təklif etdiyimiz kimi hər ikisindən istifadə etməyiniz sizin ixtiyarınızdadır; fikrimiz odur ki, şagirdlər sahibkarlığa yaxın və uzaq perspektivdən baxsınlar və onları müqayisə edərək qanunauyğunluqları ayırd etsinlər; məsələn, hər iki vəziyyətdə sahibkarlıq insanın özünü gerçəkləşdirməsi vasitəsidir və bu, cəmiyyətin inkişafına müsbət təsir göstərir.

**Hər iki kontekst nümunə üzərində altməsələ baxımından işləyirik -** "Antreprenyorluq - insan ehtiyaclarını və tələbatlarını ödəmək imkanı kimi". Bu altməsələ mövzunu, əsas problemi və çoxsaylı digər alt anlayışları birləşdirir: özünügerçəkləşdirmə (Maslou piramidasının bütün səviyyələrinin tələbləri nəzərdə tutulur) və insanın ehtiyac və tələbatları; onlar isə şagirdə "cəmiyyət" hədəf anlayışını anlamağa kömək edir. Müqayisə üçün nümunələrə gəlincə, biz insanın ehtiyac və istəklərinə yönəlmiş istiqamətləndirici suallarla paralellər aparırıq.

**Addım 1. Sahibkarlıq nə üçün antreprenyorların şəxsi inkişafı və ümumiyyətlə cəmiyyətin inkişafı üçün imkana çevrilib ? Müxtəlif mühitlərdə bu prosesi hansı ziddiyyətlər müşayiət edə bilər? (əs.təs. 1.2.)**

**Resurs:** Dərslik**,** "Sahibkar kimdir" (səh. 9)
**Şagird kitabında** (səh. 20) **verilmiş faydalı resurslar:**
İsrail iqtisadiyyatı https://bit.ly/3D6Xgub
Gürcüstandan kiçik olan, amma daha uğurlu olan 10 ölkə https://bit.ly/3Dbr5K2
Yüksək effektiv insanların 7 bacarığı – Stiven Kovi https://bit.ly/3DdsPm1
Həyat prinsipi ilə 80/20-yə – Riçard Koş https://bit.ly/3wp0OEg
Gözəgörünməyən əl: Sahibkarlıq https://bit.ly/3JbzS2z
Qiorqi Şeşaberidze– Dora https://bit.ly/3JcUyr0

**Fəaliyyət**: Müzakirə (səh. 9)
Aşağıda verilən **Şimon Peresin çıxışının** mətnini oxuyun və suallara cavab verin:

**Suallar:**

- ✓ Holokostun nə olduğunu yadınıza salın. Harada və nə vaxt fəaliyyət göstərirdi?
- ✓ Holokost insanlara, ictimai qruplara, ölkələrə, bəşəriyyətə nə kimi təsir göstərib? Bu, yəhudi xalqına hansı nəticələr gətirib?
- ✓ Şimon Peres dövlətin formalaşdığı dövrdə İsrail dövlətini necə təsvir edir? Müəllif nə demək istəyir?
- ✓ Kasad sərvəti olan ölkəni nə xilas etdi və o, uğurlu ölkəyə necə çevrildi?

- ✓ Müəllif nailiyyətin əsas amili kimi nəyi hesab edir?
- ✓ Nə üçün insan ölkənin əsas sərvətidir?
- ✓ Şimon Peres gəncləri nəyə səsləyir?
- ✓ Sahibkar sözünün mənasını necə başa düşürsünüz? Sahibkar kimdir və nə iş görür?
- ✓ Fəaliyyət sahəsini seçmək üçün sahibkarın cəmiyyət üzvlərinin ehtiyac və tələbləri, onların maraqları haqqında düzgün təsəvvürü olmasını nə dərəcədə vacib hesab edirsiniz? İzah edin ki, nə üçün?
- ✓ Sizcə, hansı dövlət hökuməti (demokratik və ya qeyri-demokratik) sahibkarlığın və biznesin inkişafına dəstək verir? Cavabı əsaslandırın.
- ✓ Sahibkarlığın inkişafının yoxsul ölkəni xilas edə biləcəyi fikrini bölüşürsünüzmü? Necə (bildiyiniz nümunələrdən istifadə edərək müzakirə edin)?
- ✓ Nailiyyət əldə etmək üçün şəxsi motivasiya ilə yanaşı, sahibkarın digər ictimai qruplar və qurumlarla birgə işləməsi nə dərəcədə vacibdir? Bunun üçün ona hansı bacarıqlar lazımdır?
- ✓ Sizcə, sahibkarlığın və ya biznesin inkişafı ilə cəmiyyətin firavanlığı arasında nə kimi əlaqə var (ölkəmizin nümunəsində müzakirə edin)?
- ✓ Sahibkar və ya iş adamı olmaq arzusunda olmusunuzmu?
- ✓ Biznesinizi və ya sahibkarlığınızı hansı mühitdə başlamaq və inkişaf etdirmək istərdiniz?

**“Şimon Peresin çıxışı” sizə tapşırığı yerinə yetirməkdə necə kömək edəcək? Məzmun nöqteyi-nəzərindən, müraciət formasına görə?**

**Müəllimə tövsiyə:** bu fəaliyyət həm əvvəlki biliklərin aktivləşdirilməsi, həm də yeni biliklərin qurulması funksiyasına malikdir, çünki şagirdlər üçün bu, sahibkarlıq və iqtisadiyyat məsələlərinə aid olan müraciət nümunəsini (formasını) təqdim edir. Suallar həmçinin şagirdlərə Holokostu insan ləyaqətinin və bütün hüquqların pozulması kimi yada salmağa və bunu iqtisadi azadlıq prinsipinin məhdudlaşdırılması ilə əlaqələndirməyə imkan verir.

**Fəaliyyət**: Cütlüklərdə işləyin (səh. 12).

**Sual:**

Mətnə yenidən baxın və onu Maslounun piramidası ilə uyğunlaşdırın və müəyyən edin ki, hansı ehtiyaclar və tələblər İsrail vətəndaşlarına öz ölkələrində sahibkarlıq fəaliyyətinə başladıqları zaman təkan verirdi?

Nəticəni siniflə paylaşın.

| Maslou piramidasının pillələri | Problemin təsviri | Sübutları möhkəmləndirmək üçün nümunələr |
|---|---|---|
| Qida, sığınacaq | | |
| Təhlükəsizlik | | |
| Aidiyyət hissi | | |
| Hörmət / tanınma | | |

**Fəaliyyət**: **Qruplarda işləyin** (səh. 16)

**Birinci mərhələ**

4 qrup yaradın, onlardan 2 qrup sahibkarlar, 2 qrup cəmiyyət olacaq.

- ✓ 2 qrup sahibkar “Sahibkarlıq - cəmiyyətin inkişafı üçün bir imkandır, çünki...” adlı təqdimat hazırlayacaq.
- ✓ Cəmiyyətin iki qrupu “Sahibkarlıq - sahibkarın şəxsi inkişafı üçün bir imkandır, çünki...” adlı təqdimat hazırlayacaq.
- ✓ Bütün təqdimatlar konkret nümunələri yoxlamaqla hazırlanmalıdır.

**İkinci mərhələ**

Təqdimatlardan sonra bütün sinif sualları müzakirə edir:

- ✓ Sahibkarlığın zəif və ya tam inkişaf etmədiyi şəraitdə cəmiyyət hansı üstünlükləri əldə etmir? Nə üçün?
- ✓ Sahibkarlarla cəmiyyət arasında hansı ziddiyyətlər, dilemmalar baş qaldıra bilər (bildiyiniz nümunələri yoxlayaraq müzakirə edin)?
- ✓ Qeyri-demokratik cəmiyyətdə sahibkarlıq bacarığı olan şəxsin uğurunun perspektivləri hansılardır? Nə üçün?

**Müəllimə tövsiyələr:** fəaliyyətin məqsədi şagirdlərə sahibkarlığın inkişafı ilə fərdin və cəmiyyətin inkişafı arasında əlaqəni başa salmaqdır; eyni zamanda sahibkarın və cəmiyyətin faydalarını müqayisə etməlidirlər; şagirdlərin diqqətini sahibkarlığın inkişafının və vətəndaş cəmiyyətinin gücləndirilməsinin təsirinə yönəltmək məqsədəuyğundur (iqtisadi cəhətdən güclü cəmiyyət öz hüquqlarını qoruyur və ictimai ehtiyacların qayğısına qalır, iqtisadi cəhətdən zəif cəmiyyət isə daha idarə olunandır).

**Fəaliyyət: Qruplarda işləyin** (səh. 18)

Aşağıdakı vəziyyətləri bölüşdürün və suallara cavab verin:

- ✓ Müəyyənləşdirin ki, hər bir vəziyyəti biznesin hansı sahəsinə və növünə aid edərdiniz?

- ✓ Sizcə, vəziyyətin qəhrəmanlarının qərarı nə dərəcədə düzgündür? Onun hansı güclü tərəfləri var və riskləri nədən ibarətdir?
- ✓ Qrupunuz üçün biznesin hansı növü və ya sahəsi prioritetdir? Nə üçün?

**Meyar 2. Sahibkarların qərarlarına və sonrakı uğurlarına hansı amillər və necə təsir edir? Konkret nümunələr gətirin. (əs.təs. 3)**
**Fəaliyyət**: Müzakirə edin, səh. 19
“Kasıb ata və varlı ata” kitabından parçanı oxuyun və müzakirə edin.

**Suallar:**
- ✓ Sizcə, nə üçün Kiyosaki kitabda varlı və kasıb ata metaforasından istifadə edir?
- ✓ Nə üçün müəllif yaxşı maaş alan atasını “kasıb” adlandırır?
- ✓ Ataları kateqoriyalara ayırmaqla, müəllif nə demək istəyir?
- ✓ Kiyosaki necə göstərir ki, belə adlanan “kasıb” ata onun zənginləşməsinə mane olacaq?
- ✓ Atalar məqsədlərinə çatmaq üçün hansı yollardan istifadə edirlər? Onlardan hansı əldə etdiyi nailiyyətdən razıdır, hansı yox?
- ✓ Robert Kiyosakinin varlı və kasıb ata haqqında metaforası ilə razısınızmı? Cavabı əsaslandırın;
- ✓ Sizcə, dərsliyin müəllifləri bu parçanı təklif etməklə sizdən nəyi düşünməyinizi istəyirlər?
- ✓ Şota Rustaveli və Robert Kiyosakinin sitatları arasında hansı paraleli aparardınız?
- ✓ “Bacara bilmirəm!” – bu fikir sizi nəyə vadar edir?
- ✓ “Mən bunu bacararam!” – bu əhval-ruhiyyə nəyə təkan verir?

**Müəllimə tövsiyə:** bu fəaliyyət zamanı qabaqlayıcı tədbir kimi izah edirik ki, bütün atalar hörmətə layiqdirlər və müəllifin məqsədi heç bir atanı günahlandırmaq deyil; məqsədi oxucuda həyat və fəaliyyətə yanaşmalar haqqında tənqidi düşüncə və müzakirəni stimullaşdırmaqdır. Buna görə də hər kəsə öz fikrini bildirməyə, atalardan deyil, onların yanaşmalarından, münasibətlərindən danışmağa imkan veririk;

**Resurs:** Dərslik, **Antreprenyorluq**; səh. 21
**Şagird kitabında** (səh. 39) **verilən faydalı resurslar**:

- ✓ Gürcüstan funksiya axtarışında https://bit.ly/3j0farx
- ✓ Con Rokfeller - ilk amerikalı milyarder sizə necə varlanmaq və uğurlu olmaq barədə məsləhətlər verəcək https://bit.ly/3XTyBkJ
- ✓ Napoleon Hilin motivasiyası - "Bunu dərk edin və həyatınız dəyişəcək" https://bit.ly/3XzR99X
- ✓ Stiv Cobsun motivasiyası – Amerikalı iş adamı və ixtiraçıdan ilhamverici sitatlar https://bit.ly/3DbFkyo
- ✓ Milyonçu mentaliteti | Həyatdan maksimum faydanı necə əldə etmək olar https://bit.ly/3lNBB4w
- ✓ Antreprenyorlar kimlərdir? https://bit.ly/3WAxqp9

- ✓ Ani Qiqani – Balış https://bit.ly/3XWNBhR
- ✓ Qiorqi Şeşaberidze – Dora https://bit.ly/3JcUyr0

**Fəaliyyət:** Qruplarda işləyin, səh. 21

Aşağıdakı "**Antreprenyorluq - düşüncə tərzi**" mətnini oxuyun və müzakirə edin:

- ✓ Antreprenyorların hansı meylləri var?
- ✓ Söhbətdə adı çəkilən antreprenyorların böyük nailiyyət əldə edə bildikləri mühit necədir (insan ləyaqətinə münasibət, idarəetmə sistemi, qanunlar, qurumlar, cəmiyyət...)?
- ✓ Sizcə, qeyri-demokratik dövlətdə onlar hansı müqavimətlə üzləşə bilərlər? Sizə məlum olan nümunələri sadalaya bilərsinizmi?
- ✓ Sizcə, müəllif havada təyyarə qurmağı bacarmağın zəruriliyindən danışarkən, nəyi nəzərdə tutur?
- ✓ Antreprenyora hansı keyfiyyətlər və bacarıqlar lazımdır?
- ✓ Antreprenyorun digər ictimai qruplar qarşısında məsuliyyətini göstərən hansı ifadəni xatırlayırsınız?
- ✓ Doktor Karol Dvekin araşdırmasının nəticəsi nədir və bu yanaşma haqqında nə düşünürsünüz?
- ✓ Müəllif təfəkkürün davamlı inkişafı ilə bağlı hansı təcrübəni oxucu ilə bölüşür?
- ✓ Siz və ya tanışlarınız uğursuzluğu, səhvi irəli getmək imkanına çevirdiyinizi xatırlayırsınızmı?
- ✓ Antreprenyor fəaliyyəti zamanı kimlərlə əlaqə qurur və bu əlaqələr onun şəxsi inkişafına necə dəstək verir?
- ✓ Antreprenyora başqaları ilə harmonik münasibət qurması üçün hansı sosial-emosional keyfiyyətlər gərəkdir?

**Müəllimə tövsiyə:** şagirdlərin vəziyyətin müzakirəsində iştirakını artırmaq və onların münasibətini formalaşdırmaq üçün dərslikdə olmayan əlavə suallardan istifadə etmək tövsiyə olunur:

- ✓ Hansı antreprenyor olmaq istərdiniz və nə üçün?
- ✓ Sizcə, onun uğur qazanmasına hansı amillər təsir edib?
- ✓ Onun adından sinif yoldaşlarınıza nə tövsiyə edərdiniz?

**Fəaliyyət: Qruplarda işləyin** , səh. 25

- ✓ Üç qrupa bölünün, mətnin sonunda təklif edilən üç tövsiyəni bölüşdürün: bu tövsiyələri qrup şəklində müzakirə edin və sinfə təqdim etmək üçün müzakirə əsasında cədvəli doldurun.

**Tövsiyələr**:

1. **Nəyisə öyrənməlisiniz və eyni zamanda, nəyisə unutmalısınız**! Cəld qərarlar qəbul etmək və ya yanğının hər şeyi məhv etməsinə icazə vermək kimi antreprenyorun düşüncə tərzi çox vaxt bizə öyrədilən şeyin tam əksi olur.

2. **Təkcə nəzəriyyə ilə deyil, real hadisələrlə də öyrənin**! Əksər insanlar üçün ən yaxşı bir dərs antreprenyorların həyatıdır. Belə ki, bu halda nəzəriyyəni ən yaxşı əhvalatlar təsdiq edir.

**3. Hər gün vərdişinizi gücləndirməyə diqqət edin**! Ən əsası yeni bir tərzdə düşünməkdir. Bunun üçün də başqalarını dinləməli, soruşmalı və hətta yazmalısınız. Lakin bu, kifayət deyil. Yeni düşüncə tərzi ilə yaşamağa davam etmək üçün öyrəndiklərinizə uyğun hərəkət etməlisiniz.

| **Tövsiyə**: | | | | |
|---|---|---|---|---|
| Bu tövsiyəyə haqq qazandıran və sizə məlum olan həyat nümunəsi | Konkret vəziyyətdə belə bir yanaşmanın üstünlüyü nə idi? | Onun həyata keçirilməsində hansı risklər var idi? | Sahibkar üçün nəticə nə oldu? Cəmiyyət üçün? | Cəmiyyətimiz bu yanaşmanı nə dərəcədə qəbul edir? Siz və ya qrupunuz qəbul edirsinizmi? Nə üçün? |
| | | | | |
| | | | | |

**Müəllimə tövsiyə:** bu fəaliyyət hər üç bilik kateqoriyasını aktivləşdirməyə xidmət edir, çünki bu, şagirdlərdən öyrəndiklərini ətraf mühitlə əlaqələndirməyi, məlumatları təsnif etməyi, təsir edən amilləri təhlil etməyi və öz fikirlərini bildirməyi tələb edir.

**Fəaliyyət** : Yadınıza salın, səh. 26
"Antreprenyorluq – düşüncə növü" (səh.21) mətnindən istifadə edərək **suallara** cavab verin:

- ✓ Vacib hesab etdiyiniz və yadda saxladığınız üç halı qeyd edin.
- ✓ Paylaşmadığınız/paylaşa bilmədiyiniz fikri adlandırın? Nə üçün?
- ✓ Hansı nəticə və ya fikir həyatda sizin üçün faydalıdır?

**Fəaliyyət**: Müzakirə edin, səh. 26

“14 yaşlı sahibkar” məlumatını, “Qiorqi Şeşaberidze - Doranın təsisçisi” video süjetini izləyin: tv.ge/video/gaicanit-14-wlis-antrepreneri-romelmac-sharqebisgan-150-000-laris-investicia-miigho-stumari-giorgi-sheshaberidze-doras-damfudznebeli /, buna əsasən müzakirə edin.

**Suallar:**

- ✓ Bu hekayə sizdə nə kimi hisslər yaradır?
- ✓ Necə düşünürsünüz, 9 yaşlı Qiorqinin təşəbbüsünə nə təkan verdi?
- ✓ Qiorqinin hansı şəxsi keyfiyyətləri onun qərarına və uğuruna kömək etdi?
- ✓ “Antreprenyorluq – düşüncə tərzi” hekayəsinin qəhrəmanları ilə hansı paralellər apara bilərsiniz?
- ✓ Qiorqinin biznes təcrübəsi onun şəxsi inkişafına necə təsir etdi (videonun süjetinə uyğun olaraq müzakirə edin)?
- ✓ Qiorqinin sahibkarlıq fəaliyyəti cəmiyyətə necə təsir edir? Onun nümunəsinin gücü nədir?
- ✓ Qiorqi mətanət göstərməsə və anasının töhmətinə qullaq assaydı, nə baş verərdi?
- ✓ Mağazada Qiorqi ilə vicdansız davransalar və ümumiyyətlə, ona pul verməsələr, nə baş verərdi?
- ✓ 9 yaşlı Qiorqi kimi qərar verə bilərdinizmi? Nə üçün? Əgər belə bir işə başlasanız, valideynləriniz necə reaksiya verərdi?
- ✓ Özünüzü onun yerində təsəvvür edirsinizmi? Sizə oxşar bir iş görməyə nə kömək edəcək və ya mane olacaq? Nə üçün?
- ✓ Artıq uğur qazanmış Qiorqiyə cəmiyyətin münasibəti necədir? Kimsə onun işini utandırıcı hesab edirmi? Nə üçün?
- ✓ Sizcə, Qiorqinin hekayəsi necə davam edəcək?

**Müəllimə tövsiyə:** Bu əhvalat şagirdlər üçün daha maraqlı və emosional ola bilər, çünki mühit, yaş və başlanğıc vəziyyəti şagirdlərə çox yaxındır. Ona görə də gənc antreprenyorun keçdiyi yolu hər tərəfdən müzakirə etmək və nəzərdən keçirmək imkanı verin. Aşağıdakı fəaliyyət eyni vəziyyəti başa düşməyə xidmət edir.

**Fəaliyyət**: Cütlükdə işləyin, səh. 28

Qruplar yaradın, özünüzü Qiorqinin yerində təsəvvür edin və iki versiyada “Yeni başlayan sahibkar üçün məsləhət” hazırlayın:

1. 9-10 yaşlı uşaqlar üçün məsləhətlər;
2. Yetkin insanlar üçün məsləhətlər.

(Nəzərinizə əsasən, müvafiq yerdə “biznes ideyası”, “imkanlar və risklər”, “təfəkkürün inkişafına qayğı”, “cəld qərarlar”, “hədəf qrupunun ehtiyacları” ifadələrini işlədin).

**Müəllimə tövsiyə:** Bu fəaliyyətdə məqsədimiz narrativ kimi makro-anlayışı nəzərdən keçirməkdir. Gəlin məsləhətin iki variantı arasında hansı fərqin olacağı məsələsinə diqqəti yönəldək. Sahə terminlərindən harada və nə dərəcədə uyğun istifadə edir və harada daha populyar dildə sözünü ifadə edir, yanaşmasını nə qədər düşünülmüş şəkildə izah edir.

**Addım 3. Cəmiyyətlə harmonik əməkdaşlıq üçün sahibkar hansı xassə və bacarıqları qoruyub saxlamalı və inkişaf etdirməlidir? (əs.təs.4)**

**Fəaliyyət:** qruplarda işləyin, səh. 29

**1-ci mərhələ**

Dörd qrupa bölünün və bir-bir kartı aranızda paylayın, diqqətlə oxuyun, müzakirə edin və cədvəli doldurun

| Biznes ideyasının adı | Qərarın müəllifi və onun xüsusiyyətləri | Nəticə | Şəxsi və ictimai faydalar | Uğurun əsası (təsadüfilik, düzgün hesablama, digər qruplarla əməkdaşlıq) | Bu ideyanın uğur qazanmasına nə mane ola bilərdi? |
|---|---|---|---|---|---|
| | | | | | |

**2-ci mərhələ**

Cədvəlləri lövhəyə yapışdırın və qrupların təqdimatından sonra məlumatların müqayisəsinə əsaslanaraq, bütün sinif müzakirə edir:

- ✓ Dörd sahibkarın ortaq hansı ümumi xüsusiyyətlərini ayırardınız? Onları bir-birindən fərqləndirən nədir?

**Fəaliyyət:** Müzakirə edin, səh. 32

Aşağıdakı sütunlarda verilən xüsusiyyətləri nəzərdən keçirin və suallara cavab verin:

**Suallar**:

- ✓ Sizcə, fermerin sahibkar olması üçün nə lazımdır: anadangəlmə keyfiyyətlər və ya qazanılmış bilik və bacarıqlar? Cavabınızı əsaslandırın.
- ✓ Sxemdə nəyi əlavə edər, çıxarar və ya dəyişdirərdiniz? Nə üçün belə düşünürsünüz?
- ✓ Özünüzü bu sxemə əsasən qiymətləndirin: hansı xassəniz var? Hansının olmasını istərdiniz? Nə üçün?

**Fəaliyyət**: Cütlükdə işləyin, səh. 36

Təsəvvür edin ki, yeni fikrinizi reallığa çevirə biləcək **sehrli bir qələminiz** var. Təxəyyülünüzü aktivləşdirin və bazarı tez bir zamanda fəth edəcək bir məhsul, xidmət yaradın.

- ✓ Məhsul və ya xidmətinizin eskizini çəkin

- ✓ Məhsulunuzu, xidmətinizi sözlə təsvir edin
- ✓ Hansı kateqoriya istehlakçılara yönəlib?
- ✓ Hansı resurslardan istifadə edəcəksiniz?
- ✓ Məhsula yüksək marağın olacağına inamı nə verir?
- ✓ İdeyanı həyata keçirmək üçün kiminlə əməkdaşlıq etməli olacaqsınız?
- ✓ Hansı mənfəəti götürəcəksiniz?
- ✓ Cəmiyyət hansı mənfəəti qazanacaq?
- ✓ Məhsulu təqdim edin və onun orijinallığını və cəlbediciliyini əsaslandırın.

**Müəllimə məsləhət:** şagirdlərdən onların "sehrli" məhsulu ilə bağlı hansı antreprenyorluq məsləhətləri ola biləcəyi barədə düşünmələrini xahiş edin və niyə? Sərhədsiz təxəyyül, fantaziya, təsəvvür olmadan yenilikçi ideyalar yarana bilərmi?

**Fəaliyyət**: Müzakirə edin, səh. 36

Sovet sistemində formalaşmış **kölgə iqtisadiyyatı** deyilən təsvirin verildiyi aşağıdakı mətni oxuyun - "Kriminal fəaliyyətlər" və müzakirə edin:

- ✓ Sovet sisteminin sahibkarlığın inkişafına təsiri necə olmuşdur? Nə üçün?
- ✓ Sovet hakimiyyətinin əvvəllərində xüsusi mülkiyyətə, təşəbbüskar sahibkar və fermerlərə böyük ziyan vuran tarixi prosesləri xatırlayırsınızmı? "Qolçomaqlıq" haqqında nə bilirsiniz?
- ✓ Sovet sistemində təşəbbüskar insanların imkanlarının böyük bir hissəsi nədə istifadə edilirdi?
- ✓ Sistemin yapışdırdığı damğa "kombinator" adlanan insanlara və onların ailələrinə necə təsir edirdi?
- ✓ İnsanlar qanun pozuntuları ilə fəaliyyət göstərdiklərini düşündükdə və buna görə cəzalandırılmaqdan qorxduqları zaman hansı hissləri yaşayırdılar?
- ✓ Bu emosiyalar onların sağlamlığına və münasibətlərinə necə təsir edirdi?
- ✓ Cəmiyyətimizin çox hissəsinin zəngin və firavan yaşayan insanlara qarşı aqressiya nümayiş etdirdiyində, sovet stereotiplərinin bugünkü ictimai fikrə təsirini görürsünüzmü?
- ✓ Nə üçün maddi cəhətdən uğurlu insan hələ də cinayət və vicdansızlıqla əlaqələndirilir?
- ✓ Sizcə zənginlik yaxşıdır, yoxsa pis? Nə üçün?
- ✓ İndiki şəraitdə vicdanla sərvət qazanmaq olarmı?
- ✓ Qiorqi Şeşaberidze və onun kimilərinin işində və düşüncəsində vicdansızlıq elementi varmı? Əsaslandırın.
- ✓ Əgər çoxlu zəngin, uğurlu insanlar varsa, cəmiyyət bütövlükdə nə qazanacaq?
- ✓ İnsanın totalitar mühitdə sərbəst işləməsi, qərar verməsi, inkişafı nə dərəcədə mümkündür? Nə üçün?

**Resurs:** Dərslik, **Biznes ideyası**; səh. 40

**Fəaliyyət:** Qruplarda işləyin, səh. 40

Aşağıda verilən vəziyyətlə tanış olun və suallara cavab verin:

**Suallar**

- Qızlar hansı səhvlərə yol verdilər?
- Biznesə başlamaq üçün onların hansı məlumatı var idi və ya yox idi?
- Qızlar tort hazırlamaqda nə qədər məharətli idilər?
- Təcrübənin vacibliyi ilə bağlı çoxlarının fikri ilə razısınızmı?
- İlk dəfə biznes (**startap**) qurmaq istəyənlərə nə məsləhət görərdiniz?
- Ərzaq məhsullarının istehsalçılarına da oxşar məhdudiyyətlərin qoyulmasını zəruri hesab edirsinizmi? Nə üçün?
- Qeyri-ərzaq məhsulları istehsalçılarına da oxşar məhdudiyyətlərin qoyulmasını zəruri hesab edirsinizmi? Nə üçün?
- Qızlar biznesin hansı hüquqi formasını seçdilər?
- Nə üçün dövlət küçədə ərzaq məhsullarının satışı ilə mübarizə aparır?
- Müvəffəqiyyət əldə etmək üçün rəfiqələrin hansı sxemə əsasən hərəkət etməli olduğunu düşünün;
- Biznes ideyasının mahiyyətini necə başa düşürsünüz?
- Hər qrup müxtəlif biznes ideyalarına dair bir neçə nümunə gətirin;
- Təqdim etdiyiniz ideyalardan hansı bugünkü şəraitdə daha sərfəlidir?
- Sizcə, maraqlı və cəlbedici ideyanın gəlirli biznesə çevrilməsi üçün hansı şərtlər lazımdır?

**Fəaliyyət** : Müzakirə edin, səh. 43

Aşağıdakı vəziyyətlərlə tanış olun və əlavə olan suallara cavab verin.

**Fəaliyyət**: Cütlüklərdə işləyin, səh. 45 (“**Matenin hekayəsindən**” **istifadə etsək, bu fəaliyyəti kontekst-nümunə kimi, ümumiləşdirici tapşırıq üçün yerinə yetirmirik. Matrisin sonunda izləyin (səh. 32)**

Matenin ideyası ilə tanış olun, hər bir bənd üzrə müzakirə edin, nə ilə razılaşırsınız, nə ilə razı deyilsiniz? Mateyə nəyi məsləhət görərdiniz?

**Fəaliyyət: Qruplarda işləyin**, səh. 46

Aşağıda Kesonun 2 biznes ideyası verilib. İş 3 hissədən ibarətdir, onları tamamlamaq üçün yuxarıda verilmiş **biznes ideyasının təhlili formasından** istifadə edin.

1. Kesonun biznes ideyalarını təsvir edin;
2. Cəmiyyətinizin mühitini nəzərə alaraq biznes ideyalarını təsvir edin;
3. Biznes ideyanız və ya ideyalarınız haqqında düşünün və bu barədə təqdimat hazırlayın.

**Fəaliyyət: Qruplarda işləyin**, səh. 49

Bölgənizdə uğurlu olduğunu hesab etdiyiniz üç biznesi adlandırın. Ən azı üç il mövcud olan biznesləri seçməyə çalışın. Həmin bizneslərin sahibləri ilə danışın.

**Suallar**:

- İstehlakçı kimi düşünün, hansı məhsul və xidmətlər bazarda yoxdur?
- Başqalarını dinləyin. Bazarda hansı məhsul və ya xidmətləri tapa bilmirlər?
- Mövcud məhsul və xidmətlər haqqında hansı şərhləri verirlər?
- İcmanıza nəzər salın. Hansı biznes növləri artıq fəaliyyət göstərir və hansı çatışmazlıqlar var?
- İcmanızda ekoloji problemlər kimi problemləri müşahidə edin. Bəlkə biznesiniz bu problemləri həll edə bilər;
- Yaşadığınız ərazidə mövcud olmayan müxtəlif biznes növlərinin siyahısını tərtib edin;
- Öz təcrübələrinizi nəzərə alın, digər insanların (istehlakçılar kimi) təcrübələrini dinləyin və mühitinizi öyrənin. Aşağıda verilmiş "təcrübənizə istinad edin" formasından istifadə edin.

**Müəllimə məsləhət:** Bu fəaliyyət sorğu elementlərini əhatə edir, buna görə də qrup üzvləri əvvəlcə müzakirə etməli, sonra öhdəlikləri təyin etməli və növbəti dərsdə təqdimat hazırlamalıdırlar. Əgər vaxtınız bunu etməyə imkan vermirsə, ya fəaliyyət şərtlərini sadələşdirə, ya da ev tapşırığı kimi verə bilərsiniz.

Fəaliyyətlərin **ümumiləşdirilməsinə gəlincə,** bir daha şagirdlərə hansı məhsulu hazırlayacaqlarını soruşuruq ki, cavabsız sualları varmı. Bundan sonra onların kompleks tapşırıqlarının təqdimatı və əks əlaqəsi gəlir; bu işdə bizə əvvəldən hazırlanmış inkişafetdirici qiymətləndirmənin analitik rubrikası kömək edir.

Birinci fəslin sonunda verilmiş şagirdin özünüqiymətləndirmə rubrikasından (səh. 51) də istifadə edirik.

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?
- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?
- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?
- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?
- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz?

**Cədvəl 3.**

**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

**Sinif**: 11-ci
**Mövzu:** Sahibkarlıq və biznes
**Əsas sual: sahibkarlığın şəxsi və ictimai aspektləri**
**Şagird:**

| Qiymətləndirmə meyarları | Maksimal bal | Şərh |
|---|---|---|
| **Cəmiyyət -** şagird bacarmalıdır:<br>• bir sahibkar, işəgötürən, xidmət çatdırıcısı kimi, Matenin cəmiyyətə/əhaliyə/cəmiyyətə müsbət təsirini təhlil etməyi/əsaslandırmağı. | 1.5 | |
| **Demokratiya -** şagird bacarmalıdır:<br>• Matenin biznes ideyasını onun iqtisadi hüquqları ilə əlaqələndirməyi (biznes qurmaq, qazanc əldə etmək...); Matenin sahibkar kimi dövlətlə arasında hansı dilemmaların yarana biləcəyini təhlil etmək üçün konkret həyat nümunələrindən istifadə etməyi (demokratiya prinsipləri baxımından) | 1.5 | |
| **Vətəndaş iştirakı -** şagird bacarmalıdır:<br>• Xidmət sahəsində işçilərin mümkün çağırışlarını və ya problemlərini vəkillik və lobbiçiliklə əlaqələndirməyi; müvafiq vəkillik formalarının və resursların əldə edilməsi yollarını seçməyi; | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>• Matenin biznes ideyası ilə bağlı məsələləri müzakirə edərkən davamlılıq prinsiplərini nəzərə almağı (məsələn, tullantıların idarə edilməsi/qablaşdırma materiallarının təkrar istifadəsi/təkrar emal). | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda biz “Matenin ideyası” kontekst-nümunəni seçmişik (s. 45-46); şagird əvvəlcədən onunla tanış olacaq. Təyin olunmuş gündə tapşırığın şərtlərini veririk:

“Matenin ideyasını” nəzərdən keçirin və Matenin biznes ideyasını qiymətləndirən bir nəticə (150-200 söz) hazırlayın;

**İşinizdə xüsusilə göstərməlisiniz:**

Bu biznes ideya Matenin şəxsi inkişafına necə dəstək verəcək və cəmiyyətin maraqlarına və ehtiyaclarına hansı müsbət və ya mənfi təsir göstərəcək?

Biznes ideyasında insan hüquqları nə dərəcədə nəzərə alınır və bu, demokratiya prinsiplərinə nə dərəcədə uyğundur? Dövlət və Matenin biznesi arasında hansı dilemmalar var?

Davamlı inkişaf prinsipləri nə dərəcədə nəzərə alınır və bu prinsiplər tullantıların idarə olunması ilə bağlı necə təbliğ oluna bilər?

**Qeyd:** cavablarınızı ayrıca yazmayın, nəticənin mətnində birləşdirin".

"Sahibkarlıq və Biznes" mövzusunun **ikinci** əsas sualı **"Hökumət və Biznesdir"**. Bu məsələ ilə əlaqədar olaraq şagirdin əvvəlki bilikləri konkret kontekst nümunəsi "Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi" və məzmunca oxşar nümunələrlə aktivləşdirilir:

| Əsas kontekst nümunəsi və müqayisə üçün nümunələr | Resurslar |
|---|---|
| **Əsas kontekst-nümunə**:<br>"Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi" | • Dərslik, səh. 76-80<br>• Video süjet: https://bit<br>• Müəllim üçün kitab", **Əlavə 2**, (səh. 175) |
| **Müqayisə üçün nümunə 1.**<br>Gürcücə dəmir yolu | • Dərslik səh. 83 |
| **Müqayisə üçün nümunə 2.**<br>"Gürcüstanda istehsal et" proqramı | • Dərslik səh. 93-94 |
| **Müqayisə üçün nümunə 3.**<br>"Balıqçılıq təsərrüfatları xəstəlik səbəbindən bağlanır";<br>Videosüjet "Balıqçılıq sənayesinin potensialı nədir?" | • Dərslik səh. 96<br>https://www. facebook.com / watch/?v=728147661524377 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.

Burada vurğulamaq lazımdır ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri öz ixtiyarınızla dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa kontekst-nümunə üçün təyin edə bilərsiniz və ona əsaslanaraq kompleks tapşırığın şərtini formalaşdıra bilərsiniz.

Dərs prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional və sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri kimi xidmət edir.

Kontekst nümunənin ilkin işlənməsi zamanı müəllim istiqamətləndirici suallar və hərəkətlərlə şagirdlərin diqqətini işlənən alt anlayışlara, hədəf anlayışlara aid detallara yönəldəcək; məsələn, konkret halda biz əsas suallarda (hökumətin azad bazarın tənzimlənməsinə müdaxiləsini hansı amillər və nə üçün müəyyən edir? Dövlətin qarşısında duran dilemmaları/çağırışları insan hüquqlarının müdafiəsi üzrə öhdəliklərə və iqtisadi azadlıq prinsipinə münasibətdə necə təqdim etmək olar?) müəyyən etdiyimiz kontekst-nümunə üzərində diqqəti cəmləməyə çalışırıq.

## Hədəf anlayışını müəyyənləşdirmək üçün cədvəl

| **Mövzu:** Sahibkarlıq və Biznes<br>**Əsas məsələ:** dövlət və biznes<br>**Əsas kontekst nümunəsi**: "**Qovluq**: dərman vasitələrinə həddi qiymətlərin tətbiqi" | | | |
|---|---|---|---|
| **Altməsələ** | **Alt anlayış** | | **Hədəf anlayışı** |
| **"Qovluq: dərman vasitələrinə həddi qiymətlərin tətbiqi"** (insan hüquqlarının dövlət qarşısında müdafiəsi ilə iqtisadi azadlıq prinsipinin təmin edilməsi arasında yaranmış dilemma nümunəsi); | səhiyyə hüququ;<br>istifadəçi hüquqları;<br>iqtisadi azadlıq; | İnsan hüquqları<br>Demokratiya prinsipləri | **Demokratiya (Nəticələr: 1,2, 3, 4)** |

Şagirdin alt məsələ haqqında nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl** 1.), bunda da şagirddən öyrəniləcək məsələ ilə və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərin olduğu maksimal şəkildə ətraflı yazılmalıdır. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) İlk öncə, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində **(şagirdin bu gözləntiləri real nəticələrə çevirməsinə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə edilməlidir?)** ;

b) Növbəti təlim-tədris prosesinin monitorinqi üçün **(proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Hansı suallar əsas götürülməlidir?)**;

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks-əlaqənin formalaşmasında **(gözləntilərdən hansı ifadələr şagirdin nəticəsini təsvir etmək üçün faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzərində işin pedaqoji təcrübəsinin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün **(hansı əsas təsəvvürlə bağlı real gözləntiləri müəyyənləşdirdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntiyə doğru açarı tapmışam? Harada yanaşmanı dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Demokratiya**<br>(Nəticələr 1,2,3,4)<br><br>**“Qovluq: “Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi”**<br>(insan hüquqlarının və iqtisadi azadlıq prinsipinin təmin edilməsi arasında dövlət qarşısında yaranan dilemma nümunəsi) | 1. Fərd yerli qanunvericilik və beynəlxalq müqavilələrlə qorunan hüquq və azadlıqlara malikdir; | Xixrikadzelərin nümunəsindən istifadə edərək, əczaçılıq bazarındakı vəziyyəti (dərmanların əlçatmazlığı), onların səhiyyə hüquqlarını və istehlakçı hüquqlarını nə dərəcədə məhdudlaşdırdığını müzakirə etməyi. Kontekst nümunəsi ilə digər nümunələr arasında əhəmiyyətli oxşarlıq və fərqləri tapmağı; | |
| | 2. İnsan hüquqlarının müdafiəsi demokratik dövlətin ən mühüm dəyəridir; | Hansı obyektiv halların dövləti qiymətlərin tənzimlənməsi üçün tədbirlər görməyə məcbur etdiyini təhlil etməyi; problemin tərəflər tərəfindən müxtəlif şərhlərdə qavranılması və təqdim edilməsinin səbəblərini izah etməyi; bu arqumentlərin güclü və zəif tərəflərini qiymətləndirməyi. | |
| | 3. Demokratik dövlətin fəaliyyəti üçün demokratik prinsiplərə *(məsələn, bərabərlik, qanunun aliliyi, şəffaflıq, ədalətli seçkilər)* riayət etmək lazımdır. | Dövlət tərəfindən insan hüquqlarının müdafiəsi ilə iqtisadi azadlıq prinsipinin təmin edilməsi arasında yaranmış dilemmanı müzakirə etməyi. Qanunvericilik dəyişikliklərinə nəyin səbəb olduğunu və onların demokratiya prinsiplərinin tələblərini (iqtisadi azadlıq) necə əks etdirdiyini təhlil etməyi. | |

Aralıq/kompleks tapşırıq matrisində **(Cədvəl 2)** kompleks tapşırığın şərti, qiymətləndirmə meyarları və icra mərhələləri (fəaliyyətlər, resurslar, rəhbər suallar və müəllim üçün qısa tövsiyələr) verilir.

**Cədvəl 2.**

| **Sual: Dövlət və biznes** |
|---|
| **Altməsələ: "Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi"** (dövlət qarşısında insan hüquqlarının və iqtisadi azadlıq prinsipi arasında yaranan dilemma nümunəsi);<br>**Alt anlayışlar:** səhiyyə hüququ; istehlakçı hüquqları; **insan hüquqları;** *iqtisadi azadlıq* - ***demokratiya prinsipləri*** ; **hədəf anlayışı – demokratiya (nəticə: 1,2,3,4)** |
| **Əsas sual** - Azad bazarın tənzimlənməsinə dövlət müdaxiləsini hansı amillər və nə üçün müəyyən edir?<br>- İnsan hüquqlarını qorumaq öhdəliyi və iqtisadi azadlıq prinsipinə riayət edilməsi ilə bağlı dövlətin qarşısında duran dilemmaları/problemləri **məqalədə** necə təqdim etməliyəm? |
| **Kompleks tapşırıq**<br>Təsəvvür edin ki, siz jurnalistsiniz və redaktorlar sizə "Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiq edilməsi" (səh. 76-80) veriblər. Qovluqda :<br>✓ Redaksiyaya daxil olan 2 məktub;<br>✓ Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən çıxarışlar;<br>✓ Rəsmi məlumat;<br>✓ Ekspert şərhləri;<br>✓ Qanundakı dəyişikliklərə keçid. |
| Bu sənədlər eyni prosesdən – dövlət tərəfindən dərmanlar üçün qiymət həddinin müəyyən edilməsinin - müxtəlif perspektivlərindən baxılır. Siz məsələni öyrənməli, dövlətin biznes işlərinə müdaxiləsinin doğruluğunu təhlil etməli və öz mövqeyinizi əsaslandırılmış **məqalə (**250-300 söz**)** şəklində oxucuya təqdim etməlisiniz.<br><br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**<br>• Dərman qiymətlərinin artması və əlçatanlığın azalması insan hüquqlarına necə təsir edəcək? Konkret olaraq, hansı hüququn müdafiəsi şübhə altına düşür? Yaşlı insanların məktubları və sizə məlum olan digər hekayələr nümunəsini müzakirə edin. **(əs.təs. 1.).**<br>• Dərmanların qiymətinə yuxarı həddin tətbiqi iqtisadi azadlıq prinsipini nə dərəcədə pozur və bu, əczaçılıq biznesi üçün hansı risklər yaradır? (redaktorun aldığı məktublarla müqayisə edin) **(əs.təs. 2.3.)**;<br>• Dövlət hansı dilemma ilə üzləşir və dövlətin insan hüquqlarının, demokratik prinsiplərin qorunması baxımından atdığı addımlar nə dərəcədə düzgündür ? **(əs.təs. 1.2.3.)** |

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>Şagird dərk etməlidir, ki: | **Qiymət meyarları:**<br>Şagird bacarır: | İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin: |
|---|---|---|
| **Demokratiya**<br>1. İnsan yerli qanunvericilik və beynəlxalq müqavilələrlə təmin olunan hüquq və azadlıqlara malikdir;<br>2. İnsan hüquqlarının müdafiəsi demokratik dövlətin ən mühüm dəyəridir;<br>3. Demokratik dövlətin fəaliyyəti üçün demokratik prinsiplərə *(məsələn, bərabərlik, qanunun aliliyi, şəffaflıq, ədalətli seçkilər)* riayət etmək lazımdır. | **Demokratiya**:<br>• Həyat vəziyyətləri/təhlil ediləsi nümunələri insan hüquqları və demokratiya prinsipləri haqqında biliklərlə əlaqələndirməyi **(əs.təs. 1,3)**;<br>• Müxtəlif vəziyyətlərdə insan hüquqlarının və demokratiya prinsiplərinin müdafiəsi ilə bağlı dilemmaları müəyyən etməyi **(əs. təs. 2.3)**. | • Dərman qiymətlərinin artması və əlçatanlığın azalması insan hüquqlarına necə təsir edəcək? Konkret olaraq, hansı hüququn müdafiəsi şübhə altına düşür? Yaşlı insanların məktubları və sizə məlum olan digər əhvalatların nümunəsini müzakirə edin. **(əs.təs. 1.).**<br>• Dərmanların qiymətinə yuxarı həddin tətbiqi iqtisadi azadlıq prinsipini nə dərəcədə pozur və bu, əczaçılıq biznesi üçün hansı risklər yaradır? (redaktorun aldığı məktublarla müqayisə edin) **(əs.təs. 2.3.)**;<br>• Dövlət hansı dilemma ilə üzləşir və dövlətin insan hüquqlarının, demokratik prinsiplərin qorunması baxımından atdığı addımlar nə dərəcədə düzgündür? **(əs.təs. 1.2.3.)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurslar/müzakirə olunası kontekst-nümunə**:

**Fəaliyyət**: Müzakirə edin (**bu fəaliyyət Şagird kitabında yoxdur** )
Şagirdlərdən bildikləri həyat problemi və müvafiq nümunə qeydləri ilə aşağıdakı cədvəli doldurmalarını xahiş edin:

| **Həyat nümunəsi** | **Aptekdə olan daha bir vətəndaşın gözlənilən reaksiyası** | | | |
|---|---|---|---|---|
| | **Pis hərəkət** | **Adi hərəkət** | **Xüsusilə yaxşı hərəkət** | **Sual** |

| | | | | |
|---|---|---|---|---|
| 1. Aptekdəki vəziyyət: tənəffüs problemi olan vətəndaş "aerozol" almağa gəlir, amma dərman bahalaşdığı üçün ala bilmir. Narazı vətəndaş əsəbiləşir, nəfəs alması çətinləşir, sırada əngəl yaranır. | Halı pisləşənə hiddətini bildirir. | Heç bir şəkildə kömək edə bilməsə də, şəfqətini bildirir və yoluna davam edir. | Xəstənin problemi ilə maraqlanır və imkanı daxilində çətinliklərin öhdəsindən gəlməyə kömək edir (pul əlavə edir...); | İnsan nə dərəcədə ehtiyacı olan bütün yad insanlara kömək etməlidir? |
| 2. | | | | |

- Bənzər bir vəziyyətdə **(həyat nümunəsi 1.)** siz nə edərdiniz? Nə üçün?
- Bizə dilemmaları/ziddiyyətləri vurğulamağa imkan verəcək real həyatdan nümunələr düşünə bilərsinizmi?

**Müəllimə tövsiyyə:** bu fəaliyyət Şagird dəftərində olmadığı üçün cədvəli əvvəlcədən lövhədə və ya böyük vərəqdə hazırlamaq və ya ekranda açmaq məsləhətdir.

Cədvəli doldurub təhlil etdikdən sonra biz şagirdləri kompleks tapşırıqla tanış edəcəyik, burada onlar eyni üslubda əczaçılıq bazarında baş verən dilemma ilə bağlı hökumətin hərəkətlərinin qanuniliyini təhlil etməlidirlər.
**Resurs 1.** Dərslik, **II fəsil. Dövlət və biznes;** kompleks tapşırığın vəziyyəti, səh. 52

**Resurs 2.** a) **Məqaləni necə yaratmalıyıq;**
b) Məqaləni necə yazmaq olar: https://www.living-democracy.com/ge/textbooks/volume-3/part-3/unit-7/student-handout-6/

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Məqalə nədir? Başqa vaxtlarda bu məhsul üzərində işləmisinizmi? Sizin üçün nə çətin, nə asan oldu?
- Məqalənin məqsədi nədir? Məqalə vasitəsilə hansı nəticə əldə edə bilərsiniz?
- Məqalənizin məzmununu necə planlaşdıracaqsınız?
- Məqalənin nə kimi strukturu olacaq?
- Oxumaq üçün məqaləni nəyə əsaslanaraq seçirsiniz?
- Media məhsulunuzun daha çox maraq doğurması üçün nəyi nəzərə almalısınız? İnandırıcı kimi qəbul edilsin?

- Məqalənin ilkin variantını oxuyub yoxlamaq lazımdırmı?
- Başlığı necə seçəcəksiniz?
- Məqaləni vizual materialla bəzəmək üçün nədən istifadə etmək olar?
-

**Kompleks tapşırıq**

- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs ərzində işləməli olacağınız bugünkü tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisiniz?

**Diqqət!**

Kompleks tapşırıq üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda biz ev tapşırıqlarından istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**

**Hədəf biliklər:**

**Altməsələ:** "Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi" (insan hüquqları ilə iqtisadi azadlıq prinsipi arasında dövlət qarşısında dilemma nümunəsi kimi); **alt anlayışlar:** səhiyyə hüququ; istifadəçi hüquqları; **insan hüquqları;** iqtisadi azadlıq **- demokratiya prinsipləri** ; **hədəf anlayışı – demokratiya (nəticə: 1,2,3,4)**

**Kontekst-nümunələrinin ilkin işlənməsi**

**Fəaliyyət**: Cütlükdə işləyin, **(fəaliyyət Şagird kitabına daxil deyil)**
Bu məlumatı diqqətlə oxuyun: "Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi" (səh. 76-80); dəftərinizdə lövhədə verilən üç sütunlu bir cədvəl çəkin. Sizi maraqlandıran hər şeyi qeyd edərək, birinci sütunu fərdi olaraq doldurun. Sonra ikinci sütundakı vacib sualları cütlükdə müzakirə edin və yazın; təqdimatlar və müzakirələrdən sonra üçüncü sütunu doldurun.

| Müstəqil iş | Cütlərdə iş | Sinif yoldaşlarından və müəllimdən şərhlər |
|---|---|---|
| 1. | | Qiymətlərin tənzimlənməsinə dövlət müdaxiləsi o deməkdir ki, dövlət demokratiya prinsiplərindən birinə – "iqtisadiyyatın azadlığına" uyğun hərəkət etmir; |
| 2. | | Dərmanların bahalaşması, ölkədə minimum əmək haqqı və pensiyanın çox aşağı olduğu, əhalinin sosial cəhətdən həssas təbəqələrinin sayının çox olduğu, dərman vasitələrinin baha olması (əlçatmazlığı) bəzi insanların sağlamlıq, yaşamaq hüququnu, həmçinin istehlakçı hüquqlarını birbaşa məhdudlaşdırır. |

| | | |
|---|---|---|
| **3.** | | Müxtəlif ictimai qruplar vəziyyəti müxtəlif cür qiymətləndirir, istehlakçılar üçün qiymət artımı ədalətsizlik və onların hüquqlarının pozulması kimi qəbul edilir. |
| **4.** | | Əczaçılıq biznesi nümayəndələrinin fikrincə, dövlət qiymətlərə yuxarı hədd qoyanda demokratiya prinsipini pozur, çünki azad bazarda qiymətləri bazar özü tənzimləyir. |
| **5.** | | Problemin həlli üçün dövlət prosesə müdaxilə etməlidir, lakin bu müdaxilənin hüquqi əsası olmalıdır; |
| **6.** | | Bu yanaşma siyasətin dəyişdirilməsini, yəni müzakirə olunan qanunun dəyişdirilməsini tələb edir, çünki qanun pozuntusuna görə qiymət limitinin qoyulması başqa, məhkəmədənkənar sanksiyaların tətbiqi isə başqadır. |

**Müəllimə tövsiyə:** lövhədə və ya böyük bir vərəqdə əvvəlcədən cədvəl çəkin; eləcə də əvvəlcədən elmi maraq doğuran və fəaliyyəti ümumiləşdirdikdən sonra şagirdlərə təklif edəcəyiniz müddəaları işarələməlisiniz.

**Fəaliyyət**: simulyasiya **(fəaliyyət Şagird kitabında yoxdur)** özünüzü qovluqda təsvir olunan vəziyyət iştirakçılarından biri kimi təsəvvür edin və əczaçılıq şəbəkəsində baş verənləri mövqeyinizdən danışın;
1. Həkimin dərman yazdığı və qiyməti baha olduğu üçün ala bilməyən **Xixrikadzelərdən biri;**
2. **Əczaçılıq birliyinin lideri**, assosiasiya üzvlərinin maraqlarını müdafiə edir;
3. Qanunun dəyişdirilməsinə səs vermiş **parlament üzvü;**
4. Qiymətləri pozduğuna görə cərimələnən **aptek şəbəkəsinin sahibi ;**
5. İstifadəçilərin hüquqlarını qoruyan **hüquq müdafiəçisi.**

**Addım 1: Dərman qiymətlərinin artması və əlçatanlığın azalması insan hüquqlarına necə təsir edəcək? Konkret olaraq, hansı hüququn mühafizəsi şübhə altına düşür? Yaşlı insanların məktubları və sizə məlum olan digər əhvalatların nümunəsini müzakirə edin. (əs.təs. 1.).**

**Resurs:** dərslik, Biznesin hüquqi mühiti; səh. 53
Şagird kitabında (səh. 67) verilən faydalı mənbələr:

- MMC və fərdi sahibkar nədir? https://bit.ly/3Y9pWuu
- Ən çox kim istehsal edir? https://bit.ly/3RpGJaC
- MMC və ya fərdi sahibkar? https://bit.ly/3DTZtJZ
- Gəlir mənbəyi – sahibkarlıq fəaliyyəti https://bit.ly/3DxdpJy

**Fəaliyyət: M**üzakirə edin, səh. 53

Aşağıdakı **Həmkar** mətnini oxuyun və suallara cavab verin:

**Suallar**:

- Sizcə, usta sahibkarın analoqu idimi ya yox?
- Ustalar və sənətkarlar hansı əlamətlə birləşirdilər?
- Həmkarlar hansı xüsusiyyətləri ilə seçilirdilər?
- Həmkarlar hazırkı sahibkarın və ya sahibkarlığın hansı qaydalarını qurmuş və onlara əməl edirdilər?
- Həmkar qaydalarını, şagirdin yetişmə mərhələlərini və formalarını kim düşünüb tapırdı?
- Həmkar qaydalarından demokratik yanaşmanın hansı əlamətlərini qeyd edərdiniz?
- İnsanlar övladlarını nə məqsədlə Həmkara gətirirdilər? Usta peşəsi cəmiyyətdə nə qədər qiymətləndirilirdi?
- Sənaye fəaliyyətindən əlavə, Həmkar hansı funksiyaları yerinə yetirirdi?
- Həmkarlıqda xeyriyyəçiliyin rolu nə idi? Sizcə, nə üçün?
- Nə üçün çarizm Həmkarlığın inkişafına qarşı çıxırdı?
- Həmkarlıqda rəqabət necə inkişaf etdi?
- Çətin vaxtlarda Həmkar və dövlət arasında münasibət necə idi?
- Bu gün sahibkarlarla dövlət arasında münasibət necədir? Bu gün sahibkarlar dövlətin həyatında hansı rol oynayırlar?

**Müəllimə tövsiyə**: Bu fəaliyyət əvvəlki bilikləri aktivləşdirmək, qaydaların, qanunların və dövlət, cəmiyyət və biznes arasında münasibətlərin formalaşması üçün tarixi ilkin şərtləri dərk etmək məqsədi daşıyır. Biz vətəndaşların azadlığı ilə həmrəyliyin səviyyəsi ilə biznesin inkişafı və peşəkar birliklərin yaradılması arasında əlaqəyə diqqət yetirə bilərik.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 65

4 qrup yaradın, vəziyyətləri bölüşdürün; onların məzmununa, biznesin təşkili formalarına dair verilən məlumatlara (bax, səh. 58) və öz təsəvvürünüzə əsasən, aşağıdakı sualları nəzərə alaraq təqdimat hazırlayın:

**Suallar**:

- Seçdiyiniz vəziyyətdə sahibkarlığın hüquqi forması hansıdır?
- Sizcə, bu fəaliyyət növü üçün seçilmiş biznes forması nə dərəcədə əlverişlidir? Nə üçün?
- Bu biznes formasının güclü və zəif tərəflərini göstərin;

- Təsisçilərə risklərini azaltmaq üçün hansı tövsiyələriniz var?
- Təsisçilər dövlətin onlar üçün müəyyən etdiyi hüquq normalarını vicdanla yerinə yetirmək üçün nə etməlidirlər?

**Fəaliyyət:** müzakirə edin, səh. 67

**Sual:**

- Sizcə, əczaçılıq biznesində biznesin təşkilinin oxşar formasından istifadə olunurmu? Nümunəni yadınıza salın.

**Resurs:** dərslik, müəssisənin qeydiyyatı; səh. 68

**Fəaliyyət:** müzakirə edin, səh.68 **(Əgər biz ümumiləşdirici tapşırıq üçün kontekst nümunəsi kimi "Çizkeyker" hekayəsindən istifadə etsək, bu fəaliyyəti yerinə yetirmirik. Bu matrisin sonuna baxın).**

Aşağıdakı "**Çizkeyker**" hekayəsini oxuyun və suallara cavab verin:

**Suallar**:

- Süjetin qəhrəmanı nə vaxtdan sahibkarlıq, biznes haqqında düşünməyə başlayır?
- Əvvəlcə qızın hansı ideyaları var idi?
- Hüquq təhsili ona nədə kömək etdi?
- Qənaət etmək vərdişi onun sahibkar olmasında hansı rolu oynadı?
- Qız, ilk olaraq, hansı biznes ideyasını düşünüb və planlaşdırıb?
- İlk arzunun həyata keçməsinə nə mane oldu?
- Belə bir ideya ölkəmizdə necə məşhurlaşdı?
- Sizcə, dəstək olsaydı, süjetin qəhrəmanının ilk biznes ideyası uğurla inkişaf edə bilərdimi?
- Qızın xəyal etdiyi ideyasını həyata keçirməsi üçün ilk addımı nə oldu?
- Veko biznesə başlamaq üçün pulu necə əldə etdi?
- Biznes riskini öz üzərinə götürməkdə qohumların tənqidi nə kimi rol oynadı?
- Veko uşaqlıq arzusu olan çizkeyk şirniyyat mağazasını necə yaratdı?
- Tərəfdaşlar hansı biznes formasını qeydiyyatdan keçirməyi seçdilər? Sizcə, nə üçün?
- O, hansı araşdırmalar aparır? İdeyanı həyata keçirmək üçün hansı tərəfdaşı tapır?
- Əvvəlcə kuryer rolunu kim oynayır? Nə üçün?

- Nə üçün tərəfdaşlar onlayn konsepsiya ilə işləməyə qərar verdilər?
- Sahibkarların əsas məsələsi nədən ibarət idi?
- COVID pandemiya Vekonun biznesinə necə təsir etdi? Ümumiyyətlə, biznesə?
- Qızlar harada çizkeyki hazırlamağa başladılar?
- Rəfiqələr satışlarını necə böyütdülər (hansı seqmentləri mənimsədilər)?
- "Çizkeyker"-in hazırda hansı problemləri var?
- Vekonun sahibkarlıq keyfiyyətlərini necə təsvir edərdiniz? Onun tərəfdaşlarının xüsusiyyətlərini?
- Sizcə, pandemiyadan əvvəl, pandemiya zamanı və sonra "çizkeykirin" uğur qazanmasına səbəb olan amillər hansılardır?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 73

Qruplara bölünün, hər bir qrup alqoritmə uyğun olaraq, müəssisənin layihəsini tərtib etməlidir. İşi bitirdikdən sonra təqdimat hazırlayın.

**Fəaliyyət:** müzakirə edin, səh. 75

**Sual:**

- Ailənizin məhsullarından faydalandığı beş korporasiyanı sadalayın;
- İmkanınız olsaydı, sahibkarlığın hansı hüquqi formasına üstünlük verərdiniz və niyə?
- Xidmət sektorunda fəaliyyət göstərən firmalar (məsələn, gözəllik salonu) və istehsal sektorunda fəaliyyət göstərən firmalar (məsələn, əczaçılıq şirkəti) arasında hansı mühüm fərqləri tapa bilərsiniz?
- Müəyyən edin ki, hansı firma tipi aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur?
- sərbəst hərəkət etmək bacarığı;
- çoxlu insanı özünə cəlb etmək bacarığı;
- güclü iqtisadi stimul;
- böyük kapital xərcləri;
- rəqiblərlə mübarizə zamanı risk.
- Gürcüstanda məşhur ticarət nişanlarını sadalayın (istehsalçı şirkətin tanına biləcəyi xüsusi təsvir və ya simvol);
- Dünyaca məşhur iş adamlarını yadınıza salın. Onların məşhurluğuna nə səbəb oldu?

**Müəllimə tövsiyə:** Bu paraqrafla bağlı bütün fəaliyyətlər şagirdlərin sahibkarlıq və biznesdə qaydalar haqqında əvvəlki biliklərini aktivləşdirmək məqsədi daşıyır ki, onlar bazar qaydalarına əlavə olaraq, yerli və beynəlxalq hüquq normalarını bölüşməli və bunlara əməl etməli, istehlakçıların hüquqlarına hörmət etməlidirlər.

**Resurs:** dərslik, **Dövlət həmişə sayıqdır;** səh. 76
**Şagird kitabında** (səh. 95) **verilmiş faydalı resurslar**:

- Kiçik biznes https://bit.ly/3JA4gna
- Mikro biznes, birgə iştirakı necə hesablamaq olar - 30 min lari qrant üzrə "Gürcüstanda istehsal et" https://bit.ly/40hJAqd
- Rəqabəti qorumaq https://www.youtube.com/watch?v=zSuFaHsAx9E&t=14s
- Azad bazar şərtlərində monopoliya https://www.youtube.com/watch?v=EbTYomV9fjM
- İstehlakçı hüquqlarının müdafiəsi https://bit.ly/3Y59V9y
- İşçilərin mühafizəsi prinsipləri https://bit.ly/3XVQ6Be
- Gürcüstanda işçilərin müdafiəsi https://bit.ly/3HQQOtS
- Video süjet "Balıq sənayesinin potensialı nədir?" https://bit.ly/3Ht56Qa

**Fəaliyyət:** cütlükdə işləyin, (səh.74)
Aşağıdakı bütün qovluqları (səh. 76-80), (Müəllim kitabında - Əlavə 2 (səh. 175), o cümlədən "İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin" aşağıdakı maddələrini oxuyun. Aşağıdakı **suallara cavab verin:**

- Sizcə, dərmanların bahalaşması və əlçatmazlığı şəraitində dövlət hansı maddəyə/maddələrə əməl etməlidir? Kontekst-nümunəyə uyğun olaraq cavabınızı konkretləşdirin.
- Bildiyiniz (həyatdan, mediadan, filmlərdən, ədəbi əsərlərdən) "İnsan Hüquqları Bəyannaməsi"nin bu maddəsinin/maddələrinin pozulması nümunələrini xatırlayın. Cavabınızı əsaslandırın;
- Sizcə, dövlət sahibkarların mövqeyini nəzərə alaraq hansı maddəyə/maddələrə əməl etməlidir. Kontekst-nümunəyə uyğun olaraq müzakirə edin.
- Bu maddənin pozulması ilə bağlı digər oxşar nümunələri yadınıza salın (filmdən, ədəbi əsərdən). Cavabınızı əsaslandırın.

**Müəllimə tövsiyə:** əgər indiyə qədər aparılan fəaliyyətlər əvvəlki biliklərin aktivləşdirilməsini və əsas kontekst-nümunə üzərində işə hazırlığı təqdim edirdisə, bu fəaliyyət artıq kompleks tapşırıq, birinci meyar və sonrakı meyarlarla birbaşa bağlıdır. Buna görə də biz onun üzərində işləmək və müzakirə etmək üçün xeyli vaxt ayırırıq və ümumiləşdirmə zamanı Şagird kitabında verilən suallara əlavə olaraq vurğulayırıq: **indiyə qədər müzakirə etdiyimiz vəziyyətlərlə hansı paraleli çəkərdiniz?**
Biz əsas kontekst-nümunəni indiyə qədər keçilmiş digər kontekst-nümunələrlə, fəaliyyətlərlə (məsələn, birinci fəaliyyət "Aptekdə yaranmış vəziyyət", "Həmkar" mövzusu...) ilə əlaqələndirməyə çalışırıq, şagirdlərə isə kompleks tapşırığı müstəqil yerinə yetirərkən, alınan məlumat və

nəticələrdən nəyin faydalı olacağı barədə düşünmələrini xatırladırıq.

**Addım 2. Dərmanlara qiymət məhdudiyyətinin tətbiqi iqtisadi azadlıq prinsipini nə dərəcədə pozur və bu, əczaçılıq biznesi üçün hansı risklər yaradır? (redaksiyaya daxil olan məktublarla müqayisə edin) (əs.təs. 2.3.)**

**Fəaliyyət:** cütlükdə işləyin, (səh.81)

Demokratiyanın hansı prinsipinin qorunduğunu/pozulduğunu təhlil edin:

a) dərman vasitələrinin qiymətləri əlçatmaz olduqda;

b) səhiyyə xidmətlərindən istifadə imkanı olmadıqda;

c) dövlət tərəfindən dərman vasitələrinə hüdudi qiymətlər tətbiq edildikdə;

d) qiymət pozuntularına görə sahibkarlara qarşı sanksiyaların tətbiqi.

Bu cədvəli dəftərə/vərəqə köçürün və fərdi olaraq doldurun, sonra bir-birinizlə paylaşın və əsaslı şəkildə müzakirə edin.

| Demokratiya prinsipi | Dərmanlar əlçatmaz qiymətlərlə | Səhiyyəyə əlçatmamazlıqla | Dərmanlara hüdudi qiymətlər tətbiq etməklə | Qiymət pozuntularına görə, məhkəmədən kənar sanksiyalar tətbiq etməklə |
|---|---|---|---|---|
| Bərabərlik | | | | |
| Qanunun aliliyi | | | | |
| Vətəndaş iştirakı, inklüzivlik | | | | |
| Hakimiyyət bölgüsü | | | | |
| Şəffaflıq və hesabatlılıq | | | | |
| Ədalətli seçkilər | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Qeyri-zorakı metodlarla hərəkət | | | | |
| Tolerantlıq | | | | |
| Çoxpartiyalılıq | | | | |
| İqtisadi azadlıq | | | | |

**Fəaliyyət:** qruplarda işləyin, səh. 82
4 qrup yaradın: birinci – qanunvericilər, ikinci - icra hakimiyyəti, üçüncü - əczaçılıq şirkətlərinin rəhbərləri, dördüncü - istehlakçılar;

**Qovluqda** verilən məlumatlara bir də baxın və suallar əsasında öz qrupunuzun nöqteyi-nəzərindən vəziyyəti əks etdirən təqdimat hazırlayın.

**Suallar**:

- Bu dəyişikliklərin həyata keçirilməsi zərurətinə nə səbəb oldu və siz bu yeniliyi ədalətli hesab edirsinizmi? Nə üçün?
- Necə düşünürsünüz, bu dəyişiklik nə ilə nəticələnəcək?
- Qanun dəyişikliyinin həyata keçirilməsini dövlətin azad bazar qaydalarına müdaxiləsi kimi qəbul edirsinizmi? Səbəbini izah edin
- Dövlətin qiymət həddini təyin etməsi nə dərəcədə demokratik hesab edirsiniz? Sanksiyalar tətbiq etməyi? Mövqeyinizi əsaslandırın.
- Qrupunuz bu dəyişiklikdən hansı zərər və hansı faydaları gözləyir? Digər qruplar hansı zərər və ya fayda əldə edəcəklər?
- Mövcud problemi necə tənzimləyərdiniz?

**Müəllimə tövsiyə:** təqdimatlar üçün hər bir qrupun öz mövqeyini Konstitusiya Məhkəməsinə təqdim etdiyi rollu oyundan istifadə edə bilərsiniz. Bu zaman hüquqi mədəniyyət və hakimiyyət bölgüsü məsələləri üzrə əvvəlki bilikləri aktivləşdirmək məqsədəuyğundur.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 82
Aşağıdakı mətni oxuyun – "Gürcücə dəmir yolu" və **suallara** cavab verin:

- "Yükdaşıma" MMC hansı problemlə üzləşib?
- Qanunun mövcudluğu rəqabətin mühafizəsinin təminatı sayıla bilərmi?
- Sizcə, rəqabəti təmin edən orqan hansı məqsədlə mövcuddur, onun hüquq-mühafizə prosesində rolu nədir?
- Rəqabət üzrə icra orqanı iki hüquqi şəxs arasındakı münaqişədə hansı rolu oynayıb?
- Bu orqan olmasaydı, yaxud vəzifəsini yerinə yetirməsəydi, hadisələr necə cərəyan edərdi?

- Bu agentlik olmasaydı, ya da üzərinə düşən vəzifəni yerinə yetirməsəydi, hadisələr necə baş verərdi?
- Bu münaqişəni “Dərman vasitələrinə qiymət məhdudiyyətlərinin tətbiqi” (səh. 76-80) vəziyyəti ilə müqayisə edin. Bu münaqişələrin ümumi və ya fərqli xüsusiyyətləri hansılardır?

**Müəllimə tövsiyə**: son sualın müqayisəsi üçün T diaqramından istifadə edə bilərik; **Əczaçılıq bazarında yaranan münaqişənin xüsusiyyətləri**: bu, dövlətin tənzimləməyi öhdəsinə götürdüyü istehlakçılar və müəssisələr arasında münaqişədir. Siyasət dəyişir; qanunlar və normalar dəyişir; icra mexanizmləri formalaşır; bizneslə dövlət arasında münaqişə riski var; hökumətin hər üç qolu iştirak edir. “**Gürcücə dəmir yolu” vəziyyətində** 2 hüquqi şəxs arasında münaqişə yaranıb, bu münaqişənin həlli üçün siyasətlər, qanunlar, mexanizmlər fəaliyyət göstərir, bu münaqişəyə cavabdeh olan dövlət qurumu var. Yəni miqyasda, həll yollarında da fərq var.

**Fəaliyyət:** müzakirə edin, səh.87

Aşağıdakı vəziyyətlə tanış olun və suallara cavab verin:

- Sahibkarın etirazı nə dərəcədə əsaslıdır?
- Yunun idxalına məhdudiyyətin qoyulması sahibkar üçün hansı nəticələrə gətirib çıxarır?
- Bu halda istifadəçi rolunda olan dövlət üçün məhdudiyyətin qoyulması hansı nəticələr gətirə bilər?
- Sahibkarın müraciəti dövlət tərəfindən rədd edildikdə, hansı arqumentlər özünü doğruldacaq?
- Necə düşünürsünüz, dövlət özünütənzimləmə üçün bazarı qurban verərsə, rəqabət aradan götürülərmi?
- Sizcə, Gürcüstan iqtisadiyyatı nə dərəcədə rəqabətə davamlıdır?

**Resurs:** şagirdlərin söylədiyi əhvalatlar

**Fəaliyyət:** müzakirə edin, səh. 89

- Yadınıza salın ki, Gürcüstanda rəqabətə nə dərəcədə əməl olunur?
- Ölkəmizdə istehlakçıların hüquqları necə qorunur?
- Dövlətin müdaxiləsinin qiymətə nəzarət anlaşmalarının qarşısını aldığı və ya azaldacağı halları xatırlayırsınızmı?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 91

- Dövlət qanunları ilə bir firmanın digər firmanı təqib etməsinin qarşısının alınması məlumdur. Necə düşünürsünüz, rəqabətin bu cür müdafiəsi azad rəqabətin məhdudlaşdırılmasına gətirib çıxarırmı?

**Müəllimə tövsiyə:** bu məsələ ilə bağlı fikir bildirdikdən sonra sinfi 2 qrupa bölün, təqdimat hazırlamaq üçün bu vəziyyətləri bölüşdürün. Qrupları alt qruplara bölməyə və yerinə yetirilən tapşırığın strukturuna uyğun olaraq işi bölüşdürməyə dəvət edin.

## VƏZİYYƏT 1

**Sahibkarları və istehlakçıları qoruyaq!**

2 qrupa bölünün, bir qrup sahibkarların müdafiəsi məcəlləsini, digəri isə istehlakçıların hüquqlarının müdafiəsi məcəlləsini tərtib etməlidir.

- Təqdimat hazırlayın. İş üçün 15 dəqiqəniz var.
- Son variantı lövhədə yan-yana yapışdırın. Təqdimatdan sonra hər iki məcəllənin ümumi maddələrini işarələyin;
- Bu məcəllələrdə nə üçün ümumi məsələlərin olduğunu müzakirə edin?

## VƏZİYYƏT 2

**Rəqabət və sahibkarlar**

Firmalar tez-tez rəqabətə qanuni məhdudiyyətlər tələb edirlər. Məsələn, ötən əsrin 90-cı illərində Fransada müxtəlif seqment satıcıları media vasitəsilə maraqlı tələblər səsləndirir, hökumətdən dəstək tələb edirdilər. Tələblərdən çıxarışların bəzilərini təqdim edirik.

Hər bir müraciəti nəzərdən keçirin və müzakirə edin:

Dövlət tərəfindən sahibkarların tələblərinin razı salındığı halda, hansı nəticələr ola bilərdi

a) qısa müddətdə?

b) uzun müddətdə?

**Tələb 1.** "...Beş il ərzində bütün santexniklər hər tədris semestrində ümumi fizika və hidravlikadan imtahan verməlidirlər, yalnız bundan sonra onlara iş lisenziyası veriləcək".

**Tələb 2. "...** Yeni açılan xidmət mərkəzinin sahibi cənab David mətbuat konfransında dövlətdən sahənin tənzimlənməsini tələb etdiyini bildirdi. "Özünü bağban, ev təmizləyicisi adlandıran və əhaliyə ucuz qiymətə xidmət edən **diletantların** azadlığı məhdudlaşdırılmalıdır", - deyərək, hökumətdən araşdırmaya başlamağı və bu kimi işlərlə məşğul olan və xidmət mərkəzində qeydiyyatdan keçməyənlərin hamısına inzibati cəza verilməsini tələb edib".

**Tələb 3:** Bəzi iqtisadçılar iddia edirlər ki, "rəqibləri məhdudlaşdıran qanun rəqabəti məhdudlaşdırır". Onların belə bir bəyanatı üçün hansı əsasları var?

**Fəaliyyət:** müzakirə edin, səh. 92

İstehlakçıların hüquqlarının qorunması və etibar qazanması şirkətin özü üçün faydalıdır, çünki istehlakçılar belə firmaların xeyrinə seçim edirlər.

- Müştərilərin etibarını qazanmış gürcü şirkətlərini və məhsullarını sadalayın.
- İqtisadçılar arasında aşağıdakı fikirlə razısınızmı: rəqabətədavamlı iqtisadi sistemi saxlamaq üçün güclü firmaların fəaliyyətinə qarşı xərclərindən aşağı satışı qadağan edən qanunlar lazımdır.

**Addım 3. Dövlət hansı dilemma ilə üzləşir və dövlətin insan hüquqlarının, demokratik prinsiplərin qorunması baxımından atdığı addımlar nə dərəcədə düzgündür? (əs.təs. 1.2.3.)**

**Resurs:** dərslik, Dövlət nə etməlidir? səh. 96
**Şagird kitabında** (səh. 104) **verilən faydalı resurslar**:

Videosüjet "Balıqçılıq sənayesinin nə kimi potensialı var?" https://www.facebook.com/watch/?v=728147661524377
Gürcüstan Milli Rəqabət Agentliyinin rəsmi səhifəsi: https://gnca.gov.ge/legislation/national

**Fəaliyyət:** qruplarda işləyin, səh.96
Aşağıdakı vəziyyətlərlə tanış olun: "Xəstəliklərə görə balıq fermaları bağlanır" və video-süjet "Balıq sənayesinin potensialı nədir?" https://www.facebook. com/watch/?v=728147661524377

"Balıq fermaları xəstəliklərə görə bağlanır" nümunəsi və "Balıq sənayesinin potensialı nədir?" videosüjeti əsasında təqdimat hazırlayın.

**Suallar:**

- Biznesin inkişafı üçün əlverişli mühitin yaradılması nə dərəcədə dövlətin vəzifəsidir?
- Dövlət sahibkarın məhsulunun keyfiyyətinə necə nəzarət edir? Etibarlı laboratoriya olmadan, nəticə çıxarmaq olarmı?
- Dövlət ixtisaslı laboratoriya yaratmaq üçün sahənin inkişafına görə addım atmalıdırmı?
- Sahibkarlar öz səyləri ilə, qüvvələrini birləşdirməklə hansı problemləri həll etməlidirlər? Nə üçün?
- Balıqçılıq təsərrüfatlarının sahiblərinə nə məsləhət görərdiniz?
- Bu vəziyyəti kompleks tapşırığın vəziyyəti ilə necə əlaqələndirə bilərik?

**Fəaliyyət:** qruplarda işləyin **(**səh. 98)

**Suallar:**

- İctimai-siyasi məsələlərdən sizin üçün daha maraqlı olan birini seçin;
- Problemi səsləndirən seçdiyiniz məsələ ətrafında ictimai siyasət (qanun, nizamnamə və ya hökumət proqramı) hazırlayın;
- İşləyib hazırladığınız yanaşmanın hansı məqsədi (məqsədləri) dəstəkləməyə çalışdığını müəyyənləşdirin və onun digər məqsədə (məqsədlərə) nail olunmasına necə təsir edəcəyini izah edin;
- Müəyyən edin ki, bu yanaşma iqtisadi sistemdə necə həyata keçirilə bilər və nə üçün? Həyatda bu siyasəti həyata keçirmək üçün hansı iqtisadi sistem növü (əmredici və ya bazar) daha uyğundur?
- Qruplar təqdimat hazırlayır və bir-biri ilə fikirlərini bölüşürlər.

**İqtisadi-siyasi məsələlər:**

1. **Dövlət** bütün vətəndaşları pulsuz təcili tibbi yardım ilə təmin etməlidir;
2. İnsanların toplaşdığı yerlərdə siqaret çəkmək **qadağan edilməlidir**;
3. Gürcü **yumurta** istehsalçılarının müdafiəsi məqsədilə, xaricdən gətirilən yumurtanın tarifi **artırılmalıdır**.

**Fəaliyyət:** Müzakirə edin, səh.99

**Suallar:**

- Dövlətin bazar iqtisadiyyatına müdaxiləsini əsaslandırmaq üçün Konstitusiya preambulasından necə istifadə oluna biləcəyini izah edin, məsələn, minimum əmək haqqına dair qanunlar, sosial təminat, işsizliyə görə kompensasiya, təhlükəsizlik qaydalarına riayət edilməsi;
- Aşağıda verilən Konstitusiyanın 9-cu maddəsi sahibkarları necə müdafiə edir?
- Konstitusiyadan çıxarışları fəallıqlarla əlaqələndirin – dərman vasitələrinə hüdudi qiymətin müəyyən edilməsi;
- Sizcə, tam iqtisadi azadlığa nail olmaq mümkündürmü?

**Fəaliyyət:** müzakirə edin, səh.100

- İqtisadiyyatımızda dövlətin rolu nə qədər böyük olmalıdır, qeyri-məhdud və ya məhdud? Cavabınızı əsaslandırın.
- Kartlarda təsvir olunan müxtəlif şəxsi və sosial məqsədləri oxuyun.
- Dövlətin hansı əməlləri ilə razısınız, hansı ilə razı deyilsiniz?
- Dövlət proqramları kartınızda təsvir olunan məqsədi yerinə yetirməklə insanlara və bütövlükdə, ölkəyə nə dərəcədə kömək edir və ya zərər verir?

- Kartınızda təsvir olunan proqramların müsbət və mənfi cəhətlərini adlandırın.

**“Ticarət” kartları**

| | |
|---|---|
| 1<br>**Məqsəd: cins almaq.**<br>Müxtəlif mağazaların satdığı cinslərin bir çox üslubları, markaları, qiymətləri və keyfiyyəti var. | 2<br>**Məqsəd: cins almaq.**<br>Dövlət müəssisəsinin istehsal etdiyi cinsi yalnız bir üslubda almaq olar. İstehsal kvotaları dövlət planlaşdırıcıları tərəfindən müəyyən edilmişdir. Cins çox vaxt mağazalarda olmur. Yalnız qara bazarda baha qiymətə satılır. |
| 3<br>**Məqsəd: təmiz hava.**<br>Sənaye şirkətləri çirklənməni azaltmalı və ya cərimələri ödəməlidirlər. | 4<br>**Məqsəd: təmiz hava.**<br>Dövlət məmurları müəssisəyə çirklənməyə səbəb olan məhsulu böyük həcmdə istehsal etməyi tapşırsa da, sonra havanın keyfiyyətini yaxşılaşdırmaq üçün istehsalın azaldılmasını müzakirə edirlər. |
| 5<br>**Məqsəd: təmiz su.**<br>Dövlət çirkləndirmə hüququnu satır və lisenziya verir. Lisenziyanın alınması çirkləndirməmə xərclərindən daha ucuz olarsa, firmalar lisenziya alırlar.<br>. | 6<br>**Məqsəd: təmiz su.**<br>Yalnız çirklənmənin azaldılmasının dövlət məmurları və planlaşdıranlar üçün dövlət müəssisələri tərəfindən daha çox məhsul və xidmət istehsalından daha vacib məqsəd olduğunda, çirklənməyə qarşı mübarizə tədbirləri həyata keçirilir. |
| 7<br>**Məqsəd: inflyasiyanın qarşısını almaq.**<br>Mərkəzi bank inflyasiyanı azaltmaq istəyəndə faiz dərəcəsini artırır. | 8<br>**Məqsəd: inflyasiyanın qarşısını almaq.**<br>Malların və xidmətlərin rəsmi qiymətləri dövlət planlaşdırıcıları tərəfindən müəyyən edilir və adətən, rəsmi qiymət səviyyələrində inflyasiya olmur. |
| 9<br>**Məqsəd: şirkətin rəqabət qabiliyyətinin saxlanması.**<br>Bəzi şirkətlər yerli və xarici firmalarla rəqabət aparmaq üçün xərcləri azaltmaq və məhsuldarlığı artırmaq üçün işçiləri ixtisar edir. | 10<br>**Məqsəd: şirkətin rəqabət qabiliyyətinin saxlanması.**<br>İxtisar (işçilərin ixtisarı) dövlət planlaşdırıcılarının məqsədinə (işsizliyin aradan qaldırılması) mane olur. Milli təminata dəstək vermək və xarici firmaların rəqabətini istisna etmək üçün beynəlxalq ticarət məhdudlaşdırılır. |

| | |
|---|---|
| 11<br>**Məqsəd: yaxşı magistrallarda hərəkət etmək.**<br>Yeni yollar salınır və vergilər vasitəsilə onları yaxşı vəziyyətdə saxlamaq olur. | 12<br>**Məqsəd: yaxşı magistrallarda hərəkət etmək.**<br>Dövlət planlaşdırıcıları yolların tikintisi və təmiri üçün müəyyən resursları, dövlət firmalarında isə mal və xidmətlərin istehsalı üçün digər resursları ayırırlar. |
| 13<br>**Məqsəd: daha böyük evə köçmək.**<br>Fərdlər ev, torpaq və ya mənzil ala, sata və ya icarəyə götürə bilərlər. | 14<br>**Məqsəd: daha böyük bir evə köçmək.**<br>Hökumət ailənin böyüklüyü, mənzil növbəsinin uzunluğu kimi meyarlara əsasən, mənzillər tikir və ailələrə təklif edir. Fərdlərin ev, mənzil və torpaq almaq və satmaq hüququ verilmir. |
| 15<br>**Məqsəd: kollecə qəbul olmaq və geologiya üzrə təhsil almaq.**<br>Fərdlər istənilən kollec və ya universitetə daxil olub öz fənlərini seçə bilərlər. Tələbələr təhsil haqqını ödəməlidirlər. | 16<br>**Məqsəd: kollecə qəbul olmaq və geologiya üzrə təhsil almaq.**<br>Dövlət planlaşdırıcıları kimin hansı fənləri öyrənməli olduğunu müəyyənləşdirirlər. Müəssisələrə qəbul olan şagirdlərin təhsil haqqını dövlət ödəyir. |
| 17<br>**Məqsəd: yeni biznesə başlamaq.**<br>Sahibkarlar yeni biznesə başlamaq üçün resursları ala, icarəyə götürə və təşkil edə bilərlər. | 18<br>**Məqsəd: yeni biznesə başlamaq.**<br>Dövlətin nəzdində olan iri zavodlar məhsulların əksəriyyətini istehsal edir. Dövlət planlaşdırıcıları yeni zavodlar tikmək və yeni firmalar yaratmaq barədə qərar verirlər. |
| 19<br>**Məqsəd: Kasıblara və qocalara qayğı göstərmək.**<br>Vergi daxilolmaları müxtəlif yardımların, tibbi və sosial sığortaların təmin edilməsinə yönəldilir. Bir çox işçilərin fərdi təqaüdləri və ya əmanətləri var.<br>. | 20<br>**Məqsəd: Kasıblara və qocalara qayğı göstərmək.**<br>Bütün vətəndaşların tibbi xidmət, pensiya və mənzil təminatı dövlət tərəfindən təmin edilir. |
| 21<br>**Məqsəd: Yaxşı iş.**<br>İstənilən halda, iş seçmək və dəyişdirmək azadlığı. Yaxşı iş yüksək əmək haqqı və digər mənfəətlə qiymətləndirilir. Bəzi insanlar digərlərindən daha çox qazanırlar. | 22<br>**Məqsəd: Yaxşı iş.**<br>Müxtəlif işlərdə çalışan insanlara dövlət planlaşdırıcıları tərəfindən müəyyən edilmiş eyni əmək haqqı verilir. Dövlətin icazəsi olmadan yeni işə, yaşayış sahəsinə və s. keçmək azadlığı məhdunddur. |

| 23 | 24 |
|---|---|
| **Məqsəd: işsizliyin qarşısını almaq.** 4-5%-lik işsizlik tam işlə təminat hesab edilir, çenki işçilər iş yerlərini dəyişirlər. Dövlətin iqtisadi siyasəti işsizliyin aradan qaldırılmasına yönəlib. | **Məqsəd: işsizliyin qarşısını almaq.** Hamı işlə təmin olunub, buna görə də rəsmi işsizlik yoxdur. Bəzi iş yerləri, hətta heç nə gətirməyəndə belə, saxlanılır ki, təki hamı işlə təmin olunsun |
| 25 | 26 |
| **Məqsəd: iqtisadi artımın stimullaşdırılması.** Dövlətin iqtisadi siyasəti ildən-ilə davamlı iqtisadi artımı qorumaq üçün istifadə olunur. Yeni zavodlara, avadanlıqlara və texnologiyalara investisiyaların çoxu şəxsi qənaətə əsaslanan özəl firmalar tərəfindən yatırılır. | **Məqsəd: iqtisadi artımın stimullaşdırılması.** Hökumət planlaşdırıcıları investisiyaların səviyyəsini məhdudlaşdırır və dövlət təşkilatları bu məqsədlərə nail olmalıdırlar. İnvestisiya planlaşdırıcıların kapital mallarına daha çox resurs qoyması və istehlak mallarının istehsalı üçün daha az resurs istifadə etməsi ilə maliyyələşdirilir. |

| 27 | 28 |
|---|---|
| **Məqsəd: vətəndaşlara müvafiq tibbi xidmət göstərmək.** Ödəyə bilənlər üçün bazar qiymətinə tibbi xidmət və müalicə mövcuddur. Bütün şəxslər özəl firmalardan tibbi yardım almırlar. | **Məqsəd: vətəndaşlara müvafiq tibbi xidmət göstərmək.** Tibbi yardım göstərilir, lakin bəzi müalicə və xidmətlər üçün uzun növbələr yaranır. |

**Fəaliyyət:** müzakirə, səh.104

Dövlətin iqtisadi funksiyalarının infoqrafikasından istifadə edin və onun əsasında “ticarət” kartlarını müzakirə edin,

**Suallar:**

- Dövlətin iqtisadi funksiyalarının infoqrafikasından istifadə edin (səh. 103) və onun əsasında “alış-veriş” kartlarını müzakirə edin, xüsusilə də dövlətin iqtisadi funksiyası və ya funksiyaları hansı məqsədə xidmət edir və ya xidmət edə bilməz? Məqsədə necə nail olmaq olar?
- Dövlət funksiyalarından birini seçin. Bazar iqtisadiyyatında necə işlədiyini təsvir edin.
- Bu və ya digər dövlət proqramının icrası sizə necə təsir göstərə bilərdi?
- Konkret vəziyyətlərdə dövlətin iqtisadi rolunu müzakirə edin:
  - ✓ Dövlətin səlahiyyəti Tbilisi bələdiyyəsinə hava limanlarının və digər oxşar nəqliyyat obyektlərinin tikintisində yardım göstərməkdir.
  - ✓ Bu cümlə ilə razısınızmı? Cavabınızı izah edin.
  - ✓ “Xüsusi mülkiyyətin, rəqabətin və mənfəət götürmə motivinin qorunması dövlət tərəfindən bərabərliyin, effektivliyin və qiymət sabitliyinin saxlanılmasının ən yaxşı yoludur”.
  - ✓ Bu cümlə ilə razısınızmı? Fikrinizi əsaslandırın.

- ✓ Şəhər bələdiyyəsi park və meydanların tikintisinə və istismarına pul xərcləməməlidir. Bu, şəxsi biznes məsələsidir. Bu cümlə ilə razısınızmı? Cavabınızı izah edin.

**Fəaliyyət:** modelləşdirmə səh.105
**"Samaia" oynayaq**

Kiçik qruplarda – triadalarda (üçlüklərdə) 3 raund qarşılıqlı dinləmə keçirin. Hər tur 5 dəqiqə davam edəcək. Bu **təlimatları** diqqətlə oxuyun:
1. Üçlüklərə bölünün. Sancaqları bərkidin: A, B, C.
Rolları bölüşdürün: A – natiqdir; B - dinləyicidir; C - arbitrdir.
2. A natiq aşağıdakı mövzular siyahısından mövzulardan birini seçir və mövzu haqqında danışır, fikirlərini bildirir, diqqəti mühüm məsələlərə yönəldir.
B dinləyici A-nı diqqətlə dinləyir və sonra eşitdiyini triadada öz sözləri ilə təkrarlayır, natiqin hekayəsini ümumiləşdirir və nəticə çıxarır. Anlaşılmazlıq olduğu halda, natiqin hekayəti dayandırmaq və onu düzəltmək hüququ var.
C Arbitr nəzarət edir ki, dinləyici natiqin ifadəsindən heç nə buraxmasın və ya deyilənləri təhrif etməsin, nəsə əlavə etməsin və ya şərh etməsin. Sonra 10 ballıq şkalada təkrara görə dinləyiciyə bal yazır.

**Hər bir iştirakçı oyun zamanı 3 dəfə rolunu dəyişir.**

II raundda B iştirakçısı natiq olur - mövzunu seçir və müzakirə edir, C iştirakçısı dinləyici, A iştirakçısı isə arbitr olur.

**Növbəti mərhələdə rollar yenidən dəyişir və hər şey təkrarlanır.**

| Raund | Natiq | Dinləyici | Arbitr |
|---|---|---|---|
| I | A | C | B |
| II | B | A | C |
| III | C | B | A |

**Yadınızda saxlayın!**

- Hər raundda yalnız natiq mövzunu seçir.
- Triadada bir dəfə seçilmiş mövzunun təkrarlanmasına icazə verilmir.
- Hər raund beş dəqiqəlikdir.
- Natiq mövzunu geniş şəkildə müzakirə etməli, yalnız bir neçə ümumi ifadə ilə əhatə etməyə icazə verilmir.
- Müəllim sizi raundun başlanğıcı və sonu haqqında xəbərdar edəcək.

Hazırlaşın, qrup işini bitirdikdən və sinfin nəticələrini müzakirə etdikdən sonra, dinləyicilər kateqoriyasından ən yaxşıları qısa təqdimatda qrupda yüksək qiymət aldıqları mövzunu ümumiləşdirməlidirlər. Bu dəfə bal müəllim tərəfindən yazılır.

**Həm dinləyici, həm də həmin raundun natiqi və arbitri qiymət alır.**
Bir-birinizə yüksək bal almaqda kömək edin!

**Natiqlər üçün təlimat:**

- Mövzuların siyahısını oxuyun;
- İstədiyiniz mövzunu seçin;
- Hekayəni danışarkən əsas məsələləri intonasiya ilə vurğulayın;
- Dediklərinizi nümunələrlə əsaslandırın!

**Müzakirə olunacaq mövzular:**

- Ölkə iqtisadiyyatında qanunun aliliyi;
- Ətraf mühitin mühafizəsi – hökumətin iqtisadi funksiyası;
- Biznesdə ədalət, qanunilik və hesabatlılıq;
- Mənfəət gətirən stimullar;
- Nə üçün dövlət rəqabətə riayət edir?
- İqtisadi ədalət nə deməkdir?
- Kiçik biznes üçün effektiv hüquqi formalar;
- Gürcüstan bazarında real vəziyyət;
- Bazarda firmaların birgə fəaliyyət şərtləri;

- Sahibkarlığın/biznesin inkişafı üçün rəqabətin əhəmiyyəti.
- Gürcüstanda istehlakçıların hüquqları nə dərəcədə qorunur?

**Oyun bitdikdən sonra müzakirə edin:**

- Nə qədər yaxşı dinləyirdiniz?
- Natiqin sözlərini parafraz edərkən onların hər biri üçün çətin olan nə idi?
- Elə bir hal olubmu ki, dinləyici məsələ haqqında danışandan daha çox məlumata malik olsun? Belə halda öz fikrini bildirmək deyil, oyun qaydalarına riayət etmək çətin deyildimi?
- Bu oyun sizə hansı bacarıqlarınızı göstərdi?
- B iştirakçısı A-nın söylədiklərindən nə dərəcədə düzgün nəticə çıxardı?

**Müəllimə tövsiyə:** fəaliyyətləri yekunlaşdırmağa **gəldikdə**, biz bir daha şagirdlərdən hansı məhsulu hazırlayacaqlarını və hələ də hər hansı suallarının olub olmadığını soruşuruq. Bunun ardınca kompleks tapşırıqların təqdimatı və əks əlaqə verilir; inkişafın qiymətləndirilməsi üçün ilkin olaraq hazırlanmış analitik rubrika bu işdə bizə kömək edir.

Fəaliyyətləri başa çatdırdıqdan sonra bir daha kompleks tapşırığı ilə yerinə yetiriləsi məhsulun xüsusiyyətlərinə diqqəti yönəldirsiniz və şagirdlərə təqdimatdan öncə onları maraqlandıran suallar verməyə imkan verirsiniz.

İkinci fəslin sonunda verilmiş şagirdlərin **özünüqiymətləndirmə rubrikasından (səh. 108)** də istifadə edirik.

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?

- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?
- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?
- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?
- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?
- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz?

**Cədvəl 3.**
**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

| **Mövzu:** Sahibkarlıq və biznes<br>**Əsas məsələ** - Dövlət və biznes (kontekst-nümunə " Çizkeykçi" səh. 69-71)<br>**Şagird:** | | |
|---|---|---|
| **Qiymətləndirmə meyarları** | Maksimal bal | Şərh |
| **Cəmiyyət** - şagird bacarmalıdır:<br>• Vekonun şəxsi inkişafını (ideyalar, təhsil, bazar müşahidəsi), onun bir sahibkar kimi ailəsinə/işçilərinə/müştərilərinə/tərəfdaşlarına/cəmiyyətinə müsbət təsirini əsaslandırmağı; | 1.5 | |
| **Demokratiya** - şagird bacarmalıdır:<br>• Vekonun hüquq təhsilini onun iqtisadi hüquqları və öhdəliklərini daha yaxşı başa düşməsi və müvafiq olaraq biznesin hüquqi formalaşması/inkişafı ilə əlaqələndirməyi; Vekonun nümunəsində, dövlət və biznes arasında ziddiyyətlərin/dilemmaların qarşısının necə alına biləcəyini müzakirə etməyi (biznesin qeydiyyatı, vergilərin ödənilməsi, məhsulun keyfiyyətinə diqqət yetirmək...); | 1.5 | |
| **Vətəndaş iştirakı** - şagird bacarmalıdır:<br>• Vekonun biznesini ictimai problemlərə qarşı sosial məsuliyyətin bölüşdürülməsi ilə əlaqələndirməyi (qadınların səlahiyyətlərinin artırılması, evsiz heyvanlara qayğı); sahibkarın öz biznes ideyalarını müdafiə etmək və resursları əldə etmək və seçmək imkanlarını qiymətləndirməyi. | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>• Çizkeyk biznes ideyasında davamlı inkişaf prinsiplərinin nə dərəcədə nəzərə alındığını təhlil etməyi. | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda biz “Çizkeykçi” kontekst-nümunəni seçmişik (səh. 69-71); şagird əvvəlcədən onunla tanış olacaq. Təyin olunmuş gündə tapşırığın şərtlərini veririk:

“Çizkeykçi” hekayətini nəzərdən keçirin və “Nə üçün çizkeykçilərin biznesi uğurludur” haqqında sübutlu esse (150-200 söz) hazırlayın;

**İşinizdə xüsusilə göstərməlisiniz:**

- Veko sahibkarlıq prosesində şəxsən necə inkişaf edir və onun işinin ətrafdakı insanlara/cəmiyyətə müsbət təsiri nədir?
- Veko özünün və başqalarının iqtisadi və digər hüquq və vəzifələrini necə və nə üçün nəzərə alır? Dövlətlə biznes arasında münaqişənin qarşısını nə dərəcədə almaq olar? (Veko biznesinin nümunəsində)
- Vekonun biznesi sosial məsuliyyəti necə bölüşür? Biznes ideyası və müvafiq resursları əldə etmək üçün Vekonun vəkillik qabiliyyətini necə qiymətləndirərdiniz?
- Çizkeyk biznesində davamlı inkişaf prinsiplərinin nə dərəcədə nəzərə alınığını təhlil edin.

**Qeyd:** cavabları ayrılıqda deyil, esse mətnində inteqrativ şəkildə yazmalısınız.

“Sahibkarlıq və biznes” icbari mövzusunun **üçüncü** məsələsi **“Sahibkarların məsuliyyətidir”**; Bu məsələ ilə münasibətdə, şagirdin əvvəlki biliyi əsas kontekst-nümunə - “Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri” və məzmunca ona yaxın nümunələr vasitəsilə aktivləşdirilir:

| Əsas kontekst-nümunə və müqayisə üçün nümunələr | Resurslar |
|---|---|
| **Əsas kontekst-nümunə:**<br>“Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri | • Dərslik səh. 111<br>Müəllim kitabı, **Əlavə 3** , səh. 180 |
| **Müqayisə üçün nümunə 1** .<br>6 sosial müəssisənin tarixi | • Dərslik səh. 117-120 |
| **Müqayisə üçün nümunə 2.**<br>Gürcü xeyriyyəçilərinin hekayələri | • Dərslik səh. 130-135 |
| **Müqayisə üçün nümunə 3.**<br>“Nestle” Hindistanda | • Dərslik səh. 143 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamaq lazımdır ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri öz ixtiyarınızla dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa kontekst-nümunə üçün təyin edə bilərsiniz və ona əsaslanaraq kompleks tapşırığın şərtini formalaşdıra bilərsiniz.
Dərs prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional və sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri kimi xidmət edir.

Kontekst-nümunənin ilkin işlənməsi zamanı müəllim istiqamətləndirici suallar və hərəkətlərlə şagirdlərin diqqətini işlənən alt anlayışlara, hədəf anlayışlarına aid detallara yönəldir; məsələn, konkret halda biz əsas suallarda (Nə üçün biz sosial sahibkarlığı real vətəndaş iştirakı kimi nəzərdən keçirə

bilərik? Konkret sosial müəssisənin nə üçün sosial dəyişikliyin agenti olduğunu necə nümayiş etdirmək olar?) müəyyən etdiyimiz kontekst-nümunə üzərində diqqəti cəmləməyə çalışırıq.

**Hədəf anlayışının müəyyənləşdirilməsi üçün cədvəl**

<table>
<tr><td colspan="4">Mövzu: Sahibkarlıq və biznes<br>Əsas məsələ: Sahibkarların məsuliyyəti<br>Əsas kontekst-nümunə: “Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri</td></tr>
<tr><td>Altməsələ</td><td colspan="2">Altanlayışlar</td><td>Hədəf anlayışı</td></tr>
<tr><td rowspan="2">“Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri<br>(Məişət zorakılığı qurbanlarının ixtisaslarını artırmaq və işə götürmək üçün tərəfdaşlıq kimi)</td><td>Tərəfdaşlıq</td><td>Vətəndaş İştirakının Nərdivanı</td><td>Vətəndaş iştirakı<br>( Nəticələr: 2.4)</td></tr>
<tr><td>Layiqli iş və iqtisadi artım</td><td>Davamlı İnkişaf Məqsədləri</td><td>Davamlı inkişaf<br>( Nəticə: 3 )</td></tr>
</table>

Şagirdin alt məsələ ilə bağlı nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl 1**.), bu rubrikada şagirddən öyrəniləcək mövzu və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərimiz olacağını maksimum ətraflı şəkildə təsvir edirik. Gözləntilər Milli Tədris Planının Nəticələri Taksonomiyasının **nisbi səviyyəsi** ilə üst-üstə düşür. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) ilkin olaraq, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində (**bu gözləntinin real nəticəsi kimi şagirdə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə etməliyəm?);**

b) təlim-tədris prosesinin monitorinqi üçün (**proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Köməkçi alət kimi hansı suallardan istifadə etməliyəm**?);

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks əlaqənin formalaşmasında (**şagirdin nəticəsini təsvir etmək üçün gözləntilərdən hansı ifadələr faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzrə iş üzrə pedaqoji təcrübənin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün (**Hansı əsas təsvirlə bağlı münasibətdə gözləntiləri real şəkildə müəyyən etdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntinin düzgün açarını tapdım? Yanaşmanı harada dəyişməliyəm?)**

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi**<br>**Şagird bacardı:** |
|---|---|---|---|
| **Vətəndaş iştirakı**<br>(Nəticələr: 2.4)<br><br>**“Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri**<br>(Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və işə götürülməsi üçün tərəfdaşlıq olaraq) | 1. Demokratik dövlətdə istənilən şəxs ölkənin ictimai-siyasi həyatına təsir göstərə bilər; | “Penovani” nümunəsindən istifadə edərək, sosial sahibkarlığı vətəndaş iştirakının/hərəkətinin bir forması kimi xarakterizə edin, onun əsas məqsədi zorakılığın qurbanı olmuş qadınların peşə hazırlığı, məşğulluğu və iqtisadi imkanlarının genişləndirilməsi idi, biznes (mənfəət) isə bu sosial problemi azaltmaq üçün bir vasitədir. | |
| | 2. Aktiv vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması və həyata keçirilməsi, könüllülük fəaliyyəti, təbliğat, lobbiçilik) ictimai problemlərin həllinə qayğı göstərirlər. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlar, qeyri-hökumət təşkilatları, dövlət qurumları ilə əməkdaşlıq edirlər; | Qeyri-hökumət təşkilatının bu layihəsini vətəndaş iştirakının nərdivanında müvafiq pillə kimi müzakirə etməlidir, çünki zorakılıq qurbanı olmuş qadınların işə götürülməsi və dəstəkləndirilməsi layihə üçün müxtəlif hökumət, ictimai və biznes təşkilatlarının dəstəyini və əməkdaşlığını tələb edir.<br>Sosial problemlərin həlli üçün tərəfdaşlıq kimi sosial sahibkarlığı göstərməlidir. | |
| | 3. Vətəndaş iştirakı zorakı hərəkətləri istisna edir. | Sosial sahibkarlığın məğzini və əhəmiyyətini qeyri-zorakı yolla alınan investisiyalar və sosial problemlərin həllinə dəstək kimi qiymətləndirməlidir. | |
| **Davamlı inkişaf**<br>(Nəticə: 3)<br>**“Penovani” sosial** | 1. Resurslardan istifadə edərkən, cəmiyyətin maraqlarını və gələcək perspektivlərini nəzərə almaq lazımdır; | “Penovani” müəssisəsinin, orada çalışan qadınların və onların uşaqlarının gələcək perspektivlərini nəzərə almaqla, əhəmiyyətini izah etməlidir. | |

| | | | |
|---|---|---|---|
| **müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri** (Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və işə götürülməsi üçün tərəfdaşlıq kimi) | 2. Yerli aksiyaların qlobal nəticələri var (məsələn, ətraf mühitin qayğısına qalmaq kiçik görünən hərəkətlərdən başlayır (məsələn, zibil atmayın, plastik torbalardan imtina edin). | Yerli və qlobal sosial problemlərin davamlı şəkildə azaldılmasında Penovani müəssisəsinin "hesablanmış və hesablanmamış" nəticələrini ayırmalıdır; | |

Aşağıdakı aralıq/kompleks tapşırıq matrisi **(Cədvəl 2)** kompleks tapşırıq şərtini, qiymətləndirmə meyarlarını və icra mərhələlərini (fəaliyyətlər, resurslar, istiqamətləndirici suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edir.

**Cədvəl 2.**

| **Məsələ: Sahibkarların məsuliyyəti** |
|---|
| **Altməsələ: "** Penovani " sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri (Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və işə götürülməsi üçün tərəfdaşlıq olaraq)<br>**Alt anlayışlar:** *Tərəfdaşlıq* - *Vətəndaş iştirakının nərdivanı;* - **Hədəf anlayışı - Vətəndaş iştirakı (Nəticə: 2.4)**<br>**Altməsələ: "**Penovani" sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri (Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və işə götürülməsi üçün tərəfdaşlıq olaraq)<br>**Alt anlayışlar:** Layiqli iş və iqtisadi artım; Davamlı İnkişaf Məqsədləri<br>**Hədəf anlayışı: Davamlı inkişaf (Nəticə: 3)** |
| **Əsas sual** - Nə üçün biz sosial sahibkarlığı real vətəndaş iştirakı hesab edə bilərik?<br>- **Reklam bukletində** konkret sosial müəssisənin nə üçün sosial dəyişikliyin agenti olduğunu necə göstərmək olar? |

| **Kompleks tapşırıq**<br>“Penovani” sosial müəssisəsinin əhvalatı, digər məlumatlar ilə tanış olun və konkret tarix və digər təcrübələri nəzərə alaraq, “Penovani” müəssisəsi – sosial dəyişikliklər agenti” **reklam bukletini** hazırlayın.<br><br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**<br>• “Penovani” sosial müəssisəsinin missiyası hansı sosial problemi həll etməkdir? Bu problemin səbəbləri və onların əhəmiyyəti nə dərəcədə düzgün müəyyən edilib? **(Vətəndaş iştirakı, əs.təs. 1.)**<br>• Sosial problemi həll etmək üçün seçilmiş yolun düzgünlüyünü və “Penovani” nümunəsindən istifadə edərək, iştirak nərdivanında bir pillə kimi sosial sahibkarlığı təhlil edin. **(Vətəndaş iştirakı, əs.təs. 2.3.)**<br>• “Penovani” müəssisəsinin fəaliyyəti davamlı inkişaf prinsiplərini necə nəzərə alır? Konkret istiqamətlərə əsasən müzakirə edin. **(dayanıqlı inkişaf; əs.təs. 1.2.)** | | |
|---|---|---|
| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>Şagird dərk etməlidir: | **Qiymətləndirmə meyarı :**<br>Şagird bacarır: | İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin: |
| **Vətəndaş iştirakı**<br>1. Demokratik dövlətdə istənilən şəxs ölkənin ictimai və siyasi həyatına təsir göstərə bilər;<br>2. Aktiv vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması və həyata keçirilməsi, könüllülük, təbliğat, lobbiçilik) ictimai problemlərin həllinin qayğısına qalırlar. Bu zaman onlar bir-biri ilə, dövlət qurumları, qeyri-hökumət təşkilatları, dövlət qurumları ilə əməkdaşlıq edirlər;<br>3. Vətəndaş iştirakı zorakı hərəkətləri istisna edir.<br><br>**Davamlı inkişaf**<br>1. Resurslardan istifadə edərkən cəmiyyətin maraqlarını və gələcəyin perspektivini nəzərə almaq vacibdir;<br>2. Yerli tədbirlərin qlobal nəticələri var (məsələn, ətraf mühitə qayğı kiçik görünən hərəkətlərdən başlayır (məsələn, zibil atmayın, plastik torbalardan imtina edin). | **Vətəndaş iştirakı:**<br>• İctimai-siyasi problemlərin səbəblərini təhlil etməyi; onların əhəmiyyətini qiymətləndirməyi **(əs.təs. 1)** ;<br>• Müzakirə mövzusu kimi seçilmiş ictimai-siyasi problemlərin həlli yolları haqqında fikir bildirməyi; mülahizələrdə vətəndaş iştirakının formaları haqqında biliklərdən istifadə etməyi **(əs.təs. 2, 3)** .<br>**Davamlı inkişaf:**<br>• Qlobal nəticələri yerli fəaliyyətlərlə əlaqələndirməyi **( əs təs. 1,2)** | • “Penovani” sosial müəssisəsinin missiyası hansı sosial problemi həll etməkdir? Bu problemin səbəbləri və onların əhəmiyyəti nə dərəcədə düzgün müəyyən edilib? **(Vətəndaş iştirakı, əs.təs. 1.)**<br>• Sosial problemi həll etmək üçün seçilmiş yolun düzgünlüyünü və “Penovani” nümunəsindən istifadə edərək, iştirak nərdivanında bir pillə kimi sosial sahibkarlığı təhlil edin. **(Vətəndaş iştirakı, əs.təs. 2.3.)**<br>• “Penovani” müəssisəsinin fəaliyyəti davamlı inkişaf prinsiplərini necə nəzərə alır? Konkret istiqamətlərə əsasən müzakirə edin. **(Davamlı inkişaf; əs.təs. 1.2)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurs 1.** Dərslik, **III fəsil. Sahibkarların məsuliyyəti** , kompleks tapşırığın şərti, səh. 110
**Resurs 2.** Bukletin hazırlanma proqramı https :// www . youtube . com / watch ? v = ysS 3 Cq 9 AseI
**Resurs 3.** Dərslik, reklam səh. 160

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Buklet nədir? Heç hazırlamısınızmı?
- Hansı komponentlərdən ibarətdir? **(mətn, vizual material)**
- Onun strukturu necədir? **(sərlövhə, giriş, altməsələlər, əsas məlumat, nəticə,...)**
- Reklam bukletinin məqsədi nədir? Ümumiyyətlə? Konkret halda? **(ümumiyyətlə, məhsul və ya xidməti tanıtmaq üçün; bu halda o, sosial reklam funksiyasını da daşıya bilər, çünki müəssisə cəmiyyətin mühüm sosial ehtiyacının həllinə yönəlmişdir)**
- Bukleti necə hazırlaya bilərik? **(material, elektron şəkildə)**

**Müəllimə tövsiyə:** siz ikinci mərhələdə də biznes reklamının məqsədləri, formaları və vasitələri üzərində işləməli olacaqsınız ki, bu da 3-cü resursu nəzərdə tutur. Bu barədə şagirdlərə məlumat verin və izah edin ki, bu zaman onlar kompleks tapşırığın məhsulunun hazırlanmasının təfərrüatlarını daha yaxşı başa düşəcəklər.

**Kompleks tapşırıq**

- Bir neçə dərs ərzində işləməli olacağınız bugünkü tapşırığın nəyə aid olduğunu öz sözlərinizlə formalaşdırın.
- Bənzər forma və məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**Diqqət!**
Kompleks tapşırıq üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda ev tapşırıqlarında istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**

**Hədəf biliklərі:**

**Altməsələ:** **"**Penovani" sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri (Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və məşğulluğu üzrə

tərəfdaşlıq kimi)
**Alt anlayışlar:** *Tərəfdaşlıq - Vətəndaş İştirakının Nərdivanı;* **- Hədəf anlayışı - Vətəndaş iştirakı (Nəticə: 2.4)**
**Altməsələ: "**Penovani" sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri (Məişət zorakılığı qurbanlarının peşə hazırlığı və məşğulluğu üçün tərəfdaşlıq kimi)
**Alt anlayışlar:** Layiqli iş və iqtisadi artım; Dayanıqlı İnkişaf Məqsədləri **- Hədəf anlayışı - davamlı inkişaf (Nəticə: 3)**

Kontekst nümunələrinin ilkin işlənməsi
**Fəaliyyət:** qruplarda işləyin, səh.111

**Birinci mərhələ**
"Penovani" sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri ilə bağlı aşağıda verilən məlumatları fərdi olaraq oxuyun və verilmiş cədvəlin birinci sütununu doldurun: sizin üçün maraqlı, mühüm, yeni olanı yazın, hansı suallarınız yarandı?

**İkinci mərhələ**
Qruplar yaradın, fikirlərinizi və suallarınızı bir-birinizlə bölüşün, verilmiş mətni qrupda yenidən müzakirə edin və qrupda deyilən və sizə maraqlı olan vacib fikirləri ikinci sütuna daxil edin. Cavabı sizə maraqlı olan suallar.

**Üçüncü mərhələ**
Qrupların təqdimatı və müzakirə zamanı sinif yoldaşlarınızı, müəllimin əks əlaqəsini diqqətlə dinləyin və üçüncü sütunda sizin üçün maraqlı olan fikirləri daxil edin;

| Fərdi qeydlər | Qrupda qeydlər | Sinif diskussiyasından və müəllimin əks əlaqəsindən qeydlər |
|---|---|---|
| 1. Qadınların dadlı məhsullar hazırlayaraq yaxşı satdığı çörək sexi yaradıldı. | Çörək sexi zorakılığa məruz qalmış qadınların özlərini və uşaqlarını dolandırmaq üçün işlə təmin olunmaları üçün yaradılıb. | Qeyri-hökumət təşkilatı peşəsi olmayan, işlə təmin olunmayan məişət zorakılığına məruz qalmış qadınlar üçün müəssisə yaradıb, qadınlara əvvəlcə peşə öyrədib, sonra işlə təmin edib, layiqli əmək şəraiti yaradıb. |
| 2. | | Sosial sahibkarlıq əsas məqsədi mənfəət olan adi bir iş deyil. Bu, sosial problemlərin həllinə yönəlmiş layihədir, əsas məqsədi ictimai problemləri azaltmaqdır; |
| 3. | | Bu cür layihələrin həyata keçirilməsi üçün vətəndaş fəalları dövlət və özəl strukturlarla, bir-biri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək resursları birgə tapırlar; |

| | | |
|---|---|---|
| 4. | | Sosial müəssisənin nəticələrini hesablamaq ona görə çətindir ki, konkret bir vəziyyətdə onun benefisiarları üçün zorakılığın, göz yaşlarının və ürək ağrısının qarşısını aldığını və ya bu sülhün qiymətinin nə olduğunu heç kim bilmir. |
| 5. | | Bir çox hallarda erkən nikah məişət zorakılığının ilkin şərtinə çevrilir, çünki erkən nikaha girənlərin təhsil və peşə hüququ məhduddur. |
| 6... | | "Penovani"-də ən mühüm mühit odur ki, qadınların peşə sahibi olması və layiqli işlə təmin olunması onların inkişafına və iqtisadi yüksəlişinə dəstək verəcək. |

**Müəllimə tövsiyə:** Cədvəldə əyanilik üçün nümunə verilir. Yəni şagirdlərin fərdi və ya qrup halında mühüm məsələləri sosial müəssisənin missiyasından, məqsədlərindən və nəticələrindən necə ayıra biləcəklərindən asılı olaraq, sizin əks əlaqənizə ehtiyac da müəyyən olunacaq. O baxımdan da ümumiləşdirilməlidir ki, sosial sahibkarlar problemin səbəblərini azaltmağa diqqət yetirirlər, onlar üçün mənfəət əsas məqsəd deyil, bu mənfəət yalnız sosial problemlərin həlli vasitəsi kimi qəbul edilir.

**Fəaliyyət:** müzakirə edin, səh.115

Yuxarıda verilən əsas kontekst-nümunəyə və qarşıdakı məlumata əsaslanaraq **suallara** cavab verin:

- Sosial sahibkarlığın izahını öz sözlərinizlə formalaşdırmağa çalışın. Sizə məlum olan hər hansı sahibkarlıq fəaliyyəti nümunəsi ilə müqayisə edin;
- "Penovani" sosial müəssisəsi hansı sosial problemə yönəlib?
- "Sosial" adından irəli gələrək, bu müəssisənin əsas missiyası, məqsədi nədir?
- Sosial dövlətin nə demək olduğunu yadınıza salın. Sosial problemlərlə məşğul olmaq kimin vəzifəsidir?
- Sizcə, sosial sahibkarlıq vətəndaş iştirakının formasına aiddirmi?
- Sosial sahibkarlıq vasitəsilə vətəndaş cəmiyyəti bu problemlərə nə kimi təsir göstərir? Vətəndaş sektoru kiminlə və necə əməkdaşlıq edir ("tərəfdaşlıq" sözündən istifadə edərək, təsvir etməyə çalışın);
- Vətəndaş iştirakının nərdivanını xatırlayın. Sizcə, sosial sahibkarlıq hansı pillə ilə əlaqəlidir? Səbəbini əsaslandırın.

| **Vətəndaş iştirakının nərdivanı** | |
|---|---|
| Hökumət nəzarəti | Real vətəndaş iştirakı |
| Hakimiyyət bölgüsü | |
| Tərəfdaşlıq | |
| Sakitləşmə | Rəmzi iştirak |
| Məsləhətləşmə | |

| | |
|---|---|
| Maarifləndirmə | |
| Terapiya | Qeyri-iştirak |
| Manipulyasiya | |

- Penovani müəssisəsinin fəaliyyəti ilə Davamlı İnkişaf Məqsədləri arasında hansı əlaqəni görürsünüz ? Cavabınızı əsaslandırın.

**Fəaliyyət:** cütlükdə işləyin, səh.116

Qruplar yaradın, ifadəni yadınıza salın - "Yerli kimi hərəkət et, qlobal düşün". **Davamlı inkişafın əsas aspektləri göstərilən cədvələ nəzər salın**:

| Davamlı inkişafın əsas aspektlərinin cədvəli | |
|---|---|
| **İnsanlar:**<br>- keyfiyyətli təhsil;<br>- sıfır aclıq;<br>- yoxsulluğun aradan qaldırılması;<br>- sağlam həyat və firavanlıq | **Təbii mühit:**<br>- təmiz su və sanitariya;<br>- okean və dəniz ehtiyatları;<br>- davamlı istehlak və istehsal;<br>- Yerin ekosistemləri |
| **Cəmiyyət:**<br>- layiqli iş, iqtisadi inkişaf;<br>- bərabərsizliyin azaldılması;<br>- Sülh, ədalət, güclü qurumlar;<br>- dayanıqlı şəhərlər və qəsəbələr;<br>- gender bərabərliyi; | **Vasitələr:**<br>- əlverişli və dayanıqlı enerji;<br>- iqlim dəyişikliyinə qarşı tədbirlər;<br>- sənaye, innovasiyalar və infrastruktur;<br>- məqsədlərə çatmaq üçün tərəfdaşlıq |

**Suallar:**

- “Penovani” sosial müəssisəsinin fəaliyyəti hansı aspektlərlə bağlıdır?
- Yerli fəaliyyəti və onun yönəldiyi qlobal problemi adlandırın.
- Bu konkret müəssisənin fəaliyyəti hansı qlobal məqsədləri səsləndirir.
- Niyə belə düşündüyünüzü izah edin, bunu arqumentlərlə əsaslandırın.

**Addım 1. “Penovani” sosial müəssisəsinin missiyası hansı sosial problemi həll etməkdir? Bu problemin səbəbləri və onların əhəmiyyəti nə dərəcədə düzgün müəyyən edilib? (Vətəndaş iştirakı, əs.təs. 1.)**

**Resurs:** dərslik, Sosial sahibkarlıq, səh. 111
**Şagird kitabında** (səh. 129) verilmiş faydalı resurslar:
Sosial sahibkarlıq: http://geoeconomics.ge/?p=13544
Sosial sahibkarlıq nədir: https://www.youtube.com/watch?v=xInCVNQQWgg&t=50s
Sosial sahibkarlıq nə deməkdir: https://bit.ly/3lHaCXW
Gürcüstanın sosial müəssisələri: https://bit.ly/3lLFkiG
#Yeni Gün “Bilik Kafesi” - Tsnoridə sosial müəssisə: https://bit.ly/3xmNKj4
“Arabalar sexi” sosial müəssisəsi: https://bit.ly/3Kb6Iku
Sosial müəssisə nədir? https://bit.ly/3Sfrh19
Sosial sahibkarlıq nə deməkdir: What Does Social Entrepre- neurship Mean https://bit.ly/3xvlsmF

**Fəaliyyət:** qruplarda işləyin, səh.116
Aşağıda özünəməxsusluqları ilə xarakterizə olunan bir neçə müəssisə haqqında məlumat verilir.
Qruplar yaradın, aranızda bir-bir müəssisə paylaşın və **suallara** cavab verin:

- Müəssisənin məqsədi və missiyası nədir, kimlər üçün nəzərdə tutulub, kimlər işlə təmin olunub?
- Sizcə, bu müəssisənin fəaliyyəti davamlı inkişaf məqsədləri ilə nə dərəcədə bağlıdır? Konkret olaraq hansı məqsədlə və nə üçün belə düşünürsünüz?
- Bu müəssisənin “Penovani” müəssisəsi ilə hansı ortaq xüsusiyyətləri var?
- İstehsalat ilə sosial müəssisə arasında hansı oxşarlıqlar/fərqlər var?
- Bu müəssisə hansı ictimai qrupun maraqlarının qayğısına qalır?
- Onun fəaliyyətini yuxarıda nəzərdən keçirilən iştirak nərdivanının pillələri və dayanıqlı inkişaf aspektləri ilə əlaqələndirin;
- Kitabda verilən sosial müəssisənin iki izahının (səh.116 və 118) məzmunu sizin fikrinizə uyğun gəlirmi? Nə əlavə edərdiniz/nəyi dəyişərdiniz?

**Fəaliyyət:** cütlərlə işləyin, səh.123

Kitabda verilən məlumatlar əsasında, sosial sahibkarlığın əsas iştirakçılarını (vətəndaş sektoru, biznes, işçilər, hədəf qrupu, istehlakçılar, cəmiyyət..) və onların arasında əlaqəni əks etdirən sadə bir sxem hazırlayın. Sxemə sosial sahibkarlığın məğzini əks etdirən 2-3 şüar əlavə edin.

**Müəllimə tövsiyə:** Burada sxem və şüarların bəzi sadə nümunələri verilir:
Sosial müəssisə qayğıkeş bir müəssisədir! Sosial Dəyişiklik Agenti! Fəaliyyətlə qayğı!

| | | |
|---|---|---|
| | Dövlət sektoru əməkdaşlıq edir (müxtəlif proqramlar, dəstək) | |
| Vətəndaş sektoru əməkdaşlıq edir (sərmaye, başqa növ iştirak) | Sosial müəssisə qayğı göstərir | Biznes sektor əməkdaşlıq edir (sərmaye) |
| | | |
| Dolayı benefisiarlar - istehlakçılar | | Birbaşa benefisiarlar: işçilər (maaş, iqtisadi müstəqillik .....) |
| | Cəmiyyət (azaldılmış sosial problemlər) | |

- **Addım 2. Sosial problemi həll etmək üçün seçilmiş yolun düzgünlüyünü və "Penovani" nümunəsindən istifadə edərək, iştirak nərdivanında bir pillə kimi sosial sahibkarlığı təhlil edin. (Vətəndaş iştirakı, əs.təs. 2.3.)**

**Fəaliyyət:** qrupda işləyin, səh.126

Alimlər sosial sahibkarlığın əsas xüsusiyyətlərini ayırırlar. Bu xüsusiyyətlər Cədvəldə verilib. Bunların hər birinə "Penovani" müəssisəsinin və aşağıda verilən üç müəssisənin fəaliyyətindən fəaliyyət nümunələrini uyğunlaşdırın.

| | Müvafiq sosial müəssisənin müvafiq fəaliyyətinə dair nümunə |
|---|---|

| **İctimai sektorda** sosial sahibkarlar **dəyişiklik agenti** rolunu yerinə yetirirlər: | **"Penovani" müəssisəsi** | **Çantalar müəssisəsi** | **"Specialisterne" şirkəti** | **"NextDrop" şirkəti** |
|---|---|---|---|---|
| Sosial mənfəətin yaradılması və qorunub saxlanılması (şəxsi mənfəətə görə yox) missiyasını əks etdirməklə | (Məsələn: zorakılığa məruz qalmış qadınların sosiallaşması və məşğulluğu) | | | |
| Missiyanı yerinə yetirmək üçün yeni imkanları tapmaq və istifadə etməklə | | | | |
| Davamlı innovasiya, uyğunlaşma və təlim prosesində iştirak etməklə | | | | |
| Əlindəki resurslarla, özünü məhdudlaşdırmadan, cəsarətli hərəkətlərlə | | | | |
| Hədəf qruplarına və əldə edilmiş nəticələrə qarşı yüksək məsuliyyət | | | | |

| | | | | |
|---|---|---|---|---|
| nümayiş etdirməklə | | | | |

**Müəllimə tövsiyə:** yerinə yetirilən fəaliyyətləri ümumiləşdirmək üçün şagirdlərdən "Penovani" və digər sosial müəssisələrin vəziyyətinin vətəndaş iştirakçılığı nərdivanının hansı pilləsi ilə bağlı olduğunu düşünmələrini xahiş edin və nə üçün? Bu baxımdan da müqayisə edin.

**Fəaliyyət:** müzakirə edin, səh.128

Aşağıdakı vəziyyəti öyrənin və **suallara** cavab verin:

- Lela öz kəndində nə ilə məşğul olur?
- Lela qızılgül satışından əldə etdiyi gəlirlə hansı fəaliyyətə başladı?
- Onun fəaliyyəti sahibkarın standart fəaliyyətindən nə ilə fərqlənir?
- Lela əldə olunan gəliri/mənfəəti nəyə xərcləyir?
- Lelanın fəaliyyəti davamlı inkişafın hansı məqsədinə uyğundur?
- İnsana/insanlara nə təkan verir ki, bir fəaliyyətdən əldə etdikləri mənfəəti digər gəlir gətirməyən fəaliyyətə yatırsınlar?
- Sizcə, Lelanın fəaliyyəti nə qədər uzunmüddətlidir? Onun uzunmüddətliliyinin təminatı nədir?
- Cəmiyyətinizdə sosial sahibkarlıq üçün hansı ideyalarınız var/yaranıb?
- Bu ideyanın həyata keçirilməsi icmanızın üzvlərinə necə kömək edəcək?
- Əgər siz dövlət səviyyəli qərarlar qəbul etsəydiniz, nə edərdiniz, sosial müəssisələrə hansı güzəştləri təsis edərdiniz?

**Resurs:** dərslik, Sosial sahibkarlıq, yoxsa xeyriyyəçilik? səh. 130

**Fəaliyyət:** qruplarda işləyin, səh.130

3 qrup yaradın, aşağıda verilən hekayələri bir-bir bölüşdürün; Davit Saracişvili, Zubalaşvili qardaşları və "Tiflis" xeyriyyə və təhsil cəmiyyəti haqqında məlumatla tanış olun və **suallara cavab verin**:

- Sizcə, təqdim olunan tarixi şəxsiyyət/lər hansı sahədə fəaliyyət göstəriblər?
- Azad bazarın əsas məqsədi nədir?

- Sosial sahibkarlıqda mənfəət əldə etmək məqsəddir, yoxsa vasitə? İzah edin, nə üçün?
- Şəxsi istehlak və biznesə investisiyadan başqa, bu insanların qazancı nə üçün istifadə olunurdu?
- O dövrün və ya müasir sahibkarların hamısı xeyriyyəçiliklə məşğuldurmu? İzah edin, nə üçün?
- Sizcə, insanları xeyriyyəçiliyə sövq edən nədir? Konkret nailiyyətli sahibkarı böyük xeyriyyəçilik etməyə sövq edən nədir?
- Sizcə, şəxsi məmnuniyyət hissi xeyriyyəçiliyə təkan verirmi?
- Onların xeyriyyəçiliyi nəyə yönəlmişdi? Konkret bir misal göstərin. Sonra isə təhlil edin ki, onlar adı çəkilən sosial problemlərin nəticələrinin aradan qaldırılmasına-azaldılmasına qayğı göstərirdilər, yoxsa bu problemlərin səbəblərinin aradan qaldırılmasına?
- Vətəndaş iştirakının formalarını, iştirak nərdivanının pillələrini xatırlayın - sizcə, onlardan hansı xeyriyyəçiliklə bağlıdır/ nə üçün?

**Fəaliyyət:** qruplarda işləyin, səh.136

Aşağıdakı nəzəri material və statistika ilə tanış olun, xeyriyyəçiliyin öncəki hallarını xatırlayın; sosial sahibkarlıq və xeyriyyəçiliyi müqayisə edən "Venn diaqramı" yaratmaq üçün istifadə edəcəyiniz xüsusiyyətləri təsvir edin və onu sinfə təqdim edin.

**Fəaliyyət:** müzakirə, s.136

**Suallar üzrə** müzakirə aparın**:**

- Bütün yaxşı sahibkarlar sosial sahibkar ola bilərlərmi? Niyə?
- Bütün sosial sahibkarlar biznesdə uğur qazanacaqlarmı? Niyə?

**Fəaliyyət:** qruplarda işləyin, səh.138

4 qrup formalaşdırın, hər bir qrup icmasını narahat edən sosial problemi müəyyənləşdirməli, bu problemin səbəblərini ayırd etməli və bunları nəzərə almaqla sosial müəssisənin fəaliyyətini planlaşdırmalıdır. Onun sosial missiyasını, imkanlarını və risklərini və əldə etmək istədikləri nəticəni müəyyən etməlidir.

**Addım 3. "Penovani" müəssisəsinin fəaliyyəti davamlı inkişaf prinsiplərini necə nəzərə alır? Konkret istiqamətlərə əsasən müzakirə edin. (Davamlı inkişaf; əs.təs. 1.2)**

**Resurs:** dərslik, Korporativ sosial məsuliyyət; səh. 139

**Şagird kitabında** (səh. 150) **verilən faydalı resurslar**:

Korporativ Sosial Məsuliyyət Məlumat Mərkəzi Habi: www.csrgeorgia.com

Pro Bono Gürcüstan: https://bit.ly/3Y1gk5t

**Fəaliyyət:** müzakirə edin , səh. 139 (**ümumiləşdirici tapşırıq üçün kontekst nümunəsi olaraq "Çizkeykçi" əhvalatından istifadə etsək, bu fəaliyyəti yerinə yetirmirik. Bu matrisin sonundakı səhifə 84-ə baxın).**

Aşağıda verilən məqaləni oxuyun və suallara cavab verin:

- Şirkətin yeni strategiyası sosial sahibkarlığa nə dərəcədə uyğundur?
- Sizcə, şirkət sahibinin yeni ideyasının mənfəət vektorunu dəyişməsinə səbəb nə oldu?
- Şirkətin fəaliyyəti iqlim dəyişikliyinin dayandırılmasına nə dərəcədə kömək edəcək? Cavabı əsaslandırın;
- Sizcə, nə üçün şirkət sahibi özünün maliyyə vəziyyətindən utanırdı?
- Nə üçün istehsalçı öz məhsulları üçün antireklam təqdim edir?
- Sizcə, ictimaiyyət belə bir strategiyaya etibar edirmi? Nə üçün?
- Şirkətin qurucusu planeti hansı üsullarla xilas etmək niyyətindədir?
- Sizcə, yeni strategiyadan sonra brendin məhsullarına istehlakçı tələbatı artıb, yoxsa azalıb?

**Fəaliyyət:** müzakirə, səh. 142

Korporativ sosial məsuliyyətə nümunə olaraq "Nestle" şirkətinin Hindistandakı fəaliyyətini göstərmək olar. "Nestle" şirkətinin dünyanın 84 ölkəsində 456 zavodu var və müxtəlif məhsullar buraxır. O cümlədən: uşaq yeməkləri, Nescafe, Nesquik, Nuts, Maggi şorbaları və s. Bu əhvalatla tanış olun və **suallara** cavab verin:

- Şirkətin Hindistanda biznesə başlaması üçün əsas nə oldu?
- Şirkət müəssisəni inkişaf etdirmək üçün hansı strategiyanı həyata keçirdi?
- Şirkət əlavə investisiyalar tələb edən hansı konkret addımlar atdı?
- Şirkətin qərarı sosial məsuliyyət nümunəsi idimi?
- Şirkətin Moqada nə kimi mənfəəti var idi?

**Fəaliyyət:** qrupda işləyin, səh. 146

Qruplara bölünün, hər bir qrup bütün vəziyyətləri müzakirə etməli və aşağıdakı suallardan istifadə edərək, onları siniflə müzakirə etməlidir.

**Suallar:**

- Aşağıdakı şirkətlərin hekayələri bir-birinə necə bənzəyir?
- Bu şirkətlər sosial müəssisədirmi? Nə üçün? Cavabı əsaslandırın;

- Bu şirkətlərlə sosial müəssisələr arasında hansı fərqləri tapdınız?
- Öz işçilərinin qayğısına qalırmı və eyni zamanda, şirkət sosial problemlərlə məşğul olurmu? Öz adının qayğısına qalırmı?
- Dünyada, Gürcüstanda başqa şirkətin oxşar yanaşması haqqında eşitmisinizmi?
- Şirkət sahibinin vətəndaşlıq mövqeyini daha çox gördünüz və ya əməkdaşların?
- Nə üçün şirkət maaşını saxlamaqla işçini ayda ən azından bir gün vətəndaş fəallığı üçün azad etməlidir?
- İşçilərin həqiqətən könüllü fəaliyyətlə məşğul olacaqlarına hansı zəmanət var? Yaxud görülən işləri necə yoxlamaq olar? Hansı şirkətin strategiyasını daha çox bəyəndiniz və nə üçün?
- Hansı şirkəti yaxşı vətəndaş hesab edərdiniz? Cavabı əsaslandırın;
- Əgər siz müəssisənin/şirkətin rəhbəri olsaydınız, belə bir sosial məsuliyyəti yerinə yetirmək üçün aşağıda təkliflərdən necə bir strategiya seçərdiniz? Nə üçün?
- Seçdiyiniz şirkət üçün yeni proqram (korporativ sosial məsuliyyət strategiyası çərçivəsində) düşünün, onu əsaslandırın və həyata keçirilməsi və ünsiyyət üçün fəaliyyət planı yazın.

**Fəaliyyət:** müzakirə edin, səh. 150

Yuxarıdakı qadınların gücləndirilməsinin yeddi prinsipinə əsasən, suallara cavab verin;

- Nə üçün qadın iqtisadi cəhətdən güclü olmalı və heç kimdən asılı olmamalıdır?
- Qadın bunun üçün nə edə bilər? Öz işini qurmaq üçün xüsusi hazırlıq lazımdırmı, yoxsa ən əsası arzu və çalışqanlıqdır?
- Qadınların gücləndirilməsinin 7 prinsipindən hansını daha vacib hesab edirsiniz? Nə əlavə edərdiniz? Nəyi çıxarardınız?

**Resurs:** genişləndirilmiş sahibkarlıq öhdəliyi (GSÖ). səh. 151

**Fəaliyyət:** qruplarda işləyin, səh. 151

Aşağıdakı meyarlara görə qruplara bölünün: istehlakçı, sahibkar, hökumət üzvü, azyaşlı şagird, yetkin vətəndaş.
Aşağıda tullantıların idarə edilməsini (resiklə qaytarılma) əks etdirən fotoşəkil verilir. Fotonun əsasında qısa hekayə qurun. Yuxarıda bölünmüş rola əsasən hekayəni müzakirə edin və suallara cavab verin:

**Suallar**:

- Resiklə qaytarılmanın çox yayılmış növlərini xatırlayın;
- Şagird onlardan hansını yerinə yetirə bilər? Bəs sən şəxsən?
- Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün resiklə qaytarılmanı necə xarakterizə edərdiniz?
- Rolunuzdan irəli gələrək, nəyi bölüşərdiniz və ya dəyişərdiniz?

- Digər qruplara daha yaxşı etmək üçün nəyi məsləhət görərdiniz?
- Hansı növ əşyaların resiklə qaytarılmasına çox diqqət verərdiniz?
- Resiklə qaytarılma prosesində kimin rolunu həlledici hesab edirsiniz? Nə üçün?
- Resiklə qaytarılma prosesi kimə aid olmamalıdır? Nə üçün?
- Bu fəallıq hansı davamlı inkişaf məqsədini/məqsədlərini əhatə edir?

**Fəaliyyət:** yadınıza salın!

**Müəllimə tövsiyə:** şagirdlərə artıq yerinə yetirilmiş qrup işini xatırladın (səhifə 116-da), burada "Penovani"-nin fəaliyyətinin hansı qlobal məqsədə uyğun olduğunu müəyyən ediblər. Ümid edirik ki, şagirdlərin özləri düzgün nəticə çıxaracaqlar ki, "Penovani"-nin fəaliyyəti sosial aspektlərlə və "ləyaqətli məşğulluq və iqtisadi imkanların gücləndirilməsi" məqsədi ilə bağlıdır və eləcə də, gender bərabərliyi ilə də sıx bağlıdır.

**Fəaliyyət:** müzakirə edin, səh. 159

Vətəndaşlıq fənninin tədrisi zamanı müəlliflər davamlı inkişafın məqsədlərini hər zaman önə çəkirlər. Bu 17 məqsədlə bağlı biz çoxlu nümunələri, vəziyyətləri müzakirə etdik, dəfələrlə müzakirələr, debatlar apardıq. Ehtimal ki, aranızdan bəziləri sahibkar və iş adamı olacaq və həm də çox uğurlu olacaqsınız. Sinfin digər hissəsinin isə sahibkarlıqla, bizneslə heç bir əlaqəsi olmaya bilər.

**Suallar**:

- Sizcə, bəs nə üçün müəlliflər bizə sosial sahibkarlıq, genişləndirilmiş istehsalçı məsuliyyəti və ya sosial korporativ reaksiya məsələləri ilə tanış olmağı və dərk etməyi təklif edirlər? Bu hansı məqsədə xidmət edir?
- Davamlı inkişaf məqsədlərini yerinə yetirmək üçün gələcək kabinetinizdən nələr edə bilərsiniz?

**Resurs:** dərslik, Reklam səh. 160

**Fəaliyyət:** müzakirə edin, səh. 160

**Suallar:**

- Bu yaxınlarda diqqətinizi çəkən reklamı yadınıza salın. O, nəyə aid idi, sizə nə təklif edirdi? Nə üçün digər reklamlardan fərqləndirdiniz? Bu reklamla harada tanış olmusunuz?
- Reklamını tez-tez gördüyünüz məhsulu adlandırın. Bu sizə nə kimi təsir göstərir?
- Sizcə, reklam nə üçün hazırlanır?

- Şirkətlər nə üçün reklama pul xərcləyirlər?
- Reklamın təsiri altında aldığınız mal və ya xidmətləri adlandırın. Nə üçün almağa qərar verdiniz?
- Reklam vasitəsilə aldığınız məhsul haqqında təsəvvürünüz özünü doğrultdumu?
- Aşağıda reklamla bağlı 2 komiks verilir.
- Bir məhsul və ya xidmət seçin və komik personajların reklam mətnini səsləndirin;
- Hal-hazırda bu növ reklamlar mövcuddurmu? Hansı reklam növünə üstünlük verirsiniz?
- Reklamları ən çox harada görürsünüz?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 162

Qruplara bölünün və püşkatma yolu ilə qrupunuz üçün maraqlı olan məhsul və ya xidməti seçin və istehlakçıları cəlb etmək üçün reklam fikirləşin.

- Nə istifadə etməli olduğunuzu düşünün? Reklam məhsulunu yaratdqda, nələrə diqqət etməlisiniz?
- Qrupunuz tərəfindən yaradılan reklam öz təyinatını necə yerinə yetirəcək?
- İstehlakçını cəlb etmək üçün hansı komponentlər işləyəcək?

Necə nəzərə alınıb:

- ✓ Məhsulun keyfiyyəti?
- ✓ Dəb meylləri?
- ✓ Əlverişli qiymət?
- ✓ Reklamınızda fərqləndirici, orijinal nədir?
- ✓ Hədəf qrupunun yaşı?

Reklamınızı sinifdə nümayiş etdirin və qarşılıqlı qiymətləndirməyə qulaq asın

**Fəaliyyət:** modelləşdirmə, səh. 164

**Mükafat kimə düşəcək?**

Təsəvvür edin ki, siz ticarət şirkətinin nümayəndəsisiniz və mühüm işgüzar sövdələşməyə hazırlaşırsınız. alınan pul şirkətə təcili lazımdır. Müştəri tərəddüd edir, yaxşı düşünməli olduğunu deyir. Vaxt keçir, o isə qərar verə bilmir.

Şirkət rəhbəri işçilərə malı elə reklam etməyi tapşırıb ki, tez bir zamanda malın alınmasına qərar verilsin. Rəhbər tapşırığı uğurla yerinə yetirən işçiyə mükafat olaraq məbləğin 2%-ni vəd edir. Bu, külli miqdarda məbləğdir.

**Nə edəcəyinizi düşünün, bu problemin öhdəsindən necə gələrdiniz?**

**Rolları paylaşın:**

- ✓ Bir nəfər qərar verməkdə çətinlik çəkən müştəri rolunu oynayacaq.
- ✓ Beş şagird şirkətin nümayəndələri olacaq. Hər biri müstəqil olaraq istehlakçıya təsir edən və satın alma qərarına gətirən strategiya haqqında düşünür.

İnandırma səhnəsini oynayın. Hər bir iştirakçı əvvəlki turda başqa oyunçu ilə əldə etdiyi nəticədən asılı olmayaraq, müstəqil olaraq müştərini 2 dəqiqə ərzində inandırmağa çalışır.
Sinfin qalan hissəsi oynanılan səhnələri müşahidə edir.
**Müzakirə ilə yekunlaşdırın: Yaxşı işləyən nə oldu? Nə üçün?**

**Fəaliyyət:** müzakirə edin, səh. 164

- Reklama çox pul xərcləyən və qiymətlərini isə rəqibləri səviyyəsində saxlayan iş adamlarının strategiyasını necə izah edərsiniz?
- Nə üçün bəyənmədiyiniz reklamları uzun müddət xatırladığınızı izah edin?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 165
**Məhsulumun/xidmətimin reklamı**
İstehlakçıları cəlb etmək məqsədilə, məhsulunuz/xidmətiniz üçün qısa, iki dəqiqəlik reklam hazırlayın. Qruplarda reklam plakatı və təqdimat hazırlayın. İşləmək üçün 10 dəqiqə vaxtınız var.
**Unutmayın ki**, reklamınız zamanın tələblərinə cavab verməli, reklamı qəbul edən şəxsə məhsulun/xidmətin güclü təsir xüsusiyyətləri barədə məlumat verməlidir. Reklamın darıxdırıcı, yorucu olmaması üçün fikrinizi qısa şəkildə bildirin.

**Nəzərinizdən qaçırmayın**

- Məhsulun/xidmətin adını;
- Məhsulun/xidmətin xüsusiyyətlərini;
- Məhsulun/xidmətin əldə edilmə şərtləri, yeniliklər, rəqiblərdən fərqli əlavə xidmətlər.
- Başqa nə əlavə edərdiniz?

**Təqdimatdan sonra təhlil edin:**
1. Reklamın hansı komponentlərindən (mətn, bədii, yumor, hekayə, musiqi, qrafika, animasiya) istifadə etmisiniz?
2. Reklamda nəyi dəyişərdiniz? Səhnəni oynadıqdan sonra sizə nə qeyri-effektiv göründü? Effektiv?
3. Təqdim olunan reklamda potensial istifadəçi üçün maraqlı hər hansı bir məlumat nəzərdən qaçırılmamışdı?

**TAPŞIRIQ**

Aşağıdakı linklərdən (ən çox bəyəndiyiniz) reklamlardan birini seçin və izah edin:

- Seçilmiş reklamı hansı meyarlara görə qiymətləndirdiniz?
- Heç reklam məhsulunu almaq istəmisinizmi?
- Reklam nə dərəcədə müsbətdir?
- Reklam hansı yaş qrupu üçün nəzərdə tutulub?
- Siz hansı reklam yayımı formasını seçərdiniz?
- Reklam müəllifi məhsulun hansı gücünə diqqət yetirir?
- Reklam çarxına nə əlavə edərdiniz? Və ya nəyi çıxarardınız?

https://bit.ly/3LRn7tC
https://bit.ly/3EcBXYM
https://bit.ly/3lLIvH8
https://bit.ly/3M0hYPX
https://bit.ly/3Egmirm
https://bit.ly/3Kk3R8T
https://bit.ly/3k3GJAV
https://bit.ly/3YGkno1

**Müəllimə tövsiyə**: Vaxt az olduqda, bu paraqrafda verilən fəaliyyətlərdən 1-2 fəaliyyət seçə bilərsiniz ki, bu da şagirdlərə reklamın mahiyyətini anlamağa kömək edəcəkdir. Bu təcrübə onlara diqqəti cəlb etmək üçün kompleks tapşırığın son məhsulunun, “Reklam kitabçasının” hazırlanmasında faydalı olacaq. Bu paraqrafda reklam haqqında məlumat əsasən kommersiya reklamına aiddir. Məsələn, sosial reklamın xüsusiyyətlərini vurğulamaq üçün bundan istifadə edə bilərsiniz. Çünki onların hazırlıq məhsulu olan kitabça sosial reklamlara aid olmalıdır. O, “Penovani” sosial müəssisənin öz benefisiarlarının (işçilərinin) vəziyyətini dəyişməyə çalışarkən cəmiyyətə gətirdiyi ictimai faydaları vurğulamalıdır.
Ümumiləşdirmək üçün, cavabsız suallar varsa, şagirdlərdən bir daha hansı məhsulu hazırlayacaqlarını soruşuruq. Sonra onların kompleks tapşırıqlarının təqdimatı və əks əlaqəni; bu işdə bizə əvvəldən hazırlanmış inkişafetdirici qiymətləndirmənin analitik rubrikası kömək edir.

Eləcə də birinci fəslin sonunda verilmiş şagirdlərin özünüqiymətləndirmə rubrikasından (səh. 166) istifadə edirik.

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?
- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?
- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?
- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?
- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz?

**Diqqət!** III və IV fəsillərdə ("Sahibkarların Məsuliyyəti" və "Biznesin Davamlılığı") verilmiş məsələlər üçün dördüncü matrisin sonunda (səh. 100) birgə müəyyənləşdirici qiymətləndirmə rubrikası və bir ümumiləşdirici tapşırığın şərti verilir.

Tövsiyəyə əsasən, ümumiləşdirici tapşırığa konkretliyi itirməmək üçün bir və ya iki məsələ daxil edilə bilər;

"Sahibkarlıq və biznes" mövzusunda **dördüncü** əsas məsələ "**Biznesin davamlılığı**"-dır. Bu məsələ ilə bağlı şagirdin öncəki bilikləri konkret məlumatlarla, "Biznesin davamlılığı anlayışında dəyişikliklər" və məzmun baxımından ona yaxın misallarla aktivləşdirilir:

| Əsas kontekst-nümunə və müqayisə üçün nümunələr | Resurslar |
|---|---|
| **Əsas kontekst-nümunə:**<br>"Biznesin davamlılığı anlayışında dəyişikliklər" | • Dərslik səh. 170<br>Müəllim kitabı, **Əlavə 4** , (səh. 183) |
| **Müqayisə nümunəsi 1**<br>Nikanın vəziyyəti | • Dərslik səh. 174 |
| **Müqayisə üçün nümunə 2.**<br>Biznesin davamlılığına təsir edən amillər | • Dərslik səh. 180 |
| **Müqayisə üçün nümunə 3.**<br>Nino və Meqinin vəziyyətləri (dairəvi iqtisadiyyatın nümunəsi kimi) | • Dərslik səh. 198 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.

Dərs prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional və sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri kimi xidmət edir.

Kontekst nümunəsinin ilkin işlənməsi zamanı müəllim istiqamətləndirici suallar və hərəkətlərlə şagirdlərin diqqətini üzərində işlənən alt anlayışlara, hədəf anlayışına aid detallara yönəldəcək; məsələn, konkret halda biz əsas suallarda müəyyən etdiyimiz kontekst nümunəsinə diqqət yetirməyə çalışırıq (Nə

üçün IKEA davamlı biznes anlayışını dəyişir və resurs-istehlakçı münasibətlərini təkrar iqtisadiyyat yanaşması ilə əvəz edir? Necə ola bilər? Sinif yoldaşlarıma hər bir sahibkarın ətraf mühitə olan bağlılığının yerli yanaşmanın necə qlobal nəticələrə gətirib çıxardığını göstərirəm?).

**Hədəf biliyinin müəyyənləşdirilməsi üçün cədvəl**

<table>
<tr><td colspan="4">Mövzu: Sahibkarlıq və biznes<br>Əsas sual: biznesin davamlılığı<br>Əsas kontekst nümunəsi : biznesin davamlılığı anlayışında dəyişikliklər</td></tr>
<tr><td>Altməsələ</td><td colspan="2">Alt anlayış</td><td>Hədəf anlayışı</td></tr>
<tr><td>Biznesin davamlılığı anlayışında dəyişikliklər</td><td>Davamlı istehlak və istehsal</td><td>Davamlı İnkişaf Məqsədləri</td><td>Davamlı inkişaf<br>( Nəticə 3 )</td></tr>
</table>

Şagirdin alt məsələ ilə bağlı nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl 1**.), bu rubrikada şagirddən öyrəniləcək mövzu və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərimiz olacağını maksimum təfərrüatlı şəkildə təsvir edirik. Gözləntilər Milli Tədris Planının Nəticələri Taksonomiyasının **nisbi səviyyəsi** ilə üst-üstə düşür. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:
a) ilkin olaraq, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində (**bu gözləntinin real nəticəsi kimi şagirdə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə etməliyəm?);**
b) təlim-tədris prosesinin monitorinqi üçün (**proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Köməkçi alət kimi hansı suallardan istifadə etməliyəm**?);
c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks əlaqənin formalaşmasında (**şagirdin nəticəsini təsvir etmək üçün gözləntilərdən hansı ifadələr faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**
d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzrə iş üzrə pedaqoji təcrübənin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün (**Hansı əsas təsvirlə bağlı münasibətdə gözləntiləri real şəkildə müəyyən etdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntinin düzgün açarını tapdım? Yanaşmanı harada dəyişməliyəm?)**

**Cədvəl** 1.
**İnkişafetdirici qiymətləndirmə rubrikası**

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi**<br>**Şagird bacardı:** |
|---|---|---|---|
| **Davamlı inkişaf**<br>(Nəticə 3)<br><br>**Davamlı biznes anlayışı** | 1. Resurslardan istifadə edərkən cəmiyyətin maraqlarını və gələcək perspektivlərini nəzərə almaq lazımdır; | IKEA mebel şirkətinin davamlılığını cəmiyyətin sosial, iqtisadi və ekoloji maraqları ilə əlaqələndirməyi; resurs istehlakını, dövri istehlakı gələcək perspektivlə müzakirə etməyi;<br><br>Nəzərdən keçirilən və bənzər kontekst nümunələr arasında oxşar və fərqli xüsusiyyətləri tapmağı. | |
| | 2. Yerli hərəkətlərin qlobal nəticələri olur (məsələn, ətraf mühitə qayğı kiçik görünən hərəkətlərdən başlayır (məsələn, zibil atmayın, plastik torbalardan imtina edin) | Biznesin, xüsusilə də mebel şirkəti IKEA-nın davamlılıq konsepsiyalarının dəyişməsini resurs istehlakçı münasibətinin ətraf mühitə qayğıkeş və məsuliyyətli münasibətlə əvəz etməyi əlaqələndirməyi.<br><br>Əldə edilmiş biliklərin şəxsi və ictimai fayda üçün nə vaxt və necə istifadə oluna biləcəyini təhlil etməyi. | |

Aşağıdakı aralıq/kompleks tapşırıq matrisi **(Cədvəl 2)** kompleks tapşırıq şərtini, qiymətləndirmə meyarlarını və həyata keçirmə mərhələlərini (fəaliyyətlər, resurslar, rəhbər suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edir.

**Cədvəl 2.**

<table>
<tr><td colspan="3">Sual: Davamlı biznes</td></tr>
<tr><td colspan="3">Altməsələ: biznesin davamlılığı anlayışında dəyişikliklər<br>Alt anlayışlar: davamlı istehlak və istehsal; Dayanıqlı İnkişaf Məqsədləri - Hədəf anlayışı – Davamlı inkişaf (Nəticə: 3)</td></tr>
<tr><td colspan="3">Əsas sual – Nə üçün IKEA davamlı biznes anlayışını dəyişir və resurs-istehlakçı münasibətlərini təkrar emal iqtisadiyyatı yanaşması ilə əvəz edir?<br><br>Biznes planımdan və şərhlərimdən istifadə edərək, hər bir sahibkarın ətraf mühitə yerli yanaşmasının qlobal nəticələrə gətirib çıxardığını sinif yoldaşlarıma necə göstərə bilərəm?</td></tr>
<tr><td colspan="3">Kompleks tapşırığın şərti<br>Aşağıdakı məlumatlara baxın: “Biznesin davamlılığı anlayışının dəyişdirilməsi”; davamlı biznes üçün zəruri hesab etdiyiniz meyarları təsvir edin və onları nəzərə alaraq, məqsədlərinizi və onlara nail olmaq üçün istifadə olunan yanaşmaları təsvir etdiyiniz biznes planını tərtib edin. Plana izahatlarınızı və gözləntilərinizi şərh kimi əlavə edin;<br><br>İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:<ul><li>Planınız cəmiyyətin maraqlarına və gələcək perspektivlərinə nə dərəcədə uyğundur? Nə üçün bu konsepsiyaya üstünlük verirsiniz? (Əs.təs.1)</li><li>Qarşıya qoyduğunuz plan (resurs, məhsul, texnologiya, tullantıların idarə edilməsi, işçilərə qayğı göstərmək...) davamlı inkişafın əsas aspektlərinə nə dərəcədə cavab verəcək? Konkret olaraq izah edin. (Əs.təs. 2)</li></ul></td></tr>
<tr><td>Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər<br><u>Şagird dərk etməlidir, ki:</u></td><td>Qiymətləndirmə meyarı:<br><u>Şagird bacarır:</u></td><td><u>İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:</u></td></tr>
<tr><td>Davamlı inkişaf<br>3. Resurslardan istifadə edərkən cəmiyyətin maraqlarını və gələcək perspektivlərini nəzərə almaq lazımdır;<br>4. Yerli hərəkətlərin qlobal nəticələri olur (məsələn, ətraf mühitə qayğı kiçik görünən hərəkətlərdən</td><td>Davamlı inkişaf:<ul><li>Yerli hərəkətləri qlobal nəticələrlə əlaqələndirməyi (Əs. təs. 1, 2)</li></ul></td><td><ul><li>Planınız cəmiyyətin maraqlarına və gələcək perspektivlərinə nə dərəcədə uyğundur? Nə üçün bu konsepsiyaya üstünlük verirsiniz? (Əs.təs.1)</li><li>Qarşıya qoyduğunuz plan (resurs, məhsul, texnologiya, tullantıların idarə edilməsi, işçilərə qayğı göstərilməsi...) davamlı inkişafın əsas aspektlərinə nə dərəcədə cavab</li></ul></td></tr>
</table>

| | | |
|---|---|---|
| başlayır (məsələn, zibil atmayın, plastik torbalardan imtina edin). | | verəcək? Konkret olaraq izah edin. (**Əs.təs.2**) |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (**fəaliyyətlər, resurslar, suallar**)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurs 1.** Dərslik, **IV fəsil . Davamlı biznes;** kompleks tapşırığın şərti, s. 168

**Resurs 2.** Dərslik, Biznesin planlaşdırılması; səh. 198

**<u>Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:</u>**

- Biznes plan nədir? Daha əvvəl bu məhsul üzərində işləmisinizmi? Nə çətin, nə asan idi?
- Biznes planının məqsədi nədir? Bununla hansı nəticələr əldə edə bilərsiniz?
- Biznesinizi necə planlaşdırardınız? Hansı meyarları nəzərə alacaqsınız? Niyə?
- Şərhlərlə biznes planı hansı struktura malik olacaq?
- Biznes planınızın cəlbedici və ətraf mühitə uyğun olmasını təmin etmək üçün nələri nəzərə almalısınız?
- Biznes planın və şərhlərin ilkin variantını yenidən oxuyub düzəltməyə ehtiyac olacaqmı?
- Biznes planını vizual olaraq tərtib etmək üçün nədən istifadə edilə bilər?

**Kompleks tapşırıq**

- Bir neçə dərs ərzində üzərində işləməli olacağınız bugünkü tapşırığın nə olduğunu öz sözlərinizlə ifadə edə bilərsinizmi?
- Oxşar forma və məzmunlu tapşırığı artıq yerinə yetirmisinizmi?

**Diqqət!**

Kompleks tapşırıq üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız istisna hallarda biz ev tapşırıqlarından istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**

**<u>Hədəf bilikləri:</u>**

**Altməsələ: biznesin davamlılığı anlayışında dəyişikliklər. Alt anlayışlar:** davamlı istehlak və istehsal; Dayanıqlı İnkişaf Məqsədləri **- Hədəf anlayışı – Davamlı inkişaf (Nəticə: 3)**

Kontekst nümunəsinin ilkin işlənməsi

**Fəaliyyət:** cütlükdə işləyin, səh. 169

**Birinci mərhələ**

Birlikdə, aşağıda verilən "**Biznesin davamlılığı anlayışında dəyişikliklər**" məlumatı ilə tanış olun və verilmiş cədvəlin birinci sütununu doldurun: sizin üçün maraqlı, vacib, yeni olanı yazın, hansı suallarınız yarandı? Əvvəlki fəsildə araşdırılan məsələlərlə hansı əlaqəni gördünüz?

**İkinci mərhələ**

Təqdimat və müzakirə zamanı sinif yoldaşlarınızı diqqətlə dinləyin və ikinci qrafada hansı vacib məlumatı aldığınızı, eşitdiklərinizdən sizin üçün nəyin maraqlı və vacib olduğunu yazın; cavab almadığınız suallar;

**Üçüncü mərhələ**

Üçüncü sütunda artıq müəllimin əks əlaqəsindən, mətni yenidən nəzərdən keçirdikdən və onu başa düşdükdən sonra ayırdığınız məlumatı yazırsınız.

| **Cütlüyün qeydləri** | **Sinif diskussiyasının qeydləri** | **Müəllimin əks əlaqəsindən və yenidən dərk etdikdən sonra qeydlər** |
|---|---|---|
| **1.** | | IKEA dairəvi iqtisadiyyat modeli üzrə fəaliyyət göstərir ki, bu da onun maliyyə səmərəliliyini artırır; |
| **2.** | | Tullantısız iş "sıfır tullantıdan zibilə" yanaşması ilə bağlıdır, yəni tullantılar təkrar istifadə olunur; |
| **3.** | | Şirkət həm də ətraf mühitə hörmət göstərən təchizatçıları tərəfdaş olaraq seçir. |
| **4.** | | Gələcək ekoloji və sosial prinsipləri nəzərə alaraq, maksimum mənfəət marjasını planlaşdıran bizneslərə aiddir. |
| **5.** | | İlkin mərhələ iqtisadi, ekoloji və sosial imkanları və riskləri idarə edərkən mənfəət artımını maksimuma çatdırmaqdan ibarətdir. |
| **6.** | | İkinci mərhələ iqtisadi, ekoloji və sosial məqsədlərin bərabər əhəmiyyətinin tanınmasıdır. Yəni şirkətdə konkret mövqe və ya xidmət davamlı inkişafa diqqət yetirməsə də, bütün xidmət və ya departament davamlılığı öz məqsədlərinə inteqrasiya edir; |
| **7.** | | Dairəvi iqtisadiyyat modelinin başlanğıcını yalnız bir neçə məsələdə görmək olar. |

**Müəllimə tövsiyə:** arzu olunur ki, şagirdlər özləri davamlı biznes anlayışının inkişaf mərhələlərini, o cümlədən oxşar və fərqli cəhətləri qeyd etsinlər, onlara məlum biznes əhvalatları ilə, əvvəlki fəsildə bəhs olunanlarla paralellər aparsınlar.
Bu, şagirdlərin cavablarında ayırd edilmirsə, yoxlanılan təcrübədən istifadə edin və əks əlaqə formatında konsepsiyaların inkişafı üçün addım-addım prosesi təmin edin. Müqayisə üçün Venn diaqramından da istifadə etmək olar.

**Fəaliyyət:** qruplarda işləyin, səh.172
4 qrup təşkil edin, qlobal məqsədlərin hər bir istiqamətini bölüşdürün və "Biznesin davamlılığı anlayışında dəyişikliklər" məlumatı əsasında müzakirə edin:

- Davamlı biznesin təsviri konsepsiyaları sizin qrupunuz üçün ayrılmış aspektlərə hansı təsir göstərə bilər və necə?
- Hansı konsepsiya sizin üçün vacibdir və onun həyata keçirilməsi yollarını necə görürsünüz?
- Biznes fəaliyyətinin dayanıqlı inkişafın əsas aspektlərinə (istiqamətinizə) uyğunluğunu qiymətləndirmək üçün faydalı olacaq meyarları müəyyənləşdirin.
- Bu meyarlara əsasən, IKEA-nın fəaliyyətini necə qiymətləndirərdiniz? Sübutlar gətirin.
- IKEA-nın yerli fəaliyyətlərini qlobal nəticələrlə əlaqələndirin, konkret nümunələri yoxlayın;
- Yadınıza salın, kitabdan istənilən biznes əhvalatını seçin və onun davamlılığını qiymətləndirmək üçün meyarlardan istifadə edin. Fikirlərinizi əsaslandırın;
- Seçilmiş şirkətin yerli fəaliyyətlərini qlobal nəticələrlə əlaqələndirin, konkret nümunələri yoxlayım;
- Sizcə, bu şirkətlərdə nəyi dəyişmək, gücləndirmək, saxlamaq lazımdır ki, onların fəaliyyəti dayanıqlı inkişafın əsas aspektlərinə uyğun olsun?
- Fəaliyyətini yalnız qlobal sosial məqsədləri nəzərə alaraq planlaşdıran və azad bazar prinsiplərini nəzərə almayan şirkətin bazarda möhkəmlənməsi mümkündürmü? Nə üçün?

Hər bir qrup təqdimat hazırlayır, işlənib hazırlanmış meyarlar ayrıca iş vərəqinə köçürür və sinifdə divara yapışdırır və “biznes plan meyarları bankı” yaradır. Bu bankı doldurmaq və dəyişdirmək mümkündür.

| **Davamlı inkişafın əsas aspektlərinin cədvəli** | |
|---|---|
| **İnsanlar:**<br>- keyfiyyətli təhsil;<br>- sıfır aclıq;<br>- yoxsulluğun aradan qaldırılması;<br>- sağlam həyat və firavanlıq | **Təbii mühit:**<br>- təmiz su və sanitariya;<br>- okean və dəniz ehtiyatları;<br>- davamlı istehlak və istehsal;<br>- Yerin ekosistemləri |

| **Cəmiyyət:**<br>- layiqli iş, iqtisadi inkişaf;<br>- bərabərsizliyin azaldılması;<br>- Sülh, ədalət, güclü qurumlar;<br>- dayanıqlı şəhərlər və qəsəbələr;<br>- gender bərabərliyi; | **Vasitələr:**<br>- əlverişli və dayanıqlı enerji;<br>- iqlim dəyişikliyinə qarşı tədbirlər;<br>- sənaye, innovasiyalar və infrastruktur;<br>- məqsədlərə çatmaq üçün tərəfdaşlıq |
|---|---|

- **Addım 1. Planınız cəmiyyətin maraqlarına və gələcək perspektivlərinə nə dərəcədə uyğundur? Nə üçün bu konsepsiyaya üstünlük verirsiniz? (Əs.təs.1)**

**Resurs:** real bazarda nə baş verir? 169
**Şagird kitabında** (səh. 179) verilən faydalı resurslar:
Bazar təhlili haqqında daha çox məlumat əldə edin: https :// bit . ly /3 DAbnZ 8

**Fəaliyyət:** müzakirə edin, səh. 174
**Suallar:**
- Bir neçə satıcı eyni məhsulu satanda real bazarda nə baş verir?
- Çoxlu satıcı eyni məhsulu satanda real bazarda nə baş verir?
- Alıcıların sayı çox az olduqda bazarda nə baş verir?
- Yəqin ki, "bazarı tərk etdi" ifadəsini eşitmisiniz, bu ifadənin nəyi nəzərdə tutduğunu bilirsinizmi?
- Sizcə, sahibkarı bazarı tərk etməyə məcbur edən şərtlər hansılardır?
- Sahibkarların bir qismi hesab edir ki, bazara nə qədər çox mal çıxarsa, bir o qədər çox qazanc əldə edə bilər. Sizcə, bu məntiqlə işləmək onların davamlı uğurlarını təmin edəcəkmi?
- Sizcə, bazarda davamlılığı saxlayan bizneslərin hamısı davamlıdırmı (hazırladığınız meyarlardan istifadə edin ki, anlaya biləsiniz)?
- Vəziyyətlə tanış olun və Nikaya biznes uğursuzluğunun bütün mümkün səbəblərini anlamağa kömək edin:
- yerin yaxşı olmaması;
- səmərəsiz xidmət;
- pis iş şəraiti;
- aşağı keyfiyyətli mallar;

- yüksək qiymətlər;
- rəqiblərin çoxluğu;
- reklamın olmaması;
- məşhur olmayan, zamanənin tələblərindən geri qalmış mallar və s.?

Qiymətləndirmənizi şərh edin.

**Fəaliyyət:** cütlükdə işləyin, s. 178

Şəkildə eyni bazarda fəaliyyət göstərən beş böyük şirkət göstərilir. Ən böyük pay CC şirkətinə məxsusdur, bu, 40%-ə bərabərdir. CC bazar lideridir.




- Hansı şirkət ən az paya malikdir?
- Bu şirkət payını artırmaq üçün nə etməlidir?
- BA şirkəti öz payını 10% artıra bilsə, CC şirkətinin bazardakı mövqeyi necə dəyişəcək?
- Sizcə, bazar liderliyi necə əldə edilir?
- Müəyyən bir şirkətin davamlılığa münasibəti şirkətin bazar mövqeyinə hansı təsir göstərir? Nə üçün?

**Resurs:** dərslik, Biznesin davamlılığına təsir edən amillər; səh. 180

**Fəaliyyət:** müzakirə edin, səh. 180

İstehlakçı ehtiyaclarına tez reaksiya göstərmək qabiliyyətinə malik olan müəssisə bazarda uzun müddət qalır. Aşağıda verilən vəziyyəti nəzərdən keçirin və **suallara cavab verin:**

- Sizcə, bu şərt biznesin nailiyyəti üçün kifayətdirmi? Cavabı arqumentlərlə əsaslandırın;

- Sizcə, vəziyyətdə təsvir edilən qərarların qəbulu zamanı sahibkarlar hansı motivləri rəhbər tuturlar?
- İnvestisiya yatırımı səviyyəsinə başqa hansı amillər təsir edir?
- Cavabları aşağıdakı biznesin davamlılığına təsir edən amillər sxemi ilə müqayisə edin;
- Sizcə, Gürcüstanda biznesin inkişafına təsir göstərən nədir:

a) Gürcüstanın müasir daxili vəziyyəti?
b) beynəlxalq vəziyyət?
c) dövlət qərarları?
d) qonşu ölkələrlə əlaqələr?
e) İstehlakçının prioritetlərinin dəyişməsi?
f) Gürcüstanda rəqabət aparan müəssisələr bir-biri ilə necə "mübarizə aparır"?
Sizə məlum olan nümunələri yoxlayın.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 183
Aşağıdakı vəziyyətlərlə tanış olun və bölüşdürün, suallara cavab verin.

**Fəaliyyət:** müzakirə, səh. 185
Biznesə təsir edən amillərin istehlakçılara necə təsir etdiyini təhlil edin. Sxem çəkin, təqdimat hazırlayın.

**Müəllimə məsləhət: Biznesin davamlılığına təsir edən amilləri ümumiləşdirərkən şagirdlərdən bu amilləri Dayanıqlı İnkişaf Məqsədləri və xüsusən də "davamlı istehlak və istehsal"** məqsədi ilə əlaqələndirmələrini və suallara cavab vermələrini xahiş edin:
**Suallar:**

- Sizcə, bu məqsədi nəzərə almaqla, biznes uğurlarına nail olmaq mümkündürmü?
- Bu məqsəd biznes planda necə əks oluna bilər?
- Sizcə, biznesin elə əvvəlcədən ətraf mühitə zərər vurmaması, sonra isə öz "izini" silmək üçün resursları sərf etməsi nə üçün vacibdir?
- Belə bir prevensiya istehlakçıların rifahı ilə bağlıdırmı? Sahibkarların özlərinin və ailələrinin rifahı ilə?
- "Dayanıqlı istehlak və istehsal" prinsipini nəzərə alan müəssisələr hansı dilemmalarla üzləşə bilər?
- Sizcə, biznes bu məqsədə çatmaq üçün güzəştə getməlidirmi? Nə üçün?
- Bu yanaşmanın gündəlik reallığa çevrilməsi üçün nə lazımdır?
- Bu müzakirəni biznes planınızda necə nəzərə alacaqsınız?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 185
4 qrupa bölünün. Yuxarıdakı dayanıqlı inkişafın əsas aspektləri cədvəlinin tək-tək istiqamətini bir də bölüşdürün (səh. 167); "Bu maraqlıdır" məlumatını oxuyun və malların qablaşdırılması məsələsini aspektlərinizə uyğun təhlil edin.

**Suallar**:

- Malların qablaşdırılması ilə qrupunuzun işləyəcəyi aspektlər arasında hansı əlaqəni görürsünüz?
- Məhsulun qablaşdırılması ilə bağlı biznes sektoruna nə məsləhət görərdiniz?
- “Biznes plan meyarları bankı”na hansı meyarları əlavə edərdiniz?

**Müəllimə tövsiyə:** şagirdlər təqdimatların ümumiləşdirilməsi nəticəsində ayırd edilən meyarları “Meyarlar Bankı” vərəqinə əlavə edirlər.

**Fəaliyyət: modelləşdirmə: “**Atinati” şirkətini idarə edirik, s. 188

**Qruplarda işləyin**

Biznesin hazırkı və gələcək vəziyyəti haqqında maksimum məlumatı əhatə edən bir cədvəl hazırlayın və bütün mövcud məlumatlara uyğun olaraq doldurun. Hər bir müəssisə üçün müəyyən edin:

- bazar tendensiyaları;
- davamlılıq şərtləri;
- məhsulun keyfiyyəti;
- inkişaf perspektivi.

Vəziyyəti təhlil edərkən **unutmayın ki**, siz “Atinati” şirkətinin inkişafını proqnozlaşdırmağı bacarmalısınız (şirkətin gələcəyini müəyyənləşdirməlisiniz); bunun üçün verilən məlumatları diqqətlə öyrənin. Qruplarda iş vaxtı 20 dəqiqə, təqdimat üçün hər qrupa 5 dəqiqə verilir.

Ən yaxşı nəticə əldə etmək üçün “əqli hücum” metodu ilə işləyin:

- Qrupun hər bir üzvü bu məsələ ilə bağlı hər hansı fikir bildirməlidir;
- Fikirləri vərəqə köçürün;
- Heç bir fikri tənqid etməyin;
- Nəhayət, ideyaları yekunlaşdırın və təqdimat hazırlayın;
- Təqdimatdan sonra opponentlərin suallarını cavablandırmaq üçün 1-2 dəqiqə vaxt ayırın.

**Atinati şirkəti _**

Atinati şirkəti 3 biznes bölməsindən ibarətdir. Sizin məsələniz:

- Onlar haqqında məlumatlarla tanış olmaq;

- Hər bir şirkətin biznesini təhlil etmək və gələcəyini müəyyən etmək;
- Şirkətin bazarda mövcudluğunu davam etdirə biləcəyinə qərar verin? Niyə belə düşünürsünüz izah edin? Əgər işinizin problem içində olduğunu düşünürsünüzsə, vəziyyəti düzəltmək üçün plan qurun və planın təqdimatını hazırlayın.

**"Atinati" şirkəti**

"Atinati" şirkəti 3 biznes vahidindən ibarətdir. Sizin məsələniz:

- Onlar haqqında məlumatlarla tanış olmaq;
- Şirkətin hər bir biznesini təhlil etmək və onların gələcəyini müəyyən etmək;
- Şirkətin bazarda mövcudluğunu davam etdirə biləcəyinə qərar vermək. Niyə belə düşündüyünüzü izah edin? Əgər iş şəraitinin çətin olduğunu hesab edirsinizsə, vəziyyəti düzəltmək üçün plan hazırlayın və planın təqdimatını hazırlayın.

**"Atinati" şirkəti haqqında məlumat**

Uydurulmuş "Atinati" şirkəti haqqında məlumat əldə edin:

"Atinati" Məhdud Məsuliyyətli Cəmiyyəti 3 biznes vahidindən ibarətdir. Bunlar:

1. Sərinləşdirici alkoqolsuz içkilər şirkəti "Sixaruli"

2. "Geoarabika" qəhvə istehsalı müəssisəsi.

3. "Prinsesa" fast food restoranlar şəbəkəsi.

"**Sixaruli**" yeni müəssisədir, bazarda onun payı böyük olmasa da, iki ay əvvəl keçirilən sosioloji sorğunun nəticələrinə əsasən, respondentlərin 60%-i onlara məlum olan keyfiyyətli alkoqolsuz içkilər sırasında "Sixaruli"-nin adını çəkib. "Sixaruli" artıq 5 növ alkoqolsuz içki təklif edir.

"**Geoarabika**" qəhvəni qablaşdıran orta ölçülü müəssisədir. Onun məhsulları Gürcüstan bazarında illər boyu məşhur olsa da, son iki ildə şirkətin keyfiyyəti təmin edə bilməməsi hallarına daha çox rast gəlinir. Bir ay əvvəl müəssisə ticarət şəbəkəsindən çoxlu sayda qüsurlu məhsulu geri qaytarıb. Rəhbərlik məhsulları ikinci dəfə emal etmək və vəziyyəti düzəltmək qərarına gəlsə də, işçilərin diqqətsizliyi ucbatından ikinci dəfə kifayət qədər keyfiyyətsiz qəhvənin emal olunmamış partiyaları ticarət şəbəkəsinə daxil olub ki, bu da alıcıların və mağaza sahiblərinin narazılığına səbəb olub. Dövlət Sanitar Xidməti bu faktla maraqlanıb və qüsurlu qəhvənin istifadəçinin sağlamlığına necə təsir etdiyini araşdırmağa başlayıb. Araşdırmanın

nəticələri dərc olunana qədər istehsal dayandırılıb. Menecerlər hesab edirlər ki, narahatlığa heç bir əsas yoxdur və həm avadanlıq, həm də resurslar tamamilə yeni olduqda, məhsulun keyfiyyətini artırmaq olar. Buna görə də daha yaxşı mütəxəssislərin gətirilməsi ilə problem həll olunacaq.

"**Prinsesa**" bir neçə il əvvəl bir restorandan fəaliyyətə başlayıb. O zaman Gürcüstanda oxşar xidmətlərin təklifi yenilik idi. Bununla belə, çoxlu davamçıları ortaya çıxıb, bazarda özünə yer tapıb, menecer nailiyyətin səbəbi kimi aşpazların çox yaxşı komandasını hesab edir. Restoranda heç vaxt xammalın keyfiyyəti, çatdırılma müddəti və daşınma ilə bağlı problem olmayıb.

**Addım 2. Qarşıya qoyduğunuz plan (resurs, məhsul, texnologiya, tullantıların idarə edilməsi, işçilərə qayğı göstərmək...) davamlı inkişafın əsas aspektlərinə nə dərəcədə cavab verəcək? Konkret olaraq izah edin. (Əs.təs. 2)**

**Resurs:** dərslik, Rəqabət və bazar; səh. 191

**Şagird kitabında** (səh. 197) verilən faydalı resurslar:

Rəqabətin mühafizəsi: https://bit.ly/3HQKsL1
Azad bazar şərtlərində inhisar: https://bit.ly/3kTo2Qk

**Fəaliyyət:** qruplarda işləyin, səh. 191
Aşağıdakı vəziyyətləri paylayın və **suallara cavab verin:**

**VƏZİYYƏT 1**

Cənab Qiorqi hesab edir ki, bazar bir növdə kakao məhsulları ilə doldurulub, buna görə də o, əlverişli fürsətdən istifadə edə və riskli bir iş planlaşdıra bilər: bazara müxtəlif bitkilərin toxumlarından hazırlanmış yenilikdən ibarət, kakao əvəzedici məhsullarını təklif etmək. Qiorqi istehsala bir ay əvvəl başlayıb. Sınaq məhsulunun təbii məhsuldan daha ətirli və dadlı olduğu məlum oldu. Yeni başlayan bir sahibkar bazarı fəth etməkdə qərarlıdır.

**Suallar**:

- Sizcə bu məqsədin həyata keçirilməsi realdırmı?
- Hər bir sahibkarın uğurunun sirri nədən ibarətdir?
- Cənab Qiorqiyə ideyasını gerçəkləşdirməkdə kömək edin. Bunun üçün qruplarda fəaliyyət planı hazırlayın, addım-addım həyata keçirdikdən sonra cənab Qiorqi rəqiblərini məğlub edə biləcək;

- Sahibkar təklif etdiyi malın və ya xidmətlərin keyfiyyətinin məhsulun rəqabət qabiliyyətini təmin edib-etmədiyini əvvəlcədən müəyyən edə bilərmi?
- Biznes bazarda qalma müddətini uzatmaq üçün necə hərəkət etməlidir?
- Planın təqdimatından sonra cənab Qiorqiyə tövsiyələr (ən azı 3 tövsiyə) verin ki, bu halda onun rəqibləri məğlub etməsi daha asan olsun.

**VƏZİYYƏT 2**

Təsəvvür edin ki, şirkətiniz (ad seçin) məktəb çantaları satır. Dərs ilinin əvvəlində şagirdlərın hamısı çanta alıblar. Sizin isə çoxlu malınız qalıb.

**Suallar**:

- Fikirləşin ki, rayonunuzda çanta satmaq məqsədi ilə hansı üsullardan istifadə edərdiniz?
- Bazarda məhsulun uzunömürlülüyünü şərtləndirən amil nədir?
- Şirkətin fəaliyyət planını hazırlayın və təqdimat hazırlayın.
- Unutmayın ki, təqdimat üçün qrupun 5 dəqiqəsi var.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 195

**Bazara necə girmək olar?**
Beş nəfərdən ibarət qruplara bölünün, sizi maraqlandıran biznesi seçin. Fəaliyyətdə olan bazarı müəyyənləşdirin. Sizin məsələniz bu bazarda özünüzü bərqərar etməkdir. Bunun üçün rəqiblər haqqında məlumat toplamalı olacaqsınız. Araşdırın
**Suallar**

- Bu bazarda hansı firmalar liderdir?
- Rəqiblərin məhsul və xidmətlərinin güclü və zəif tərəfləri hansılardır?
- Məhsulun təklif formaları müştəri üçün nə dərəcədə effektivdir?
- Onlara hansı nöqsanlar qalır? Hansı hissədə bu nöqsanlar var: istehsalda, çatdırılmada, yoxsa başqa nədə isə?
- Bu nöqsanları necə doldura biləcəyinizi düşünün;
- Təqdimat hazırlayın. Hər qrupa təqdimat üçün 5 dəqiqə vaxt verilir.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 197
Qruplar yaradın və bazarda rəqabətin aspektlərini nəzərə alaraq, rəqabətə tab gətirə biləcək biznesi planlaşdırarkən nəzərə almalı olduğunuz meyarlar hazırlayın.

**Resurs:** dərslik, Biznesin planlaşdırılması, səh. 198
**Şagird kitabında** (səh. 205) verilən faydalı resurslar:

- Biznes planı necə yazmaq olar: https://bit.ly/3S0kiJu
- Kiçik bir qarajda başlayan 10 uğurlu biznes: https://bit.ly/3XqOrT9
- Kredit almaq üçün biznes plana ehtiyacınız varmı? https://bit.ly/3HSWRwU
- Biznes plan nədir və sənəddə hansı məlumatlar olmalıdır: https://bit.ly/3DXFWbd
- Məktəbdə bizə öyrətmədikləri şey: zəngin insanlara nə üçün ehtiyacımız var? https://bit.ly/3YhuT4Z
- Bir milyon dəyərində olan ideyalar: https://bit.ly/3jVevIv
- Biznesə necə başlamaq olar??? Bilməli olduğunuz hər şey! https://bit.ly/3XqEBAR
- Biznes planı necə yazmaq olar: https://bit.ly/40MMKSV
- Biznes plan nədir və sənəddə hansı məlumatlar olmalıdır: https://bit.ly/3Yp6uun
- HACCP nədir ? https :// bit . ly /3 İxraM

**Fəaliyyət:** müzakirə edin, səh. 198

Aşağıdakı vəziyyətlə tanış olun və **suallara** cavab verin:

- İşgüzar təşkilatın formalaşması prosesində hansı əsas mərhələləri ayırmaq olar?
- Biznes plan nədir və nə üçün yeni biznesə başlandıqda lazım olur?
- Biznes planda təqdim olunan məlumat kimə lazımdır və hansı məqsədlə?
- Firmanın özünü xarakterizə etməsinə kömək edəcək dörd sual düşünün;
- İstənilən istehsal formasını seçin və dərslikdə təklif edilən cədvəlin (səh.197) əsasında bir ayın ehtimal xərclərini müəyyənləşdirin.

**Təhlil edin:**

- Bir aylıq büdcəni dəqiq müəyyən etmək üçün hansı sualların cavabını bilməlisiniz?
- Gözlənilən gəlirlər haqqında məlumatımız olmasa, biznesin uğurunu proqnozlaşdıra bilərikmi?
- Konkret sahibkarlıq fəaliyyətinin müzakirəsi əsasında mənfəətin artırılması və xərclərin azaldılması amillərini sadalayın;
- Sahibkarın ölkənin iqtisadi və sosial inkişafında rolu nədir?
- Sahibkar işlə təmin etdiyi insanların taleyinə cavabdehdirmi? Cavabınızı əsaslandırın.

**Müəllimə tövsiyə**: bu paraqrafın təklif etdiyi məlumat və fəaliyyətlər kompleks tapşırığın məhsulu ilə birbaşa bağlıdır və şagirdlərdən biznes planın strukturunu, onun xüsusiyyətlərini yada salmağı xahiş etmək olar ki, bu da kompleks tapşırığın yerinə yetirilməsində faydalı olacaqdır. Kompleks tapşırıq üzərində işin birinci mərhələsində matrisdə verilmiş istiqamətləndirici sualları yenidən aktivləşdirmək məqsədəuyğundur.

**Resurs:** dərslik, Bazarı öyrənək, səh. 206
**Fəaliyyət:** müzakirə edin, səh. 206

- **Suallar:**
- **Bazar araşdırmasını** necə başa düşürsünüz ?
- “Mən bu bazarı tanıyıram” sözlərini arxayınlıqla bəyan etmək hüququna malik olmaq üçün sahibkar hansı məlumatlara malik olmalıdır?
- Nə üçün nailiyyətli kafe bu yeniliyi rəqibləri çox sürətlə mənimsəyəcəklərini bildiyi halda, yenilikləri təklif etməyi və əlavə xərclər çəkməyi dayandırmır?
- Yenilikçi şirkətlər istehlakçıların bəyəndiyi yenilikləri necə fikirləşir və təklif edirlər?
- Nə üçün bütün şirkətlər özləri yenilikçi olmağa çalışmırlar?

**Fəaliyyət:** qruplarda işləyin, səh. 207

Fərdi sahibkar kimi başlamaq istədiyiniz və çox maliyyə tələb etməyən bir biznes sahəsini adlandırın. İdeyalardan ən çox tanış olduğunuz üçünü seçin. 3 qrupa bölünün. Hər qrup bir bazarı araşdırmalıdır.

Biznes üçün xarakterik olan bütün əlamətləri müəyyən edin:

- sahədəki müəssisələrin sayını;
- malların növlərini;
- sahəyə girişin asanlığını, rəqibləri;
- hansı mühitdə fəaliyyət göstərməli olacağınızı;
- xərclərin səviyyəsini;

- malların (xidmətlərin) qiymətini;
- bazarda bərqərar olmaq strategiyasını;
- qurulduqdan nə qədər sonra uğur qazanacaqsınız?
- biznesə başlamaq üçün təxmini büdcəni.

Arqumentlərin təqdimatını hazırlamaq,
a) Bu fəaliyyətə başlamaq nə üçün sərfəlidir?
b) Nə üçün bu fəaliyyətə başlamağa dəyməz?

**Fəaliyyət:** Müzakirə edin, səh. 213
**Suallar:**

- Ailənizi istehlakçı kimi təsvir edin;
- Dostlarınızı istehlakçı kimi təsvir edin;
- Siz necə bir istehlakçısınız? Məsələn, sizə lazım olan malı almaq üçün neçə mənbə var? Paltarı hansı tezliklə alırsınız?
- Paltar alarkən sizin üçün nə vacibdir? (Ən vacib üçünü seçin):

a) rəng;
b) rahatlıq;
c) dözümlülük;
d) parça;
e) qiymət;
f) unikallıq;
g) marka, aksesuarlar;
h) brend
i) dəb;
j) istifadə müddəti;
k) həmyaşıdlar arasında məşhurluq;

- Mallar (paltar, ayaqqabı, aksesuar...) istehlakçı kimi sizin həmyaşıdlarınızı maraqlandıran hansı xüsusiyyətlərə malik olmalıdır?

**Resurs:** dərslik, Biznesin maliyyələşdirilməsi; səh. 214
**Şagird kitabında** (səh. 217) verilən faydalı resurslar:

Maliyyə müstəqilliyinə aparan yol - Bodo Şefer, 2-ci hissə: https://bit.ly/3iXAKgy

**Fəaliyyət:** qruplarda işləyin, səh. 214

Vəziyyətlə tanış olun və aşağıdakı suallara uyğun olaraq müzakirə edin:

- Borca razılıq verməzdən öncə, dostunuza hansı sualları verərdiniz?
- Hansı halda borc pul verməyə razılaşarsınız?
- Borcalana hansı şərtləri qoyacaqsınız?
- Borc verməyə imtina edildiyi halda, dostunuza əlavə maliyyə mənbəyi axtarmaq üçün nə məsləhət görərdiniz?
- İşi bitirdikdən sonra qrupun işini sinif yoldaşlarınıza təqdim edin və müxtəlif qrupların işində oxşar cavabları qeyd edin.
- Dostunuz bankdan kredit götürmək istəsə, bank işçilərinin eyni və ya oxşar sualları olacaqmı?

Cavabı işarələyin.

- Dostunuz bankdan kredit götürmək istəsə, bank işçilərinin eyni və ya oxşar sualları olacaqmı?

**Vəziyyət 1**

Dostunuz öz müəssisəsini açmağa hazırlaşır. Bir gün gəlib avadanlıq almağa pulunun olmadığını dedi və ad günü və bayramlarda hədiyyə aldığınız və qənaət etdiyiniz 300 larini istədi.

**Fəaliyyət:** qruplarda işləyin, səh. 217

Qruplara bölünün, sizcə, sahibkarın yerinə yetirməli olduğu şərtləri yazın ki, bank kreditin boşa getməyəcəyinə və kreditin vicdanlı ödəyicisi olacağına əmin olsun.

- Təqdimat hazırlayın. İş vaxtı 10 dəqiqədir.
- İşin son variantını növbəti dərsə saxlayın. Növbəti dərsdə istənilən bankın məlumat kitabçası vasitəsilə kredit tələbləri ilə tanış olacaqsınız.
- Tələblərinizi bankın tələbləri ilə müqayisə edin, hansı məsələləri nəzərə almamısınız?
- Öz müəssisənizi açmaq ideyanız olsaydı, onu necə maliyyələşdirərdiniz?
- Bu maliyyələşdirmə formasını real şansınız olduğuna görə seçdiniz, yoxsa bu maliyyə mənbəyinə üstünlük verdiyiniz üçünmü?

**Müəllimə məsləhət**: Şagirdlərdən son fəaliyyətdən meyarlar bankına nə əlavə edəcəkləri barədə düşünmələrini xahiş edin. Son olaraq, onlarla birlikdə hazırlanmış “biznes plan meyarları bankını” nəzərdən keçirin, təhlil edin, təqdim olunan meyarları müqayisə edin, qruplaşdırın,

uyğunlaşdırın.

Sonda seçilmiş meyarların biznes planınızın davamlı biznes prinsiplərinə uyğunluğunu necə təmin etdiyini müzakirə edin.

Ümumiləşdirmək üçün, cavabsız sualların olduğu halda, şagirdlərdən bir daha hansı məhsulu hazırlayacaqlarını soruşuruq. Bundan sonra kompleks tapşırıqlarının təqdimatı və əks əlaqə; bunda bizə əvvəldən hazırlanmış inkişafetdirici qiymətləndirmənin analitik rubrikası kömək edir.

Eləcə də birinci fəslin sonunda verilən (səh. 218) şagirdlərin özünüqiymətləndirmə rubrikasından da istifadə edirik.

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?

| |
|---|
| • Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?<br>• Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?<br>• Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?<br>• Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz? |

**Cədvəl 3.**
**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

| **Mövzu: sahibkarlıq və biznes**<br>Əsas məsələ: sahibkarların məsuliyyəti; biznesin davamlılığı; "Planeti xilas etmək üçün "Pataqoniya" sahibkarı öz şirkətini özgəninkiləşdirir" – (səh. 139-141)<br>Şagird: | | |
|---|---|---|
| Qiymətləndirmə meyarları | Maksimal bal | Şərh |
| **Cəmiyyət -** şagird bacarmalıdır:<br>• İvon Çuinardın sahibkar, işəgötürən, vergi ödəyicisi kimi cəmiyyətə müsbət təsirini əsaslandırmağı; "Pataqoniya" sahibinin yeni qərarının cəmiyyətə təsiri baxımından nəyi dəyişəcəyini təhlil etməyi; | 1.5 | |
| **Demokratiya -** şagird bacarmalıdır:<br>• Çuinardın ilkin tələb və ehtiyaclarını (xüsusi geyim) onun iqtisadi hüququ (bizneslə məşğul olmaq, mənfəət əldə etmək, xeyriyyəçilik etmək, əmlakı özgəninkiləşdirmək...) və öhdəliyi (dövlətə vergi ödəmək, qərarları hüquq normalarına, demokratik prinsipləri uyğunlaşdırmaq) ilə əlaqələndirməyi; | 1.5 | |
| **Vətəndaş iştirakı** – şagird bacarmalıdır:<br>• Çuinardın nə üçün iqlim dəyişikliyini azaltmaq üçün sosial məsuliyyət götürmək qərarına gəldiyini və bu problemi müdafiə etmək üçün xeyriyyə məbləğini ayırdığını, payını Yer kürəsi ilə bölüşdüyünü müzakirə edin. Seçilmiş yolun etibarlılığını qiymətləndirməyi; | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>• Pataqoniyanın inkişafının müxtəlif mərhələlərində davamlı inkişaf prinsiplərinin nə dərəcədə nəzərə alındığını və son mərhələdə bununla bağlı nələrin dəyişdiyini müzakirə etməyi; | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda biz “Planetin xilası üçün “Pataqoniya” sahibi öz şirkətini özgəninkiləşdirir” kontekst-nümunəni seçmişik (s. 139-141); şagird əvvəlcədən onunla tanış olacaq. Təyin olunmuş gündə tapşırığın şərtlərini veririk:

“Planetin xilası üçün “Pataqoniya” sahibi öz şirkətini özgəninkiləşdirir” (s. 139-141) məlumatı ilə tanış olun və “Çuinardın nə üçün “Pataqoniyanı özgəninkiləşdirib”” sübutlu esse (150-200 söz) hazırlayın;

**İşinizdə xüsusilə göstərməlisiniz:**

- Çuinardın biznes ideyasının əsası nə idi və “Pataqoniya”nın biznes kimi cəmiyyətə, sosiuma təsiri nə idi? Bu nöqteyi-nəzərdən yeni qərar nəyi dəyişəcək?
- “Pataqoniya” sahibkarlığın müxtəlif mərhələlərində öz hüquq və vəzifələrini necə nəzərə alıb, onun dövlət və demokratiya prinsipləri (iqtisadi azadlıq, qanunun aliliyi) ilə əlaqəsi necə olub?
- Dilemmalardan qaçmaq üçün yeni qərar vəziyyətlərində necə davranmaq lazımdır?
- Çuinardın yeni qərarını nə əsas götürdü, onu sosial məsuliyyət daşımağa nə sövq etdi? Sahibkar nə üçün problemin həlli üçün birdəfəlik resurs (xeyriyyə şəklində) verməyi, “Yer kürəsi üçün payını bölüşməyi” seçdi?
- “Pataqoniya” sahibkarlığın müxtəlif mərhələlərində davamlı inkişaf prinsiplərini necə nəzərə alıb? Bununla bağlı son qərar nəyi dəyişdi?

**Qeyd:** cavablarınızı ayrıca yazmayın, nəticənin mətnində birləşdirin”.

**Müəllimə məsləhət**: Bu fəsildə üç müəyyənləşdirici qiymətləndirmə rubrikası və ümumiləşdirici tapşırığın sorğusu təqdim olunur. Üçüncü ümumiləşdirici tapşırıq və rubrika son iki sualı əhatə edir (III və IV fəsillər). Bu üç ümumiləşdirici tapşırığın arasından siz şagirdlərdən birinci semestrdə hansı və neçə yekun tapşırığı yerinə yetirəcəklərini seçə və ya ümumiləşdirici tapşırığın öz variantlarınızı hazırlaya bilərsiniz.

## Mövzu 2. Siyasət və siyasi mədəniyyət

## Tematik matris başlığı

| **Mövzunun adı:** Siyasət və siyasi mədəniyyət<br>**Təxmini saat sayı:** 35 saat.<br>**Əsas resurs: Dərslik –** "CEED" nəşriyyatı | | | | |
|---|---|---|---|---|
| **Hədəf anlayışları** | **Əsas məsələ 1. Siyasi proses** | **Əsas məsələ 2.**<br>**Siyasi ideologiyalar və rejimlər** | **Əsas məsələ 3.**<br>**Davamlı siyasət** | **Əsas məsələ 4.**<br>**Siyasətdə vətəndaş iştirakı** |
| **Cəmiyyət** | <u>Altməsələ:</u><br>❖ **Uinston Çörçil** - siyasi lider<br><br><u>Alt anlayışlar</u>:<br>❖ **İdeya (bütövləşdirici ideya), xarakter/iradə** | | | |

| | | | | |
|---|---|---|---|---|
| **Demokratiya** | | Altməsələ:<br>❖ **2 saylı "Xəbərlər arxivi". 2008-ci il Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi** (Mixail Cavaxişvilinin işi)<br>Alt anlayışlar:<br>❖ İnsan hüquqları - **şəxsi təhlükəsizlik hüququ, ədalətli məhkəmə araşdırması hüququ**<br>❖ Demokratiya prinsipləri - **Qanunun aliliyi, Hakimiyyət bölgüsü** | | |
| **Vətəndaş iştirakı** | | | | ❖ Altməsələ:<br>**"Zamanını qabaqlayan insan"** (Niko Nikoladze)<br>Alt anlayışlar:<br>❖ **Seçkilər, İştirak nərdivanı** |
| **Davamlı inkişaf** | | | Altməsələ:<br>❖ **2022-ci ildə Britaniyanın Quardian qəzetində dərc olunan məqalə.**<br>Alt anlayışlar:<br>❖ **Davamlı inkişafın məqsədi 17** | |

**Mövzu ilə bağlı əsas təsəvvürlər:**

- Fərdlər siyasətin aktiv subyektləridir. Onların şəxsi xassələri, dəyərləri, bacarıqları, insanlarla və qruplarla münasibətləri ölkələrin və dünyanın siyasəti müəyyən edir (**hədəf anlayışı "cəmiyyət");**
- Siyasi fəaliyyət insan hüquqlarının müdafiəsinə yönəlib və demokratiya prinsiplərinə uyğun olaraq həyata keçirilir (**hədəf anlayışı -**
- **demokratiya)**
- Siyasətdə iştirakın bir çox yolu var (seçkilər, referendumlar, nümayişlər və s.), bununla yanaşı zorakı hərəkətləri istisna edir/(**hədəf anlayışı - vətəndaş iştirakı);**
- Siyasət davamlı inkişafın uzunmüddətli məqsədləri (**hədəf anlayışı – "dayanıqlı inkişaf")** nəzərə alınmaqla həyata keçirilir.

XI sinif "Siyasət və Siyasi Mədəniyyət" icbari mövzusu üçün birinci əsas məsələ **"siyasi prosesdir"**. Bu məsələ ilə bağlı Uinston Çörçilin siyasi tərcümeyi-halı müzakirə olunmaqla və məzmunca ona oxşar nümunələr nəzərə alınmaqla, şagirdin əvvəlki bilikləri aktivləşdirilir və yeni biliklər qurulur:

| **Müqayisə üçün əsas hal və nümunələr** | **Resurslar** |
|---|---|
| Əsas hal:<br>Uinston Çörçil | • Dərslik II hissə, səh. 7 - 10<br>Müəllim kitabı. Əlavə 5, səh. 186 |
| **Müqayisə üçün nümunə 1 .**<br>Kristin Laqard. Ursula Fon Der Layen | • Dərslik II hissə, səh. 21-22 |
| **Müqayisə üçün nümunə 2.**<br>Qubernator seçkiləri | • Dərslik II hissə, səh. 29-33 |
| **Müqayisə üçün nümunə 3.**<br>Valeriya Novodvorskaya | • Dərslik II hissə, səh. 36-37 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışlar, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamalıyıq ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri istədiyiniz kimi dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa bir kontekst-nümunə üçün təyin edə və kompleks tapşırığın şərtini ona əsaslanmaqla formalaşdıra bilərsiniz.

Təlim prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional-sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri rolunu oynayır.
Kontekst-nümunənin ilkin işlənməsi zamanı, müəllim istiqamətləndirici suallar və fəaliyyətlərlə şagirdlərin diqqətini işlənəcək alt anlayışlara, hədəf anlayışına aid olan detallara yönəldir.

**Hədəf biliyinin müəyyənləşdirilməsi üçün cədvəl**

| **Mövzu:** Siyasət və siyasi mədəniyyət<br>**Əsas məsələ:** Siyasi proses<br>**Əsas kontekst nümunə**: Uinston Çörçil - siyasi lider | | | |
|---|---|---|---|
| **Altməsələ** | **Alt anlayış** | | **Hədəf anlayışı** |
| Uinston Çörçil - siyasi lider | İdeya (birləşdirici ideya) | Xarakter/iradə | Cəmiyyət<br>(Nəticələr: 1,2,4) |

Şagirdin alt məsələ haqqında nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl** 1), bunda da şagirddən öyrəniləcək məsələ ilə və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərin olduğu maksimal şəkildə ətraflı yazılmalıdır. Gözləntilər Milli Tədris Planının nəticə taksonomiyasının **nisbi səviyyəsinə** uyğun ola bilər. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) İlk öncə, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində **(şagirdin bu gözləntiləri real nəticələrə çevirməsinə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə edilməlidir?)** ;

b) Növbəti təlim-tədris prosesinin monitorinqi üçün **(proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Hansı suallar əsas götürülməlidir?)**;

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks-əlaqənin formalaşmasında **(gözləntilərdən hansı ifadələr şagirdin nəticəsini təsvir etmək üçün faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzərində işin pedaqoji təcrübəsinin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün **(hansı əsas təsəvvürlə bağlı real gözləntiləri müəyyənləşdirdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntiyə doğru açarı tapmışam? Harada yanaşmanı dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Cəmiyyət**<br>(Nəticələr 1,2,4)<br><br>**Uinston Çörçil** - siyasi lider | 1. İnsan öz dəyərləri, dünyagörüşü (ideyaları, dəyərləri) və istəkləri olan fərddir; şəxsiyyətinin sərbəst inkişafı hüququna malikdir. | Çörçil və başqalarının (Kristin Laqard, Ursula fon Der Layen, Valeriya Novodvorskaya) nümunəsindən istifadə edərək, uğurlu siyasətçinin zəruri/vacib şəxsi keyfiyyətlərini müzakirə etməyi; | |
| | 2. İnsanın müxtəlif (fizioloji, təhlükəsizlik, sosial təmaslar və s. ) ehtiyacları var ki, bu ehtiyaclar ödənilmədən şəxsi inkişaf edə bilməyəcək. | Dərslikdə verilmiş Çörçil və digər siyasətçilərin (Kristin Laqard, Ursula fon der Leyen, Valeriya Novodvorskaya) fəaliyyətinin təhlilinə əsaslanaraq, siyasi iştirakçıları hansı motivlərin hərəkətə gətirdiyini; nə üçün siyasətdə olmaq şəxsiyyəti inkişaf etdirməyin yollarından biri olduğunu müzakirə etməyi. | |
| | 3. Digər insanlar/sosial qruplar/qurumlar ilə münasibətlər şəxsi inkişafa dəstək verir. | Dərslikdə verilmiş Çörçil və digər siyasətçilərin (Kristin Laqard, Ursula Fon Der Layen, Valeriya Novodvorskaya) nümunələrindən istifadə edərək, siyasətçilərin hansı sosial qruplar və qurumlarla qarşılıqlı əlaqədə/əməkdaşlıq etməli olduqlarını; bu əməkdaşlıq prosesinin onların dünyagörüşünə və şəxsi inkişafına necə təsir etdiyini təsvir etməyi və təhlil etməyi; | |

| | | | |
|---|---|---|---|
| | 4. Assertivlik, başqalarını incitmədən öz fikrini cəsarətlə ifadə etmək bacarığı insana sosiallaşmaqda kömək edir. | Çörçil və başqalarının (Kristin Laqard, Ursula Fon Der Layen, Valeriya Novodvorskaya) nümunələrindən istifadə edərək, assertivliyin siyasi liderlərin fəaliyyət prinsipi olduğunu; bu bacarığın onlara məqsədlərinə çatmaqda nə qədər kömək etdiyini təhlil etməyi. | |

Aşağıdakı aralıq/kompleks tapşırıq matrisi **(Cədvəl 2)** kompleks tapşırığın şərtini, qiymətləndirmə meyarlarını və icra mərhələlərini (fəaliyyətlər, resurslar, istiqamətləndirici suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edir.

**Cədvəl 2.**

| **Məsələ - Siyasi proses** |
|---|
| **Altməsələ - Uinston Çörçil** - siyasi lider. **Alt anlayışlar:** İdeya (birləşdirici ideya); xarakter/iradə; **Hədəf anlayışı – cəmiyyət (nəticə: 1,2,3,4)** |
| **Əsas sual** - İnsanın xarakteri və iradəsi nə üçün və necə uğurlu siyasi fəaliyyəti müəyyənləşdirir?<br>- Qəzetdə siyasətçilərin üzləşdiyi dilemmaları/çağırışları necə təqdim etmək olar? |

| |
|---|
| **Kompleks tapşırıq**<br>XX əsrin məşhur siyasi xadimi Uinston Çörçil haqqında verilən məlumatları oxuyun (II hissə, səh. 7-10), onun fəaliyyətini dərslikdə verilmiş digər siyasətçilərin fəaliyyəti ilə müqayisə edin: Kristin Laqard (II hissə, səh. 21) , Ursula Fon Der Layen (II hissə, səh. 22), Valeriya Novodvorskaya (II hissə, səh. 36-37).<br>Siyasətçilərin şəxsi xüsusiyyətləri və fəaliyyətinin təhlili əsasında yerli/qlobal ictimai problemlərin həllində siyasi liderin rolunu müzakirə edəcəyiniz **esse** yazın.<br>İdeyaların həyata keçirilməsi üçün ilkin şərt kimi, siyasi liderin şəxsi keyfiyyətlərinə və iradəsinə diqqət yetirin.<br><br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**<br>• Nailiyyətli siyasi lider hansı xassələrə və dəyərlərə malik olmalıdır? **(cəmiyyət, əs.təs. 1.)**<br>• Siyasi liderlər hansı ictimai ehtiyacların qayğısına qalırlar (nümunələrə əsasən)? **(cəmiyyət, əs.təs. 2.)**<br>• Siyasətçinin öz ideyalarını gerçəkləşdirməsinə, müxtəlif ictimai qruplarla münasibətlərinə hansı amillər dəstək verir? **(cəmiyyət, əs.təs. 3. 4)** |

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>Şagird dərk etməlidir, ki: | **Qiymət meyarları:**<br>Şagird bacarır: | İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin: |
|---|---|---|

| | | |
|---|---|---|
| **Cəmiyyət**<br>1. İnsan öz dünyagörüşü (ideyaları, dəyərləri) və istəkləri olan fərddir; şəxsiyyətinin sərbəst inkişafı hüququna malikdir;<br>2. İnsanın müxtəlif (fizioloji, təhlükəsizlik, sosial təmaslar və s. ) ehtiyacları var ki, bu ehtiyaclar ödənilmədən şəxsi inkişaf edə bilməyəcək.<br>3. Digər insanlarla/sosial qruplarla/qurumlarla münasibətlər insanın şəxsi inkişafına kömək edir;<br>4. Assertivlik, başqalarını incitmədən öz fikrini cəsarətlə ifadə etmək bacarığı insanın sosiallaşmasına kömək edir. | **Cəmiyyət**:<br>• insanlara qarşı empatiya göstərməyi; bu və ya digər vəziyyətdə şəxsin hərəkətlərinə/qərarlarına təsir edən amilləri aşkar etməyi **(əs. təs. 1,2)**;<br>• İnsanın sosiallaşmasına kömək edən/mane olan amilləri təhlil etməyi **(əs.təs. 3.4)**. | • Nailiyyətli siyasi lider hansı xassələrə və dəyərlərə malik olmalıdır? **(cəmiyyət, əs.təs. 1.)**<br>• Siyasi liderlər hansı ictimai ehtiyacların qayğısına qalırlar (nümunələrə əsasən)? **(cəmiyyət, əs.təs. 2.)**<br>• Siyasətçinin öz ideyalarını gerçəkləşdirməsinə, müxtəlif ictimai qruplarla münasibətlərinə hansı amillər dəstək verir? **(cəmiyyət, əs.təs. 3. 4)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (**fəaliyyətlər, resurslar, suallar**)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurs**: dərslik, **II mövzu. I fəsil. Siyasi proses** kompleks tapşırığın şərti, II hissə, səh. 6

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Uinston Çörçilin siyasi fəaliyyəti haqqında nə bilirsiniz?
- Sizcə, siyasətçi hansı keyfiyyətlərə malik olmalıdır?
- Essenin məqsədi nədir? Esse nədir?
- Essenin strukturunun nə olduğunu yadınıza salın?
- Hansı resurslara ehtiyacımız olacaq?
- Yaxşı esseni necə yazmaq olar?
- Esse üzərində işləyərkən nələrə diqqət etməlisiniz?
- Tapşırığın nəyə aid olduğunu öz sözlərinizlə formalaşdırın?
- Bənzər forma və ya məzmunlu tapşırığı artıq yerinə yetirmisinizmi?

**Müəllimə tövsiyə**:
Suallar verərkən tapşırığın şərtlərinin hamı üçün aydın olduğunu bir daha yoxlayın;
Kompleks tapşırığı yerinə yetirməzdən əvvəl öyrənilən mövzu üzrə bir neçə dərs keçəcəyiniz barədə şagirdlərə məlumat verin və sonda hər bir şagird yerinə yetirdiyi tapşırığı sinfə təqdim etmək imkanı əldə edəcək.

**Diqqət!**
Kompleks tapşırıq üzrə iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda ev tapşırıqlarında istifadə edirik.

**II mərhələ - kompleks tapşırıq üzərində iş**

**Hədəf bilikləri:**

**Altməsələ - Uinston Çörçil** - siyasi lider. **Alt anlayışlar:** İdeya (birləşdirici ideya); xarakter/iradə; **Hədəf anlayışı – cəmiyyət (nəticə: 1,2,3,4)**

Kontekst nümunələrinin ilkin işlənməsi

**Fəaliyyət:** cütlüklərdə işləyin, **dərslik. II hissə, səh.11**

“Uinston Çörçil” mətnini diqqətlə oxuyun (səh. 8-10) və cədvəli doldurun.

- Çörçil aşağıdakı emosional və sosial bacarıqlardan hansına malik idi?
- Bu bacarıqlara yiyələnmək onun uğurlu siyasi fəaliyyətini nə dərəcədə şərtləndirdi? Fikrinizi əsaslandırın.

| Emosional-sosial bacarıqlar | Bu bacarıqların Çörçilə öz məqsədlərinə çatmasına necə kömək etdiyini izah edin. |
|---|---|
| Ünsiyyət | |
| Kollaborasiya | |
| Etika | |
| Məsuliyyət | |
| Empatiya | |
| Xarakter/iradə | |
| Münaqişələrin idarə edilməsi | |

**Müəllimə tövsiyə**:
Əsas statusla hansı kontekst-nümunədən istifadə edəcəyinizə qərar vermək sizin ixtiyarınızdadır. Bizim ideyamız ondan ibarətdir ki, şagirdlər siyasi liderliyin cəmiyyətin inkişafına müsbət təsir göstərən şəxsi özünüdərk vasitəsi olduğunu başa düşsünlər.
**Kontekst nümunədən istifadə edərək, biz altməsələ üzərində işləyirik - Uinston Çörçil** - siyasi lider. Bu alt məsələ mövzunu, əsas məsələni, digər tərəfdən isə “cəmiyyət” hədəf anlayışını dərk etməyə xidmət edən alt anlayışları, ideyanı (bütövləşdirici ideya), xarakteri, iradəni birləşdirir. Müqayisə üçün nümunələrə gəlincə, biz istiqamətləndirici suallarla paralellər aparırıq.

**Meyar 1. Nailiyyətli siyasi lider hansı keyfiyyətlərə və dəyərlərə malik olmalıdır? (əs.təs.1)**

**Resurs:** Uinston Çörçil, **dərslik. II hissə, səh. 7-10**
**Fəaliyyət 1: qruplarda işləyin,** mətni oxuyun və suallara cavab verin:

**Suallar:**

- Uinston Çörçili siyasətçi kimi necə xarakterizə edərdiniz? O, hansı xassələri ilə seçilirdi?
- Hansı qlobal və yerli problemləri ayırd etdiniz?
- Konkret olaraq, bu siyasətçi ölkəsinin siyasətinə və qlobal siyasətə nə kimi təsir göstərib? Cavabı əsaslandırın;
- Uinston Çörçil faşizmə qarşı necə mübarizə aparırdı?
- Şərait dəyişiklikləri onu siyasi səhnədən necə çıxartdı?
- Siyasətçi kimi ona qarşı ictimai münasibət/dəstək necə dəyişirdi?
- Bu siyasətçilərin fəaliyyəti cəmiyyətin hər bir üzvünə necə təsir etdi?
- Çörçilin cəmiyyətə münasibəti necə idi?
- Mətnə əsasən, Çörçilin baş nazir seçildikdən sonra ictimaiyyətə ünvanladığı çıxışını necə qiymətləndirərdiniz?
- Nə üçün Uinston Çörçil Avropa İttifaqını yaratmağa çalışırdı? Bunun üçün hansı qlobal hadisə ilkin şərt idi?
- Bu siyasətçi üçün Avropa İttifaqının yaradılmasının əsas məsələsi nə idi?
- Siyasətçi kimi onun əsas nailiyyəti nə idi?
- Bu nailiyyətləri indiki perspektivdən necə qiymətləndirərdiniz?
- Siyasətçinin gücünü onun şəxsi xassələri nə dərəcədə müəyyən edir? Mühit? Rəqiblər?
- Sizcə, Çörçil hansı siyasəti yürüdürdü?
- Yaxşı siyasətçi necə olmalıdır?
- Sizcə, fərdin rolu nədən ibarətdir və o, ictimai siyasətin həyata keçirilməsində necə iştirak etməlidir?
- Bu şəxsin fəaliyyətindən bir neçə onilliklər keçib və onun fəaliyyətinin təhlili və müqayisəsi kəsmir. Sizcə, nə üçün?

**Resurs:** Müxalifətçi Ser Uinston Çörçil, **dərslik, II hissə, səh.38-39**
**Fəaliyyət: müzakirə edin**

- Çörçilin əhvalatını xatırlayın. Çörçilin ömrünün sonuna doğru müxalifətçiliyi nə üçün təəccüblü ola bilər?
- Nə üçün o dövrün mediası Çörçili "böyük siyasətçi, centlmen və cəngavər" adlandırırdı?
- Siyasətdə centlmenlik nədir? Gündəlik həyatda?
- Çörçilin xarakterində hansı keyfiyyətləri vurğulayardınız? Siyasətçi üçün bu keyfiyyətlər nə üçün vacibdir?

**Resurs: dərslik. II hissə, səh.23**

**Fəaliyyət: müzakirə edin**
**Şagird kitabında verilmiş faydalı resurslar** (II hissə, səh. 43):
Sokrat niyə demokratiyaya nifrət edirdi? https :// bit . ly /3 jWo 2 iz
Demokratiya /democracy: https://bit.ly/3YvhF4T

**Suallar:**

- Aşağıda verilən vəziyyətin qəhrəmanı siyasi teatr iştirakçılarının 3 qrupundan hansına aiddir?
- Sizcə, oxşar mitinqin təşkilində kim maraqlıdır?
- Sülhün qorunması uğrunda təşkil edilən mitinqdə bu tip insanların çıxışı siyasi məsələlərin həllinə nə dərəcədə dəstək verir?
- Sizcə, bu mitinqin məqsədi nə idi? Aksiyaya hansı qrup toplaşmışdı?
- İştirakçıların nəyə etiraz etdiklərini, nəyi və ya kimi dəstəklədiklərini bilmədikləri aksiyalar haqqında heç eşitmisinizmi?
- Belə mitinqlərin təşkili demokratiya prinsiplərinə nə dərəcədə uyğundur? Siz tez-tez ictimai fəallıq göstərirsinizmi?
- Şəhərin, vətənin aqibəti üçün məsuliyyət daşımağa hazırlaşırsınızmı?
- Yaşınızı nəzərə alsaq, siyasi teatrda kimsiniz? Siyasi teatrda Uinston Çörçil kim idi? Valeriya Novodvorskaya?

**Meyar 2: Siyasi liderlər hansı sosial ehtiyacların qayğısına qalırlar (nümunələrə əsasən)? (əs.təs.2)**

**Resurs:** Valeriya Novodvorskayanın qısa tərcümeyi-halı, **dərslik. II hissə, səh.36-37**
**Fəaliyyət 1: Müzakirə edin.** Mətni oxuyun və suallara cavab verin.
**Suallar:**

- Hansı siyasi fəaliyyəti jurnalist işindən ayırardınız? Nə üçün?
- Novodvorskayanı bütün hakimiyyətlərdə müxalifətçi hesab edirsiniz?
- Sizcə, nə üçün o, Gürcüstan vətəndaşlığını almağa layiq idi?
- Nə üçün Novodvorskaya Gürcüstanın müstəqilliyini və ərazi bütövlüyünün bərpasını dəstəkləyirdi?
- Sizcə, Novodvorskaya kimi çoxlu sayda insan hakimiyyətin qeyri-demokratik qərarlarını dəyişə bilərmi? Məşhur jurnalistin fəaliyyəti yerli və dünya siyasəti üçün nə dərəcədə önəmli idi?
- Dünyaca məşhur müxalifətçilər haqqında nə eşitmisiniz? Gürcüstanda fəaliyyət göstərən dissidentlər haqqında? Onların mübarizəsini birləşdirən nədir?
- Onun bütün fəaliyyəti dövlət qurumları ilə mübarizə ilə bağlı olub. Valeriya Novodvorskaya cəmiyyətdə hansı müsbət dəyişiklik yönümlü ideyaları lobbiləşdirib müdafiə edirdi? Çörçil?

- Onun və artıq tanıdığınız siyasətçilərin (Çörçil, Kristin Laqard, Ursula Fon Der Layen) fəaliyyəti hansı ictimai ehtiyaclara yönəlmişdi? Bənzər və fərqli cəhətləri ayırd edin.

**Resurs 2: dərslik. II hissə, səh.11**

**Fəaliyyət: cütlərdə işləyin.** Aşağıda sosial həyatın müxtəlif sahələri verilir. Hər bir sahəni cədvəlin sağ sütunundan müvafiq fəaliyyətlə uyğunlaşdırın.

| | |
|---|---|
| **Siyasi sahə** | Cəmiyyətdə sosial qrupların qarşılıqlı asılılığını, səhiyyənin mühafizəsini, sosial təminatı əhatə edir. |
| **İqtisadi sahə** | Elm, təhsil, mədəniyyət, din, incəsənətlə bağlıdır. |
| **Sosial sahə** | Cəmiyyətdə asayişi təmin edir, qanunlar buraxır və onların icrasına nəzarət edir. |
| **Mənəvi sahə** | Mal və xidmətlərin istehsalını, mübadiləsini, istehlakı və paylanmasını əhatə edir. |

- Cədvəlin birinci sütununda sadalanan sahələrdən Çörçil, Novodvorskaya, Ursula Fon Der Layen hansına diqqət yetirirdi. Kristin Laqard?
- Sadalanan siyasətçilərin fəaliyyəti bir-birindən nə ilə oxşar/fərqlidir?

**Resurs: dərslik. II hissə, səh.12**

**Fəaliyyət: qruplarda işləyin**

**Suallar:**

- Nə üçün yerli və xarici təlimatçılar arasında münaqişə yarandı?
- Nümunələrdə yerlilərin hansı ehtiyacları ayırd edilir?
- Yerlilər tərəfindən problemin həlli üçün seçilən formanı necə dəyərləndirərdiniz?
- Nə üçün fərdlər və qruplarla münasibətdə assertivlik bacarığı vacibdir?
- Sizcə, nə üçün polis əcnəbi təlimatçıların ərizələrinə reaksiya vermir?

- Təlimatçıların qanun qarşısında hansı hüquq və vəzifələri var?
- Bu istiqamətdə Gürcüstan hakimiyyətinə nə məsləhət görərdiniz? Dövlət tərəfindən əlavə qaydalar tətbiq etmək lazımdırmı?
- Bu istiqamətdə qanunvericilərə hansı qaydaları təklif edərdiniz?
- Təhlükəsizlik məqsədilə, paraplan uçuşuna qadağa qoymaq çıxış yoludurmu?
- Sizcə, təlimatçı hansı əsas və əlavə tələblərə cavab verməlidir?
- Dövlətlə fərd arasında (bu halda təlimatçılarla dövlət arasında) münasibət necədir?
- Sözügedən məsələni siyasi məsələ, yoxsa iqtisadi sahənin bir hissəsi hesab edirsiniz?
- Dövlət nə etməlidir ki, münaqişənin bütün iştirakçıları bu konkret halda öz hüquqlarını və vəzifələrini düzgün müəyyən etsinlər?
- Münaqişə vəziyyətini əvvəlki fəaliyyət zamanı müzakirə olunan ictimai həyatın sahələri ilə əlaqələndirin?
- Bu münaqişəni hansı sahəyə aid edərdiniz? Əsaslandırın. Bunun həllində siyasətçilərin nə kimi rolu var?

**Resurs: dərslik. II hissə, səh. 7-10, 21-22, 36-37**

**Fəaliyyət: Qruplarda işləyin.** Beş qrupa bölünün və cədvəli doldurun. Siyasi liderlərin fəaliyyət sahələrini vurğulayın və müvafiq qrafada yazın. Müzakirədən sonra cədvəllərinizi toplayın və müqayisə edilmiş son variantı hazırlayın.

| | Siyasi | İqtisadi | Sosial | Mənəvi | Konkret nümunələrdən istifadə edərək, onların fəaliyyətlərinin əhəmiyyətini müzakirə edin. |
|---|---|---|---|---|---|
| Uinston Çörçil | | | | | |
| Kristin Laqard | | | | | |
| Ursula Fon Der Leyen | | | | | |
| Valeriya Novodvorskaya | | | | | |

**Suallar:**

- Bu şəxslər hansı sahədə fəaliyyət göstərirdilər/göstərirlər?
- Onlar hansı sosial ehtiyacların qayığısına qalırlar?
- Onların fəaliyyətləri bir-birindən nə ilə oxşar/fərqlidir?

**Meyar 3. Siyasətçinin öz ideyalarını həyata keçirməsinə və müxtəlif sosial qruplarla münasibətlərinə hansı amillər dəstək verir? (əs.təs. 3)**

**Resurs:** Qubernator seçkiləri, **dərslik. II hissə, səh. 29-33**
**Fəaliyyət: cütlükdə işləyin**
**Suallar:**

- Mark Tvenin digər namizədlərdən hansı üstünlüyü var idi?
- Nə üçün seçkilərdə iştirak etməkdən tərəddüd edirdi? Sizcə, Mark Tvenə qarşı ittiham kampaniyasının müəllifləri kimlər idi?
- Nə üçün müəllif sonda nənəsinin fikrini bölüşmədi? Nənəsinin fikrini bölüşməməklə, səhv edirdimi?
- Media Mark Tven haqqında hansı yalan məlumat yayıb?
- Namizədi gözdən salmaq üçün kampaniyanı necə qiymətləndirərdiniz?
- Mark Tvenin təslim olmasını necə qiymətləndirərdiniz? O nə etməli idi? Sizə məlum olan siyasətçilər necə hərəkət edərdilər?
- Onlar da təslim olsaydılar (məsələn), nə baş verərdi?
- Sizcə, seçkilər zamanı siyasi mübarizənin qaydaları necə olmalıdır?
- Hökumət belə hallarda necə davranmalıdır? Sağlam müxalifət necə olmalıdır?
- Siyasi etikanı necə izah edərdiniz? Bu əhvalatda siyasi etikanın əlaməti varmı?
- Bir siyasətçi kimi, Mark Tvenə nə məsləhət görərdiniz?
- Mark Tven bu eskizlə nə demək istəyirdi?
- Nə üçün hər bir detalı xırdalıqları ilə təsvir edir? Bu hekayənin davamını necə təsəvvür edirsiniz? Bənzər bir vəziyyətdə namizəd olsaydınız, necə hərəkət edərdiniz?
- Fikrinizi bildirin, Çörçil Mark Tvenin yerində özünü necə aparardı? Novodvorskaya? Kristin Laqard?

**Resurs: dərslik. II hissə, səh. 34**
**Fəaliyyət: qruplarda işləyin**
**Suallar:**

- Karikatura məzmununu müəyyənləşdirin.
- Karikaturanın əsas ideyası nədir?
- Müəllif öz fikrini təsvir etmək üçün hansı təsviri vasitələrdən istifadə edir?
- Karikatura hansı siyasi vəziyyətə uyğun ola bilər?
- Bu karikaturanın məqsədi və təyinatı nədir?

- Bu karikatura nəyin əleyhinədir?

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?
- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?
- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?
- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?
- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz?

**Cədvəl 3.**

**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

| **Sinif:** XI<br>**Mövzu:** "Siyasət və siyasi mədəniyyət"<br>**Əsas məsələ** - siyasi proses<br>**Şagird:** | | |
|---|---|---|
| **Qiymətləndirmə meyarları** | Maksimal bal | Şərh |
| **Cəmiyyət** - şagird bacarmalıdır:<br>• Valeriya Novodvorskayanın siyasi, jurnalist və sairə fəaliyyətini müəyyənləşdirməyi və şəxsi xüsusiyyətini ayırd etməyi;<br>• siyasi proseslərdə Valeriya Novodvorskayanın rolunu xarakterizə etməyi;<br>• siyasi mədəniyyətin qurulmasında Valeriya Novodvorskayaya dəstək verən/mane olan amilləri ayırmağı. | 1.5 | |
| **Demokratiya** - şagird bacarmalıdır:<br>• demokratiya və insan hüquqlarına qayğı prinsipləri əsasında Valeriya Novodvorskayanın ictimai-siyasi fəaliyyətini qiymətləndirməyi. | 1.5 | |
| **Vətəndaş iştirakı** - şagird bacarmalıdır:<br>• Valeriya Novodvorskayanın siyasi proseslərdə iştirak formalarını təhlil etməyi; Bu və ya digər məşğulluq formasının effektivliyinə dair müzakirə aparmağı. | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>• Valeriya Novodvorskayanın yerli və dünya siyasəti üçün fəaliyyətinin nəticələrini təhlil etməyi. | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda biz “Valeriya Novodvorskaya” kontekst-nümunəni seçdik (II hissə) ; şagirdə tapşırıq veririk: "Valeriya Novodvorskaya" mətnini oxuyun. Mətnin təhlili əsasında verilmiş meyarları nəzərə alaraq, siyasi fəalın yazılı portretini (150-200 söz) yaradın.

**İşinizdə xüsusilə göstərməlisiniz:**

- Valeriya Novodvorskayanın siyasi proseslərdəki rolunu müəyyən edən şəxsi xüsusiyyətləri
- Valeriya Novodvorskayanın uğrunda mübarizə apardığı insan hüquqları və demokratiya prinsiplərini
- Valeriya Novodvorskaya siyasi proseslərə təsir etmək üçün hansı iştirak formalarından istifadə edirdi
- Valeriya Novodvorskayanın yerli və qlobal səviyyədə fəaliyyətinin nəticələri nə oldu

**Siyasi ideologiyalar və rejimlər** XI sinfin “Siyasət və siyasi mədəniyyət” icbari mövzusunun ikinci əsas məsələsidir. Bu məsələ ilə bağlı “Arxiv xəbəri” N 2. 2008-ci il. Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi (Mixail Cavaxişvilinin işi) kontekst-nümunədən və məzmun baxımından ona yaxın nümunələrdən istifadə etməklə, şagirdin əvvəlki bilikləri aktivləşdirilir və yeni biliklər qurulur:

| Müqayisə üçün əsas hal və nümunələr | Resurslar |
| --- | --- |
| **Əsas hal:**<br>2 saylı “Arxiv xəbərləri”. 2008-ci il. Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi (Mixail Cavaxişvilinin işi) | **Dərslik II hissə, səh. 70-75**<br>Müəllim kitabı, Əlavə 6, (səh. 189) |
| **Müqayisə üçün nümunə 1.**<br>Sosializmin yeni rəngləri - Amerika siyasətində sosialist ideyaları meydana çıxır | • Dərslik II hissə, səh. 47-50 |
| **Müqayisə üçün nümunə 2.**<br>Renyanın gündəliyi | • Dərslik II hissə, səh. 57-59 |
| **Müqayisə üçün nümunə 3.**<br>Otrəngli adam | • Dərslik II hissə, səh. 61-63 |

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamalıyıq ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri istədiyiniz kimi dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa bir kontekst-nümunə üçün təyin edə və kompleks tapşırığın şərtini ona əsaslanmaqla formalaşdıra bilərsiniz.

Təlim prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional-sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri rolunu oynayır.
Kontekst-nümunənin ilkin işlənməsi zamanı, müəllim istiqamətləndirici suallar və fəaliyyətlərlə şagirdlərin diqqətini işlənəcək alt anlayışlara, hədəf anlayışına aid olan detallara yönəldir;

**Hədəf biliyinin müəyyənləşdirilməsi üçün cədvəl**

| **Mövzu - Siyasət və siyasi mədəniyyət**<br>**Əsas məsələ - Siyasi ideologiyalar və rejimlərdir.**<br>**Əsas kontekst nümunəsi**: "Xəbərlər Arxivi" №2. 2008-ci il, Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi" | | | |
|---|---|---|---|
| **Altməsələ** | **Alt anlayışlar** | | **Hədəf anlayışı** |
| 2 saylı "Xəbərlər arxivi". 2008-ci il Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi | İnsan hüquqları<br>**Şəxsi toxunulmazlıq hüququ**<br>**Ədalətli məhkəmə araşdırması hüququ** | Demokratiyanın prinsipləri - **qanunun aliliyi, hakimiyyət bölgüsü**. | **Demokratiya**<br>(Nəticələr: 1,2, 3, 4) |

Şagirdin alt məsələ haqqında nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl** 1.), bunda da şagirddən öyrəniləcək məsələ ilə və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərin olduğu maksimal şəkildə ətraflı yazılmalıdır. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) İlk öncə, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində **(şagirdin bu gözləntiləri real nəticələrə çevirməsinə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə edilməlidir?)** ;

b) Növbəti təlim-tədris prosesinin monitorinqi üçün **(proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Hansı suallar əsas götürülməlidir?)**;

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks-əlaqənin formalaşmasında **(gözləntilərdən hansı ifadələr şagirdin nəticəsini təsvir etmək üçün faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzərində işin pedaqoji təcrübəsinin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün **(hansı əsas təsəvvürlə bağlı real gözləntiləri müəyyənləşdirdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntiyə doğru açarı tapmışam? Harada yanaşmanı dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Demokratiya**<br>(Nəticələr 1,2,3,4)<br><br>2 saylı "Xəbərlər arxivi". 2008-ci il, Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi (Mixail Cavaxişvilinin işi) | 1. İnsan yerli qanunvericilik və beynəlxalq müqavilələrlə təmin olunan hüquq və azadlıqlara malikdir; | Mixail Cavaxişvili və Renyanın nümunəsindən istifadə edərək, SSRİ və faşist Almaniyasında hansı insan hüquqlarının pozulduğunu müzakirə edin. | |
| | 2. İnsan hüquqlarının müdafiəsi demokratik dövlətin ən mühüm dəyəridir; | Kommunist və faşist rejimləri dövründə insan hüquqlarının necə ən mühüm dəyər olduğunu müzakirə edin.<br>Kommunizm, sosializm, liberalizm, konservatizm, faşizm hansı insan hüquqlarına diqqət yetirir? Əsas insan hüquqları ilə bağlı mövqelərini nəzərə alaraq kommunizm və faşizmi müqayisə edin.<br>Əsas insan hüquqları ilə bağlı mövqelərini nəzərə alaraq totalitar ideologiyaları liberalizm, konservatizm ilə müqayisə edin. | |

| | | | |
|---|---|---|---|
| | Demokratik dövlətin fəaliyyəti üçün demokratik prinsiplərə *(məsələn, bərabərlik, qanunun aliliyi, şəffaflıq, ədalətli seçkilər)* riayət etmək lazımdır. | Mixail Cavaxişvilinin işindən istifadə edərək, SSRİ-də demokratiya prinsiplərinə nə dərəcədə əməl edildiyini müzakirə edin: hakimiyyət bölgüsü, ədalətli məhkəmə. | |

Aşağıdakı aralıq/kompleks tapşırıq matrisi **(Cədvəl 2)** kompleks tapşırığın şərtini, qiymətləndirmə meyarlarını və həyata keçirmə mərhələlərini (fəaliyyətlər, resurslar, istiqamətləndirici suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edir.

**Cədvəl 2.**

| **Sual - Siyasət və siyasi mədəniyyət** |
|---|
| **Altməsə:** "Xəbərlər arxivi" № 2. 2008-ci il. Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi. **Altanlayışlar -** İnsan hüquqları **- şəxsi toxunulmazlıq hüququ, ədalətli məhkəmə hüququ.** Demokratiyanın prinsipləri **qanunun aliliyi, hakimiyyət bölgüsü**. **Hədəf anlayışı - demokratiya (Nəticələr: 1,2,3,4)** |
| **Əsas sual** - Totalitar rejimlərdə insanların hüquqi statusu necədir? |

**Kompleks tapşırıq**

Mətni oxuyun - "Xəbərlər Arxivi" №2. 2008-ci il, Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi ( II hissə, səh. 70-75) və nümunələr: Renyanın gündəliyi ( II hissə, səh. 57-59), Ot rəngi adam ( II hissə, səh. 62-63) ) müqayisə üçün.

**Sübutlu esse (sözlərin sayı - 250-300)** yazın, burada mənbələrə əsaslanaraq qeyri-demokratik (totalitar) rejimlərdə insanların hansı problemlərlə üzləşdiyini təhlil edin. Onların hüquqi statusu necədir?

Qeyri-demokratik rejimdə qanunun aliliyi, hakimiyyət bölgüsü və demokratik dövlətin fəaliyyəti üçün vacib olan digər prinsiplərin necə pozulduğuna diqqət yetirin.

**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**

- Qeyri-demokratik siyasi rejimdə insan hüquqları necə pozulur? Hansı hüquqlara etinasız yanaşılır? Dərslikdə təqdim olunan Mixail Cavaxişvili və rejimin digər qurbanlarının nümunəsi əsasında cavab verin; **(demokratiya, əs.təs. 1.2.)**
- Mixail Cavaxişvilinin "işinin" nümunəsində, Sovet İttifaqında hakimiyyət bölgüsü prinsiplərinə, qanunun aliliyi və demokratiyanın digər prinsiplərinə nə dərəcədə əməl olunurdu? **(demokratiya, əs.təs. 3)**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>(Şagird dərk etməlidir, ki: | **Qiymət meyarları:**<br>Şagird bacarır: | İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin: |
|---|---|---|

| | | |
|---|---|---|
| **Demokratiya**<br>1. İnsan yerli qanunvericilik və beynəlxalq müqavilələrlə təmin olunan hüquq və azadlıqlara malikdir;<br>2. İnsan hüquqlarının müdafiəsi demokratik dövlətin ən mühüm dəyəridir;<br>3. Demokratik dövlətin fəaliyyəti üçün demokratik prinsiplərə *(məsələn, bərabərlik, qanunun aliliyi, şəffaflıq, ədalətli seçkilər)* riayət etmək lazımdır. | **Demokratiya**:<br>• Həyat vəziyyətlərini/ təhlil ediləsi nümunələri insan hüquqları və demokratiya prinsipləri haqqında biliklərlə əlaqələndirməyi **(Əs. təs. 1.3)**;<br>• Müxtəlif vəziyyətlərdə insan hüquqları və demokratiya prinsiplərinin qorunması ilə bağlı dilemmaları ayırmağı **(Əs.təs. 2.3)**. | • Qeyri-demokratik siyasi rejimdə insan hüquqları necə pozulur? Hansı hüquqlara etinasız yanaşılır? Dərslikdə təqdim olunan Mixail Cavaxişvili və rejimin digər qurbanlarının nümunəsi əsasında cavab verin; **(demokratiya, əs.təs. 1.2.)**<br>• Mixail Cavaxişvilinin "işinin" nümunəsində, Sovet İttifaqında hakimiyyət bölgüsü prinsiplərinə, qanunun aliliyi və demokratiyanın digər prinsiplərinə nə dərəcədə əməl olunurdu? **(demokratiya, əs.təs. 3)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurs:** dərslik, **II mövzu, II fəsil. Siyasi ideologiyalar və rejimlər,** kompleks tapşırıq şərtləri, **dərslik, II hissə**

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Siyasi ideologiyanı, siyasi rejimi necə başa düşürsünüz?
- Hansı siyasi ideologiyalar və rejimlər haqqında eşitmisiniz?
- Siyasi ideologiyalar və rejimlər arasında hansı əlaqə var?
- Essenin məqsədi nədir? Esse nədir?
- Essenin strukturunun nə olduğu yadınızdadırmı?
- Hansı resurslara ehtiyacımız olacaq?
- Yaxşı bir esse necə yazmaq olar?
- Esse üzərində işləyərkən nələrə diqqət etməlisiniz?
- Bir neçə dərs ərzində işləyəcəyiniz bugünkü məsələni öz sözlərinizlə formalaşdırın?
- Bənzər forma və ya məzmunlu tapşırığı yerinə yetirmisinizmi?

**Müəllimə tövsiyə**:
Suallar verərkən tapşırığın şərtlərinin hamı üçün aydın olduğunu bir daha yoxlayın;
Şagirdlərə kompleks tapşırığı yerinə yetirməzdən öncə, mövzu ilə bağlı bir neçə dərs keçəcəyiniz barədə məlumat verin və sonda hər bir şagirdin yerinə yetirdiyi tapşırığı sinfə təqdim etmək imkanı olacaq.

**Diqqət!**
Kompleks tapşırıq üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda, ev tapşırıqlarından istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**
**Hədəf bilikləri:**
**Altməsə:** "Xəbərlər arxivi" № 2. 2008-ci il. Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi. **Alt anlayışlar -** İnsan hüquqları - **şəxsi toxunulmazlıq hüququ, ədalətli məhkəmə hüququ.** Demokratiyanın prinsipləri **qanunun aliliyi, hakimiyyət bölgüsü**. **Hədəf anlayışı - demokratiya (Nəticələr: 1,2,3,4)**

Kontekst nümunələrinin ilkin işlənməsi
**Fəaliyyət:** cütlükdə işləyin, II hissə, səh. 75
- "Arxiv xəbərləri" mətnini diqqətlə oxuyun, II hissə, səh. 70-75;
- Mixail Cavaxişviliyə münasibətdə Gürcüstan Konstitusiyası ilə təmin edilən hansı hüquq/hüquqlar pozulub? Mətnə əsasən öz fikrinizi əsaslandırın.

| Hüquqlar | Bəli/xeyr | Mətndən əsaslandırma |
|---|---|---|
| **Maddə 9.** İnsan ləyaqətinin toxunulmazlığı | | |
| **Maddə 10.** Yaşamaq və fiziki toxunulmazlıq hüquqları | | |
| **Maddə 11** . Bərabərlik hüququ _ | | |
| **Maddə 12.** Şəxsiyyətin sərbəst inkişafı hüququ | | |
| **Maddə 13.** Azadlıq şəxs | | |

| | | |
|---|---|---|
| **Maddə 14.** Hərəkət azadlığı | | |
| **Maddə 15.** Şəxsi və ailə həyatının, şəxsi məkanın və ünsiyyətin toxunulmazlığı hüququ | | |
| **Maddə 16.** Din, etiqad və vicdan azadlığı | | |
| **Maddə 20.** Yaradıcılıq azadlığı, mədəni irs | | |
| **Maddə 28.** Sağlamlığın qorunması hüququ | | |
| **Maddə 31.** Prosessual hüquqlar | | |

**Meyar 1. Qeyri-demokratik siyasi rejimdə insan hüquqları necə pozulur? Hansı hüquqlara laqeyd yanaşılır? Dərslikdə təqdim olunan Mixail Cavaxişvilinin və rejimin digər qurbanlarının nümunəsinə əsasən cavab verin; (demokratiya. əs.təs. 1.2.)**

**Resurs:** "Xəbərlər arxivi", **dərslik. II hissə, səh.70-75**
**Şagird kitabında verilmiş faydalı resurslar** ( II hissə, səh. 60):
Siyasi ideologiyalar: https://bit.ly/3lAkIdc
Siyasətə necə girə bilərik? (solçu, sağçı): https://bit.ly/3k6K5TG

**Fəaliyyət: müzakirə edin.** Aşağıdakı mətni oxuyun və suallara cavab verin.
**Suallar:**

- Mixail Cavaxişvilinin dövründə Gürcüstanın siyasi və sosial vəziyyətini təsvir edin;
- Məqalədə təsvir olunan mühakimə sistemini necə xarakterizə edərdiniz?
- Sovet hökuməti günahsız insanları və onları ifşa edənləri hansı üsullarla etiraf etməyə məcbur edirdi?
- Sovet hökuməti gürcü ictimai xadimlərini günahkar elan etməklə, faşist rejiminə qarşı necə mübarizə aparırdı?
- Bu sözdə mübarizənin əsl səbəbi nə idi?
- Sovet rejimi hansı ideologiyaya əsaslanırdı?
- Sovet İttifaqı totalitar, yoxsa avtoritar dövlət idi?
- Müzakirə olunan nümunədə hansı insan hüquqları və demokratiya prinsipləri pozulur?

**Resurs:** "Amerika siyasətində sosializmin yeni rəngləri - sosialist ideyaları görünür", dərslik. **II hissə, səh.47-50**
**Fəaliyyət: Müzakirə edin**, aşağıdakı mətni oxuyun və suallara cavab verin:

**Suallar:**

- Sosializm haqqında nə eşitmisiniz?
- Mətnə görə, bir ideologiya kimi, sosializm haqqında hansı təsəvvürünüz yaranıb? Kapitalizm haqqında nə eşitmisiniz?
- ABŞ-da sosializm tərəfdarlarının sayının artmasına hansı amillər səbəb oldu?
- Mətnə görə, Amerika siyasəti haqqında nə kimi təsəvvürünüz var?
- Bəzi siyasətçilərin və vətəndaşların çoxalan hissəsinin sosializmə münasibəti necədir?
- Sadə insanlar hansı səbəblərə görə sosializmə meyl edirlər?
- Sosializm, bir ideologiya olaraq, hansı insan hüquqlarına müraciət edir?
- Sosializmin kommunizmlə əlaqələndirilməsinin səbəbləri nələrdir? Sosializmi kommunizmdən fərqləndirən nədir?
- Sosializmin və digər ideologiyaların ümumi və fərqləndirici cəhətləri hansılardır?

**Resurslar:**

- "Sosializmin yeni rəngləri – Amerika siyasətində sosialist ideyaları peyda olur". Dərslik. **II hissə, səh.47-50**
- Liberalizm, konservatizm. **II hissə, səh. 51**
- Kommunizm. **II hissə, səh. 55.** Arxiv xəbərləri. **Dərslik. II hissə, səh.70-75**
- Faşizm. **Dərslik. II hissə, səh.56.** Renyanın Gündəliyi/ Konsentrasiya düşərgəsinin mühafizəçisi/Dərslik. **II hissə, səh.59-60**

**Fəaliyyət: Qruplarda işləyin.** Resurslarla tanış olun və cədvəli doldurun

| **İdeologiyalar** | **Əsas xüsusiyyətlər** | **Tarixdən və müasir dövrdən nümunələr** |
|---|---|---|
| Sosializm | | |
| Liberalizm | | |
| Konservatizm | | |
| Kommunizm | | |
| Faşizm | | |

**Suallar:**

- Yuxarıda sadalanan ideologiyaların əsas dəyərləri hansılardır?
- Bərabərliyin, liberalizmin, sosializmin, konservatizmin mənasını necə başa düşürlər? Sizin üçün hansı daha məqbuldur?
- Kommunizmə xas olan sosial bərabərlik ideyası liberalizm nöqteyi-nəzərindən hüquqların pozulması kimi qəbul edilə bilərmi? Fikrinizi əsaslandırın.
- İdealogiyaları ifrat solçulardan ifrat sağçılara qədər yerləşdir.
- Sovet hökuməti günahsız insanları və onları ifşa edənləri hansı üsullarla etiraf etməyə məcbur edirdi? Rejimin qurbanları hansı dilemmalarla üzləşirdi?
- Sovet hökuməti gürcü ictimai xadimlərini günahkar elan etməklə faşist rejiminə qarşı necə mübarizə aparırdı?
- Əslində bu uydurma mübarizənin əsl səbəbi nə idi?
- Sovet rejimi hansı ideologiyaya əsaslanırdı?
- Sovet İttifaqı totalitar, yoxsa avtoritar dövlət idi?
- Müzakirə olunan nümunədə hansı insan hüquqları və demokratiya prinsipləri pozulur?
- Faşizm və kommunizm qurbanlarının hekayələri bir-birindən nə ilə oxşar/fərqlidir?
- Holokostda iştirak edənlərin müəyyən edilməsi və cəzalandırılması niyə bu günə qədər vacibdir?
- Bu hekayələr hansı siyasi rejimdən danışır? Mətnə əsaslanaraq, bu rejimlərin əsaslandığı ideologiyaları təsvir edin.
- Faşizm və kommunizmin ümumi və fərqli xüsusiyyətləri hansılardır?

**Resurs:** sosial demokratiya, **dərslik. II hissə, səh.53**
**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Sosial demokratiya sağçı, solçu, yoxsa mərkəzi ideologiyaya əsaslanır?
- Təkamül islahatçılığını necə başa düşürsünüz?
- Sosial demokratlarla sosialistlər arasında hansı oxşarlıqlar və fərqlər var?
- Sosial demokratlar hansı insan hüquqların vurğulayırlar?

**Resurs:** Siyasi ideologiya gürcücə, **dərslik. II hissə, səh.55-56**

**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Müasir siyasi partiya necə idarə olunmalıdır: ideologiyaya görə, yoxsa təkbaşına - lider tərəfindən?
- Mətnə görə partiyanın həyat qabiliyyəti nədən asılıdır?
- Sizcə, partiyanın canlılığı nədən asılı olmalıdır?
- Müasir siyasi partiya hansı əsas prinsiplərə əsaslanmalıdır?
- Liderlə partiya arasında bağlılığın səbəbini necə izah edirsiniz?
- Gürcüstan reallıqlarında liderə simpatiya partiya dəstəyini nə dərəcədə müəyyən edir? Bu yanaşma hansı təhlükələri əhatə edir?

**Meyar 2. Mixail Cavaxişvilinin "işinin" nümunəsində, Sovet İttifaqında hakimiyyət bölgüsü prinsiplərinə, qanunun aliliyi və demokratiyanın digər prinsiplərinə nə dərəcədə əməl olunurdu? (demokratiya, əs.təs. 3)**

**Resurs:** demokratiya əlamətləri, **dərslik. II hissə, səh.55**
**Fəaliyyət: müzakirə**

| **Rejimin xüsusiyyətləri** | **Demokratik qorunur /qorunmur** | **Mətndən qeyri-demokratik fikri əsaslandırın** |
|---|---|---|
| **Qanunun aliliyi** | | |
| **Hakimiyyət bölgüsü** | | |
| **Hakimiyyətin legitimliyi** | | |
| **İnsan hüquqları** | | |

**Suallar:**

- Totalitar dövlətdə demokratiya prinsipləri necə və niyə pozulur?
- Mixail Cavaxişvilinin "işi" ilə Renyanın gündəliyində təsvir olunan vəziyyət arasında hansı oxşarlıqlar/fərqlər var?
- Mixail Cavaxişvili və Renyanın timsalında qeyri-məhdud dövlət hakimiyyətinin nəticələrini müzakirə edin?
- Dövlət hakimiyyətinə nəzarət etmək üçün hansı vasitələr mövcuddur? Totalitar rejimdə bu vasitələrdən istifadə etmək nə dərəcədə mümkündür?

**Resurs:**

"Ot rəngli adam / Albalı şəhəri". Təmsil, **dərslik. II hissə, səh. 62-63**

**Fəaliyyət: müzakirə edin.** Qruplara bölünün. Hər qrup aşağıdakıları oxuyun və anlayın: 1) Quram Doçanişvilinin "Samoseli Pirveli" əsərindən parça və 2) təmsil. Suallara cavab verin:

**Suallar**:

- Bu şəhərdə şəxsiyyətlə bağlı qərarları necə qəbul edirlər? Bu şəhərdə insan ləyaqəti nə dərəcədə qorunur?
- Ot rəngli adamı necə təsvir edərdiniz?
- Nə üçün personaj karavellalılara səhvlərini düzəltdirməyə çalışır?
- Nə üçün ot rəngli adam inanırdı ki, şəhər camaatı kütləyə çevrilib? Sizcə, icmanı kütlədən fərqləndirən nədir?
- Nə üçün şəhər sakinləri ot rəngli adamı şəhərdən qovdular?
- Nə üçün karavellalılar namuslu insanları sevmirlər? Karavellalılar hansı ideyaya xidmət edirlər?
- Nə üçün karavellalılar ot rəngli adamdan qorxurdular? Belə insanlar çox olsaydı, nə olardı?
- Şərtsiz qərar qəbul etmək hüququna malik olan və ictimaiyyət tərəfindən pərəstiş edilən Böyük Karavella hansı ideoloji liderlə əlaqələndirilir?
- Ot rəngli adam necə bir vətəndaşdır?
- SSRİ "Karavellalar" ölkəsinə nə dərəcədə bənzəyir? Fikrinizi əsaslandırın.
- Mixail Cavaxişvili "ot rəngli adamdırmı"? Fikrinizi əsaslandırın.
- Bu təmsil bizə nə deyir?
- Qəddar hökumət nəyi nəzərdə tutur? Nə üçün ölümdən daha pisdir?
- Konfutsi bu hekayədən hansı nəticə çıxardı? Siz bu hekayədən hansı nəticəyə gələ bilərsiniz?
- Tamamilə fərqli tarixi dövrlərə, coğrafi mövqelərə və siyasi vəziyyətlərə baxmayaraq, bu 2 hekayə arasında hansı oxşarlıqlar var?
- Mənbələrdə təsvir olunan vəziyyəti hansı rejimlər xarakterizə edir? Bənzər rejimli dövlətdə insanın taleyi nədən asılıdır?

**Resurs:**

Vaja Pşavelanın mülahizəsi, **dərslik. II hissə, s.69;** Şindlerin siyahısı, **dərslik. II hissə, səh.82**

**Fəaliyyət: müzakirə.** Mənbələr üzrə şəxsiyyət növlərini müqayisə edin.

**Şagird kitabında verilmiş faydalı resurslar** (II hissə, səh. 69):

Quram Petriaşvili – "Kədərli klounun hekayəsi".

Naira Qelaşvili – "Madridə gedəcəm".

Siyasi ideologiyalar və rejimlər: https://bit.ly/3k22ykq

**Suallar:**

- Müəllifin fikri ilə razısınızmı?
- Vaja Pşavela necə sübut edir ki, savadsız insan nə üçün azadlıq uğrunda mübarizə aparmır?
- Sizcə, bu mülahizə yalnız savadsızlığamı aiddir?
- İtaətkar cəmiyyət haqqında müəllifin fikri nədir? Belə bir cəmiyyətin özünə nə kimi zərəri var?
- Ot rəngli adamı, Şindleri Vaja Pşavelanın nöqteyi-nəzərindən təsvir edin (II hissə, səh. 69).
- Məktubda hansı siyasi rejim təsvir olunur? Müəllifin bu rejimə münasibəti necədir? Cəmiyyətin dözdüyü vəziyyətə? Bu məktuba əsasən müəllif nə demək istəyir?
- Bu gün ölkəmizdə bu vəziyyət nə dərəcədə aktualdır? Dünyada?
- Bir insan ("Ot rəngli adam", Şindler nümunəsindən istifadə edərək) rejimlə necə mübarizə apara bilər?
- Rejimə qarşı mübarizədə şəxsiyyətlərin rolu nədir?
- Qeyri-zorakı üsullarla qeyri-demokratik rejimlərə qarşı mübarizə aparmaq olarmı? Necə olduğunu müzakirə edin.

**Resurs:** nasist liderlərinin nəsilləri - qəddar qatillərin uşaqlarının həyatı necə oldu? **Dərslik. II hissə, səh. 79**
**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Bu məqalənin əsas ismarıcı nədir?
- Uşaq və ya nəvə öz əcdadının törətdiyi cinayətə görə məsuliyyət daşıyırmı?
- Nəsillər ulu babalarının günahını necə ödəyə bilərlər?
- Əgər başqa məlumatınız olmasaydı, təkcə bu hekayədən faşizm haqqında hansı təəssüratınız yaranardı?
- Şindlerin və Hössün həyat yollarını müqayisə edin.

**Resurs:** siyasi rejimlərin növləri, **dərslik. II hissə, səh. 82-83**
**Fəaliyyət:** Siyasi rejimin əlamətlərini rejim növləri ilə müqayisə edin.
**Suallar:**

- "Siyasi rejim" termini nə deməkdir?

- Siyasi rejimlərin əsas növləri hansılardır?
- Totalitar rejimin xüsusiyyətləri hansılardır?
- Totalitar və avtoritar rejimləri müqayisə edin.
- Əsas siyasi rejimlər hansılardır? Demokratiyada hökumətə nəzarət necə təmin olunur?

**Resurs:** Ümumdünya İnsan Hüquqları Bəyannaməsi

**Fəaliyyət: müzakirə edin.** Yuxarıda müzakirə edilən nümunələrdə demokratiyanın hansı prinsipinin pozulduğunu təhlil edin: a) faşist Almaniyasında; b) Sovet İttifaqında.

| **Demokratiya prinsipi** | **Sovet İttifaqı** | **Nasist Almaniyası** | **Nümunə göstərin** |
|---|---|---|---|
| Bərabərlik | | | |
| Qanunun aliliyi | | | |
| Vətəndaş iştirakı/inklüzivliyi | | | |
| Hakimiyyət bölgüsü | | | |
| Şəffaflıq və hesabatlılıq | | | |
| Ədalətli seçkilər | | | |
| Qeyri-zorakı üsullarla hərəkət | | | |

| | | | |
|---|---|---|---|
| Tolerantlıq | | | |
| Çoxpartiyalı sistem | | | |
| İqtisadi azadlıq | | | |

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

| | |
|---|---|
| | - Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?<br>- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?<br>- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?<br>- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?<br>- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz? |

**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

**Cədvəl 3.**

| Qiymətləndirmə meyarları | Maksimal bal | Şərh |
|---|---|---|
| **Sinif** : XI<br>**Mövzu:** “Siyasət və siyasi mədəniyyət”<br>**Əsas məsələ:** siyasi ideologiyalar və rejimlər<br>**Şagird:** | | |
| **Qiymətləndirmə meyarları** | Maksimal bal | Şərh |
| **Cəmiyyət -** şagird bacarmalıdır:<br>Nasist rejiminin Renyanın gündəliyindəki qəhrəmanlara təsirini təhlil etməyi. | 1.5 | |
| **Demokratiya -** şagird bacarmalıdır:<br>Renyanın gündəliyində təsvir olunan hadisələrə əsaslanaraq, demokratiya prinsipləri əsasında nasist rejimini dəyərləndirməyi; insanın hüquqi vəziyyətinə uyğun olaraq. | 1.5 | |
| **Vətəndaş iştirakı -** şagird bacarmalıdır:<br>Nasist rejimi dövründə vətəndaşların siyasi proseslərdə iştirakı ideyalarını izah etməyi; siyasi proseslərdə iştirak imkanlarını təhlil etməyi. | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>Gündəlikdə təsvir olunan siyasi rejim şəraitində davamlı inkişaf prinsiplərinin nəzərə alınmasına mane olan amilləri (məsələn, totalitar rejimin mövcudluğu, müharibə) təhlil etməyi. | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində, hədəf anlayışlarına diqqəti yönəltməklə mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər və bu da kontekst nümunəsi ilə əlaqələndiriləcək.

Bu halda biz "Renyanın gündəliyi" kontekst-nümunəni seçmişik (II hissə, s. 57-60); şagird tapşırıq veririk: "Renyanın gündəliyi" mətni ilə tanış olun. Mətnin analizi əsasında, nasist rejimin qısa (200-250 söz) təsvirini yazın.

**İşinizdə xüsusilə göstərin:**

- Renyanın gündəliyindəki qəhrəmanlar nasist rejimi şərtlərində hansı ehtiyacları ödəyə bilmirdilər?
- Nasistlər demokratiya prinsiplərinə necə etinasızlıq göstərirdilər və nasistlər tərəfindən insan hüquqları necə pozulurdu;
- Sizə məlum olan vətəndaş iştirakının formalarından totalitar rejimdə nə dərəcədə istifadə oluna bilərdi?
- Renyanın gündəliyində təsvir olunan hadisələr zamanı davamlı inkişafın hansı prinsiplərinə xüsusi diqqət yetirilmirdi?

XI sinfin Siyasət və Siyasi Mədəniyyət icbari mövzusunun üçüncü məsələsi "**Davamlı siyasətdir**". Bu məsələ ilə bağlı Britaniyanın "Guardian" qəzetində 2022-ci ildə dərc olunmuş məqalə və məzmun baxımından ona yaxın nümunələrlə şagirdin əvvəlki bilikləri aktivləşdirilir və yeni biliklər qurulur:

| Müqayisə üçün əsas hal və nümunələr | Resurslar |
|---|---|
| **Əsas hal:**<br>2022-ci ildə Britaniyanın "The Guardian" qəzetində dərc olunan məqalə | • Dərslik, II hissə, səh. 87 - 93<br>• Müəllim kitabı, Əlavə 7, səh. 194 |
| **Müqayisə üçün nümunə 1 .**<br>Ölkələr davamlı gələcək qurmaq üçün nə edir? | • Dərslik, II hissə, səh. 97 |
| **Müqayisə üçün nümunə 2.**<br>Banqladeşdə Qramin Bankı | • Dərslik, II hissə, səh. 99 |
| **Müqayisə üçün nümunə 3.**<br>1 dekabr - Kosta Rikada Ordunun ləğvi günü | • Dərslik, II hissə, səh. 100 |
| **Müqayisə üçün nümunə 4.**<br>Qabonda meşənin əhəmiyyəti | • Dərslik, II hissə, səh. 101 |
| **Müqayisə üçün nümunə 5.**<br>İslandiya və geotermal enerji | • Dərslik, II hissə, səh. 102 |
| **Müqayisə üçün nümunə 6.**<br>Frayburq - gələcəyin şəhəri | • Dərslik, II hissə, səh. 103 |

**İzah edək**: yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamalıyıq ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri istədiyiniz kimi dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa bir kontekst-nümunə üçün təyin edə və kompleks tapşırığın şərtini ona əsaslanmaqla formalaşdıra bilərsiniz.

Təlim prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional-sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri rolunu oynayır.

Kontekst-nümunənin ilkin işlənməsi zamanı, müəllim istiqamətləndirici suallar və fəaliyyətlərlə şagirdlərin diqqətini işlənəcək alt anlayışlara, hədəf anlayışına aid olan detallara yönəldir;
Kontekst nümunəsinin ilkin işlənməsi zamanı müəllim istiqamətləndirici suallar və hərəkətlərlə şagirdlərin diqqətini işlənən alt anlayışlara, hədəf konsepsiyaya aid olan detallara yönəldəcək.

**Hədəf biliyinin müəyyənləşdirilməsi üçün cədvəl**

| **Mövzu -** Siyasət və siyasi mədəniyyət<br>**Əsas məsələ - Davamlı Siyasət**<br>**Əsas hal -** 2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunmuş məqalə | | |
|---|---|---|
| **Altməsələ** | **Alt anlayış** | **Hədəf anlayışı** |
| 2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunan məqalə | Məqsədlərə çatmaq üçün tərəfdaşlıq | **Davamlı inkişaf**<br>( Nəticə: 3 ) |

Şagirdin alt məsələ ilə bağlı nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl 1**.), bu rubrikada şagirddən öyrəniləcək mövzu və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı gözləntilərimiz olacağını maksimum təfərrüatlı şəkildə təsvir edirik. Gözləntilər Milli Tədris Planının Nəticələri Taksonomiyasının **nisbi səviyyəsi** ilə üst-üstə düşür. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:
a) ilkin olaraq, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində (**bu gözləntinin real nəticəsi kimi şagirdə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə etməliyəm?);**
b) təlim-tədris prosesinin monitorinqi üçün (**proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Köməkçi alət kimi hansı suallardan istifadə etməliyəm**?);
c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks əlaqənin formalaşmasında (**şagirdin nəticəsini təsvir etmək üçün gözləntilərdən hansı ifadələr faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**
d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzrə iş üzrə pedaqoji təcrübənin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün (**Hansı əsas təsvirlə bağlı münasibətdə gözləntiləri real şəkildə müəyyən etdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntinin düzgün açarını tapdım? Yanaşmanı harada dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Davamlı inkişaf**<br>(Nəticə 3)<br><br>2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunan məqalə | 1. Sərvətlərdən istifadə etdikdə, cəmiyyətin maraqlarını və gələcək perspektivi nəzərə almaq lazımdır; | Konkret nümunələr əsasında təhlil edir:<br>- İqlim dəyişikliyinə səbəb olan amilləri; iqlim dəyişikliyinin nəticələrini;<br>- Dayanıqlı gələcək üçün əməkdaşlığın niyə vacib olduğunu?<br>- Davamlı inkişaf məqsədlərinə nail olmaqda özəl və dövlət sektorları və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın rolunu müzakirə etməyi. | |
| | 2. Yerli hərəkətlərin qlobal nəticələri olur (məsələn, ətraf mühitin qayğısına qalmaq kiçik görünən hərəkətlərdən başlayır (məsələn, yerə zibil atmamaq, plastik torbalardan imtina etmək). | Konkret misallarla əsaslandırır<br>• Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün yerli hərəkətlərin əhəmiyyətini. | |

Aşağıdakı aralıq/kompleks tapşırıq matrisi **(Cədvəl 2)** kompleks tapşırığın şərtini, qiymətləndirmə meyarlarını və həyata keçirmə mərhələlərini (fəaliyyətlər, resurslar, istiqamətləndirici suallar və müəllim üçün qısa tövsiyələr) təqdim edir.

**Cədvəl 2.**

**Sual: "Davamlı siyasət"**

**Altməsələ:** 2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunmuş məqalə; **altanlayışlar- Davamlı İnkişaf Məqsədi 17; hədəf anlayışı – Davamlı inkişaf (Nəticə: 3)**

**Əsas Sual** – Nə üçün Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hökumət/hökumətlər, özəl sektor və vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq vacibdir? İşimdə Davamlı İnkişaf Məqsədlərinə etinasızlığın nəticələrini necə təsvir edə bilərəm?

**Kompleks tapşırıq**

2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunmuş məqaləni oxuyun (səh. 87-93), məqalədə qaldırılan problemləri təhlil edin. Bu təhlilin və dərslikdə təqdim olunan 1–5-ci vəziyyətlərin (səh. 99–104) əsasında **cədvəl/diaqram** qurun.

Problemin həllində hökumətin, özəl sektorun və vətəndaş cəmiyyətinin roluna diqqət yetirin, yəni: problemlərin səbəbləri; artıq müəyyən edilmiş və mümkün nəticələr haqqında; itkilərin azaldılması yolları haqqında.

| Davamlı inkişafın qlobal məqsədi | Məqsədə laqeyd yanaşma hansı nəticələrə səbəb oldu? | Məqsədə çatmaq üçün hökumət hansı addımları atmalıdır? | Məqsədə çatmaq üçün özəl sektor hansı addımları atmalıdır? | Vətəndaş cəmiyyəti məqsədə çatmaq üçün hansı addımları atmalıdır? | Məqsədə çatmaqda tərəfdaşlığın əhəmiyyətini müzakirə edin |
|---|---|---|---|---|---|
| N | | | | | |
| N | | | | | |
| N | | | | | |
| N | | | | | |

**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**

- Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hökumət, özəl sektor və vətəndaş cəmiyyəti hansı addımları atmalıdır? **( Əs.təs.2)**
- Davamlı İnkişaf Məqsədlərinə laqeyd yanaşmanın nə kimi nəticələri ola bilər və ümumi məqsədlərə nail olmaq üçün əməkdaşlıq nə üçün vacibdir? **(Əs.təs. 1.2)**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br>(Şagird dərk etməlidir, ki: | **Qiymət meyarları:**<br>Şagird bacarır: | İşinizdə/işinizin təqdimatında xüsusilə<br>göstərin: |
|---|---|---|
| **Davamlı inkişaf (Nəticə: 3)**<br>1. Resurslardan istifadə edərkən cəmiyyətin maraqlarını və gələcək perspektivlərini nəzərə almaq vacibdir;<br>2. Yerli aksiyaların qlobal nəticələri var (məsələn, ətraf mühitin qayğısına qalmaq kiçik görünən hərəkətlərdən başlayır (məsələn, zibil atmayın, plastik torbalardan imtina edin). | **Davamlı inkişaf**:<br>Yerli tədbirləri qlobal nəticələrlə əlaqələndirməyi **(əs.təs.1,2)** | • Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hökumət, özəl sektor və vətəndaş cəmiyyəti hansı addımları atmalıdır? **(Əs.təs.2)**<br>• Davamlı İnkişaf Məqsədlərinə laqeyd yanaşmanın nə kimi nəticələri ola bilər və ümumi məqsədlərə nail olmaq üçün əməkdaşlıq nə üçün vacibdir? **(Əs.təs. 1.2)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq.**

**Resurs:** dərslik, II mövzu. III fəsil. **Davamlı siyasət**, kompleks tapşırığın şərti, II hissə, səh. 86

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Davamlı inkişafı necə başa düşürsünüz?
- Hansı Davamlı İnkişaf Məqsədlərini tanıyırsınız?
- Davamlı İnkişaf Məqsədləri nə üçün vacibdir?
- Cədvəl/sxem yaratmaqda məqsəd nədir?
- Tapşırığı yerinə yetirmək üçün hansı addımları atırsınız?

- Məsələnin aktuallığını necə vurğulamaq olar?
- Verilən tapşırığın nəyə aid olduğunu öz sözlərinizlə təsvir edin?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**Müəllimə tövsiyə:**
Sual verməklə problemin şərtlərinin hamıya aydın olduğunu bir daha yoxlayın;
Şagirdlərə kompleks tapşırığı yerinə yetirməzdən öncə mövzu ilə bağlı bir neçə dərs keçəcəyiniz barədə məlumat verin və sonda hər bir şagird yerinə yetirdiyi tapşırığı sinfə təqdim etmək imkanı əldə edəcək.

**Diqqət!**
Kompleks tapşırıqlar üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda ev tapşırıqlarından istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**

**Hədəf biliklər<u>i</u>:**

**Altməsələ:** 2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunmuş məqalə; **altanlayış - Davamlı İnkişaf Məqsədi 17; hədəf anlayışı – davamlı inkişaf (Nəticə: 3)**

Kontekst nümunələrinin ilkin işlənməsi

**Fəaliyyət:** cütlükdə işləyin, II hissə, səh. 87-93
2022-ci ildə Britaniyanın "Guardian" qəzetində dərc olunmuş məqaləni diqqətlə oxuyun (səh. 87-93). Cədvəli vərəqə köçürün.

- Birinci sütunda məqalədə müzakirə olunan qlobal problemlərə səbəb olan yerli hərəkətləri yazın; üçüncü sütunda - qarşısının alınması yollarını;
- Digər cütlüklər tərəfindən hazırlanmış qarşısının alınması yollarını bir-biri ilə müqayisə edin; Onların arasında ümumi nə var?
- Təklif etdiyiniz qarşısının alınma yolları digərlərindən nə ilə fərqlənir? Problemlərin yerli və ya qlobal həllini daha vacib hesab edirsiniz? Konkret nümunələr gətirin və cavabınızı əsaslandırın.

| Yerli hərəkət | Qlobal problem/problemlər | Qarşısının alınması yolları |
| --- | --- | --- |

| | | |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

**Meyar 1: Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün hökumət, özəl sektor və vətəndaş cəmiyyəti hansı addımları atmalıdır? (Əs.təs.1.2)**

**Resurs:** Britaniyanın "Guardian" qəzetində 2022-ci ildə dərc olunmuş məqalə, **dərslik. II hissə, səh. 87-93**
**Fəaliyyət: qruplarda işləyin**
**Suallar:**

- Davamlı inkişaf məqsədlərini yadınıza salın; Məqalədə davamlı inkişafın hansı məqsədi/məqsədlərindən bəhs edilir?
- Bir şagird kimi, siz Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün əvvəlki biliklərinizdən istifadə edərək nə edə bilərsiniz? Konkret cavab verin;
- Gürcüstan üçün hansı hədəfi ən problemli hesab edirsiniz? Cavabınızı əsaslandırın;
- Vətəndaşlıq mövzusu çərçivəsində siz hər il bir məktəb şagirdinin davamlı inkişaf məqsədlərinə çatmaq üçün nə edə biləcəyini öyrənirsiniz. Məqalədə müəllif bu cəhdləri "mikro istehlakçı cəfəngiyyatl" adlandırır. Sizcə, niyə? Məqalənin müəllifi nə demək istəyir? Siz necə düşünürsünüz?
- Müəllif medianı hansı əsasla tənqid edir? Müəllif medianın davamlı məqsədlərə biganəliyini göstərmək üçün hansı faktları gətirir?
- Müəllif vətəndaşı istehlakçı kimi niyə tənqid edir?
- İnsan ehtiyatsızlığının törətdiyi kataklizmlər hansılardır və biz bunu niyə hiss etmirik?
- Müəllif ekosistemi xilas etmək üçün hansı həll yolunu görür? Siz həll yolunu nədə görürsünüz?
- Məqaləni oxuduqdan sonra davamlı inkişafın konkret məqsədinə nail olmaqda öz rolunuzu necə təsəvvür edirsiniz? Məqalə sizi nə barədə düşündürdü?
- Siyasətlə davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi arasında hansı əlaqə var? Vahid struktur (konkret olaraq "siz" strukturu), vahid dövlət Davamlı İnkişaf Məqsədlərini təkbaşına həll edə bilərmi?
- Siz öz rolunuzda hansı daxili dövlət qurumlarından istifadə edərdiniz? Hansı beynəlxalq qurumlardan?
- Davamlı inkişafın üç ölçüsünü necə əlaqələndirirsiniz: iqtisadi inkişaf, sosial inklüzivlik və ekoloji davamlılıq?

- Məqalədə qaldırılan problemləri və 1-5 vəziyyətlərində (səh.99-104) təsvir olunan cəhdləri davamlı inkişaf məqsədlərinə çatmaq üçün birləşdirin. Cavabınızı əsaslandırın

**Resurslar:**
Davamlı inkişaf komponentləri, **dərslik. səh.88**
Qlobal Dayanıqlı İnkişaf Məqsədləri, **dərslik. səh.95**
**Fəaliyyət. Qruplarda işləyin.** Davamlı inkişaf komponentlərini davamlı inkişaf məqsədləri ilə əlaqələndir

| **Davamlı inkişafın komponentləri** | **Davamlı İnkişaf Məqsədləri N** |
|---|---|
| Davamlı sosial inkişaf (insan) | |
| Davamlı ətraf mühit (planet) | |
| Davamlı iqtisadi inkişaf (firavanlıq) | |

**Suallar:**
- Davamlı inkişafın hər bir komponentinin əhəmiyyətini necə başa düşürsünüz?
- Məqsədləri komponentlərlə əlaqələndirmək çətinmi oldu?
- Davamlı inkişafın komponentləri arasında hansı əlaqə var?

**Resurslar:**
Qlobal Dayanıqlı İnkişaf Məqsədləri, **dərslik. səh.95**
Vəziyyət 1,2,3,4,5, **dərslik. II hissə, s.99-104**
**Şagird kitabında verilmiş faydalı resurslar** (II hissə, səh. 95):

BMT-nin Davamlı İnkişaf Məqsədləri - icmal: https://bit.ly/3l7Siav
Davamlı İnkişaf Məqsədləri: https://bit.ly/3RMzhGV
Davamlı inkişaf və onun aspektləri: https://bit.ly/3HqO4SI

**Fəaliyyət: qruplarda işləyin.** Aşağıdakı 5 vəziyyəti öz aranızda bölüşdürün və suallara cavab verin.
**Suallar:**

- “Qramin Bank” Banqladeşdə nə iş görür?
- Nə üçün Qramin modeli yoxsullara (o cümlədən qadınlara) kömək etməkdə effektiv vasitədir?
- Nə üçün sosial cəhətdən həssas qrupların maliyyə inklüzivliyini dəstəkləmək lazımdır?
- Bankın fəaliyyəti hansı davamlı inkişaf məqsədlərinə nail olmağa kömək edir?
- Nə üçün Kosta Rika ordunu ləğv etdi?
- Kosta Rikanın keçmiş prezidenti və Nobel Sülh Mükafatı laureatı ordunun ləğvini hansı arqumentlərlə açıqlayır?
- Bu arqumentlə razısınızmı? Cavabınızı əsaslandırın.
- Ölkə orduya ayrılan vəsaiti hansı məqsədlərə yönəldib?
- Kosta Rikada ordunun ləğvinin təsirləri ilə hansı davamlı inkişaf hədəflərini əlaqələndirərdiniz?
- Sizcə, Kosta-Rika hökuməti düzgünmü addım atıb? Cavabınızı əsaslandırın.
- Qabon hökumətinin iqtisadi siyasəti necə idi?
- 2001-ci ildə Qabonda qəbul edilmiş Meşə Təsərrüfatı Məcəlləsinin məqsədi nə idi?
- Hansı davamlı inkişaf məqsədi Qabon hökumətinin siyasəti ilə əlaqələndirilir? Bu məqsəd nə üçün vacibdir?
- Bu siyasətin nəticələri necə olacaq?
- Gürcüstanın da oxşar siyasət yürütməsini istərdinizmi? Nə üçün?
- İslandiya hansı enerji mənbələrindən istifadə edirdi və edir?
- İslandiyanın “enerji inqilabının” mahiyyəti nədir?
- Bərpa olunan mənbələrdən enerji əldə etmək nə üçün vacibdir?
- 2010-cu ildə İslandiyanın Şərqi Afrikaya Yardım Təşəbbüsünün məqsədi nədir?
- Hansı davamlı inkişaf məqsədi İslandiyanın “enerji inqilabı” ilə əlaqələndirilir?
- Nə üçün İslandiyanın BMT-nin Ətraf Mühit Proqramı çərçivəsində Şərqi Afrikadakı işi vacibdir?
- Nə üçün Frayburq dünyanın ən yaşana bilən, mütərəqqi və davamlı şəhərlərindən biridir?
- Frayburqun belə bir şəhərə çevrilməsinə nə kömək etdi?
- Sənaye simbiozu nədir?
- Kalundborqun sənaye simbiozuna neçə sənaye sahəsi daxildir?
- Sənayelərarası əməkdaşlıq ətraf mühitə hansı faydalar gətirir?
- Hansı davamlı inkişaf məqsədlərini sənayelərarası əməkdaşlığa əlaqələndirərdiniz?
- Məqalədə qaldırılan məsələləri Davamlı İnkişaf Məqsədlərinin əldə edilməsi üçün1-5-ci vəziyyətlərdə təsvir olunan cəhdlərlə əlaqələndirin (səh. 99-104). Cavabınızı əsaslandırın.

**Meyar 2: Davamlı İnkişaf Məqsədlərinə etinasız yanaşmağın nəticələri nələrdir və ümumi məqsədlərə nail olmaq üçün əməkdaşlıq nə üçün vacibdir? (Əs.təs.1.2)**

**Resurslar:**
Davamlı İnkişafın Qlobal Məqsədləri, **dərslik. II hissə, səh.95**
Ölkələr davamlı gələcəyi yaratmaq üçün nə edir? **Dərslik. II hissə, səh.97**
**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Kilimancaronun buz örtüyünün əriməsinin səbəbi nədir?
- Himalay dağlarının daimi qar örtüyü niyə azalır?
- Böyük şəhərlərdə yanğınların artması hansı nəticələrə gətirib çıxarır?
- Nə üçün dünyada hər il hektarlarla meşələr yox olur?
- Nə üçün təbii növlər tempindən 100 dəfə tez məhv olur?
- Dünya əhalisinin çox hissəsinin sanitariya və təmiz suya əlinin çatmamasının səbəbi nədir?
- İqlim dəyişikliyi səbəbindən məcburi köçkünlərin sayının artmasının qarşısını necə almaq olar?
- Yuxarıda göstərilən məsələlərdən hansı davamlı inkişaf məqsədlərinə aiddir?
- Bu proseslərin qarşısını almaq üçün nə edirik?
- Biz yaşamaq uğrunda mübarizə aparmağa və Yer kürəsini olduğu kimi saxlamağa çalışırıqmı (bu bir həqiqətdir ki, biz əvvəlki formasını qaytara bilmərik)?
- Hansı davamlı inkişaf məqsədini daha vacib hesab edirsiniz?
- Sadalanan problemlərdən hansı Gürcüstan üçün ən aktualdır?
- Bu problemləri azaltmaq üçün cəmiyyət, dövlət və siz nə edirsiniz?
- Nə üçün Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün əməkdaşlıq vacibdir?

**Resurs:** fövqəladə hallar zamanı təhlükəsiz davranış qaydaları. **Dərslik. II hissə, səh. 108,109,110**
**Fəaliyyət: qruplarda işləyin**
**Şagird kitabında verilmiş faydalı resurslar** (II hissə, səh. 115):
Yanğın zamanı təhlükəsizlik qaydaları: https://bit.ly/3xuw19I

Yanğın təhlükəsizliyi üzrə təlim videosu: https://bit.ly/3xzXcjg
Daşqın zamanı nə etməliyik: https://bit.ly/413NWBE
Zəlzələ: https://bit.ly/3Sh7WwI
Zəlzələ zamanı təhlükəsizlik qaydaları: https://bit.ly/3IwwnD1

**Suallar:**

- Daşqın zamanı təhlükəsiz davranış qaydaları hansılardır?
- Zəlzələ zamanı təhlükəsiz davranış qaydaları hansılardır?
- Yanğın zamanı təhlükəsiz davranış qaydaları hansılardır?
- Bu qaydalara riayət davamlı inkişaf məqsədlərinə çatmağa nə dərəcədə kömək edir?

**Resurs:** Fövqəladə halların idarə edilməsi və erkən xəbərdarlıq sistemlərində yerli özünüidarəetmənin rolu.
**Dərslik. II hissə, səh. 111**
**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Milli Mülki Təhlükəsizlik Sistemi necə işləyir?
- Nə üçün mərkəzi və yerli hökumətlər arasında əməkdaşlıq mülki təhlükəsizlik məqsədləri üçün vacibdir?
- Fövqəladə Hallar Xidməti hansı məqsədlərə qulluq edir?
- Fövqəladə halların səbəb olduğu itkilərin azaldılmasında erkən xəbərdarlıq sistemlərinin rolu nədir?
- Erkən xəbərdarlıq sisteminin müvəffəqiyyəti hansı dörd əsas elementdən asılıdır?
- Xaricdə erkən xəbərdarlıq təcrübələrini Gürcüstandakılarla müqayisə edin?
- Fövqəladə hallar zamanı vətəndaşların hansı öhdəlikləri var?
- Təbii fəlakətlərin səbəb olduğu fövqəladə halların risklərinin azaldılmasında qlobal və yerli səviyyədə əməkdaşlığın rolu nədir? Təbii fəlakətlərin vurduğu zərərin azaldılmasında?

**Resurs:** birlikdə dayanmaq nümunəsi, **dərslik. II hissə, səh. 105-106**
**Fəaliyyət: cütlükdə işləyin**
**Suallar:**

- Belə bir ağır işləri yerinə yetirmək üçün sıravi vətəndaşların nə kimi motivasiyası var idi?

- Paytaxtın bələdiyyəsi necə hərəkət edirdi?
- Erkən ismarıclar sistemi işlədimi?
- Erkən ismarıc halında hadisələr necə cərəyan edərdi?
- Könüllülərin fəaliyyətinin təşkili necə baş verirdi?
- 13 iyun faciəsinin səbəbləri nə idi?
- Bu faciənin qarşısını almaq olardımı? Cavabınızı əsaslandırın.
- Sizcə, nə üçün könüllülük vacibdir?
- Heç könüllü olmusunuzmu? Kim fövqəladə hallar zamanı könüllü ola bilər?
- Nə üçün könüllülük fövqəladə hallar zamanı effektivdir?
- Vətəndaş hərəkatının dövlətlə birlikdə mühüm iş gördüyü bir hadisəni yadınıza salın?
- Sizcə, Tbilisi şəhəri üçün davamlı inkişaf məqsədi 11 - Davamlı şəhərlər və qəsəbələr nə dərəcədə aktualdır??
- Bu məqsədə çatmaq üçün dövlət və özəl sektor, vətəndaş cəmiyyətinin əməkdaşlığı nə dərəcədə vacibdir?

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?
- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?

| |
|---|
| ▪ Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?<br><br>**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**<br>• Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?<br>• Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?<br>• Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?<br>• Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?<br>• Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz? |

**Cədvəl 3**

**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

| **Sinif**: XI<br>**Mövzu:** "Siyasət və siyasi mədəniyyət"<br>**Əsas məsələ:** Davamlı siyasət<br>**Şagird:** | | |
|---|---|---|
| **Qiymətləndirmə meyarları** | Maksimal bal | Şərh |
| **Cəmiyyət -** şagird bacarmalıdır:<br>Məhəmməd Yunusun fəaliyyətinin əsasında duran siyasi ideyaları/ideologiyaları təhlil etməyi. | 1.5 | |
| **Demokratiya -** şagird bacarmalıdır:<br>Məhəmməd Yunusun tərəfindən təsis edilən "Qramin Bankın" benefisiarlarının sosial-iqtisadi hüquqlarının həyata keçirilməsində rolunu qiymətləndirməyi | 1.5 | |
| **Vətəndaş iştirakı -** şagird bacarmalıdır:<br>Yunusun vətəndaş iştirakı yolunu/metodunu xarakterizə etməyi. | 1.5 | |

| | | |
|---|---|---|
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>“Qramin Bankın” fəaliyyətini müzakirə edərkən davamlı inkişaf prinsiplərini nəzərə almağı. | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda, biz “Qramin Bank” kontekst-nümunəni seçmişik ( II hissə, səh. 99-100); şagirdə tapşırıq veririk: “Mənbəyə baxın - Banqladeşdə “Qramin Bank”. Bankın/Məhəmməd Yunusun fəaliyyətini aşağıdakı meyarlara uyğun olaraq yazılı (100-150 söz) qiymətləndirin:

- Məhəmməd Yunus bankı qurarkən hansı siyasi ideologiya/ideyadan ilham almışdı?
- Bank benefisiarların hansı hüquqlarını həyata keçirməyə kömək edir?
- Məhəmməd Yunus siyasətdə iştirakın hansı yolunu seçdi? Vətəndaş iştirakına gedən yolu təsvir edin
- Yunusun təsis etdiyi bankın fəaliyyəti dayanıqlı inkişafın hansı prinsiplərinin reallaşmasına dəstək verir?

XI sinfin Siyasət və Siyasi Mədəniyyət icbari mövzusunun dördüncü məsələsi “**Siyasətdə vətəndaş iştirakı**”. Bu məsələ ilə bağlı kontekst nümunə və məzmunca ona yaxın nümunələrlə şagirdin əvvəlki bilikləri aktivləşdirilir və yeni biliklər qurulur:

| **Müqayisə üçün əsas hal və nümunələr** | **Resurslar** |
|---|---|
| Əsas hal:<br>“Zamanını qabaqlayan insan” | • Dərslik II hissə, səh. 145-148<br>• Müəllim kitabı, Əlavə 8 (səh. 197.) |
| **Müqayisə üçün nümunə 1 .**<br>Boston Çay Qonaqlığı, Duz Marşı, 68-ci ilin mayı | • Dərslik, II hissə, səh. 134,135, 136 |
| **Müqayisə üçün nümunə 2.**<br>9 aprel Gürcüstan | • Dərslik, II hissə, səh. 137 |

| **Müqayisə üçün nümunə 3.** | • Dərslik, II hissə, səh . 333-337 |
|---|---|

**İzah edək:** yeni biliklərin konstruktiv qurulmasını təmin etmək üçün şagirdlərə, onların bilik-təcrübələri üçün əlçatan olan, müzakirəsi və təhlili onların hədəf bilikləri (alt məsələləri, alt anlayışları, hədəf anlayışları) anlamağa və mənimsəmələrinə səbəb olacaq nümunələri (özəl hadisələr, vəziyyətlər, əhvalatlar) təklif etmək lazımdır. Belə nümunələri kontekst-nümunələr adlandırmaq olar. Bu əhvalatlar icbari mövzular çərçivəsində müəyyən edilmiş əsas məsələlərə uyğun seçilməli və həyat vəziyyətlərini (dilemmalar, emosiyalar) təqdim etməlidir.
Burada vurğulamaq lazımdır ki, Müəllim kitabında təklif olunan əsas kontekst-nümunələri öz ixtiyarınızla dəyişə bilərsiniz, yəni əsas kontekst-nümunə funksiyasını dərslikdə təqdim olunan başqa kontekst-nümunə üçün təyin edə bilərsiniz və ona əsaslanaraq kompleks tapşırığın şərtini formalaşdıra bilərsiniz.
Dərs prosesində əsas kontekst-nümunənin təhlilinə xüsusi diqqət yetirilir. O, dərindən işlənir - kontekst, emosional və sosial aspektlər nəzərə alınmaqla və müqayisə üçün seçilmiş nümunələr əsasən fon bilikləri kimi xidmət edir.

Kontekst-nümunənin ilkin işlənməsi zamanı müəllim istiqamətləndirici suallar və hərəkətlərlə şagirdlərin diqqətini işlənən alt anlayışlara, hədəf anlayışlarına aid detallara yönəldir; məsələn, konkret halda biz əsas suallarda (Nə üçün biz sosial sahibkarlığı real vətəndaş iştirakı kimi nəzərdən keçirə bilərik? Konkret sosial müəssisənin nə üçün sosial dəyişikliyin agenti olduğunu necə nümayiş etdirmək olar?) müəyyən etdiyimiz kontekst-nümunə üzərində diqqəti cəmləməyə çalışırıq.

**Hədəf anlayışının müəyyənləşdirilməsi üçün cədvəl**

| **Mövzu - Siyasət və siyasi mədəniyyət**<br>**Əsas məsələ - Siyasətdə vətəndaş iştirakı**<br>**Əsas vəziyyət**: “Zamanını qabaqlayan insan” | | | |
|---|---|---|---|
| **Altməsələ** | **Alt anlayışlar** | | **Hədəf anlayışı** |
| “Zamanını qabaqlayan insan” (Niko Nikoladze) | Seçkilər | İştirak nərdivanı | Cəmiyyət |

Şagirdin alt məsələ ilə bağlı nə bilməli olduğunu müəyyən etmək üçün hədəf anlayışının əsas təsəvvürlərə əsaslanan **inkişafetdirici qiymətləndirmə rubrikasından** istifadə edə bilərik (**Cədvəl 1**.), bu rubrikada şagirddən öyrəniləcək mövzu və hədəf anlayışının əsas təsəvvürləri ilə münasibətdə hansı

gözləntilərimiz olacağını maksimum təfərrüatlı şəkildə təsvir edirik. Gözləntilər Milli Tədris Planının Nəticələri Taksonomiyasının **nisbi səviyyəsi** ilə üst-üstə düşür. Bu rubrika müəllimə bir neçə mərhələdə kömək edəcək:

a) ilkin olaraq, öz məsələsini dərk etmə və təlim-tədris prosesini planlaşdırma mərhələsində (**bu gözləntinin real nəticəsi kimi şagirdə kömək etmək üçün hansı fəaliyyətlərdən, metodlardan, strategiyalardan istifadə etməliyəm?);**

b) təlim-tədris prosesinin monitorinqi üçün (**proses necə gedir, gözləntilərə uyğun əlamətlər yaranıbmı? Köməkçi alət kimi hansı suallardan istifadə etməliyəm**?);

c) Təlim-tədris prosesi zamanı və kompleks tapşırığın sonunda konkret əks əlaqənin formalaşmasında (**şagirdin nəticəsini təsvir etmək üçün gözləntilərdən hansı ifadələr faydalı olacaq? Həvəsləndirmək üçün? Məsləhət vermək üçün?)**

d) Sonda, aralıq və uzunmüddətli məqsədlər üzrə iş üzrə pedaqoji təcrübənin strukturlaşdırılmış özünüqiymətləndirməsi üçün (**Hansı əsas təsvirlə bağlı münasibətdə gözləntiləri real şəkildə müəyyən etdim? Fəaliyyətlər və metodlar şəklində hansı gözləntinin düzgün açarını tapdım? Yanaşmanı harada dəyişməliyəm?)**

**Cədvəl** 1.

| **Hədəf anlayışı**<br>**Altməsələ** | **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər** | **Gözləntilər**<br>**Şagird bacarır:** | **Müəllimin şərhi** |
|---|---|---|---|
| **Vətəndaş iştirakı**<br>(Nəticələr: 2.4)<br><br>“Zamanını qabaqlayan | 3. Demokratik dövlətdə istənilən şəxs ölkənin ictimai və siyasi həyatına təsir göstərə bilər; | Niko Nikoladzenin nümunələri əsasında, mer seçkilərində iştirakın icmadakı/cəmiyyətdəki problemlərin həllinə nə dərəcədə gətirib çıxardığını təsvir edir. | |

| | | | |
|---|---|---|---|
| insan" (Niko Nikoladze) | 4. Fəal vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması və həyata keçirilməsi, könüllülük fəaliyyəti, təbliğat, lobbiçilik) ictimai problemlərin həllinə diqqət yetirirlər. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlar, qeyri-hökumət təşkilatları, dövlət qurumları ilə əməkdaşlıq edirlər; | İştirakın bu və ya digər formasının səmərəliliyini nümunələr əsasında müzakirə edir - Mer seçkilərində iştirak, Duz Marşı, Boston Çay Qonaqlığı, referendum, plebisit. | |
| | 5. Vətəndaş iştirakı zorakı hərəkətləri istisna edir. | Konkret misallardan istifadə edərək, iştirakın bu və ya digər formalarından istifadə etdikdə, qeyri-zorakılıq prinsipinin əhəmiyyətini müzakirə edir. | |

| |
|---|
| **Məsələ: " Siyasətdə vətəndaş iştirakı"** |

| |
|---|
| **Altməsələ -** "Zamanını qabaqlayan insan" (Niko Nikoladze). **Alt anlayışlar:** seçkilər, iştirak nərdivanı. **Hədəf anlayışı – vətəndaş iştirakı (nəticə: 2.4)** |
| **Əsas sual** - İctimai-siyasi problemlərin həlli üçün seçkilərdə iştirak nəyə görə vacibdir? İşimizdə iştirakın bu formasının effektivliyini necə nümayiş etdirə bilərik? |
| **Kompleks tapşırıq**<br>Mənbə ilə tanış olun, "Zamanını qabaqlayan insan" (səh. 145-148). Təsəvvür edin ki, siz seçicilərin ictimai problemlərin həllində iştirakının vacibliyi barədə icmanızın məlumatlılığını/təsəvvürlərini araşdırırsınız.<br>Müsahibənin xəyali (siz həm müsahibəçi, həm də respondentsiniz) **<u>müsahibə transkriptini</u>** hazırlayın (müsahibənin və ya fokus qrupunun audio yazısının kağıza köçürülməsi ("şifrələnməsi") nəticəsində alınan mətn). |
| ***Tövsiyə:*** Tapşırığın üzərində fərdi və ya tərəfdaşla işləyə bilərsiniz. Tapşırığı cütlük yoldaşınızla birlikdə videoçarx şəklində də təqdim edə bilərsiniz.<br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**<br>• İcmada hansı problemlər var? Bu problemlər nə dərəcədə vacibdir və onlara nə səbəb olur? **(vətəndaş iştirakı, əs.təs. 1)**<br>• Özünüidarəetmənin seçkilərində iştirak və mövcud problemlərin həllində iştirakın digər formaları nə dərəcədə effektivdir? (**vətəndaş iştirakı, əs.təs. 2.3)** |

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><u>(Şagird dərk etməlidir, ki:</u> | **Qiymət meyarları:**<br><u>Şagird bacarır:</u> | <u>İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:</u> |
|---|---|---|

<table>
<tr>
<td>Vətəndaş iştirakı<br>(Nəticələr: 2.4)<br>1. Demokratik dövlətdə istənilən şəxs ölkənin sosial və siyasi həyatına təsir göstərə bilər;<br>2. Fəal vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması və həyata keçirilməsi, könüllülük fəaliyyəti, təbliğat, lobbiçilik) ictimai problemlərin həllinə diqqət yetirirlər. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlar, qeyri-hökumət təşkilatları, dövlət qurumları ilə əməkdaşlıq edirlər;<br>3. Vətəndaş iştirakı zorakı hərəkətləri istisna edir.</td>
<td>Vətəndaş iştirakı:<br>• İctimai-siyasi problemlərin səbəblərini təhlil etməyi; onların dəyərini qiymətləndirməyi (Əs. təs.1);<br>• Müzakirə predmeti kimi seçilmiş ictimai-siyasi problemlərin həlli yolları haqqında fikir bildirməyi; mülahizələrdə vətəndaş iştirakının formaları haqqında biliklərdən istifadə etməyi (Əs.təs. 2.3).</td>
<td>• İcmada hansı problemlər var? Bu problemlər nə dərəcədə vacibdir və onlara nə səbəb olur? (vətəndaş iştirakı, əs.təs. 1);<br>• Özünüidarəetmənin seçkilərində iştirak və mövcud problemlərin həllində iştirakın digər formaları nə dərəcədə effektivdir? (vətəndaş iştirakı, əs.təs. 2.3)</td>
</tr>
</table>

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurs:** dərslik, **Mövzu II. IV fəsil. Vətəndaş iştirakı** kompleks tapşırığın şərti, II hissə, səh. 118

**Kompleks tapşırığın şərtlərini başa düşməyə yönəlmiş suallar:**

- Vətəndaş iştirakı nədir?
- İştirakın hansı formalarını tanıyırsınız?
- Vətəndaş iştirakının hansı formalarını daha effektiv hesab edirsiniz? Nə üçün?
- Müsahibə aparmısınızmı, yazmısınızmı?
- Müsahibə yazarkən, hansı vacib detallara diqqət yetirəcəksiniz?
- Sizcə, nə üçün konkret problemi təqdim etmək üçün müsahibələr effektiv üsuldur?
- Bu məhsulu yaratmaq üçün bizə hansı resurslar lazımdır?

- Hansı addımları atmalıyıq və bunun üçün bizə nə lazımdır?
- Materialımla başqalarının diqqətini necə cəlb edə bilərəm?
- Öz sözlərinizlə formalaşdırın ki, bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı artıq yerinə yetirmisinizmi?

**Müəllimə tövsiyə:**
Sual verərkən problemin şərtlərinin hamıya aydın olduğunu bir daha yoxlayın;
Şagirdlərə kompleks tapşırığı yerinə yetirməzdən öncə mövzu ilə bağlı bir neçə dərs keçəcəyiniz barədə məlumat verin və sonda hər bir şagird yerinə yetirdiyi tapşırığı sinfə təqdim etmək imkanı əldə edəcək.

**Diqqət!**
Kompleks tapşırıq üzərində iş əsasən sinifdə, dərs zamanı aparılır və yalnız müstəsna hallarda ev tapşırıqlarından istifadə edirik.

**II - kompleks tapşırıq üzərində iş**

**Hədəf biliklər:**

**Altməsələ -** "Zamanını qabaqlayan insan" (Niko Nikoladze) **Alt anlayışlar:** seçkilər, iştirak nərdivanı. **Hədəf anlayışı – vətəndaş iştirakı (nəticə: 2,4)**

Kontekst nümunələrinin ilkin işlənməsi
**Fəaliyyət:** cütlükdə iş, II hissə, səh.148
"Zamanını qabaqlayan insan" (II hissə, səh. 145-148) mətnindən istifadə edərək, cədvəli vərəqə köçürün və onu doldurun.

- Birinci sütunda Niko Nikoladzenin Potidə həyata keçirdiyi bəzi tədbirlər sadalanır.
- Sadalanan tədbirlərin həyata keçirilməsi üçün müasir reallıqda iştirakın hansı forma/formalarının daha effektiv olacağını müzakirə edin. Fikrinizi əsaslandırın.

| | Seçkilər | Azad məhkəmə | Manifestasiya | Petisiya | Plebisit | İcmanın ümumi toplantısı | Qeyri-dövlət təşkilatı |
|---|---|---|---|---|---|---|---|
| Limanın abadlaşdırılması | | | | | | | |
| Gömrük rüsumlarının tətbiq edilməsi | | | | | | | |
| Şəhərin əsas planının hazırlanması | | | | | | | |
| Dendroloji parkın salınması | | | | | | | |
| Drenaj kanallarının tikintisi | | | | | | | |
| Yolların salınması | | | | | | | |
| Rabitə sistemlərinin inkişafı | | | | | | | |
| Elektrifikasiya | | | | | | | |
| Küçə işıqlandırması | | | | | | | |
| Xəstəxananın tikintisi | | | | | | | |

- **Meyar 1. İcmada hansı problemlər var? Bu problemlər nə dərəcədə vacibdir və onlara nə səbəb olur? (vətəndaş iştirakı, əs.təs. 1)**

**Resurs:** “Zamanını qabaqlayan insan”, **dərslik. II hissə, s.145-148**
**Fəaliyyət: mətn üzərində iş. Müzakirə edin**
**Suallar:**

- Niko Nikoladze kim idi? Potidə hansı vəzifəni tutmuşdu?
- Sizcə, nə üçün onu şəhərin meri seçmişdilər?
- Şəhərdə nə kimi sosial-iqtisadi problemlər var idi?
- Niko Nikoladze Poti şəhərində problemlərin həlli üçün hansı tədbirləri gördü?
- Bu tədbirlər nə dərəcədə effektiv oldu? Cavabınızı əsaslandırın.
- Sizcə, şəhər əhalisi onun mer seçilməsində/seçimində iştirak etməsəydi, bu məsələlər necə həll olunardı?
- Nə üçün yerli problemləri həll etmək üçün yerli özünüidarəetmə orqanlarında seçkilərdə iştirak effektiv vasitədir?
- Seçkilərdən fərqli olaraq, yerli problemlərin həlli üçün hansı iştirak formalarını effektiv hesab edirsinizmi?

**Resurs:** şəhər sakrebulosu namizədlərinin proqramları, **dərslik. II hissə, səh. 119-123**
**Fəaliyyət: qruplarda işləyin**

| | Siyasi sahə | Sosial və iqtisadi sahə | Mədəniyyət sahəsi | Sağlamlıq və idman | Ətraf mühitin mühafizəsi |
|---|---|---|---|---|---|
| **“Sağlam Gürcüstan” Partiyası** | | | | | |
| **“Eko-Xilasedici” Partiyası** | | | | | |
| **“Çiçəklənən Şəhər” partiyası** | | | | | |

**Suallar:**

- Seçkiqabağı vədlərdə hansı problemlər diqqət mərkəzindədir? İcmadakı mümkün problemləri sadalayın;

- Seçici seçkilərdə iştirak edərkən nələri nəzərə almalıdır? Hansı halda onun iştirakı effektiv olacaq?
- Proqramlar nə dərəcədə realdır? Onlar hansı sahələrə diqqət yetirirlər?
- Hansı proqram sizin üçün uyğundur və niyə? Hansı partiyanı seçərdiniz?
- Seçkilərdə iştirak həqiqətən sakrebuloya nəzarət etmək və cari proseslərə təsir etmək üçün kifayət edirmi?
- Niko Nikoladzenin keçirdiyi tədbirləri xatırlayın. Onlar hansı problemlərin (sosial-iqtisadi, mədəni, ətraf mühitin mühafizəsi və s.) həllinə yönəlmişdi?
- Yerli özünüidarəetmənin həyata keçirilməsində iştirakın başqa hansı formalarını bilirsiniz?
- Siyasi iştirak nə deməkdir? Nə üçün seçkilər siyasi iştirakın effektiv formasıdır?

**Müəllimə məsləhət**: Şagirdlərdən qruplarda işləməyi xahiş edin. Seçki proqramlarını təhlil etdikdən sonra cədvəlin müvafiq qrafasında konkret partiyanın hansı sahəyə diqqət yetirdiyini yazmalıdırlar. Tapşırığı yerinə yetirdikdən sonra şagirdlər öz işlərini sinfə təqdim etməlidirlər.

**Resurs:** seçki hüququnun əsas prinsipləri, **dərslik. II hissə, səh.126**

**Fəaliyyət: qruplarda işləyin**

| Seçki prinsipləri | Tərif | Bu prinsipə əməl etməyin nə üçün vacib olduğunu sübut edin |
|---|---|---|
| Ümumi | | |
| Bərabər | | |
| Birbaşa | | |
| Gizli | | |

**Suallar:**

- Seçkilərin əsas prinsiplərini yadınıza salın?
- Seçkilərin əsas prinsiplərinin mənasını necə başa düşürsünüz?
- Bu prinsiplərə əməl etmək nə üçün vacibdir?
- Hansısa prinsipə üstünlük verərdinizmi?
- Qeyd olunan prinsiplərə əməl edilmədikdə, seçkilər iştirak forması sayılacaqmı?
- İştirak nərdivanını xatırlayın. İştirak nərdivanının hansı pilləsini seçkilərdə iştirakla əlaqələndirərdiniz? Cavabınızı əsaslandırın.

**Resurs:** Seçki senzləri. **Dərslik. II hissə, səh.129-130**
**Fəaliyyət: müzakirə edin**
**Suallar:**

- Mətndə hansı növ seçki məhdudiyyətləri ayrılıb?
- Seçicilər üçün qrup məhdudiyyətləri və namizədlər üçün məhdudiyyətləri qruplaşdırın;
- Aktiv və passiv seçki hüquqları arasında nə kimi fərq var?
- Sizcə, müxtəlif ölkələrdə tətbiq edilən müxtəlif seçki məhdudiyyətlərinin məqsədi nədir? Hansı məhdudiyyət sizin üçün məqbuldur və niyə?
- Hansı məhdudiyyəti qadağan edərdiniz və niyə? Sizcə, seçki məhdudiyyətləri nə dərəcədə ədalətlidir?
- Gürcüstanda hansı seçki məhdudiyyətlərini tətbiq etmək istərdiniz?
- Sizcə, seçki senzləri vətəndaş iştirakı hüququnu məhdudlaşdırırmı? Mövqeyinizi əsaslandırın.

**Resurs: dərslik. II hissə, səh. 162-163**
**Fəaliyyət: qruplarda işləyin**
**Suallar:**

- Aşağıda verilən məsələlərdən hansı yerli əhəmiyyətli məsələlərə aiddir?
- Hansı məsələlər bütün ölkə üçün mühümdür və mərkəzi hökumətin səlahiyyətlərinə aiddir?
- Munisipalitetinizdə bu məsələlər nə dərəcədə tənzimlənir?
- Bu məsələləri necə daha yaxşı tənzimləmək olar?
- Hansı məsələnin həllində iştirak edərdiniz və niyə?
- Vəkillik və lobbiçilik bilikləri sizə konkret problemi həll etməyə kömək edə bilərmi? Necə?
- Mənbədə verilən məsələlərin həllində yerli özünüidarəetmə orqanlarına seçkilərdə iştirak nə dərəcədə effektivdir? Cavabınızı əsaslandırın.
- "Zamanını qabaqlayan insan" mənbəsini xatırlayın. Niko Nikoladze mer vəzifəsində işləyərkən aşağıdakı məsələlərdən hansının qayğısına qalmışdı? Onun fəaliyyətinə qiymət verin.

**Resurs: Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirak formaları. Dərslik. II hissə, səh.161**
**Fəaliyyət: qruplarda işləyin**

| | Özünüidarəetmədə iştirak formalarını təsvir edin | Onların mənasını əsaslandırın |
|---|---|---|
| Merin, qamqebeli və sakrebulo üzvünün işi haqqında məruzənin dinlənilməsi | | |
| Qəsəbənin ümumi toplantısı | | |
| Munisipalitet toplantısı və komissiya iclaslarında iştirak | | |
| Mülki məsləhətçilər şurası | | |

**Suallar:**

- Özünüidarəetmədə iştirakın hansı formalarını bilirsiniz?
- Hansı hallarda iştirakın bu və ya digər formasından istifadə etmək vacibdir?
- Özünüidarəetmədə iştirak formaları nə dərəcədə effektivdir?
- Siz iştirak nərdivanının hansı pilləsini özünüidarəetmədə iştirak forması ilə əlaqələndirərsiniz?

**Meyar 2. Özünüidarəetmənin seçkilərində iştirak və mövcud problemlərin həllində iştirakın digər formaları nə dərəcədə effektivdir? (vətəndaş iştirakı, əs.təs. 2.3)**

**Resurs:** referendum və plebissit **Dərslik. II hissə, səh.131-132**

**Fəaliyyət: Venn diaqramı üzərində iş**

**Suallar:**

- Gürcüstanın müasir tarixində hansı məsələ ilə bağlı referendum keçirilib?
- Gürcüstanın müasir tarixində hansı məsələ ilə bağlı plebissit keçirilib?
- Nə üçün referendum və ya plebissit vətəndaş iştirakının effektiv formasıdır?
- Hansı hallarda plebissit və ya referendumun keçirilməsi məqsədəuyğundur?
- Bu iştirak formalarının müsbət/mənfi tərəfləri hansılardır?
- Referendum/plebisiti sənə məlum olan iştirak formaları ilə müqayisə et?
- Referendum və plebissit demokratiyanın birbaşa və ya təmsilçi formasıdır?
- Referendumla plebisit arasındakı oxşarlıq və fərq nədir?

**Resurs:** Boston Çay Qonaqlığı, Duz Marşı, 68-ci ilin mayı, 9 aprel. **Dərslik. II hissə, səh.135-138**

**Fəaliyyət: qruplarda işləyin**

**Şagird kitabında**(II hissə, səh. 143) verilmiş faydalı resurslar:
Seçkilər və demokratiya: Elections and democracy https://bit.ly/3HH7Jzi

Demokratiya/ democracy: https://bit.ly/3HFar8b

Vətəndaş cəmiyyəti: https://bit.ly/3jeSggk

İnsan azadlığı: https://bit.ly/3HCspbo

Siyasi karikaturaların tarixi / History of political cartoons: https://bit.ly/409lHky

Gürcü karikaturası necə siyasi mübarizə alətinə çevrildi? https://bit.ly/40duDW8

Etiraz: https://bit.ly/3HEi6nb

**Suallar:**

- Təklif olunan etirazların ümumi cəhətləri nə idi? Aşağıda təsvir edilən etirazın müasir siyasətə nə kimi və hansı ölçüdə təsiri oldu?
- Ümumi nəticədə, demokratik ölkələrdə etiraz aksiyaları hansı təsiri göstərir?
- Bu gün etiraz aksiyaları keçirilsəydi, onların təşkilatçılarına nə tövsiyə edərdiniz?
- Onlarda iştirak edərdinizmi və niyə?
- Bu və buna bənzər etirazlar ölkəmizdə/qlobal miqyasda müasir siyasətə necə təsir edib?
- Nə üçün etiraz aksiyaları effektiv iştirak formasıdır?
- Nümunələrdə verilmiş vətəndaş iştirakının formalarını (nümayişdə iştirak, ictimai çıxış, mitinq, boykot və s.) müqayisə edin, onlar bir-birindən nə ilə oxşardır/fərqlənir?
- İştirak nərdivanını yadınıza salın. İştirak nərdivanının hansı pilləsini etirazlarda iştirakla əlaqələndirərdiniz?
- Etirazlarda iştirak edərkən, qeyri-zorakılıq prinsipinə riayət etmək nə üçün vacibdir?

**Resurs:** siyasi karikaturalar, **dərslik. II hissə, səh.159**

**Fəaliyyət: qruplarda işləyin**
**Suallar:**

- Karikaturanın mövzusunu müəyyənləşdirin;
- Karikaturanın əsas ideyası nədir? Əsas sözü?

- Karikatura hansı siyasi vəziyyətə uyğundur? Onun məqsədi və təyinatı nədir? Cavabı əsaslandırın.
- Hər bir karikatura nəyə qarşı yönəlib?
- Vətəndaş karikaturanın nəyə qarşı yönəldiyindən özünü necə qoruya bilər?
  - Karikaturada təsvir olunan problem Gürcüstanın bugünkü reallığına nə dərəcədə uyğundur? Bir nümunə göstərin:
  - Seçkilərin vətəndaş iştirakının forması sayılması üçün hansı prinsiplərə əməl etməklə keçirilməsini yadınıza salın?

**Resurs:** petisiya, **dərslik. II hissə, səh.162**
**Fəaliyyət: qruplarda işləyin.** Yerli əhəmiyyət kəsb edən məsələni həll etmək üçün ideya fikirləşin.

**Suallar:**

- Cəmiyyətinizdə nəyi dəyişmək istərdiniz? Problemin mahiyyətini müəyyənləşdirin.
- Onun həllini necə görürsünüz?
- Nə üçün ideyanızı sakrebulo iclasında müzakirə etməyin vacib olduğunu düşünürsünüz?
- Petisiya nədir?
- Kim petisiya verə bilər?
- Petisiya digər iştirak formalarından (seçkilər, referendum, plebisit, nümayiş və s.) nə ilə oxşardır/fərqlənir?

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimat prosesində müəllimin konkret şagirdlə fərdi işi aparmaq üçün verdiyi suallar**

**Tapşırıq üzərində iş prosesinin necə aparıldığını/keçirildiyini təsvir edin;**

- Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
- Tapşırıq üzərində iş üçün ilkin planınız var idimi? Bu plan sizə iş prosesində nə dərəcədə kömək etdi? İlkin iş planlarına dəyişiklik etmək zərurəti yaranıbmı? Nə üçün?
- Kompleks tapşırıq üzərində iş prosesində kiminlə və necə əməkdaşlıq etdiniz? Fərqli fikirləri olan insanlarla qarşılaşmısınız? Başqa insanlarla əməkdaşlıq etmək sizə nə dərəcədə kömək etdi?
- Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etmisinizmi? Texnologiyadan istifadə etmək sizə necə kömək etdi?

- Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?

**Kompleks tapşırıq üzərində iş prosesində hansı bilik və təcrübə qazandığınızı izah edin?**

- Yaratdığınız kompleks tapşırıqda hansı məsələyə toxunulur?
- Öyrəndiyiniz məsələ haqqında nə bilirdiniz? Yeni nə öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
- Kompleks tapşırıq üzərində işləyərkən hansı nəticələrə gəldiniz? Etdiyiniz nəticələr nə ilə təsdiqlənir?
- Yaratdığınız kompleks tapşırıq kimə və nəyə görə faydalı və maraqlıdır?
- Dərs materialını daha yaxşı dərk etmək üçün hansı üsullardan istifadə etdiniz? / kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?

**Kompleks tapşırıq üzərində iş prosesinin nə qədər məhsuldar və maraqlı olduğunu qiymətləndirin.**

- Tapşırığı nə dərəcədə uğurla yerinə yetirdiyinizi qiymətləndirin? Bu, müəllimin gözləntilərinə nə dərəcədə cavab verir?
- Müstəqil nə etdiniz? Nədə başqalarının köməyinə ehtiyacınız oldu?
- Kompleks tapşırığın təqdimatını auditoriya üçün başa düşülən və məqbul etmək üçün hansı amilləri nəzərə almalı idiniz?
- Sizcə, yerinə yetirdiyiniz tapşırıq sinif yoldaşlarınızın işindən nə ilə və necə fərqlənir?
- Tapşırığın üzərində işə indi başlasanız, nəyi fərqli edərdiniz?

**Cədvəl 3.**

**Müəyyənləşdirici qiymətləndirmə rubrikası**

| Sinif: XI<br>Mövzu: "Siyasət və siyasi mədəniyyət"<br>Əsas məsələ: siyasətdə vətəndaş iştirakı<br>Şagird: | | |
|---|---|---|
| Qiymətləndirmə meyarları | Maksimal bal | Şərh |
| **Cəmiyyət** - şagird bacarmalıdır:<br>1968-ci ildə Fransa cəmiyyətinin problemlərini təhlil etməyi və bu problemlərin həllində vətəndaşların/cəmiyyətin rollarını ayırmağı. | 1.5 | |
| **Demokratiya** - şagird bacarmalıdır:<br>1968-ci il hadisələrini demokratiya prinsipləri əsasında qiymətləndirməyi | 1.5 | |
| **Vətəndaş iştirakı** - şagird bacarmalıdır:<br>1968-ci ildə Fransada vətəndaşların siyasi proseslərdə iştirak formalarını təhlil etməyi. | 1.5 | |
| **Davamlı inkişaf** – şagird bacarmalıdır:<br>1968-ci ildə Fransada baş vermiş hadisələri müzakirə edərkən davamlı inkişaf prinsiplərini nəzərə almağı | 1.5 | |

Müəyyənləşdirici qiymətləndirmənin təklif edilmiş rubrikası fənn standartında verilmiş **mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorlarına (hədəf anlayışlarına uyğun)** əsaslanır və ümumiləşdirici tapşırığı qiymətləndirmək üçün nəzərdə tutulub ki, bu da öz növbəsində mövzunu və ya onun bir hissəsini yekunlaşdırmağa yönəlib, hədəf anlayışlarına diqqəti yönəltməklə.

Tövsiyə olunur ki, yekun tapşırığı yerinə yetirmək üçün əvvəlcədən kontekst-nümunə seçilsin və nəzərdən keçirilməsi/təhlil edilməsi üçün şagirdlərə verilsin. Şagirdlər təxminən bir həftə ərzində verilmiş kontekst nümunəsi ilə əlaqələndiriləcək təklif olunan anket üzrə ümumiləşdirici tapşırığı yerinə yetirəcəklərini biləcəklər.

Bu halda, biz **"68-ci ilin Mayı, Fransa"** kontekst-nümunəni seçmişik (**II hissə, səh.136**); şagirdə tapşırıq veririk: mənbəni analiz etsin və qiymətləndirsin.

Bu halda biz kontekst-nümunə seçdik **- 68 may, Fransa** ( **II hissə, s. 136** ) Biz şagirdə mənbəni təhlil etmək və cədvəli doldurmaq tapşırığını veririk.

**İşinizdə xüsusilə göstərin:**

- ✓ 1968-ci ildə Fransa cəmiyyətində mövcud olan problemləri; bu problemlərin həllində vətəndaşların/cəmiyyətin rolunu
- ✓ Nümayişçilərin istinad etdiyi demokratiya və insan haqları prinsiplərini
- ✓ Etirazçılar siyasi proseslərdə iştirakın hansı formasını seçdilər? Niyə?
- ✓ Etirazlar nəticəsində əldə edilən nəticə/nəticələr davamlı inkişafın hansı prinsiplərinin həyata keçirilməsinə dəstək verirdi?

| Fransa cəmiyyətində mövcud problemlər | Nümayişçilərin istinad etdiyi demokratiya və insan haqları prinsipləri | Vətəndaş iştirakının seçilmiş formasının təsviri;<br>seçilmiş formanın effektivliyinin əsaslandırılması | Davamlı inkişaf prinsipləri nəzərə alınmaqla, etirazın nəticələrinin təhlili |
|---|---|---|---|
| | | | |

## Əlavə 1.

**“Antreprenyorluq” - düşüncə növü**
Mən LinkedIn-in həmtəsisçisiyəm. İnanın mənə, əgər antreprenyorluqda uğur qazanmaq istəyirsinizsə, fərasətlə başlamalısınız.
Mən tez-tez deyirəm ki, şirkət qurmaq uçurumdan tullanıb və yol boyu təyyarə qurmaq kimidir. Bu, böyük bir həqiqətin gizləndiyi çox açıq bir metaforadır. İlk növbədə, sizə cəsarət və optimizm lazımdır. Hər şeyi edə biləcəyinizə inanmalısınız. Sonra fərasət gəlir, – bu da mütləq lazım olacaq. Təyyarə yığmaq, hətta sakit şəraitdə belə, istedad və bacarıq tələb edir.

Özünü boşaltmaq son dərəcə təhlükəlidir və buna görə də ayıqlıq və tez reaksiya vacibdir. Təsir altında olsanız da, sakitliyinizi saxlamalısınız.
Həm də, bu tullanma sizin üçün maraqlı bir səyahət olmalıdır. Bundan əlavə, siz mərcə də girməlisiniz. Təyyarəni vaxtında təmir etməsəniz, qəzaya uğrayacaqsınız. Real həyatda isə, pulunuz tükənəcək. Buna görə də uçurumdan tullandıqda və çox tez yerə enərkən sürət çox vacibdir. Buna görə də yavaş inkişaf edən startap demək olar ki, həmişə süquta məhkumdur. Bu, antreprenyorluğun bu qədər yorucu olmasının yalnız bir hissəsidir. Çünki təyyarə düzəldə bilmirsinizsə, ölüm qaçılmazdır. Təkcə sizin üçün deyil, tullanmağa inandırdığınız hər kəs üçün.
Belə ki, inama əsaslanan antreprenyor başlanğıclarında uğur qazanmaq üçün nə lazımdır?
Cavab eyni zamanda həm sadə, həm də son dərəcə çətindir: bunun üçün antreprenyor düşüncəsi lazımdır. Bəli, bu cür təfəkkür inkişaf etdirilə bilər. Bunlar LinkedIn-in həmtəsisçisi, PayPal-ın ilk işçisi və investoru kimi öyrəndiyim universal şeylərdir. Həm də Masters of Scale podkastı üçün dörd illik müsahibələr zamanı öyrəndiklərim. Bütün bu illərin təcrübəsi məni inandırdı ki, iki eyni təsisçi ola bilməz.

Silikon Vadisində antreprenyorlara hudilər (üst geyim) və superqəhrəman qüvvələri verilən fabrik yoxdur, Stenford Universitetində kompüter elmləri üzrə bakalavr dərəcəsi verilmir və “axtar və tap” nəsihəti verilmir. Təsisçilərin heç də hamısı gənc deyil və bütün təsisçilər texnologiya sahəsindən gəlmirlər; bütün təsisçilər ən məşhur universitetləri bitirmir (bəziləri isə, məsələn, **Ser Riçard Brenson və Bil Qeyts**, heç məzun olmayıblar). Bundan əlavə, bütün təsisçilər eyni bacarıq, təcrübə və ya istedada malik deyillər.

Təfəkkür haqqında nə deyə bilərsiniz? Bu, həqiqətən də dünyanın ən uğurlu antreprenyorlarını bir araya gətirir. Antreprenyorlar dünyaya fərqli baxır, bir qayda olaraq, nikbindirlər və çağırışlara cavab olaraq hərəkətə keçirlər. Onlar həyat qabiliyyətlidirlər və düşüncələri yaratmağa yönəlib.

Bütün bunlar çox vaxt məktəbdə bizə öyrədilənlərin tam əksidir.
Əslində, antreprenyor təfəkkürü tam paketi əhatə edir: fəaliyyət düşüncəsi, xaosda belə rahatlıq tapmaq, dərhal qərar qəbul etmək bacarığı, möhkəm iradə, nikbinlik, bir sıra ehtiyat planlar və s.

Siz də belə olmalı və bütün bunlara yiyələnməlisinizmi? Xeyr, mümkün deyil. Bu müxtəlif keyfiyyətlər antreprenyorların düşüncəsində müxtəlif kombinasiya və ölçülərdə birləşir. Həm də, onlar bəzi şeylərə heç bir zəhmət göstərmədən nail ola bilirlər. Digər xassələri də inkişaf etdirmək olar. Əsas odur ki, güclü tərəflərinizin nə olduğunu, nəyi öyrənməli olduğunuzu və ya nəyə uyğunlaşmağınız lazım olduğunu başa düşəsiniz. Məsələn, siz doğulduğunuzdan nikbinsiniz və xaosda özünüzü rahat hiss edirsiniz, amma tez qərar verməkdə çətinlik çəkirsiniz, özünüzə çox inanmırsınız.
Bəlkə də vaxtı mükəmməl seçə bilirsiniz, hərəkətə keçmək üçün böyük bir istəyiniz olsa da, başqalarının güclü tərəflərini təxmin edə bilmirsiniz. Bəlkə də rəqabətdən yan ötmək üçün təbii instinktiniz var, lakin siz digər təsisçilər və ya həmkarlarla qarşılıqlı əlaqənin qurulmasına dair kitablardan və kurslardan çox az şey öyrənmisiniz. Texnologiya burada da gündəlik vərdişlərin formalaşmasında mühüm rol oynayır və son nəticədə, bizə antreprenyor təfəkkürünü inkişaf etdirməyə kömək edir (səmimi desəm, bu xidməti özümə indi də təklif edirəm). Bu yaxınlarda Masters of Scale komandası ilə proqramı işə saldım. Bu, antreprenyor təfəkkürünü inkişaf etdirməyə kömək edəcək gündəlik 10 dəqiqəlik çalışmadır. Buna magistr kursları deyilir və təbii olaraq, bunun nə qədər effektiv olduğunu bilməyinizi istəyirəm.

Təcrübəmə əsasən, antreprenyorlara mütləq xatırlatmaq lazımdır ki, bir nəzərdən diqqəti özünə cəmləşdirmək kimi görünən hər şeyə vaxt ayrılmalıdır. Siz təsisçi və lidersiniz və bütün enerjinizi özünüzə deyil, başqa problemlərə sərf edirsiniz: məhsulunuza, bazara, komandanıza və maliyyənizə. Ancaq öz düşüncənizi inkişaf etdirmək üçün bu qədər vaxtınızın olduğunu həqiqətən də deyə bilmərəm.

Bu zaman, işinizi qurmaq və inkişaf etdirmək üçün bu, istifadə edə biləcəyiniz ən vacib vasitədir.

Hər kəs ser Riçard Brensonun bacarıqları, hərəkətə keçmək üçün tükənməz həvəsi və ya Stiv Cobsun başqalarını inandırmaq qabiliyyəti və ya **Sara Bleyklinin** heyrətamiz iradəsi ilə doğulmur. Amma hər bir antreprenyorun imkanlarının həqiqətən sonsuz olduğuna dair düşüncəsi var. Onlar təfəkkürlərini elə təkmilləşdirə bilərlər ki, nailiyyət əldə edə bilsinlər və sonra da bizneslərinin təkmilləşdirilməsinə çalışdıqları kimi, dayanmadan bu nailiyyətin təkmilləşdirilməsinə qayğı göstərsinlər.

Davamlı şəxsi inkişafı həyati bir sərmayə hesab edin, çünki bu yolda uğur qazanmağınız və ya uğursuzluğunuz tamamilə düşüncə tərzinizdən asılıdır. Xüsusilə, qalib şirkət necə inkişaf etdirilməlidir. Bütün bunlar yaxşı başlanğıcdır, amma bunun üzərində dayanmayın! Yalnız gündəlik məqsədyönlü təlimlə lazımi düşüncə bucağını inkişaf etdirə bilərsiniz.
Bunu doktor Karol Dvekin böyümə-inkişafa yönəlmiş düşüncə haqqında təməli araşdırmaları da təsdiqləyir. O, Stenford Universitetində psixologiyanı öyrədir və onun araşdırmaları Amerikada bütün nəsillərin pedaqoqlarının diqqətini çəkib. Dvekin əsas nəticəsi belədir: əgər diqqətinizi böyüməyə cəmləşdirmisinizsə, bu, hər bir məğlubiyyəti öyrənmək və eləcə də böyümək fürsəti kimi baxmağa imkan verəcək. Çətinlikləri çağırış kimi nəzərdən keçirmək lazımdır və bu halda, ilkin mərhələdəki uğursuzluqlar sizin üçün müvəqqəti hal olacaq.

İndi ABŞ-ın bütün ştatlarında ibtidai məktəblərdə təfəkkürə təsir məsələləri öyrədilir və buna görə uşaqlar daha yüksək test balları alırlar. Ancaq təfəkkürün inkişafı üzərində iş təkcə uşaqlar üçün lazım deyil. Maraqlıdır, siz antreprenyor təfəkkürünüzün inkişafına necə qayğı göstərirsiniz? Bu halda vacib olan budur:

1. **Nəyisə öyrənməlisiniz və eyni zamanda, nəyisə unutmalısınız**! Cəld qərarlar qəbul etmək və ya yanğının hər şeyi məhv etməsinə icazə vermək kimi antreprenyor düşüncə növü çox vaxt bizə öyrədilən şeyin tam əksi olur.

2. **Təkcə nəzəriyyə ilə deyil, real hadisələrlə də öyrənin**! Əksər insanlar üçün ən yaxşı bir dərs antreprenyorların həyatıdır. Beləliklə, bu, bir nəzəriyyənin hadisələrlə ən yaxşı şəkildə təsdiqləndiyi bir vəziyyətdir.

**3. Hər gün vərdişinizi gücləndirməyə diqqət edin**! Ən əsası yeni bir tərzdə düşünməkdir. Bunun üçün də başqalarını dinləməli, soruşmalı və hətta yazmalısınız. Lakin bu, kifayət deyil. Yeni düşüncə tərzi ilə yaşamağa davam etmək üçün öyrəndiklərinizə uyğun hərəkət etməlisiniz. Antreprenyorluq düşüncəsini inkişaf etdirməyin bir çox yolu var.

## Əlavə 2.

**Qovluq: "Dərman vasitələrinə həddi qiymətlərin tətbiqi".**

**Məktub 1**
Hörmətli redaksiya,
Bu məktubu sizə iki qoca insan yazırıq. Sizin köməyinizlə səsimizi hökumətə çatdırmaq istəyirik.
Həyat yoldaşımla birlikdə paytaxtdan və rayon mərkəzindən uzaq bir kənddə yaşayırıq. 80 yaşımızı ötmüşük. Vəziyyət elədir ki, özümüz özümüzə baxmalıyıq, övladlarımızın səhhətlərində problemləri var, öz dərmanlarını tapmalıdırlar, hətta bizi görməyə belə gələ bilmirlər. Həyat yoldaşımın dediyinə görə, bizə kömək edə bilmədiklərinə görə gəlmirlər.
Hər ikimiz xroniki xəstəliklərdən (ürək-damar, şəkərli diabet), yaş problemlərindən əziyyət çəkirik və davamlı olaraq dərman qəbul etmək məcburiyyətindəyik. Kənd həkimi daha ucuz dərmanlar yazıb və biz proqram vasitəsilə onların bir qismini pulsuz alırıq. Amma buna baxmayaraq, dərman almaq üçün bizə ayda 400 lariyə qədər pul lazımdır.

Dərman alsaq, ödənişlər və yemək üçün təqaüdümüz çatmır, almasaq da xəstələnirik və tez-tez təcili yardım çağırmalı oluruq ki, bu da onların xoşuna gəlmir.
İndi televiziyada eşitdik ki, hökumət apteklərdə bəzi dərmanların qiymətini aşağı salıb, çox sevinirik, qoca olsaq da, sağlamlığımızın qayğısına qalmaq haqqımız var, dərmansız isə nə edə bilərik.
Hökumətə təşəkkür edirəm, yaxşı ki, xalqın problemini xatırlayıb qiymətləri aşağı salıblar. Onlardan xahiş edin ki, hər yerdə bu qanuna əməl olunub-olunmadığını yoxlasınlar, çünki nə qədər bizim kimi və bizdən kasıblar var. Yaxşı olardı ki, məhsulların qiymətini də aşağı salsınlar.

*Hörmətlə, Liza və Qoqi Xixrikadzelər*

**Məktub 2**
Hörmətli redaksiya,
Sizə Peşəkar Əczaçılar İttifaqı adından yazıram.
Başa düşürsünüz ki, biz dövlətin özəl biznesə məhdudiyyətlər qoymaq üçün atdığı radikal addımdan narahatlığımızı bildiririk.
Assosiasiyamızın üzvləri vicdanlı ödəyicilərdir və gəlirlərimiz sayəsində dövlət büdcəsinə az məbləğ daxil olmur. Biz demokratik ölkədə yaşayırıq və hesab edirik ki, dövlət iqtisadi azadlıq prinsipinə uyğun hərəkət etməlidir. O ki qaldı sosial cəhətdən aztəminatlı əhaliyə, dövlətin dərmanlara **subsidiya** verməsi və bununla da onların hüquqlarının mühafizəsinin qayğısına qalması mümkündür.

Bir çox sahibkarlar bəzi dərmanların endirim imkanı vermədiyini və onların idxalını dayandırmaq məcburiyyətində qalacağını bildirirlər ki, bu da insanların səhhətində yenidən problem yaradacaq. Biz bir çox kiçik sahibkar üçün məhvedici ola biləcək sanksiyalardan xüsusilə narahatıq. Məhkəməsiz belə sanksiyaların tətbiqi birbaşa sahibkarın azadlığını, ədalət prinsipini məhdudlaşdırır.
Zəhmət olmasa, bu mövzunu ictimai müzakirəyə çıxarın, ekspertlərin fikir və ehtimallarını dinləyin. Bizim də öz hüquqlarımız var və biz də bu ölkənin vətəndaşlarıyıq. Buna görə də, xahiş edirik ki, səsimizi hökumətə çatdırasınız.
*Birliyin 60 üzvü tərəfindən imzalanıb*

**Rəsmi məlumat***
15 fevral 2023-cü il

**800-dən çox xroniki və onkoloji dərman vasitəsinin referent qiyməti qüvvəyə minib**

"Bu gündən dərman vasitələrinin referent qiyməti qüvvəyə minib. Çox şadam ki, bir neçə şirkət bunu qüvvəyə minməzdən öncə nəzərə alıb və artıq konkret dərmanların qiymətini xeyli aşağı salıb. Bu, birinci mərhələdir və artıq növbəti dövrdə biz digər dərman qrupları üçün referent qiymətlərinin müəyyən edilməsini davam etdirəcəyik", - deyə səhiyyə naziri hökumət iclası başa çatdıqdan sonra qeyd edib.
Onun sözlərinə görə, 800-dən çox xroniki və onkoloji dərman vasitəsinə referensiya qiyməti tətbiq edilib. Ümumilikdə, islahat ölkədə dərmanların qiymətini 40% azaldacaq.
Nazir, həmçinin referensiya qiymətinin müəyyən edilməsi və tətbiqi prosedurlarına diqqət çəkib və bildirib ki, dəyişiklik martın 15-dən əczaçılıq sektorunun qiyməti ilə bağlı müraciət etdiyi dərman vasitələrinin bir hissəsinə tətbiq ediləcək.

"1200-dən çox dərman vasitəsinin bir hissəsinə şikayət edilib. Məhz buna görə də bu gün 800-dən çox dərman vasitəsinin referent qiyməti qüvvəyə minib. Qalan 400-dən bir qədər çox dərmanın qiymətinə yenidən baxılıb. Ümumilikdə, martın 15-dən etibarən bütün 1200 dərman vasitəsi üçün referent qiyməti tətbiq olunacaq", - deyən nazir qeyd edib ki, dərman vasitələrinin qiymətinin hesablanmasının qeyd olunan metodologiyası Avropada və dünyanın digər ölkələrində sınanmış təcrübədir.
"Apteklər üçün təyin etdiyimiz topdansatış referensiya qiyməti və həmçinin marjalar digər ölkələrdəki oxşar dərmanların qiymətindən götürülüb. Bu, ümumiyyətlə, həmin seqmentin və həmin sənayenin sahib olacağı ədalətli marjadır. Bir çox və xeyli yüksək gəlirli ölkələrdə bu qiymətlər məqbuldursa - adambaşına düşən ÜDM (ümumi daxili məhsulun) xeyli yüksək olduğu və iqtisadi cəhətdən daha inkişaf etdiyi ölkələrdə, xüsusən də bizdə problem olmamalıdır.

Resurs: https://moh.gov.ge/ka/news/7315/#!

Gürcüstan Qanunu – "Qanunvericilik carçısı" "Dərman və əczaçılıq fəaliyyəti haqqında" Gürcüstan qanununda dəyişikliklərin edilməsi haqqında „https://matsne.gov.ge/ka/document/view/5629060?publication=0 Maddə 2. və Maddə 37-nin bəndlərinə daxil edilən dəyişikliklər

**Ekspert 1:** "Yeniliyin mahiyyəti ondan ibarətdir ki, əczaçılıq məhsullarının dövriyyəsi sahəsində dövlət siyasəti dəyişib və bu gün əczaçılıq məhsullarının dövriyyəsi sahəsində Gürcüstan bazarında dövlət siyasəti effektiv, təhlükəsiz və keyfiyyətli dərman vasitələrinin mövcudluğunu nəzərdə tutursa, təklif olunan dəyişikliklərlə - dövlət siyasəti əczaçılıq məhsullarının dövriyyəsi sahəsində keyfiyyətli, təhlükəsiz və effektiv əczaçılıq **məhsullarına əlçatanlığın təmin edilməsini** nəzərdə tutur".

**Ekspert 2:** Bəzi ölkələrdə (Moldova, Azərbaycan) bütün dərmanlara referent qiymətləri tətbiq olundu, problemlər yarandı. Şirkətlərə dərmanları ucuz qiymətə satmaq əl vermirdi.
Dövlət xroniki xəstəliyi olan insanların bir qismi üçün dərman alarsa (subsidiya edərsə), proqrama daxil olmayan qalanlarına isə dərmana referent qiyməti təklif edərsə, şirkət hələ də dərmanı idxal etmək motivasiyasını saxlayacaq.

Video resurs Referent qiymətləri bazarda nəyi dəyişəcək - video süjet
**https://bm.ge/ka/video/ras-shecvlis-referentuli-fasebi-bazarze/35596/**

**Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən çıxarışlar**

**Maddə 1**
Bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlar heç bir fərq qoyulmadan bütün şəxslərə verilir. İrqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlakından, rütbəsi və ya digər statusundan asılı olmayaraq. Bundan başqa, ölkənin və ya ərazinin siyasi yurisdiksiyası ilə bağlı heç bir ayrı-seçkiliyə yol verilmir ki, bu ərazi necədir - müstəqil, himayə altında, özünüidarə etməyən və ya başqa şəkildə suverenliyində məhdud.

**Maddə 11.1.**
Cinayət törətməkdə ittiham edilən hər bir insan, ona bütün müdafiə imkanları təmin edilməklə, açıq məhkəmə araşdırması yolu ilə onun günahkar olduğu qanuni qaydada müəyyən edilməyənə qədər günahsız hesab edilmək hüququna malikdir.

Maddə 25.1.

Hər bir insan, qida, geyim, mənzil, tibbi qulluq və zəruri sosial xidmətlər də daxil olmaqla, onun özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququna və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi halda təminat hüququna malikdir.

**Maddə 29. 1.**

Hər bir insan elə bir cəmiyyət qarşısında məsuliyyət daşıyır ki, onun şəxsiyyətinin azad və tam inkişafı yalnız o cəmiyyətdə mümkündür.

**Maddə 29.2.**

Hər bir insan öz hüquq və azadlıqlarını həyata keçirərkən, yalnız o məhdudiyyətlərə məruz qala bilər ki, onlar müstəsna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımı qaydada tanınması və onlara hörmət edilməsinin təmin edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmişdir.

## Əlavə 3.

**“Penovani” sosial müəssisəsinin hesablanmış və hesablanmamış nəticələri**

“Penovani” sosial müəssisəsində artıq 12 qadın işlə təmin olunub. Hazırda onları iş birləşdirir. Əvvəllər bir-birlərini tanımasalar da, hamısının məişət zorakılığının qurbanı olması kimi ortaq cəhətləri var idi. Onların hekayələri fərqli olsa da, yenə də bir-birinə bənzəyir: ailə qurmaq, qırılan ümidlər, zorakılıq, kömək axtarışının əbəs cəhdləri, yenə zorakılıq, artıq dözülməz... Sonda, zorakılıq qurbanları üçün sığınacağa düşmək, reabilitasiya prosesi və ispan aşpazından çörəkçi peşəsini öyrənmək, işə başlamaq, şəxsi gəlir götürmək, özünə inamın oyanması, ümidlərin canlanması.

İllərdir zorakılıq mövzusu üzərində çalışan qeyri-hökumət təşkilatı bu sosial problemi və onun səbəblərini yaxşı bilirdi. Bir çox hallarda (onların halında belə idi) məişət zorakılığının qurbanları erkən ailə qurduqlarına görə təhsil almamış, heç bir peşəsi, iş təcrübəsi olmayan, ətraflarındakı “səbr et”, “ailəni dağtma” kimi “məsləhət” verən qadınlar olur.
Qeyri-hökumət təşkilatının liderləri bir daha hər şeyi təhlil etdilər, saydılar, hesabladılar, investorları seçdilər, axtardılar. Onlar yeni heç nə kəşf etmədilər: bu qadınların əksəriyyəti üçün zorakılıqdan xilas olmaq üçün əsas maneə təhsilin, peşənin olmaması, ərindən iqtisadi asılılıq, gedəcək yerin olmaması, ictimai stereotiplər idi.
İlk öncə, bu qadınlar öz imkanlarına yenidən inanmalı idilər. Onlar yenidən yaşamağı öyrənməli idilər. Sosial müəssisə fəaliyyətə başlamazdan öncə aşpaz dəvət olundu, qat-qat xəmirin hazırlanması, içliklərin hazırlanması, qənnadı məmulatlarının hazırlanması və s. kimi bir neçə konkret istiqamət üzrə treninqlərdən keçdilər. Eyni zamanda sosial müəssisənin rəhbərləri müəssisənin tam və qaydalara əməl etməklə, təmin edilməsinin qayğısına qalırdılar. Onlar lazımi avadanlıq və inventar almaq, xammal mənbəyi tapmaq üçün bir neçə investisiya mənbəyi tapmalı idilər. Dövlət də kömək etdi - yer uzunmüddətli icarəyə verildi. Bəzi ticarət obyekti qiymətləri endirdi, bəziləri sıfır hissə-hissə krediti imzaladı, xammalı da güzəştli şərtlərlə sosial sahibkarlardan tapa bildilər. Bir çox investorlarla kar divar kimi qarşılaşsalar da, yenə də qorxmadılar, işə başladılar.
Bu gün sifarişin ardınca sifariş gəlir, müxtəlif tədbirlər (təlimlər, görüşlər, konfranslar...) üçün məhsullar hazırlayır, yaxınlıqda açılmış mağazada adi müştərilərə də satırlar. Məhsullar bəyənilir, qiymətlər nisbətən münasibdir, məhsullar vizual olaraq cəlbedici görünür: xaçapuri, lobiani, toyuqdan, mal ətindən, göbələkdən, kartofdan hazırlanmış qutablar, şirniyyatlar. Ekoloji qablaşdırma materialı, rahat nimçələr və lövhələr, yerində çatdırma, furşet masasının təşkili və bəzədilməsi ilə rahat xidmət. Bir sözlə, hər şey yaxşı alındı. Peşəkar bacarıqlarını hər gün daha da inkişaf etdirirlər.

İşi bölüşdürüblər, lazım gəldiyi halda, bir-birini əvəz edirlər.

**- İşiniz haqqında nə deyə bilərsiniz, bəyənirsinizmi? Sizi qane edirmi?**
– Həmkarlarının "baş aşpaz" adlandırdıqları Ekadan soruşuruq.

- Xoşuma gəlirmi? Bu, mənim üçün sadəcə bir iş deyil, canlandığım, özümü tam hüquqlu bir insan kimi hiss etdiyim yerdir. Bir il öncə tamamilə qərq olmuş, bədbəxt bir insan idim, uşaqlarım olmasaydı, hətta yaşamaq istəmirdim, çünki nə edəcəyimi bilmirdim, dözülməz vəziyyətə dayana bilmirdim və getməyə də yerim yox idi, heç vaxt işləməmişəm də, ixtisasım yox idi, 16 yaşımda ailə qurmuşam. Sonra - uşaqlar... Bu gün bilirəm ki, övladlarımın sığınacağı var, kirayə olsa da, orada onları heç kim incitməyəcək, uşaq bağçasına gedirlər, işim var, maaşım var. Vəkilim var və mənzilin bölünməsi və alimentlə bağlı məhkəmənin bitməsini gözləyirəm. Gələcək planlarım var... Burada hamımız ümidləndik, həm də bir-birimizə kömək edirik, təsəlli veririk. Növbəti sualı sosial müəssisənin rəhbəri Meri xanıma veririk: **- Müəssisəniz haqqında nə deyə bilərsiniz, nə dərəcədə özünü doğrultdu?**
- Özünü doğrultdu deyərkən, nəyi nəzərdə tutduğunuzu bilmirəm, buna görə də bir az geniş izah edəcəyəm. Sosial müəssisəmizin əsas missiyası zorakılığa məruz qalmış qadınların sosiallaşması, onların təhsili və işlə təmin olunmasıdır. Təbii ki, kommersiya tərəfindən işlərin yaxşı getdiyinə sevinirik, sifarişlərimiz var, bu da ictimaiyyət, qeyri-hökumət sektoru tərəfindən bir növ dəstəkdir, bizim xidmətlərimizdən istifadə etməyə çalışırlar. Mənfəətin böyük bir hissəsi ilə parnik düzəltdik, benefisiarlarımızı orada da işlə təmin edirik. Qrupumuz tərəfindən bu sosial müəssisənin yaradılması çox cəsarətli bir addım idi, çünki bizim qeyri-hökumət təşkilatında çoxlu iş təcrübəmiz olsa da, sahibkarlıq sahəsində heç bir təcrübəmiz yox idi. Amma cəsarət etdik, bundan əvvəl həm Gürcüstanda, həm də Avropada bu fəaliyyət növü ilə bağlı çoxlu təlimlər keçdik. Cəsarət etdik, çünki bu qadınlar üçün peşənin və işin həyati vacib olduğunu açıq-aydın görürdük. Bizim üçün əsas mənfəət deyil, bizim üçün əsas odur ki, zorakılıq qurbanlarının vəziyyətini bir az da olsa yüngülləşdirək, onları işsizliyə, yoxsulluğa qurban verməyək. Qadınlar həyata yeni gözlə baxacaq, öz qüvvələrinə inanacaqlar.
**- Mənfəətsiz necə fəaliyyət göstərəcəksiniz, necə davam edəcəksiniz?**

- Sosial sahibkarlığa gələndə bunun adi biznes olmadığını bilməlisən və sən də (sahibkarı nəzərdə tuturam) bazarın qaydalarına tam əməl edə bilməzsən. Eləcə də biznes nöqteyi-nəzərdən məğlub ola biləcəyinə hazır olmalısan, amma artıq bir imdad planı olmalıdır - ayağa qalxmaq üçün resursları harada və necə tapacaqsan. Sən şəxsi mənfəət əldə etməyə deyil, sosial problemlə mübarizə aparmağa yönəlməlisən. Sosial problemin arxasında isə ağır hekayələri olan, güclə ümidlərini canlandıran bu insanlar durur. Buna görə də, gücünü toplamalı, dərindən nəfəs almalı və hər şeyi başdan yoluna qoymalısan. Yalnız sahibkar olduğunda və qazanc əldə etməyi gözlədiyin halda, hər hansı bir problemin baş qaldırdığında, davam etmək və ya başını buraxmaq sənin ixtiyarındadır... Bizdə isə, burada, fərqlidir...

**- Nəticələrinizi necə dəyərləndirərdiniz?**
- Sosial müəssisənin nəticələri çətin sayılandır, çünki təkcə pul və ya kəmiyyətlə, bir sözlə, rəqəmlərlə ölçülmür. Sosial problemlər o qədər çoxşaxəlidir ki, onları ölçmək çətindir. Gəlin baxaq, buna qədər hər gecə yataqda ata-anasının davasına qulaq asmaq məcburiyyətində qalan və ya çölə atılan və titrəyən uşaq üçün rahat keçirilən gecənin nə qədər dəyərli olduğunu kim hesablaya bilər?! Yaxud bu qadınların fikirlərində oyanan ümidlərin, istehlakçının minnətdarlığını bildirən təbəssümün qiyməti neçədir?!

Bunu hesablamaq mümkün deyil və məhz bu, sosial sahibkarlığın xüsusiyyəti və stimuludur – dəf edilən, azalan sosial problemlər. Biznesin nəticələrini hesablamaq olar, mənfəət ölçülür, amma bəzən fikirləşəndə və yadına salanda ki, haradasa bir uşaq dinc yuxunun, bir tikə çörəyin həsrətindədir, bu halda astronomik rəqəmlər öz mənasını itirir... Düşünürəm ki, gələcək məhz sosial sahibkarlığındır.

## Əlavə 4.

**Biznesin davamlılığı anlayışında dəyişikliklər***

Mebel şirkəti IKEA (İsveç mebeli, mətbəx  və müxtəlif ev aksesuarları üzrə çoxmillətli şirkət və 2008-ci ildən mebel ticarəti bazarında lider), "Zibilliyə sıfır tullantı" yanaşması ilə məşhurdur. Şirkət hesab edir ki, maliyyə səmərəliliyinə **dairəvi iqtisadiyyat** modelinin tətbiqi və istifadəsi ilə nail olmaq olar. Sözügedən model şirkətin kommersiya imkanını artırır və ən əsası, onu davamlı edir. IKEA mebelinin hazırlanması üçün lazımi oduncağın demək olar ki, 50%-i davamlı meşələrdən əldə edilir və istifadə etdikləri pambığın 100%-i daha az su, enerji və kimyəvi pestisidlərdən istifadə edən fermalarda istehsal olunur. İsveç şirkəti mağazalarını enerji ilə təmin edən 700 000-dən çox günəş panelinə sahibdir.

2012-ci ildə IKEA dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq, birgə səylərlə mühüm dəyişiklikləri həyata keçirmək məqsədi daşıyan "Pozitiv xalq və planet" adlı strategiyanı işə saldı.

Şirkət anlayır ki, planetin vəziyyəti buna imkan verməsə, istənilən biznesin uzunmüddətli məqsədlərini həyata keçirmək mümkün olmayacaq. IKEA istifadəçiləri davamlı yaşamağa çağırır və onlara bu prosesdə kömək edir. 2012-ci ildə paylaşılan strategiyanın məqsədlərindən biri də cəmiyyət üçün daha yaxşı həyat yaratmaqdır. Ancaq bu kiçik addımlar, IKEA kimi nəhəng bir korporasiya üçün kifayət deyil.

Şirkət karbon izlərini azaltmağa çalışsa da, görülən tədbirlər iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün kifayət etmir.
Belə nəticəyə gəlmək olar ki, **gələcək ekoloji və sosial prinsiplərə uyğun olaraq maksimum mənfəət həddini planlaşdıracaq biznesə** aiddir.

Biznesin davamlılığı konsepsiyası zamanla dəyişikliyə uğrayırdı və indi də bu proses davam edir. Hələ davamlı inkişaf məsələsi aktivləşməmişdən öncə, sahə üzrə tədqiqatçı və alim Piter Druker 19-cu əsrin iki uğurlu Amerika sahibkarı Endryu Karneqi və Culius Rozenvardın timsalında xeyriyyəçilik və korporativ məsuliyyəti müzakirə edirdi:
**Endryu Karneqi** həyatının son illərində öz əmlakının çox hissəsini xeyriyyəyə yatırıb. Onun adı ilə Amerikada 3000-ə qədər ictimai kitabxananın, eləcə də, 7000-ə qədər kilsənin əsasını qoyub, Nyu-Yorkda Karneqi-Holis və Pitsburqda Karneqi Meloni Universitetini inşa edib.

“Siz firavanlıq üçün çalışmalısınız ki, bu da sizə faydalı iş görməyə imkan verəcək". Yəni yaxşı bir iş görmək üçün, ilk növbədə, bunu etmək imkanınız olmalıdır, - Karneqi anlayışını belə müəyyən edirlər;

**Culius Rosenvard** Sears Roebuck-u ABŞ-da və dünyada ən böyük mağazalar şəbəkəsinə çevirə bildi. Onun məqsədi amerikalı fermerlərin bacarıqlarını və məhsuldarlığını artırmaq idi ki, bu da sonradan dolayı yolla Sears-ın iqtisadi uğurlarının əsası oldu.

“Siz faydalı işlə məşğul olmalısınız ki, bu da sizə firavanlıq gətirəcək.” – Rosenvardın yanaşması belə görünür;

**Drukerin** fikrincə, kəskin sosial problemlərlə effektiv mübarizə aparmaq üçün Rosenvaldsayağı yanaşma lazımdır. Yalnız hökumətin və cəmiyyətin bunun öhdəsindən gəlməyə gücü çatmayacaq, burada biznes resursları, bilik və təcrübə vacibdir. Şirkətin davamlı inkişafı və iqtisadi uğura doğru atılan addımların kombinasiyasına dəstək verəcək belə çərçivə şərtlər lazımdır. Bu, **davamlı menecmentin** inkişafından danışmağa imkan verir.

Davamlı menecmenti **ilkin mərhələdə** başa düşmək, iqtisadi, ekoloji və sosial imkan və riskləri idarə edərkən biznes üçün mənfəəti maksimuma çatdırmaq deməkdir.

Davamlı idarəetmənin başa düşülməsinin **ikinci mərhələsində** iqtisadi, ekoloji və sosial məqsədlər eyni dərəcədə vacib olur.

Sözügedən yanaşmanı **Con Elkinton** təklif etmişdir. Bu məqsədə çatmaq üçün biznes müxtəlif davamlı inkişaf strategiyaları və planları həyata keçirir. Eyni zamanda, bu modelin biznes proseslərinə artan inteqrativlik tendensiyası müşahidə olunur. Bu o deməkdir ki, şirkətdə davamlı inkişaf üzərində konkret mövqe və ya xidmət deyil, xidmətlərin hamısı və ya departament davamlı inkişafı öz məqsədlərinə inteqrasiya edir. Bununla belə, burada da məqsəd şirkətin ekoloji və sosial “mənfi izlərini” azaltmaqdır.

Bu gün getdikcə daha çox şirkət davamlı idarəetmənin onlar üçün vacib məsələyə çevrildiyini iddia etsə də, reallıqda qlobal səviyyədə edilənlə ediləcək işlər arasında fərq durmadan artır.

İqlim dəyişikliyi sübut edir ki, davamlı inkişafın mövcud formalarında problemlər var. Bu, həm də resurs istehlakının iqtisadi modelinin məhdudiyyətlərini açıq şəkildə göstərir. Resursdan istifadə nöqteyi-nəzərindən bu model yenə xətti təfəkkürə əsaslanır: “götür, düzəlt, at”. Dairəvi iqtisadiyyat modelinin başlanğıcını yalnız bir neçə məsələdə görmək olar. Eyni zamanda, böyük potensiala malik bərpa olunan enerji mənbələrinə keçid ləng gedir.

Hər il bütün insanların ehtiyaclarını davamlı şəkildə ödəmək üçün bizə demək olar ki, 2 planet, İsveçrənin əhali səviyyəsinə çatmaq üçün isə 3 planet lazımdır.

Əslində, bizə təkcə makroiqtisadi səviyyədə deyil, həm də biznes səviyyəsində yeni model, yeni perspektiv lazımdır. Çünki ekspertlərin qeyd etdiyi kimi, biz real biznesin davamlılığını istəyirik.

* Mənbə: https://bit.ly/3HVky7F

## Əlavə 5.

**Uinston Çörçil. II hissə, səh. 7-10**

Uinston Çörçil – strateq, siyasətçi, natiq, rəssam, yazıçı (Nobel mükafatı laureatı), idmançı – bütün bu "titullar" bir nəfərə məxsusdur. Amma onun ən böyük titulu yenə də xalqın xidmətçisidir. Ser Uinston bu "titulu" xüsusilə İkinci Dünya Müharibəsi zamanı nümayiş etdirdi. Birinci Dünya Müharibəsinin yaxınlaşdığını hiss edirdi və buna görə də təcili olaraq donanmanı modernləşdirdi (kömür yanacağından neftə keçdi) və nəticədə neft hasilatı da birə iki artdı; dəniz və hərbi hava qüvvələrini yaratdı, təyyarələri özü sınaqdan keçirdi və təyyarə qəzasından da salamat çıxdı.
Cənubi Afrika müharibəsinin əsir düşərgəsindən qaçdıqdan sonra vətənə qayıtdı və siyasətdə fəaliyyət göstərmək qərarına gəldi və 1915-1929-cu illərdə demək olar ki, bütün vacib nazir portfellərini tutdu. 1929-cu ildən, Konservatorlar Partiyasından ayrıldıqdan sonra, yazıçı və publisist kimi geniş şöhrət qazandı. Bu dövrdə o, tez-tez Hitler tərəfindən artan təhlükəyə və gözlənilən silahlı münaqişəyə diqqət yetirirdi ki, bu da özünü doğrultdu və dünya İkinci Dünya Müharibəsinin alovuna büründü.

Luftvaffe (Almaniya Hərbi Hava Qüvvələri) Britaniyanı amansızcasına bombalayanda, Çörçil hələ də xalqın yanında idi və mümkün qədər həmrəylik nümayiş etdirməyə, vətəndaşların yanında qalmağa və orada olmağı ilə onlara təsəlli verməyə çalışırdı.
Çörçil nasist Almaniyasına qarşı əməli tədbirlər görməyə çağırır və işğalçının siyasətini kəskin tənqid edirdi. Lakin onun antifaşist çağırışları cavabsız qalırdı.

1940-cı ildə Çörçil baş nazir oldu və müharibənin çətin illərində Britaniyaya başçılıq edirdi. O, əvvəlcədən uğursuzluğu mümkün variantlardan biri hesab etməkdən imtina etdi və nasistlərlə hər cür sövdələşməni kökündən istisna etdi. Bu barışmaz əhval ölkəsinin Hitlerə qarşı təkbaşına qaldığı bir vaxtda, Britaniya müqavimətində mühüm rol oynayan döyüş ruhu göstərdi.

1940-cı il mayın 10-da Çörçil hökumətin başçısı oldu. Mayın 13-də isə ictimaiyyətə müraciət etdi: "ölkə tarixin ən böyük mübarizəsinin ilkin mərhələsindədir və mən xalqa qan, əmək, göz yaşı və tərdən başqa heç nə vəd edə bilmərəm".

O, bu xidmətinə baxmayaraq, müharibədən sonra seçkidə məğlub oldu. Bununla belə, gələcək hadisələrin inkişafını düzgün proqnozlaşdırmaq qabiliyyətini itirməmiş və Fultondakı məşhur nitqində sovet kommunistlərinin gələcək təhlükəsindən geniş bəhs etmişdi. "Dəmir pərdə" ifadəsini ilk dəfə məhz orada işlədib. O, 1946-cı ildə Sürixdə məşhur nitqi ilə çıxış edərək, Avropa Birləşmiş Ştatlarının yaradılmasına çağırırdı.
Çörçil Avropaya inteqrasiyanı yeni dünya müharibəsinin qarşısını almaq mexanizmi kimi görür və bu yolda ilk addım kimi, Avropa Şurasının yaradılmasını müdafiə edirdi. Buna görə də 1948-ci ildə Avropanın Böyük Konqresinə Avropanın hər yerindən 800 nümayəndə toplaşanda, Çörçil tam layiqli fəxri prezident rütbəsində dəvət edilmişdi. Proses 1949-cu ilin mayın 5-də ilk iclasda Çörçilin şəxsən iştirak etdiyi Avropa Şurasının yaradılması

ilə başa çatdı. O, Şurada 1955-ci ildə Messina Konfransında razılaşdırılan və iki il sonra, 1957-ci ildə Roma Müqaviləsinin imzalanması ilə başa çatan gələcək inteqrasiya istiqamətində növbəti addımların atılmasına çağırış edirdi.

Çörçilin nəzər diapazonu tükənməz idi. Birləşmiş Avropa Ordusu və Strasburq İnsan Hüquqlarının Avropa Məhkəməsinin yaradılması ideyaları da bundan irəli gəlib. İlk dəfə bu fikir səsləndirildikdən düz on il sonra, 1959-cu ildə məhkəmə yaradıldı.

Avropa xalqlarının faşizmə qarşı mübarizəsini ruhlandıran siyasətçi, haqlı olaraq Avropanın birləşməsinin aparıcı qüvvəsi hesab olunur. Çörçil əzmkarlığı, unikal yanaşmaları və saysız-hesabsız xidmətləri sayəsində Avropaya inteqrasiyanın müdafiəsi uğrunda fəal mübarizənin simvoluna çevrildi.

**Uinston Çörçilin Milad müraciəti** (**1941-ci il**). Qəribə bir Milad bayramıdır. Demək olar ki, bütün dünya ölüm-dirim mübarizəsinə qoşulub və dövlətlər elmin bizə vermək istədiyi ən dəhşətli silahlarla bir-birini məhv edir. Nə başqalarının sərvətinə, torpaqlarına göz dikmək hərisliyinin, nə bayağı təkəbbürlərin, nə də başqalarının hesabına qazanc əldə etmək üçün natəmiz ehtirasın bizi döyüş meydanına soxmadığına sarsılmaz inamımız olmasaydı, bu Milad kədərli olardı. Burada, müharibənin, quruda və dənizdə tüğyan edən, amansızcasına evlərimizə və qəlblərimizə yürüş edən müharibənin ortasında, burada, bu qasırğanın ortasında, bu gecə hər bir ailədə, genişqəlbli xalqımızın ürəyində əmin-amanlıq hökm sürəcəkdir. Buna görə də, bu gecə bizə rahatlıq verməyən bütün qayğı və təşvişləri bir kənara qoyub, uşaqlarımıza fırtınalı dünyada xoşbəxtlik axşamı bəxş edə bilərik. Gəlin, biz böyüklər, tutqun dünya və qarşıda bizi gözləyən tikanlı illərlə qarşılaşmadan öncə, onların məsum sevinclərinə tam şərik olaq ki, bizim qayğımız və fədakarlığımız sayəsində, heç kim bu uşaqların irsini, azad və ləyaqətli dünyada yaşamaq hüquqlarını əlindən almasın!”

Müharibə zamanı Çörçil bütün çıxışlarında latın hərfi V (Victory - qələbə) jestindən istifadə edirdi. Bu jest orta əsrlərdən məlum olsa da, məhz Çörçilin sayəsində qələbə simvolu kimi bütün dünyaya yayıldı. Bu ilkin “V” jesti müharibədən sonra evə qayıdanda heç də qələbə demək deyildi. Bu jestlə sağ olduqlarını, işlərində əsas alət olan barmaqlarının bütöv olduğunu göstərirdilər.

## Əlavə 6.

**"Arxiv xəbərləri" N 2. 2008-ci il Gürcüstan Daxili İşlər Nazirliyinin Arxiv İdarəsi***

Ötən əsrin 20-30-cu illərində Mixail Cavaxişvili bütün Sovet İttifaqı miqyasında yeni sovet quruluşunu həm şəxsən, həm də yaradıcılıqla qəbul edə bilməyən ən görkəmli dissident yazıçılardan biri idi. O, buna cəhd etsə də, İqoeti Kommunası haqqında yazı belə yaza bilmədi. Yazdıqlarını cırıb dedi: "Nə edim, sifarişlə yaza bilmirəm".
Mixail Cavaxişvili üçün həbsxana və məhbusluq yad deyildi. Hətta çarın dövründə o, Metexi həbsxanasına salınmışdı. Sovet hökuməti də onu bu şərəfdən məhrum etmədi...
20-ci illərin yazıçısının ağır mənəvi əhval-ruhiyyəsi onun Davit Suliaşviliyə yazdığı məktubda yaxşı ifadə olunur: "Davit qardaş, mən burada yaşaya bilmirəm. Gürcüstandan getməyim ikinci dünyaya gəlişim olacaq. Bu işdə mənə kömək et, əvəzini istə və mənə xidmət et... Sizi inandırıram, David qardaş, kənarda daha çox və sərbəst yazacam, belə ki, Vətənimə az da olsa faydam olacaq. Buradakı xəbərlər?

Artıq heç bir qəzet oxumuram, hər yerdə adi alçaqlıq, dedi-qodu, ruh düşkünlüyü hökm sürür. Biz yorulmuşuq, əyilmişik. Budur ki, budur".
Mixail Cavaxişvilinin aqibətini artıq tale həll etmişdi. O, öküz kimi çox işləyir, Milli Demokrat Partiyasının rəhbərlərindən biri kimi görünməz siyasi həyat sürür. Yazıçı daha sonra deyir: "Mənim 1921-1923-cü illərdə Milli-Demokrat Partiyasında gizli işim üzməyi bacarmayan, amma başqalarına kömək etmək üçün körpüdən suya atılan adamın davranışı kimi idi. Bunu izah etmək mümkün deyil. Burada sirli bir güc çalışır, qardaşına kömək etmək alovu və bu eşq şüurdan yüz dəfə çox gücə malikdir".
**Konspirasiya** Mixail Cavaxişviliyə kömək edə bilmədi. "Çeka" (birinci sovet dövlət təhlükəsizlik xidməti) onu diqqətlə təqib edir və onun hər bir hərəkətini diqqətlə qeyd edirdi. O, 1923-cü ildə həbs olundu və ölümə məhkum edildi. O, bir qrup gürcü yazıçısının sayəsində bolşeviklərin gülləsindən sağ çıxa bildi. Pavle İnqoroğva və başqaları Serqo Orconikidzeyə müraciət edərək xahiş etdilər ki, Mixail Cavaxişvili istedadlı yazıçıdır və onu güllələməyin! Deyəsən, həmin gün Serqonun əhval-ruhiyyəsi yaxşı imiş, yazıçıya yazığı gəlir. Yoxsa bu həmin Serqodur ki, Vaja-Pşavelanın oğlu haqqında xahiş edəndə, - güllələməyin, bağışlayın, Vajanın oğludur, - deyiblər! Vajanın oğlu yox, Vaja-Pşavelanın özü sağ olsaydı, onu da güllələyərdik, cavabı belə olub.
Bu vaxt taleyüklü 30-cu illər gəlir. Mixail Cavaxişvili artıq "Cağonun sirləri", "Arsena Marabdeli" və digər şah əsərlərini nəşr etdirmişdi. Stalinin təşəbbüsü ilə yazıçı Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilib. Yazıçı bu mükafatı onun həyatını xilas etmək üçün zəmanət hesab edirdi, lakin partiya və dövlət xadimi olan Beriya (1899-1953-cü illər, gürcü və sovet siyasətçisi) belə düşünmürdü.
Bu dövrdə Lavrenti Beriyanın Metexidəki kilsənin sökülməsinə göstəriş verməsi gürcü cəmiyyətinin narahatlığına səbəb olmuşdu. Mixail Cavaxişvili də daxil olmaqla, bir qrup gürcü yazıçısı Beriyaya xahişlə gəlmişdi.
"Bizi görən kimi, qaşqabağını tökdü. O, bizə sərt şəkildə dedi: Deməli, nümayəndələr şəklində, birlikdə mənim yanıma gəlməli deyildiniz. Ayrı-ayrılıqda niyə gəlmədiniz?" - yazıçının qızı Ketevan Cavaxişvili atasının sözlərini xatırlayır.

Yazıçılar Beriyaya sübut etdilər ki, Metexi kilsəsi sökülə bilməz, çünki bu, orta əsrlər gürcü memarlığının nadir nümunəsi idi. Sonda Mixail Cavaxişvili də deyib: "Belə abidəni Avropada qızıl məntəqədə yerləşdirərdilər!"...
Beriya fərmanı dəyişdirsə də, onu cahil hesab edənləri unutmadı və sonradan nümayəndə heyətinin demək olar ki, bütün üzvlərini güllələdi.
Sən demə qəbuldan sonra evə qayıdan Mixail Cavaxişvilinin üzündə rəng yox imiş. Doğrudur, Metexi kilsəsi gürcü milləti üçün qorunub saxlansa da, həyatını təhlükəyə atmışdı. Heç nəyi unutmayan Beriyaya özünü pis xatırlatmışdı. Bu dəfə ona toxunmadılar, lakin Beriyanın tərəfdarları onun hər addımını izləyirdilər. Yazıçı ətrafındakı ölümcül çevrənin necə daraldığını və qısaldığını görürdü: yoldaşları və dostları tədricən həbs edilirdi. Artıq nə edəcəyini, hansı yolu tutacağını bilmirdi. Səhhəti də pozulmuşdu, dizləri ağrıyırdı, yerimək çətin idi, vaxt isə güllə kimi ağırlaşmışdı.
Gəlin Mixail Cavaxişvilinin dindirmə protokolları ilə tanış olmamışdan öncə, 1937-ci ildə siyasi məhbusların "danışdırılması" yollarına toxunaq. "Çeka" həbsxanası Dantenin parlaq şəkildə təsvir etdiyi cəhənnəmə bənzəyirdi, lakin ondan qat-qat pis idi, çünki Dantenin təsvir etdiyi cəhənnəmdə insanlar günahlarına görə əzab çəkir, "Çeka"-da isə günahsız insanlar işgəncə ilə öldürülür, törətmədikləri cinayətlərə imza atırdılar. "Mən bu cəhənnəmdən qəhrəman çıxdığını görmədim" - yazırdı Al. Yakovlev. O, Sovet İmperiyasının Repressiyaya Məruz Qalanların Reabilitasiyası Komissiyasının sədri idi, minlərlə haqsız yerə cəzalandırılan insanların işlərinə baxırdı.
1930-cu illərdə həştərxanlı Zaxar İvan oğlu Şaşurkin "Çeka" həbsxanasının cəlladı olub. Ya güllələmə əməliyyatlarına rəhbərlik edirdi, ya da məhbusları özü güllələyirdi. Eyni zamanda, əsirləri xüsusi qamçı ilə döyən, müxtəlif işgəncələr verən, milliyyətcə yunan olan Feoxora adlı bir şəxs var idi. Daha sonra, 40-cı illərdə güləş üzrə dünya çempionu Arsen Mekokişvili və boks üzrə Sovet İttifaqı çempionu Navaxardov məhbuslara işgəncə veriblər.
Mixail Cavaxişvilini faşist təşkilatının rəhbəri kimi həbs etməzdən öncə, digər məhbuslar onun adını çəkmişdilər. "Şahidlərdən" biri, keçmiş sosial-federalist Levan Kokraşvili də çox əzab və işgəncələrdən sonra faşist mərkəzinin tərkibini adlandırmışdı: "Mixail Cavaxişvili (mərkəzin rəhbəri), Qiorqi (Zozo) Naneişvili, Aleksandr Axmeteli (rejissor), Tsintsadze (professor), Alyoşa Tsereteli (professor)".

1937-ci il avqustun 19-da işgəncəyə məruz qalan Mixail Cavaxişvili Kokraşvili ilə üz-üzə gəlir. Müstəntiq Mixaili aktiv antisovet inqilaba qarşı fəaliyyətdə ittiham edib və təqsirini etiraf etməyi tələb edir. Mixail Cavaxişvili bu ittihama belə cavab verir: "Mən əks təşkilatda olmamışam. Amma bəzi şəxslərlə söhbət zamanı söylədiyim xüsusi fikir əksinqilabi xarakterli olub!"

Bu cavab həqiqət idi, çünki Mixail Cavaxişvili çox ehtiyatlı olmasına baxmayaraq, yenə də antisovet fikirlərini ifadə edirdi, amma yazıçının antisovet fikirləri "Çeka"nın əməkdaşlarını maraqlandırmırdı. Onlar bunu artıq çox gözəl bilirdilər. Məqsədləri Mixail Cavaxişvilini antisovet terror təşkilatının rəhbərliyində, faşist təşkilatında və kapitalist ölkələri ilə casusluq fəaliyyətində "ifşa etmək" idi...

Qarşıdurma zamanı işgəncələrdən zəifləmiş Kokraşvili Mixaili faşist təşkilatının rəhbəri kimi "ifşa" etdi.
"Gürcüstanın Ədəbiyyat Fondunun" direktor müavini Davit Tsereteli faşist təşkilatının digər üzvlərini "adlandırır". Təbii ki, bu "adlandırma" da ona sadist təsirin nəticəsində baş verib. Bu "faşistlər" idi: "Mixail Cavaxişvili, Konstantine Qamsaxurdiya, Qeronti Kikodze, İlo Mosaşvili, Konstantine

Çiçinadze, Koki Abaşidze, Nikolo Mitsişvili, Arçil Cacanaşvili, Pavle İngoroxva, Titsian Tabidze, Paolo İaşvili, Qoqla Leonidze, Davit Suliaşvili, Aleksandre Abaşeli, Mixail Pataridze, Levan Asatiani, Rajden Qvetadze, Şalva Demetradze, Akaki Qatsreliya, Tedo Saxokia, Apollon Tsuladze, Aleksandre Kutateli, Arçil Mikadze, İakinte Lisaşvili və özü, Davit Tsereteli".
Əslində, yazıçıların faşist əksinqilabi təşkilatı yox idi. "Çekistlər" yazıçıların Kvişxeti istirahət evində süfrə arxasında söhbətlərini faşist təşkilatının iclasları kimi qələmə verir və Davit Tsereteliyə də bunu söylədirdilər.
Bir sözlə, yazıçıların faşist təşkilatı təbiətdə mövcud olmayıb. O, ancaq çekistlərin qaranlıq beynində idi. İndi məni acı-acı güldürən Mixail Cavaxişvilinin terroru haqqında heç nə deməyəcəyəm. Bu cildləri oxuyursan və kimin işində Mixail Cavaxişvilinin adı çəkilməyib, yaxud Mixail Cavaxişviliyə kimlərin adlarını çəkdirməyiblər...

Onları sadalamaqla çox uzaqlara gedirik, amma bir şeyi qeyd edim ki, "Çeka"nın cəlladları Sandro Axmeteliyə fiziki əzab verərək, guya Mixail Cavaxişvili "Milli-faşist romanı "Arsena Marabdelini" əks-inqilabçı Kurilovun sifarişi ilə yazdığını" və bu kimi min bir cəfəngiyat söylətdirmişdilər.
Bir sözlə, "Çeka" Kvişxetinin süfrə söhbətlərini əksinqilabi silahlı, terrorçu, faşist və digər təhlükəli təşkilatların iclaslarına çevirmişdi.
Mixail Cavaxişvilinin işgəncələri "Çeka"-da metodik şəkildə davam edirdi. Mən burada böyük yazıçının insanlığa sığmayan işgəncələrini sadalamayacağam. "İfadə – etiraf" yazana qədər işgəncə verirdilər. Bu, indi artıq arxiv materialında yazıçı "cinayəti" boynuna almalı olur və özünü üç kapitalist ölkəsinin agenti elan etməyə məcbur edilir və casusluğa görə, 5000 manata qədər mükafat aldığı iddia edilir. 1954-cü ildə yazıçının ikinci müstəntiqi Mixail Natsvlişvili Mixail Cavaxişvilinin reabilitasiyası zamanı verdiyi ifadə bu "günahı boynuna alması"nın necə baş verdiyinə şahidlik edir. Kiçik bir parçanı təqdim edirik: "1937-ci ildə gürcü yazıçısı Mixail Saba oğlu Cavaxişvili həbs edilərək güllələndi. O, yeraltı antisovet fəaliyyətində ittiham olunurdu. Cavaxişvilinin ilk dindirilməsini Kobulov və şöbə müdiri Levan Konstantin oğlu Abaşidzenin iştirakı ilə Beriya təşkil etmişdi. Cavaxişvili antisovet fəaliyyəti haqqında öz əli ilə ifadə yazıb. Abaşidze mənə Cavaxişvilinin yazdığı ifadələri vermişdi ki, dindirmə protokoluna yaza bilim. Mən Cavaxişvilinin yazılı ifadəsi ilə tanış oldum və onun ifadəsində reallığa uyğun gəlməyən faktlar olduğu üçün ifadənin doğruluğuna şübhə etdim. Sonra Cavaxişvilinin dindirilməsində iştirak edən Abaşidzeyə müraciət etdim və ondan məsələnin nə olduğunu soruşdum. Abaşidze bir neçə əməkdaşın yanında mənə cavab verdi, indi onlardan yalnız idarə rəisi Ayvazov yadımdadır: "Əgər belə döyülsəydim, Siam casusu olduğumu etiraf edərdim" və əlavə etdi: "Olduğu kimi yazın!"
Mixail Cavaxişvilinin işi üzrə "axtarış" 1937-ci il sentyabrın 19-da başa çatıb. Baxılmaq üçün belə adlanan "Troykaya" göndərilib. İttiham aktından kiçik bir parçanı sizə təqdim edirik: "Təqsirləndirilən Mix. Cavaxişvili istintaq materiallarına görə, silahlı üsyan hazırlayır və xarici dövlətlərin xeyrinə casusluq edir, ziyan yetirir, təxribat törədir və terror aktları hazırlayırdı, yəni Gürcüstan Cinayət Qanununun 58-8 və 58-11-ci maddələri ilə nəzərdə tutulan cinayətdə təqsirləndirilirdi. O, həmçinin 58-10 və 58-11-ci maddələr ilə də ittiham olunurdu".
Cinayət qanununun bu maddələrinin hər biri ən yüksək cəza tədbirini, edamı nəzərdə tuturdu.

Mixail Cavaxişvili 1937-ci ilin sentyabrın 30-da güllələndi. Məhz həmin gün Yazıçılar Birliyində toplantı təşkil olundu. Gürcü yazıçıları əks-inqilabçı Mixail Cavaxişvilini pisləyib, onun fiziki məhvini tələb edirdilər. Lavrenti Beriyanın belə istədiyi üçün tələb edirdilər!

P.S. Mixail Cavaxişvili haqqında 9997 saylı (arx. №34) cinayət işinin materialları 1930-cu illərdə digər ictimai xadimlərin işləri ilə birlikdə, ötən əsrin 90-cı illərində keçmiş Təhlükəsizlik Nazirliyinin arxivindən naməlum hallarda itirilib. Yazıçının nəslinin arxivində maşında çap olunmuş yalnız bir neçə sənəd qorunub saxlanılıb. Yuxarıda qeyd edilən məqalə məhz bu sənədli material əsasında hazırlanıb.

**Əlavə 7.**

**İngiltərənin “Quardian” qəzetində 2022-ci ildə dərc olunan məqalə**

“Mikro istehlakçılar” haqqında düşünmək, məsələn, plastik qəhvə stəkanlarından imtina etmək əvəzinə, acgözlük və xəsisliklə mübarizə aparmalı və həyat tərzimizi sadələşdirməliyik, əksinə deyil. İqlim dəyişikliyi və ya ekoloji fəlakət kimi qaçılmaz və ya xroniki təhlükə ilə qarşılaşdıqda, özümüzü qorumaq instinktimiz oyanmır. Biz özümüzü inandırırıq ki, ciddi bir şey yoxdur və ya heç nə baş vermir. Adi avtomobilləri sürətli “Jeep”-lərlə əvəz etdikdə və “vəziyyət ciddi olsaydı, kimsə bizi saxlayardı” deyib, bu çılğın istehlak axınında özümüzə təsəlli verəndə, təhlükəni ikiqat artırırıq.

Nə bilirik? Bilirik ki, həyatımız atmosfer, okean axınları, torpaq və planetin həyat şəbəkələri kimi mürəkkəb təbii sistemlərdən tamamilə asılıdır. Alimlər müəyyən ediblər ki, istənilən sistem qanunauyğunluq çərçivəsində fəaliyyət göstərir. Fərqi yoxdur, sistem bank şəbəkəsi, milli dövlət, tropik meşə və ya buz şelfi ola bilər; onun hərəkəti riyazi qanunlara tabedir. Normal şəraitdə sistem özünü tənzimləyir və tarazlığı saxlayır. Stressi də müəyyən dərəcədə yavaşıda bilir. Ancaq sonra, birdən, kəllə-mayallaq olur, dönüş nöqtəsini aşaraq, tez-tez dəyişməz olan yeni bir tarazlıq vəziyyətini tapır. Bu gün bəşəriyyət mövcud tarazlıq göstəricisinə söykənir. Bununla belə, dünyanın ən mühüm sistemlərinin işləməsi böhran həddinə çatır. Hətta biri sıradan çıxsa, çox güman ki, qalanlarını da arxasınca aparacaq və nəticədə, sistemli ekoloji kollaps kimi tanınan xaos şəlaləsi baş verəcək. Keçmişin kütləvi məhvi oxşar proseslərin nəticəsidir.

Gözlənilən ssenarilərdən biri belədir: Serrado adı ilə tanınan savanna qurşağı Braziliyanın mərkəzini əhatə edir. Onun bitki örtüyü şehin əmələ gəlməsindən asılıdır. Şeh dərin köklü ağaclardan əmələ gəlir və bu ağaclar da qrunt sularını sovurur və yarpaqlarından havaya buraxır. Son bir neçə ildə Serradonun geniş əraziləri kənd təsərrüfatı bitkiləri üçün - əsasən dünya toyuqlarını və donuzlarını bəsləyən soya paxlası üçün kəsilmişdir. Ağacların kökündən kəsilməsi nəticəsində hava quruyur. Bu isə o deməkdir ki, daha kiçik bitkilər ölür, bununla da su dövranı daha da azalır. Bəzi alimlərin bizi xəbərdar etdiyi qlobal istiləşmə ilə yanaşı, bu qüsurlu dairə tezliklə və gözlənilmədən bütün sistemi səhralaşdıra bilər.

Serrado həm də Amazon hövzəsinə birləşən çaylar daxil olmaqla, Cənubi Amerikanın ən böyük çaylarının mənbəyidir. Çay sularının azaldılması tropik meşələrin uğradığı stressi artıracaq. Meşələrin qırılması, yanğınlar, istilik meşələr üçün ölümcül kombinasiyadır və onlar sistemli kollaps təhlükəsi ilə üzləşirlər. Serrado və tropik meşələr yağıntıları yer üzündə paylayan və hava və okean axınlarının hərəkəti nəticəsində yaranan qlobal dövriyyəyə şərait yaradan rütubətli hava axınlarını – “səma çayını” yaradır.

Bir sistemin öyrənilməsi nə qədər çətin olsa da, onun dönüş nöqtəsinə yaxınlaşıb-yaxınmadığını həmişə demək olar. Sistemin hissələri sayrışmağa başlayır və sistem böhran həddinə nə qədər yaxın olarsa, sayrışmalar da bir o qədər güclü olar. Bu il gördüklərimiz, Yer kürəsinin

həyat sistemlərinin dağılmağa başladığı bir vaxtda böyük qlobal sayrışmadır. Şimali Amerika sahillərində isti hava kütlələri; Sibir və Aralıq dənizi ətrafında kütləvi yanğınlar; Almaniya, Belçika, Çin, Syerra-Leonedə ölümcül daşqınlar - bunlar iqlimin bizə göndərdiyi həyəcan siqnallarıdır.
Düşünə bilərsiniz ki, ağıllı varlıqlar bu siqnallara tez və qətiyyətlə reaksiya verəcək və təbiətə münasibətini kökündən dəyişdirəcəklər. Amma biz belə davranmırıq! Bir vaxtlar bizə çox yaxşı xidmət edən, bizi bu qədər uğurlu edən yüksək intellektimiz, yüksək inkişaf etmiş şüurumuz bu gün əleyhimizə işləyir.
Media davamlılığı öyrənən şirkətin (Albert) təhlilində oxuyuruq ki, 2020-ci ildə Böyük Britaniyanın televiziya proqramlarında “tort” sözü “iqlim dəyişikliyi” ilə müqayisədə on dəfə, “Şotlandiya yumurtası” “bioloji müxtəliflik”dən iki dəfə çox işlənilib.
Etiraf edirəm ki, media cəmiyyət deyil və telekanallar banan çörəyinin təbliğində maraqlıdırlar. Biz jurnalistlərin tortu iqlimdən nə qədər üstün tutduqlarını müzakirə edə bilərik. Amma hesab edirəm ki, bu “tort” və “iqlim” nisbəti sistemli ekoloji fəlakətdən qaçmaqda əldə etdiyimiz “tərəqqini” çox aydın şəkildə göstərir. Gözlənilən qlobal fəlakətin bizim üçün aktual olmadığı göz qabağındadır. İstənilən vaxt istənilən radio stansiyasına qoşulun və özünüz əmin olacaqsınız.

Bütün dünyada meşə yanğınları baş verərkən, sellər avtomobilləri küçələrdən yuyub apararkən, əkinlər quruyarkən, siz oturaq vəziyyətdə və ya ayaq üstə corab geyinməyin, yaxud itlər üçün kolbasanı hansı taxta üzərində kəsməyin daha yaxşı olması barədə mübahisələr eşidirsiniz. Bu misalları mən uydurmuram, iqlim fəlakəti günlərində müxtəlif radio dalğalarında öz qulaqlarımla eşitmişəm. Məndə belə təəssürat yaranır ki, hətta o dəqiqələrdə asteroid Yerə doğru gedirsə və biz radionu açsaq, oradan eşidəcəyik: “Beləliklə, günün ən qaynar mövzusu, - kabab yeyərkən başınıza gələn gülməli əhvalatı danışın!”. İnsanlıq bu zarafat və laqeydliklə bitir.

Görünməmiş böhran vəziyyətində biz boş cəfəngiyyatları üstün tuturuq. Başqa bir mövzu haqqında danışmaq sosial cəhətdən qeyri-mümkün olur. Mən demirəm ki, biz yalnız yaxınlaşan fəlakəti düşünməliyik. Mən zarafatın əleyhinə deyiləm. Ancaq təkcə əyləncə mümkün deyil. Bu ölümcül qeyri-ciddilik təkcə musiqi və əyləncə kanalları ilə məhdudlaşmır. Siyasi “xəbərlərin” əksəriyyəti sizə dedi-qodudan xəbər verir: kim haradadır, kim nə deyib. Onlar bütün bunların arxasında duran şeylər haqqında danışmaqdan çəkinirlər: qara pul, korrupsiya, hökumətin demokratiyadan yayınması, gözlənilən ekoloji kollaps.
Əminəm ki, bu, qəsdən edilmir. Bu, şüurlu hərəkətlərimizdən daha çox haqqımızda bizə məlumat verən şüuraltı əksdir.

Su həşəratlarının torqanadlı növləri var ki, onların həyatı çayın üst pərdəsinin pozulmasından asılıdır. Dişi həşərat bu səthi pozur, yarığa daxil olur (belə kiçik və kövrək bir məxluq üçün qəhrəmanlığa bərabərdir), suyun dərinliyinə enir və yumurtalarını çayın dibinə qoyur. Səthi poza bilməsə, həyat dövrünü bağlaya bilməyəcək, buna görə də nəsli ilə birlikdə öləcək.

İnsan tarixi də oxşardır. Əgər biz bu sonsuz əyləncənin səthini pozmasaq və vacib olanı araşdırmasaq, uşaqlarımızı və bəlkə də bioloji növlərimizi belə xilas edə bilmərik. Ancaq görünür ki, biz bu səthi pozmaq niyyətində deyilik və ya bunu etmək istəmirik. Mən bu qəribə vəziyyətimizi "səthi həyəcan", yaxınlaşan böhran haqqında bilik və bu bilikdən ayrılan yöndəmsizlik arasında aralıq adlandırardım.

Həyatı təmin edən sistemlərimizin xilası üçün mübarizə apardığımızı iddia edərkən belə, səthi həyəcan hökm sürür. Biz mikro-istehlakçı cəfəngiyatına diqqət yetiririk: bizi fəlakətə sürükləyən nəhəng struktur qüvvələrin əvəzinə plastik şirə çubuqlarına və qəhvə stəkanları kimi xırda məsələlərə. Biz polietilen torbalarla mübarizə ilə məşğuluq. Bəzi hesablamalara görə, üzvi pambıq torbaların istehsalının iqlimə zərərli təsirinin 20 000 polietilen torbanın istehsalından daha çox olduğunu söyləməsinə baxmayaraq, biz sellofan torbaları pambıq torbalarla əvəz etdikdə, dünyanın böyük fayda əldə etdiyinə inanırıq.

Quyruğuna qulaq təmizləyən çubuq yapışmış dəniz atını görəndə haqlı olaraq qəzəblənirik, lakin balıqçılıq sənayesinin bütün dəniz ekosistemlərini məhv etməsi bizi maraqlandırmır.

Yer üzündə hər bir insanın şəxsi firavanlığını qurmaq üçün kifayət qədər ekoloji və fiziki məkan olmadığı üçün, onların hər birini ictimai dəbdəbə ilə təmin etmək kifayətdir: əla parklar, xəstəxanalar, hovuzlar, rəsm qalereyaları, tennis kortu və nəqliyyat sistemləri, uşaq meydançaları və ictimai mərkəzlərlə. Hər birimiz kifayət qədər təmin olunmalı və qanadlarımızı açmaq istəyiriksə, digər insanların əlindən resursları almadan bunu bacarmalıyıq. Əgər itaət etməkdən imtina etsək, xilas olarıq. Bunu XIX əsrdə demokratiya uğrunda döyüşçülər, suffrajistlər, Mahatma Qandi, Martin Lüter Kinq bilirdilər. Sistemli dəyişikliklər tələb edən ekoloji etirazçılar da bu təməli həqiqəti dərk edilər. Sistemli ekoloji kollapsın qarşı kampaniyalarda itaət etmək istəməyən insanları, əksər hallarda gəncləri görürük. Onlar tarixin ən mühüm dərsini öyrəniblər. Sağ qalmağımız etiraz və müqavimətimizdədir.

**Əlavə 8.**

Tarix boyu Gürcüstan şəhərlərinin çoxlu yaxşı və diqqətəlayiq hakimləri olub, lakin onların arasında tamamilə xüsusi yeri gürcü ictimai xadimi və siyasətçisi, publisist, "Terqdaleulilərin" nümayəndəsi, 1894-1912-ci illərdə Poti şəhərinin başçısı olmuş Niko Nikoladze tutur.

Poti Gürcüstanın ən qədim liman şəhərlərindən biridir. XIX əsrdə, Çar Rusiyası dövründə, Poti Tbilisi və Batumidən sonra özünüidarəedən üçüncü şəhər idi, yəni şəhərin idarə edilməsi, büdcənin idarə edilməsi və qərarların qəbulu şəhər hakimiyyətinə həvalə edilmişdi. Belə bir vəziyyətdə şəhərin başına Yakob Nikoladze gəlir və tezliklə bataqlıq, palçıqlı, abad olmayan qəsəbəni Avropa qitəsinin inkişaf etmiş liman şəhərinə çevirir.

Niko Nikoladze ölkədə geniş yerli özünüidarəetmənin təmin edilməsini dövlətin əsaslı təşkili üçün əsas şərtlərdən biri hesab edirdi. O, gürcü xadimləri arasında Avropa özünüidarəetməsinin qiymətini yaxşı bilən ilk şəxs idi və hələ 1870-ci illərin əvvəllərində ictimailiyin qəbul edilməsi zəruriliyini təbliğ edirdi. Təəssüf ki, o zaman gürcü xadimləri onu dəstəkləmədilər.

Halbuki real muxtariyyət əldə etmək üçün özünüidarəetmə əsas vasitədir. Nikoladze bu termini uyğun şəkildə maskalayır və elmdə qəbul edilmiş termini "geniş yerli özünüidarəetmə" adlandırırdı. Onun birbaşa təşəbbüsü ilə Tbilisi şəhərinin **xmosaniləri** (bunların arasında ermənilər çoxluq təşkil edirdi) tərəfindən Dimitri Xipiani Tbilisi şəhərinin başçısı seçildi, Kutaisi şəhərində özünüidarəetmə qəbul edildi, özü isə Potini özünüidarəetmənin klassik şəhərinə çevirdi.

Niko Nikoladze seçki senzinin ləğvini və bütün sakinlərin (kişi, qadın) özünüidarəetmədə və seçkilərdə iştirakını qəti şəkildə tələb edirdi. Nikoladze toplantını kütlələrin maarifləndirilməsi məktəbi, dövlət idarəçiliyinin ən ağlabatan formasını isə – xalqın təmsilçiliyi prinsipləri əsasında qurulan özünüidarəetmə hesab edirdi:

Niko Nikoladze təsdiq edirdi ki, yerli idarəetməyə kadrlar hazırlayarkən inkişaf etmiş, təcrübəli və nəzakətli insanlar seçilməlidir ki, sonuncular yerli əhali arasında dəstək və rəğbət qazana bilsin. Nikoladze 1874-cü ildə Tbilisi şəhər idarəetməsi nizamnaməsi ilə eyni şəkildə məhdudlaşdırılan şuradakı bütün işlərin şəhər özünüidarəetməsinə şamil edilməsinə dair ideyanı irəli sürənlər arasında birinci olub. Məsələn, özünüidarəetmənin səlahiyyətlərinə səhiyyə, təhsil və digər məsələlər daxil deyildi.
O yazırdı: - "özünüidarəetmə və demokratik sistem tərəqqi və uğurun ən yaxşı təminatı, cəmiyyətin tərbiyəsi üçün ən yaxşı məktəbdir... Həqiqi özünüidarəetmə, bütün savadlı insanlar əmin oldular ki, yalnız təmsilçilik qaydası ilə mümkün ola bilər, çünki yalnız bu qaydanın köməyi ilə ədalət və azadlıq, bərabərlik və həqiqət bərqərar oldu... Hər kəs başa düşür ki, təmsilçilik özünüidarəetmənin ikinci və ən yüksək pilləsidir... Hətta bu ölkələrdə də (İsveçrə və s.) xalqın fikrini söyləyən, xalqın işini idarə edən, xalqın taleyini həll edən yenə də xalq nümayəndəçiliyidir ki, bu da təkbaşına və nadir ağır hallarda, öz hökmünü xalqa göstərməmiş və bu hökmlə razı olub-olmadığını soruşmamış hökmü icra etmir".

Sonda Nikoladze belə qənaətə gəlir ki, "xalqın yekdil səssizliyindən, kar-korluğundan, köləliyindən çox ictimai işlərin idarə edilməsi daha yaxşıdır".

“Yer üzündə elə bir xalq tapılmaz ki, özünü idarə etməsin. Millətin əxlaqına, həyatına diqqət edin. Özünüidarəetmənin qəbulundan sonra və onun qəbulundan on il sonra: hər şeydə dəyişiklik və təkmilləşmə, yüksəliş və möhkəmlənmə hiss edəcəksiniz, nəinki ictimai işlər güc əldə edir, eləcə də özünüidarəetmə fərdi üzvlərə, onların nəzakətinə və əxlaqına işıq, yəni azadlıq işığı saçır” (Nikoladze, 1894-cü il).

“Poti Şəhər Şurasını tanıyan hər kəs yaxşı bilir ki, mən heç bir məmura işə hansısa partiyanın, etimadın və ya milli meylini gizlicə gətirməsinə icazə vermirəm. Mən hər kəsdən ancaq şəhərin xeyrinə sədaqətli xidmət istəyirəm” (Nikoladze, 20/1).

N. Nikoladzenin zəngin əməli təcrübəsindən başqa mühüm məsələlərlə yanaşı, müasir idarəetmə sistemində də bu yanaşma nəzərə alınmalıdır.

Nikoladze yerli özünüidarəetmənin tətbiqini təkcə siyasi, iqtisadi və hüquqi nöqteyi-nəzərdən əsaslandırmaqla yanaşı, həm də onu əcdadlardan qalan adət-ənənələrin, mənəvi keyfiyyətlərin xilası vasitəsi hesab edirdi.

Niko Nikoladze şəhər əhalisi tərəfindən hər dəfəsində dörd il olmaqla ardıcıl beş dəfə seçilib. Niko Nikoladze, ilk növbədə, limanın tikintisinə və abadlaşdırılmasına dəstək verib. Liman şəhərə iqtisadi inkişaf gətirməli idi. O, ilk gömrük rüsumunu da qoydu, bu rüsum çox kiçik olsa da, sonda xeyli məbləğ toplanmışdı. Poti Gürcüstanda baş plan üzrə salınmış ilk şəhərlərdən biridir. Niko Nikoladze bu planı Parisdən götürüb.

Niko Nikoladze dünyanın müxtəlif yerlərindən gətirilən bitkilərin yetişdiyi nadir dendroloji park salmışdı. İndi də Poti həmin dövrdə əkilmiş evkalipt meşəsi ilə əhatə olunub, çünki bu bitkinin rütubəti çox yaxşı mənimsədiyi məlum olub. Drenaj kanalları qazılmış, səki daşları düzülmüş, ilk xəstəxana açılmış, teleqraf xətti çəkilmiş və s. 1908-ci ildə Potidə elektrik xətti çəkildi, liman və küçələr işıqlandırıldı, dövlət qurumlarının yerləşdiyi 20 əsas ev tikildi. Niko Nikoladze Potiyə əsl şəhər görkəmi verə bildi və onun inkişafı üçün yeni yollar açdı.

Nikoladze Poti şəhərinin özünüidarəetməsinin rəhbəri idi - 1894-cü ildə Poti Dördüncü Məclisinin üzvü və həmin ilin oktyabrın 25-də isə şəhər başçısı seçildi. Təlimatlara əsasən, funksional bölgüyə uyğun olaraq, şəhər başçısının öhdəliyinə daxil idi: ümumi rəhbərlik, vəzifəli şəxslərin fəaliyyətinə koordinasiya və nəzarət etmək, şura üzvləri arasında işlərin bölüşdürülməsi, iclasın qərarlarının icrasına nəzarət, qubernatorun tapşırıqlarının icrası, illik büdcənin hazırlanması. Şəhərin gəlir və əmlakından istifadəyə nəzarət, kadr seçimi və s.

1907-ci ildə çap olunmuş müraciətlərdən birində şəhər hökumətinin əldə edə bildiyi və gələcəkdə əldə edəcəyi nailiyyətlər sadalanırdı: limanın abadlaşdırılması, suaxıdıcı borular sisteminin quraşdırılması, elektrik işıqlandırması, telefon şəbəkəsi, qızlar və oğlanlar üçün gimnaziya binaları, atlar üçün dəmir yolu, məzarlığın salınması, xəstəxana və polis binalarının təşkili, yarımqəpikli qablaşdırma haqqı və s.

Gələcəkdə nəzərə almaq lazım idi: Rioninin kanal vasitəsilə limana birləşdirilməsi, dəmir yolu yüklərinə gömrük rüsumlarının tətbiqi, şəhərin ictimai bankının açılması, müəllimlər seminariyasının və institutunun yaradılması, bataqlıqların qurudulması və s.

Poti şəhərinin özünüidarəetməsi N. Nikoladzenin başçılığı altında 1912-ci ilə qədər məhsuldar işləyib. O, şəhərin aparıcı təşkilatçı qüvvəsinə çevrildi, Poti vətəndaşları Şura seçkilərinə böyük diqqət yetirirdilər. Hər seçki zamanı seçicilərin sayı az-çox dəyişirdi. Yalnız N. Nikoladze dəyişməz qalırdı. O, onilliklərlə Poti şəhərini idarə etmiş, Potinin irimiqyaslı işlərinin başında durmuşdu.